**AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI**
**ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

AZƏRBAYCAN TARİXİNƏ DAİR MƏNBƏLƏR

**XACƏ ZEYNALABİDİN ƏLİ ƏBDİ BƏY ŞİRAZİ**

# TƏKMİLƏTÜL-ƏXBAR

(Səfəvi dövrü - Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi)

BAKI - ELM -1996

Z. Tağıyev adına Taxıl Məhsulları Kombinatının baş direktoru Bəsrət Quliyev cənablarına kitabın nəşrinə göstərdiyi yardıma görə minnətdarlıq edirik.

**Elmi redaktoru:** Vaqif Piriyev

Fars dilindən tərcümə, müqəddimə və şərhlər Əbülfəz Haşım oğlu Rəhimlinindir

Xacə Zeynalabidin Əli Əbdi bəy. Təkmilətül-əxbar (Səfəvi dövrü - Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi). - Bakı: Elm, 1996-200s.

İSBN 5-8066-0436-5

Əsər 1570-ci ildə Ərdəbil şəhərində yazılmışdır. Ümumi tarix olan bu əsərdə hadisələr dünyanın yaranışından, yəni Adəmdən 1570-ci ilə qədər təsvir olunmuşdur. Azərbaycan dilinə ancaq Şah İsmayıl və Şah Təhmasib dövrləri (1500-1570-ci illər) tərcümə edilmişdir. Tərcümə zamanı XVI əsrdə yazılmış başqa tarixi əsərlərlə müqayisə edilmiş və kitabın sonunda şərhlər verilmişdir. Əbdi bəy bu tarixi əsərini Şah Təhmasibin qızı Pərixan xanıma (1548-1578) ithaf etmişdir. Əsər Azərbaycan dilinə Tehranda Məclisi-Şurayi-Milli kitabxanası və Respublika Əlyazmaları İnstitutunda saxlanılan iki nüsxə əsasında tərcümə olunmuşdur. Kitaba geniş müqəddimə yazılmışdır. Əsər ilk dəfə tərcümə və çap edilir.

Ə 0503020907 - 352 59a - 94
655 [07] - 96

© «Elm» nəşriyyatı, 1996

# MÜQƏDDİMƏ

## (XACƏ ZEYNALABİDİN ƏLİ ƏBDİ BƏY VƏ ONUN «TƏKMİLƏTÜL-ƏXBAR» ADLI ÜMUMİ TARİX ƏSƏRİ)

Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi 1515-ci il avqustun 19-da Təbriz şəhərində anadan olmuşdur.[1] Əksər mənbələrdə və şairin öz əsərlərində nisbəsinin Şirazi kimi göstərilməsinə baxmayaraq, onun ata və babalarının Şirazda yaşamaları barədə heç bir məlumat yoxdur. Lakin müəllifin əsərlərində onun əslinin şirazlı olması barədə qeydlərə rast gəlirik. Məsələn, o, «Dəftəri-dərd» məsnəvisində Nizaminin Gəncədən, Əmir Xosrovun Dehlidən, Sədi və Hafizin Şirazdan olduğunu qeyd etdikdən sonra, özünün də şirazlı olmasına işarə etmişdir.[2]

Nizami ədəbi məktəbinin görkəmli davamçısı və tarixi əsərlər müəllifi kimi tanınan Əbdi bəy nəslən Şirazda yaşayan türkdilli tayfalardandır. Çox ehtimal bu həmin tayfadır ki, Hafiz Şirazi qəzəllərinin birində onların gözəlləri haqqında yazmışdır:

«Əgər an torki-Şirazi bedəst arəd deli-mara,
Bexali-hinduyəş bəxşəm Səmərqənd o Buxarara».[3]

(Əgər o şirazlı türk (gözəli)[4] mənim ürəyimi ələ ala bilsə, onun qara xalına Səmərqənd və Buxaranı bağışlaram).

Əbdi bəyin ana babası və atasının Azərbaycanda yaşamaları, işləmələri, Səfəvi Azərbaycanlı zadəganlarından Cuhə Sultan Təkəlu və Hüseyn xan Şamlu ilə yaxın olmaları və s. onun əslinin Azərbaycanlı olduğunu deməyə imkan verir.

Əbdi bəy «Təkmilətül-əxbar» əsərində 1514-cü ildə olmuş Çaldıran müharibəsindən danışarkən öz ana babası haqqında belə yazmışdır:

«O zaman Səfəvilərin müqəddəs məqbərəsinin «vəziri» baxıcısı olan mən fəqirin ana babası Xacə Nizaməddin Məhəmməd ibn Xacə İmadəddin Əli Şirazi öz ailəsini qorumaq üçün Ərdəbildən darüssəltənə Təbrizə gəlmişdi. Türklər (osmanlılar) onu əsir edib, özləri ilə apardılar»[5].

Şair-tarixçinin bu məlumatından belə çıxır ki, onun ana babası Xacə Nizaməddin Məhəmməd Ərdəbil şəhərində yaşamış və Şeyx Səfi məqbərəsində mühüm vəzifə sahibi olmuşdur.

Şair atası Əbdülmömin ibn Sədrəddin Məhəmməd ibn Nəsirəddin Əhməd əl-Qəvami əl-Şirazi[6] haqqında 937 (1530-1531)-ci il hadisələrini təsvir edərkən belə yazmışdır:

«...Şahzadə Sultan Məhəmməd mirzə anadan oldu. Onun lələliyini Hüseyn xan Şamluya tapşırdılar. Şahzadəni böyük bir təntənə ilə onun evinə apardılar. O, böyük şadyanalıq etdi. Bu, mənim inkişafımın başlanğıcı idi. Çünki Hüseyn xan Cuhə Sultanın (öldürülməsi) hadisəsindən sonra Abdulla xan Ustaclunun bibisi

olan Cuhə Sultanın arvadı Xanxanım ilə evləndi. Mənim atam adı çəkilən xanımın tanışlığı ilə Cuhə Sultandan sonra Hüseyn xanın ailəsinə mənsub oldu. O isə mənə tərbiyə verib məktəbə göndərdi və Şeyx Əli ibn Əbdülalinin şagirdliyinə verdi. Bu yolla məni yüksəltdi və şahzadənin «vəziri» (baxıcısı) vəzifəsi ilə saraya göndərdi[7].

Əbdi bəyin təsvir etdiyi bütün bu hadisələr Səfəvilər dövlətinin o zamankı paytaxtı olan Təbriz şəhərində baş vermişdir. Adları çəkilən Abdulla xan Ustaclu və Hüseyn xan Şamlu Şah Təhmasibin bibisi oğlanları idi.[8] Deməli, Əbdi bəyin atası və özü bir Azərbaycanlı kimi Səfəvi xanədanına yaxın olmuşlar.

Şairin atası 937 (1530-1531)-ci ildə Təbrizdə vəfat etmişdir. Əbdi bəyin Sədəddin İnayətüllah adlı bir qardaşı və Məhəmmədmömin və Cəlaləddin adlı iki oğlu olmuşdur.

Əbdi bəyin yazdığına görə atası vəfat etdikdən sonra Hüseyn xan Şamlu və onun adamları ilə dolana bilməmiş və saray dəftərxanasına gedərək, hesabdarlıq-maliyyə işləri ilə məşğul olmuşdur.

Təxminən 35 il saray dəftərxanasında qulluq etdikdən sonra 1566-cı il mayın 10-da xassə malların vergisini toplamaq vəzifəsindən çıxarılmışdır.[9] O, 1566-cı il noyabrın 14-də Qəzvindən çıxıb həmin il noyabrın 18-də Ərdəbilə çatır. 1567-ci il yanvar ayının 12-də isə ailəsi də bura gəlir və bir yerdə yaşamağa başlayırlar.[10]

Əbdi bəy Ərdəbildə yaşayarkən Şeyx Səfi məqbərəsinin vəqf əmlakının qəbalələrini toplayıb nizama salmış və beləliklə də «sərihül-mülk» adlı qəbalələr məcmuəsini tərtib etmişdir.[11]

Şair Ərdəbildə yaşayarkən vəqf əmlakının qəbalələrini toplayıb nizama salmaqla bərabər, Şeyx Səfi məqbərəsinin nəzdindəki zəngin kitabxanadan istifadə etmək, şahidi olduğu hadisələri qələmə almaq və s. ilə «Təkmilətül-əxbar» adlı ümumi tarix əsərini yazmışdır.

Əbdi bəydən bir şair kimi bəhs edən müəlliflərin əksəriyyəti onun «Təkmilətül-əxbar» adlı tarixi əsərin və «sərihül-mülk» adlı qəbalələr məcmuəsinin müəllifi olmasından xəbərsiz olmuşlar. Əksinə, ondan «Təkmilətül-əxbar»ın müəllifi kimi bəhs edən alimlərin əksəriyyəti onun şairliyindən, üç «Xəmsə», üç divan, ərəb dilindən fars dilinə olan 2 tərcümə və daha bir neçə poemanın müəllifi olmasını bilməmişlər.

«Təkmilətül-əxbar» qısa giriş, müqəddimə, 4 bab (hissə), zeyl (əlavə) və xatimədən ibarətdir. Hər bir bab da müxtəlif fəsillərə bölünmüşdür.

Girişdə əsərin kimə ithaf olunması, adı, müəllifi və s. məsələlərdən qısa məlumat verilir.

Müqəddimədə tarix fənni və orta əsr ideologiyasına əsasən dünyanın yaranmasından bəhs olunur.

Birinci babda çox qısa şəkildə Adəmdən Nuhun tufanına qədər olan dövr;

İkinci babda - Nuhun tufanından Məhəmməd peyğəmbərin anadan olduğu 570-ci ilə[12] qədər olan dövr;

Üçüncü babda - Məhəmməd peyğəmbərin anadan olduğu 570-ci ildən, vəfat etdiyi 632-ci ilə qədər olan 62[13] illik bir dövr;

Dördüncü babda - 632-ci ildən əsərin tamamlandığı 1570-ci ilə qədər olan 938 illik bir dövr əhatə edilmişdir.

İkinci bab - 3 qism və xətiməyə (sonluğa) bölünmüşdür. 1-ci qismin özü də 2 məqaləyə ayrılmışdır. 1-ci məqalədə Məhəmməd peyğəmbərdən əvvəlki peyğəmbərlərdən, 2-ci məqalədə isə ölkələr və Nuhun oğlu Samın nəslindən olan şahlar: Pişdadilər, Kəyanilər, Əşkanilər, Əşğanilər və Sasanilər sülalələri, onların şahları barədə məlumat verilir. 2-ci qismdə Nuhun oğlu ham, onun övladlarından, Kəldanilər və Səryanilər sülalələrindən, onların hakimlərindən danışılır. 3-cü qismdə Nuhun oğlu Yafəs və onun övladları təsvir olunur. Xatimədə-tatar və monğol oymaqları, ərəb, Şam, Ərəb İraqı, Bəni-İsrail, Nəsari və rum-yunan hökmdarları təsvir olunur. Müəllif Bəni-İsrail padşahlarını 3 tayfaya bölmüşdür.

Üçüncü babda əvvəlcə Məhəmməd peyğəmbərin həyatı təsvir olunmuşdur. Əbdi bəy burada özündən əvvəl yaşayıb yaratmış tarixçilərin, şairlərin əsərlərindən istifadə etməklə bərabər, «Xəzanül-mələkut» məsnəvisindən də geniş istifadə etmişdir. Hadisələr Məhəmmədin anadan olduğu fil ilindən başlayaraq, illər üzrə, daha doğrusu, onun anadan olduğu 570-ci ildən bəsətə[14] qədər (yəni peyğəmbərlik verildiyi 40 yaşına qədər, 1-40 yaş), bəsətdən hicrətə qədər (peyğəmbərlikdən hicrətə qədər) və hicrətdən vəfat etdiyi hicri 11-ci ilə qədər (1-11-ci illər) verilmişdir. Hicrət illəri əvvəlki illərə nisbətən geniş təsvir olunmuşdur.

«Təkmilətül-əxbar»ın əsas hissəsini Dördüncü bab təşkil edir. Bu babda 632-ci ildən 1570-ci ilə qədər baş vermiş hadisələr təsvir olunmuşdur. Müəllif bu babı iki məqaləyə ayırmışdır. 1-ci məqalədə hadisələr hicrətin 11-ci (632) ilindən XII imam Mehdi Sahibəzzamanın 265 (3.IX - 878 - 22. VIII - 879) - ci[15] ildə olan «Qeybəti-suğra»sına (kiçik qeyb olmasına) qədər təsvir olunmuşdur. Əbdi bəy bu məqaləni on iki imamla əlaqədar olaraq on iki fəslə bölmüşdür. Hər fəsildə xronoloji qayda ilə imamlardan və onların müasiri olan hökmdarlardan danışılır. XII fəsil «Qeybəti-kubra»nın (böyük qeyb olmanın) baş verdiyi 328 (940)-ci ildə bitir.

2-ci məqalədə 328 (940)-ci ildən sonrakı hadisələr təsvir olunmuşdur. Bu məqalədə Ərəbistan, Məğribzəmin, Misir, Şam, Əndəlis və s. ölkə və vilayətlərdəki sülalələr və onların hakimləri barədə məlumat verilmişdir.

Mavəraünnəhrdən Ruma, Darülmərzdən Ərəb İraqına qədər olan əcəm (yəni, ərəb olmayan) məmləkətlərindəki sülalələrdən üç səhifədə (yarım fəsildə) bəhs olunmuşdur. Bu səhifələrdə Abbasilərlə müasir olan Səffarilər, Samanilər, Al-Buyə, Qəznəvilər və Səlcuqlardan danışılır. Səlcuqlar haqqında məlumat verilərkən müəllif onları üç qismə bölmüşdür: 1-ci qismdə İranı işğal etmiş Səlcuqlardan: Toğrul ibn Mikayıl ibn Səlcuq, Alp Arslan, Məlik şah, Börküyarlıq və başqalarından bəhs olunmuşdur. 2-ci qismdə Rum və Şamda, 3-cü qismdə isə Kirmanda hakimiyyət başında olan Səlcuqlar haqqında məlumat verilmişdir.

3-cü qismdən sonra verilmiş Zeyldə (əlavədə) Səlcuq Atabəyləri, o cümlədən İldəgiz, Atabəy Məhəmməd ibn İldəgiz, Atabəy Qızıl Arslan ibn İldəgiz, Əbu-bəkr ibn Atabəy Məhəmməd, Özbək ibn Atabəy Məhəmməd barədə məlumat verilmişdir. Daha sonra Şam, Diyarbəkr, Mosul, Ərəb İraqı, Rum, Kiçik Ermənistandakı 4 sülalədən: Daneşməndilər, Ariqilər, Səliqilər və Mənsukilərdən bəhs olunmuşdur.

Zeyldə həmçinin fars Atabəyləri və Şabanqare hökmdarları, Ğurilər, Mamilər, Xarəzmşahlar, Qaraxətailər, İran İsmaililəri, Mazandaran Bavəndləri, Rüstəmdar Kavbariləri, Əlvad və Əkvadilər, Dinavər, Şəhrzur və onun sərhəddindəki Fəzluyənin Böyük Lor hakimləri və Mavəraünnəhrdə hökmranlıq edən Əfrasiyabın nəslindən olan hökmdarlar haqqında məlumat verilmişdir.

II səhifədə Abbasilərin süqutundan sonrakı sülalələrdən bəhs olunmuşdur. Həmin sülalələr aşağıdaılardır:

Elxanilər, Cəlair tayfasından olan İlkanilər, Çobanilər, Müzəffərilər, sərbədarlar, Kert hakimləri, Əyyubilərdən olan Aybək Sultanları, Qaramanilər, Böyük Lorlar, Şirvanşahlar, Rüstəmdar Kavbariləri, Cəlavilər, Larda Gərgin nəslindən olanlar, Çingiz xanın oğlu Cığatay xanın nəslindən olanlar (Cığatayilər), Kürəkanilər (Teymurilər), Qaraqoyunlular və Ağqoyunlular.

III səhifədə Səfəvilər haqqında bəhs olunmuşdur. Bu hissədə əsasən müəllifin eşitdiyi, gördüyü, şahidi olduğu hadisələr təsvir olunmuş və rəsmi dövlət sənədlərindən istifadə edilmişdir. Əsərin ən qiymətli hissəsi elə bu səhifə olduğu üçün Azərbaycan dilinə də ancaq bu hissə tərcümə olunmuşdur.

«Təkmilətül-əxbar»ı tərcümə etməyə başlarkən istifadəmizdə əsərin Tehran kitabxanalarında saxlanılan əlyazma nüsxələrindən ikisinin fotosurəti və hazırda Respublika Əlyazmaları İnstitutunda saxlanılan mərhum prof. B. N. Zaxoderin (1898-1960) nüsxəsinin fotosurətləri olmuşdur.[16]

«Təkmilətül-əxbar»ın əlyazma nüsxələrindən biri hazırda Tehranda mərhum Hacı Məlikin «Ketabxaneyi-Milliyi-Məlik» adlanan çox zəngin şəxsi kitabxanasındakı 3890 № - li nüsxədir. Bu nüsxənin üzərindəki qeyddən (vər. 2a) məlum olur ki, o, 26 fərvərdin 1331(15 mart 1952)-ci ildə kitabxananın qeydiyyatından keçirilmişdir. Ancaq bu nüsxə həmin tarixdən çox əvvəl həmin kitabxanada mövcud olmuşdur. Fikrimizi sübut etmək üçün təkcə bunu qeyd etmək kifayətdir ki, İran alimlərindən Kəsrəvi Təbrizi (1890-1946) 1928-ci ildə nəşr etdirdiyi «Şəhriyaraniqomnam» adlı əsərini yazarkən o zamanlar Məşhəddə olmuş Məlikin kitabxanasındakı bu nüsxədən istifadə etmişdir.[17]

Hacı Məlik nüsxəsinin şəxsi kitabxanamızda 278 vərəqinin (556 səhifəsinin) fotosurəti vardır. Hadisələrin təsviri Qaraqoyunlu sülaləsindən bəhs edilərkən kəsilir. Əlyazmasının 2a vərəqində Hacı Məlikin qeydindən məlum olur ki, bu nüsxə 347 vərəqdən ibarətdir. Deməli, bizdə olan fotosurətdə əlyazmasının 69 vərəqi və əsərin ən qiymətli hissəsi olan Səfəvilər dövrünə aid hissə çatışmır. Əlyazmasının Tehran Universitetinin Mərkəzi kitabxanasında saxlanılan

mikrofilmi isə 280 kadrdan (vərəqdən) ibarətdir.[18] Əlyazmasının vaxtilə tam olduğunu sübut etmək üçün təkcə bunu qeyd etmək kifayətdir ki, Kəsrəvi Əbdi bəyin həyatı və yaradıcılığı haqqında məlumat verərkən həmin bu əlyazmasına əsaslanaraq, onun 973 (1566)-cü ildə Qəzvində Şah Təhmasibin (1524-1576) saray dəftərxanasındakı işindən çıxarıldığını və Ərdəbilə gəldiyini yazmışdır.[19]

Hacı Məlik nüsxəsinin istifadəmizdə olan hissəsində əsərin köçürülmə tarixi, xəttatı və s. Haqqında məlumat yoxdur. İlk səhifədən son vərəqədək tam olan bu əlyazmasının üzü savadlı bir xəttat tərəfindən çox ehtimal ki, XVII əsrdə aydın və gözəl nəstəliq xətti ilə köçürülmüşdür. Bu nüsxənin əvvəlində (vər.1b-2a) «Fərman olundu» sərlövhəsi ilə Azərbaycan, ərəb və fars dillərinin qarışığı ilə çox çətin anlaşılan bir dildə əsərin üzünün köçürülməsi barədə olan fərmanın surəti verilmişdir. Təəssüf ki, kitabxanaşünaslıq tariximiz üçün əhəmiyyəti olan bu fərmanın kim tərəfindən, hansı tarixdə və kimə verilməsi barədə heç bir qeyd yoxdur. Ehtimal etmək olar ki, Əbdi bəyin Pərixan xanıma ithaf etdiyi bu əsər saray kitabxanasına daxil olmuş, Şah Təhmasib, yaxud Pərixan xanımın göstərişi ilə Qəzvin saray kitabxanasının müdiri əsərin üzünün köçürülməsi barədə fərman vermişdir. Bu fərmana əsasən saray kitabxanasında çalışan xəttatlar əsərin üzünü köçürməklə onun nüsxələrinin sayını çoxaltmışlar.

Hacı Məlik nüsxəsinin Səfəvi dövrü hissəsi son vaxtlarda (1928-ci ildən sonra) əlyazmasından çıxarıldığından tərcümədə bu nüsxədən istifadə edilməmişdir.

Tərcümə zamanı istifadə etdiyimiz iki nüsxədən biri vaxtilə tarix elmləri doktoru prof. B. N. Zaxoderin şəxsi kitabxanasında olmuş və o, vəfat etdikdən sonra həmin əlyazması Azərbaycan SSR Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun kitabxanasına daxil olmuş, oradan isə Respublika Əlyazmaları İnstitutuna verilmişdir. Həmin nüsxə 1909-cu ilə qədər Otton Kruzenşternin şəxsi kitabxanasında olmuşdur. V. A. Jukovski həmin nüsxəni 1909-cu ildə Xarici İşlər Nazirliyi nəzdində olan Asiya Departamentinin Şərq dilləri tədrisi şöbəsindəki əlyazmaları sırasında təsvir etmişdir. Ancaq nədənsə əlyazmaya o zaman inventar nömrəsi qoyulmamışdır.[20] Sonralar həmin departamentdə olan əlyazmalar, «Təkmilətül-əxbar» istisna olmaqla, SSRİ EA Şərqşünaslıq İnstitutunun Leninqrad şöbəsinə verilmişdir. Bu əlyazmanın prof. B. N. Zaxoderin şəxsi kitabxanasına necə düşməsi barədə heç bir məlumatımız yoxdur.

29,5x18 sm ölçüdə olan əlyazması 276 vərəqdən (552 səhifədən) ibarətdir. Hər səhifədə 20 sətir yazılmışdır. Aydın, gözəl və Hacı Məlik nüsxəsinin xəttinə nisbətən bir qədər iri nəstəliq xətti ilə köçürülmüşdür. Bir qayda olaraq əlyazmalarının köçürülmə tarixi əsasən əsərin sonunda verilir. Əlyazmasında hadisələrin təsviri hicri-qəməri 968 və 969 (22.IX.1560 - 30.VIII.1562)-cu illərin hadisələri təsvir olunarkən kəsildiyi üçün bu nüsxədə onun köçürülmə tarixi, xəttatı və s. haqqında məlumat yoxdur. Əlyazmasının kağızına əsaslanıb onun XVII əsrdə

köçürüldüyünü söyləmək olar. Əlyazmasının əvvəlindən 1 və 137-ci vərəqdən sonra isə 2 vərəq düşmüşdür. Sonundan təxminən 30 vərəq çatışmır.

«Təkmilətül-əxbar»ın Məclisi-Şurayi-Milli kitabxanasında saxlanılan 15023 № - li əlyazması 289 vərəqdən ibarətdir. Əsər nisbətən xırda nəstəliq xətti ilə yazılmışdır. Hər səhifədə 21 sətir vardır. Əlyazmasının qədim hissəsi 2a vərəqindən başlayır. Əvvəlindən 1 vərəq düşmüşdür. Çox ehtimal ki, mərhum prof. Səid Nəfisi (1896-1966) əsərin əvvəlindən çatışmayan hissəni digər bir nüsxədən köçürüb əlyazmasının əvvəlinə əlavə etmişdir. Əlyazmasının 2,6 və 7-ci vərəqlərinin son sətirləri cırılmışdır.

Bu nüsxənin 836 vərəqində II bab qurtarır. 84a vərəqində «Təkmilətül-əxbar»la heç bir əlaqəsi olmayan 1266-cı ilin cümadiəl-axır ayında (14.IV - 12.V.1850) Nəsirəddin şah (1848-1896) zamanı baş vermiş bir hadisə təsvir olunmuşdur. Əlyazmasının 846 vərəqinə isə IV babın 2-ci məqaləsi köçürülmüşdür. Beləliklə, bu nüsxədə III bab bütünlüklə və IV babın da 1-ci məqaləsi yoxdur. Əlyazmasından təxminən 100 vərəq düşmüşdür. Bu hissələrdə Məhəmməd peyğəmbər və 12 imamın həyat və fəaliyyətləri təsvir olunmuşdur. 2-ci məqalədən, yəni Mehdi Sahibəzzamanın qeybəti-kübrasından (940-cı ildən) sonrakı hadisələrin təsviri isə tamdır.

968 (15 61)-ci ilə qədər olan hissə B. N. Zaxoder-Bakı və Məclisi-Şurayi-Milli nüsxələri əsasında tərcümə edilmişdir. Yeri gəldikcə bu iki nüsxə arasında olan bəzi fərqlər tərcümədə səhifənin aşağısında göstərilmişdir. Sonrakı illər ancaq Məclis nüsxəsi əsasında tərcümə edilmişdir.

Tərcümə zamanı XVI əsrdə yazılmış «Fütuhati-Şahi»,[21] «Həbibüs-siyər»,[22] «Mükalimeyi-Şah Təhmasib ba elçiyanirum»,[23] «Təzkireyi-Təhmasib»,[24] «Cəvahirül-əxbar»,[25] «Əhsənüt-təvarix»,[26] «Şərəfnamə»,[27] «Tarixi-Şah İsmayıl və Şah Təhmasib»,[28] «Tarixi-cahan-ara»[29] və s. əsərlərdən istifadə edilmiş və «Təkmilətül-əxbar»la onların arasında olan bir sıra fərqlər qeyd olunmuşdur.[30]

Əbdi bəy XVI əsrə qədər olan hadisələri təsvir edərkən özündən əvvəl yaşayıb-yaratmış onlarla alim və şairin müxtəlif əsərlərindən istifadə etmiş və həmin əsərlərin əksəriyyətinin adını, müəllifini göstərmişdir. Bəzən isə o, hansı əsərdən, müəllifdən istifadə etdiyini bildirmədən sadəcə olaraq «tarix kitablarında belə qeyd edilmişdir», «kitablarda belə məlumat verilmişdir» yazmışdır.

Əsərdə adı çəkilən alimlərdən və onların əsərlərindən nümunə olaraq, aşağıdakıları göstərmək olar:

Əbu Cəfər Məhəmməd Təbərinin «Tarixi-Təbəri», Qəzalinin «Nəsihətül-müluki-müəyyəd», Əsədi Tusinin «Lüğəti-fors», Nizamülmülkün «Siyasətnamə», Minhac ibn Sərrac Cürcaninin «Təbəqati-Nasiri», Yaqut Həməvinin «Möcəmül-büldan», Məhəmməd Nəsəvinin «Tarixi-Cəlali», Fəxrəddin Davud Benakətinin «Tarixi-Benaketi», Fəxrəddin Razinin «Hədayiqül-ənvar», Seyid İsmayıl Cürcaninin «Zəxireyi-Xarəzmşahi», Sədəddinin «Mərzbannamə», Şəhabəddin Abdulla Vəssaf Şirazinin «Tarixi-Vəssaf,» Şeyx Məhəmməd Cövzinin «Kitabi-

cəhadiyyə», Fəzlüllah Qəzvininin «Tarixi-möcəm», Hinduşah Səncərin «Təcarübüs-sələf», Qütbəddin Şirazinin «Dürrətül-tac», Məhəmməd ibn Əbdülxaliqin «Kənzül-lüğət», Əlaəddin Ətaməlik Cüveyninin «Tarixi-Cahanqoşa», Fəzlüllah Rəşidəddinin «Cameüt-təvarix», Uluğ bəyin «Zici-Uluğ bəy», Hüseyn Vaiz Kaşifinin «Rovzətüş-şühəda», Həmdullah Mustovfinin «Tarixi-qozide», Mirxandın «Rovzətüs-səfa», Qiyasəddin Xandəmirin «Xülasətül-əxbar» və «Həbibüs-siyər», Dövlətşah Səmərqəndinin «Təzkirə-tüş-şüəra» və s.

Əbdi bəyin ən çox istifadə etdiyi mənbə «Kitabi-Təhmasiyyə», yaxud «Kitabi-Təhmasibiyyə» adı ilə məşhur olan «Kitabi-dəfül-mənafat ən-ət-təfzil vəl müsavat» adlı əsərdir. Əbülməali əl-Hüseyn ibn əl-Həsənin ərəb dilində olan bu əsərini Əbdi bəy fars dilinə tərcümə etmişdir.

Əsərlərindən sitat gətirilmiş, yaxud həyat və yaradıcılıqlarından bəhs olunmuş şairlərdən isə Əbülqasim Firdovsi, Sənai Qəznəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, Zəhir Fariyabi, Əmir Xosrov Dəhləvi, Əvhədi Marağeyi, İbn Yəmin, Salman Savəci, Hafiz Şirazi, Hilali Cığatayi, Nizam Astarabadi və başqalarının adlarını çəkmək olar. Bütün bunlar onu göstərir ki, Əbdi bəy əsərini yazarkən bir sıra kitabxanalardan, xüsusilə, Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdində olan zəngin kitabxanadan, Təbriz, Qəzvin saray kitabxanalarında saxlanılan əsərlərdən və rəsmi sənədlərdən istifadə etmişdir.

Əbdi bəy bir çox hallarda müəyyən bir məsələ, hadisə haqqında olan məlumatları bir-birilə müqayisə edir. Bəzi müəlliflərin məlumatı ilə razılaşmır, hadisəyə, məsələyə öz münasibətini bildirir.

XVI əsr hadisələrini təsvir edərkən isə o, ancaq öz müasirləri olan şairlərin və özünün müxtəlif hadisələrlə əlaqədar şerlərindən nümunələr və maddeyi-tarixləri sitat gətirmişdir. Maddeyi-tarixlərin əksəriyyətini Əbdi bəy özü yazmış və sonrakı müəlliflər öz əsərlərində bunlardan istifadə etmişlər. Yeri gəlmişkən qeyd edək ki, Əbdi bəyin poemalarında və divanlarında olan maddeyi-tarixlərdən və müəyyən bir hadisəyə, şairlərin həyatına həsr etdiyi şerlərdən XVI əsrdən başlayaraq, bu günə qədər istifadə olunmuşdur. Bu kimi əsərlərə misal olaraq Əlaüddövlə Kami Qəzvininin Əkbər şaha (1556-1605) ithaf etdiyi «Nəfaisul-məasir» adlı çox qiymətli təzkirəni[31] , Qazı Əhməd Quminin «Xülasətüt-təvarix» adlı tarixi əsərini[32] göstərə bilərik.

Şah İsmayılın oğlu Sam Mirzənin vəfat tarixi və ölümünün səbəbi son illərə qədər müxtəlif şəkillərdə göstərilirdi. Bunu yalnız Əbdi bəyin «Təkmilətül-əxbar»da yazdığı maddeyi-tarix əsasında dəqiqləşdirmişlər.[33] Qəzvindəki Səadətabad bağı və Səfərabad saray şəhərciyində tikilmiş binalar haqqında ən dəqiq məlumat «Cənnati-ədn» adlanan üçüncü «Xəmsə»də verilmişdir.[34] Bu kimi məziyyətlərinə görə Əbdi bəyin həm bədii irsi və həm də tarixi əsəri həmişə yüksək qiymətləndirilmişdir. Əbdi bəyi orijinal və realist bir şair kimi qiymətləndirən Sam Mirzə onun şerdə, xüsusilə məsnəvi yazmaqda böyük məharət sahibi olduğunu göstərmişdir.[35] Kəsrəvi Təbrizi isə «Təkmilətül-əxbar»dan bəhs

edərkən iranlı tarixçilər içərisində Əbdi bəyi tanınılmamış sülalələr tarixini toplamağı bacaran yeganə şəxs hesab etmiş və bu əsəri daha düzgün və daha yaxşı əsər kimi qiymətləndirmişdir.[36]

Əbdi bəy Səfəvi dövrünün tarixini yazarkən əsasən iki təqvimdən - qədim monqol-türk və hicri-qəməri təqvimindən istifadə etmişdir. Daha doğrusu, müəllif əvvəlcə monqol-türk təqviminin illərini (siçan-donuz) vermiş, sonra isə həmin ilə müvafiq olan hicri-qəməri təqviminin ilini göstərmişdir. Məlum olduğu kimi, monqol-türk təqvimi Günəş sistemi əsasında hesablanır. Bu təqvimdə illərin uzunluğu 365 gün 5 saat 48 dəqiqə 46 saniyədən (bəzən 366 gündən), hicri-qəməri təqvimdə isə 354 gün 8 saat 49 dəqiqədən (bəzən 355 gündən) ibarətdir.[37] Buna görə xalq arasında deyildiyi kimi, hicri-qəməri təqvim «gəzir». Çünki bu Ay təqvimi Günəş təqviminə nisbətən orta hesabla 11 gün qısadır. Monqol-türk illəri həmişə novruzun daxil olduğu gündən - keçmişdə (köhnə stillə) 9 martdan, hazırda isə əsasən 21 martdan başlanır. Hicri-qəməri təqvimdə isə yeni il məhərrəm ayının 1-dən başlanır. Bu iki təqvim arasında uyğunsuzluq olduğuna - günlərin sayı bərabər olmadığına görə bu təqvimlərin illəri çox vaxt uyğun gəlmir. Hətta bəzən bir monqol-türk ilinin 6 ayı hicri-qəməri təqvimin bir ilinə, 6 ayı isə digər ilinə düşür. Yeni Hicri-qəməri ili Günəş təqvimi ilə hesablacaq, hər il keçən ilkindən 11 gün tez başlanır. Hər 3 ildən sonra hicri-qəməri il 1 ay tez başlanır. Beləliklə, 33 ildən sonra yeni hicri-qəməri il ilin bütün fəsillərini dolanaraq, yeni Günəş təqvimi ilinin yeni ili ilə bir vaxta düşəcək. Lakin bu vaxt ərzində 33 il deyil, 34 hicri-qəməri il keçəcəkdir. Buna görə Əbdi bəy monqol-türk ilini verdikdən sonra onun yanında hicri-qəməri təqvimin ilini göstərərkən yeri gəldikcə bəzi (ayları) filan ildə, bəzi (ayları) isə filan ildə (məs, donuz ili), bəzi (ayları) 970, bəzi (ayları) (isə 971-ci ildə) yazmışdır.

Əbdi bəy bəzən hadisələri təsvir edərkən hicri-qəməri təqvimin hər hansı bir ayını qeyd etdikdən sonra həftənin hansı günü olduğunu (şənbə, yekşənbə, düşənbə, seşənbə, çaharşənbə, pəncşənbə, cümə) da göstərmişdir. Bu günlər də Günəş təqvimi ilə olan günlərə uyğun gəlmir. Tərcümədə həftənin bu günləri Günəş təqviminin günlərinə çevrilməmiş və orijinalda olduğu kimi saxlanılmışdır.

«Təkmilətül-əxbar»ın bizə məlum olan ən nəfis əlyazma nüsxəsi Tehranda səltənət kitabxanasında 24 sıra nömrəsi ilə saxlanılır. Bu əlyazmasında sərlövhə və Quran ayələri süls və nəsx əsərin əsas hissəsi-mətni isə nəstəliq xətti ilə 1099 (1687-1688)-cu ildə Məhəmmədyəhyanın oğlu Məhəmmədhaşim tərəfindən çox nəfis şəkildə köçürülmüşdür. 19x31 sm ölçüsündə olan 350 vərəqdən (700 səhifədən) ibarət bu əlyazmasının hər səhifəsində 19 sətir yazılmışdır. Bu nüsxənin sonunda göstərilir ki, Məhəmmədhaşim əsərin üzünü 995-ci ildə cümadiəl-axır ayının sonunda (7 may 1587) avtoqrafdan köçürmüşdür. Bu nüsxənin əvvəlində əsərin üzünün köçürülməsi barədə Azərbaycan, ərəb və fars dillərinin qarışığı ilə yazılmış fərman da vardır. Əlyazmasını təsvir edən Bədri xanım Atabayın yazdığına görə Əbdi bəy «Təkmilətül-əxbar»ı Pərixan xanımın «dəstur və əmri» ilə

yazmışdır.[38] Lakin bizim istifadə etdiyimiz əlyazmalarının heç birində Əbdi bəyin bu əsəri Pərixan xanımın göstərişi ilə yazması barədə məlumat verilməmişdir. Əsərin yazılması haqda 955 (1548)-ci il hadisələri təsvir olunarkən ancaq belə bir məlumat vardır:

«Bu vaxt aləmi-qeybdən dinin pənahı Şah (Təhmasibə) iki qələbə üz verdi. Biri: şahənşahlıq bürcü, padşahlıq mücrisindəki səadətli təvəllüd, yəni zəmanənin Fatiməsi ulyahəzrət şahzadə Pərixan xanımın təvəllüdü. Bu kitab onun adlı-sanlı adı ilə bəzənmiş və onun hakimiyyətinin uzunolma duasına həsr olunmuşdur».[39]

«Təkmilətül-əxbar»ın əvvəlində müəllif aydın şəkildə əsərin Pərixan xanıma ithaf olunduğunu yazmışdır.[40] Əlbəttə, əgər əsər həqiqətən Pərixan xanımın göstərişi ilə yazılsaydı, Əbdi bəy bunu kitabın əvvəlində və sonunda iftixarla yazardı. Fikrimizcə, Bədri xanım Atabay əlyazmasının əvvəlində olan və məzmunca çətin anlaşılan fərmana əsasən onun Pərixan xanımın göstərişi ilə yazıldığını qeyd etmişdir.

«Təkmilətul-əxbar»dan bəhs edən alimlərin demək olar ki, hamısı əsərin Şah Təhmasibin qızı olan Pərixan xanımın fərmanı ilə yazıldığını yox, ona ithaf edildiyini yazmışlar.

I Şah İsmayılın (1501 - 1524) qızı Pərixan xanımın əri Şirvanşah II Xəlilullah (1524-1535) 1535-ci ildə öldükdən sonra o Şirvandan Təbrizə qardaşı Şah Təhmasibin yanına gəlmiş, 1539-cu ildə Şəki hakimi Dərviş Məhəmməd xana ərə verilmişdir. "Pərixan xanım 1543-cü ildə vəfat etdikdən sonra Qazıxan Təkəlu 950-ci il ramazan ayının 10-da (7 dekabr 1543) onun salyanın Xosrovabad qəsəbəsindəki «Şahzadə bəyim nəhri»ni, düyü, taxıl, pambıq və s. əkin yerlərini Qazı Ruhullanın sicili ilə Ərdəbildəki Şeyx Səfi məqbərəsinə vəqf etmişdir.[42] Şah Təhmasib 955-ci il (1 avqust 1548) cümədiəl-axır ayının 25-də çərkəz Şamxalın bacısı Sultanağa xanımdan[43] anadan olmuş qızına öz bacısının adını qoymuşdur. Pərixan xanım böyüdükdən sonra əmisi Bəhram mirzənin oğlu Bədiüzzamana nişanlanmışdır.[44] Gözəl, cəsarətli, bacarıqlı, işgüzar, hiyləgər olan Pərixan xanım atasının qocalıq illərindən başlayaraq, təxminən 10 il, qardaşlarından fərqli olaraq, Səfəvi dövlətinin idarə edilməsində mühüm rol oynamışdır. Məhz elə buna görə də əsrin şairləri Pərixan xanıma mədhiyyələr yazmış, Əbdi bəy isə «Təkmilətül-əxbar»ı ona ithaf etmişdir. Hakimiyyəti faktiki olaraq idarə etməyə can atan[45] Pərixan xanım nəhayət, öz əməllərinin qurbanı olur.

Şah Təhmasib 14 may 1576-cı ildə vəfat etdikdən sonra gürcü qızından doğulmuş Heydər Mirzə anasının təşviqi ilə taxta çıxır. Lakin Pərixan xanım, dayısı Şamxal xan və İsmayıl Mirzənin tərəfdarlarının yardımı ilə sadəlövh Heydər Mirzənin bir gecəlik hakimiyyətinə son qoyur və 20 ilə yaxın Qəhqəhə zindanında həbsdə olan İsmayıl Mirzə Səfəvi taxtına əyləşdirilir. 22 avqust 1576-cı ildə II Şah İsmayıl adı ilə Səfəvi taxt-tacına sahib olan bu əyyaş və tiryəkiyə çevrilmiş hökmdar, Səfəvi taxtına çıxa biləcək bütün yaxın qohum-qardaşlarını, onların

tərəfdarlarını müxtəlif bəhanələrlə aradan götürür ki, gələcəkdə taxta ancaq yeganə varisi-körpə oğlu Şahşüca, yaxud Şücaəddin çıxa bilsin.[46]

II Şah İsmayıl onu hakimiyyət başına gətirməkdə mühüm rol oynamış Pərixan xanımla hesablaşmır, onu dövlətin idarəsindən uzaqlaşdırır və öz ata-babalarının əksinə olaraq islam dininin sünni məzhəbinə rəğbət göstərir və s. Bütün bunlar onun hakimiyyətinin sütunlarını laxladır və ölümünü yaxınlaşdırır. Bəzi tarixçilərin yazdığına görə Pərixan xanım onun atdığı tiryəklərə zəhər qatır və II Şah İsmayıl 1577-ci il noyabrın 24-də yaxın adamı olan halvaçı oğlu Həsən bəyin evində ölür.[47]

Səfəvi taxtına çıxa biləcək bacarıqlı şahzadə-varis qalmadığı üçün, təsadüfi olaraq sağ qalmış yarım-kor Sultan Məhəmməd Xudabəndə əksər böyük qəbilə başçılarının qərarı ilə taxta çıxarılır. Pərixan xanım yeni Səfəvi şahının hakimiyyətinin ilk günlərindən onun arvadı (gələcək I Şah Abbasın anası) çox bacarıqlı, işgüzar Xeyrannisə bəyim tərəfindən dövlətin idarə edilməsindən uzaqlaşdırılır. Sultan Məhəmməd Xudabəndə və Xeyrannisə bəyimin göstərişi ilə 30 yaşlı, ərə getməmiş Pərixan xanım öz lələsi Xəlil xan Əfşarın əli ilə 1578-ci il fevralın 17-də öldürulür.[48] Beləliklə də, təxminən 10 il Səfəvi dövlətinin idarə edilməsində mühüm rol oynayan, bəlkə də faktik olaraq dövləti idarə edən Pərixan xanım hakimiyyət səhnəsindən gedir və onun yerini Xeyrannisə xanım tutur.

XVI əsr və XVII əsrin birinci yarısında miniatür rəssamlıqda və təzkirəçilikdə olduğu kimi tarixçilik sahəsində də inkişaf hiss olunur. İbrahim Əmininin «Fütuhati-şahi», Xandəmirin «Xülasətül-əxbar», «Həbibüs-ciyər», «Humayunamə», Mir Yəhya Seyfi Qəzvininin «Lübbüt-təvarix», Mahmud ibn Xandəmirin «Tarixi-Şah İsmayıl və Şah Təhmasib», Xurşah ibn Qubad əl-Hüseyninin «Tarixi-elçiyi-Nizamşah», Qazi Əhməd Qəffarinin «Nigarıstan», «Tarixi-cahan-ara», Budaq Münşi Qəzvininin «Cavahirül-əxbar», Həsən bəy Rumlunun «Əhsənüt-təvarix», Qazi Əhməd Quminin «Xülasətüt-təvarix», Mahmud Nətənzinin «Nəqavatül-asar fizikrül-əxyar», Şərəfxan Bidlisinin «Şərəfnamə», İsgəndər bəy Münşinin «Tarixi-aləm-arayi-Abbasi» və s. bu dövrlərdə yazılmışdır. Bu əsərlərin bir qismində hadisələr dünyanın yaranmasından, digər bir qismində isə əsasən XV əsrin sonlarından başlayaraq təsvir olunmuşdur. Adları çəkilən və çəkilməyən əsərlərdən təkcə «Tarixi-cahan-ara» ilə «Təkmilətül-əxbar» arasında nə isə çox oxşarlıq, yaxınlıq vardır.

Qazı Əhməd Qəffari (1515-1567-68) bir neçə dəfə Hindistanda və İranda çap olunmuş 330 tarixi hekayədən ibarət «Nigarıstan» və 971 (1563-1564)-ci ildə yazmağa başladığı və 972 (1564-1565)-ci ildə tamamladığı «Tarixi-cahan-ara»nın müəllifidir. «Tarixi-cahan-ara» ilə «Təkmilətül-əxbar» arasında elə bir böyük fərq, ziddiyyət və s. yoxdur. Buna görə güman etmək olar ki, bu iki əsərdən biri digərindən bəzi fərqlərlə köçürülmüşdür. Əbdi bəyin yaradıcılığı ilə yaxından tanış olmayan İsmayıl xan Əfşar yazır ki, Mirzə Zeynalabidin Əbdi bəy «əvvəldən axıra

qədər» Qəffarinin «Nüsəxi-cahan-ara»sını köçürmüş və bu əsərin adını «Təkmilətül-əxbar» qoymuşdur.[49]

Bu nəticə dəqiq və düzgün deyildir. Nə Əbdi bəyin «Tarixi-cahan-ara»nı və nə də Qazı Əhməd Qaffarinin «Təkmilətül-əxbar»ı köçürməyə ehtiyacı yox idi. Çünki Əbdi bəy 1570-ci ilə qədər çoxlu bədii əsər, tarixi mənzumələr yazmış, tarixi məzmunda olan ərəbcə iki əsəri fars dilinə tərcümə etmişdi və s. Qazı Əhməd isə tarixi hekayələrdən ibarət «Nigarıstan» adlı əsər yazmışdı. Hər iki müəllif öz əsərinin XVI əsrə qədər olan hissəsini orta əsrlərə aid bir üslubda yazdıqları, Səfəvi dövrü fəslində isə əsasən şahidi olduqları hadisələri təsvir etdikləri üçün onların əsərlərinin müəyyən hissələri təsadüfi olaraq bir-birinə daha çox oxşayır.

Əbdi bəy əsərini Pərixan xanıma, Qazı Əhməd isə Şah Təhmasibə ithaf etmişlər. Buna görə onlardan biri digərindən köçürməyə cəsarət etməzdi. Çünki bu işin üstü açılsaydı, köçürən cəzalandırılardı. Bundan başqa, XVI əsrin son rübündən başlayaraq, həm Əbdi bəy, həm də Qazı Əhmədin məzkur əsərlərindən tarixçilərin, təzkirəçilərin istifadə etməsi də onların müstəqil, orijinal əsər olduğuna dəlalət edir. Bütün bunlara baxmayaraq, əgər həqiqətən bu əsərlərin biri digərindən köçürülübsə, demək olar ki, Qazı Əhməd Əbdi - bəydən köçürə bilərdi. Çünki:

a) Əbdi bəy hadisələri 1570-ci ilə qədər, Qazı Əhməd isə 1565-ci ilə qədər təsvir etmişdir. Əgər Əbdi bəy «Tarixi-cahan-ara»nı köçürmüş olsaydı, o da əsərini 1565-ci ildə, yaxud bir neçə il tez tamamlardı.

b) Əbdi bəyin əsərində olan «Zeyl» («Əlavə») - XVI əsrdə hakimiyyət başında olan sülalələrin, hakimlərin təsvirləri, onların I Şah İsmayıl, xüsusilə, Şah Təhmasiblə münasibətləri və «Xatimə» («sonluq» - Şah Təhmasibin 12 xüsusiyyəti) adlı hissələr «Tarixi-cahan-ara»da yoxdur. Elə bu son 5 il (1565 - 1570) hadisələrinin təsviri «Zeyl» və «Xatimə»nin məhz Əbdi bəy tərəfindən yazılması, bu hissələrin üslubu və s. sübut edir ki, bütün əsər şair-tarixçi Əbdi bəyin qələminin məhsuludur.

v) XVI əsrdən başlayaraq tarixçilər, təzkirəçilər «Təkmilətül-əxbar»dan istifadə etmiş və onun müəllifinin Əbdi bəy olduğunu yazmışlar. Heç bir orta əsr mənbəyində onun «Tarixi-cahan-ara», yaxud başqa bir əsərdən köçürülməsi barədə məlumat yoxdur.

q) «Təkmilətül-əxbar»da Əbdi bəyin özünün yazdığı çoxlu şer, maddeyi-tarix, həmçinin Firdovsi, Əmir Xosrov Dəhləvi, Nizam Astarabadi və dikər şairlərin şerləri verilmişdir. Bunlara «Tarixi-cahan-ara»da rast gəlmirik.

ğ) Əbdi bəy onlarla alim və şairin əsərlərindən istifadə etmiş, bu istifadəni çox vaxt açıq-aydın şəkildə yazmış, bəzən isə hər hansı bir müəllifin məlumatı ilə kifayətlənməmiş, hadisəyə öz şəxsi münasibətini bildirmişdir. Daha doğrusu, Əbdi bəy «Təkmilətül-əxbar»ı yazarkən XVI əsrə qədərki dövrün təsvirində bəzən özündən əvvəlki tarixi əsərlərin xülasəsini verməklə kifayətlənməmişdir. O, ziddiyyətli, mübahisəli, inandırıcı olmayan məsələləri müxtəlif mənbələri

müqayisə etməklə, özünə yaxın olan dövrdə baş vermiş hadisələri isə şahidləri dindirməklə aydınlaşdırmağa çalışmış və çıxardığı nəticəni əsərində qeyd etmişdir. Məsələn, əfsanəvi Pişdadilər sülaləsinin hökmdarlarından Huşəng ibn Siyamək haqqında məlumat verərkən yazır ki, o, «Cavidani-xirəd» kitabının müəllifidir. Hürufilərin «Cavidani-xirəd» kitabı tamamilə başqa bir kitabdır. Çünki Huşəngin «Cavidani-xirəd» kitabını xəlifə Məmunun (813-833) vəziri Həsən ibn Səhl ərəb dilinə tərcümə etmişdir. Hürufiliyi isə bu son vaxtlarda Nəiməddin Fəzlüllah Astarabadi yaratmışdır.[50]

Yaxud, Şəms Təbrizi haqqında mənbələrin məlumatını verdikdən sonra müəllif yazır ki, düzü budur ki, bunu mən Əndican Seyidlərindən öyrəndim. Dövlətşah Səmərqəndi «Təzkirətüş-şüəra» əsərində Mövlana Cəlaləddin Ruminin tərcümeyi-halını verərkən yazmışdır.[51]

Zərdüşt, muğ, muğan haqqında olan məlumatlar da bu qəbildəndir (Zərdüştü Azərbaycanla bağlayır). Bu kimi şəxsi araşdırmalara, tədqiqatlara, çıxarılan nəticələrə «Tarixi-cahan-ara»da rast gəlmirik.

d) Əbdi bəy bütün əsər boyu dəfələrlə öz adını çəkmiş, XVI əsr hadisələrini təsvir edərkən isə hər hansı bir işdə, hadisədə öz iştirakı barədə məlumat vermişdir. Bu kimi şəxsi qeydlər «Tarixi-cahan-ara»da yox dərəcəsindədir. Qazı Əhməd təkcə bir yerdə 931 (1524-25)-ci il hadisələrini təsvir edərkən atası və əmisinin öldürüldüyünü yazmışdır.[52]

Haqqında danışılan əsərlərin birinin digərindən köçürülmədiyi barədəki fikrimizi sübut etmək üçün hər iki əsərdən bəzi məlumatı müqayisəli şəkildə verməyi məqsədəuyğun hesab edirik:

**Təkmilətül-əxbar**

Kəyumərs vəfat etdikdən sonra Huşəng Siyamək ibn Kəyumərs ibn onun yerinə keçdi. Məna baxımından «huş» «xirəd» (huş, ağıl, mənsubdur deməkdir.

**Tarixi-cahan-ara**

Huşəng Siyamək ibn Kəyumərs. Ləqəbli Pişdad. Sus şəhəri və Şüştər, Xuzistan ona mənsubdur. Hakimiyyəti - 40 il (s.30). «Həng»in mənası - çox bilikli, elmi və biliyi olan huş və həng adlanır. Onları birləşdirdikdə «Huşəng» olur. Ərəbcə yazanda «Huşənc» yazırlar. O, filosof idi. Əməli fəlsəfə olan «Cavidani-xirəd» kitabını yazmışdır. Hürufilərə məxsus olan «Cavidani-xirəd» ondan başqa (əsərdir). Çünki Huşəngə mənsub olan «Cavidani-xirəd»i məlun Məmunun vəziri Həsən ibn Səhl ərəb dilinə tərcümə etmişdir. Hürufilik məzhəbini isə bu yaxınlarda Nəiməddin Fəzlüllah Astarabadi aşkar etmişdir. Huşəngin hakimiyyət müddəti 40 il olmuşdur. İstəxri o, bina etmişdir. Sus və Şüştər onun saldırdığı şəhərlərdəndir.

Fars dilində «əşkərə» deyilən tərlan, qara-quş, şahin və s. ilə ov etməyi o öyrətmişdir. Tula və iti vəhşi keçilərin ardınca salırdı.

Öz əcdadının göstərişi ilə Adəm əleyh-salamın şəriətinə əməl edirdi. Lakin oda sitayiş edərdi. Çünki bir dəfə gecə səhrada gəzərkən bir ilan ona qəsd etmək istəyərkən ona bir daş atır. Daş daşa dəyir və bundan atəş əmələ gəlir. O, belə təsəvvür edir ki, Hörmüz qeyb pərdəsindən ona aşkar oldu. Onu öz dininin ibadətgahı edir. (B-vər.36a).

Əbdi bəy «Təkmilətül-əxbar»da Makedoniyalı İsgəndər haqqında 29 sətir məlumat vermişdir. (B-vər.43b-44a) O, göstərir ki, Şeyx Nizami «İqbalnamə» və «Şərəfnamə»də İsgəndərin cahangirliyi və cahandarlığı haqqında geniş danışmışdır. Mən isə qısa şəkildə «Ayini-İsgəndəri» kitabımda nəzmə çəkmişəm.

Əbdi bəy İsgəndər haqqında tarixi və bədii əsərlərdə olan bəzi səhvləri təshih edir və nisbətən dəqiq məlumat verməyə çalışır. Məsələn, o, Firdovsinin «Şahnamə»sində İsgəndərin Məsiha (İsa peyğəmbər) qayda-qanunu ilə evlənməsi barədə olan beyti sitat gətirir və göstərir ki, bu inandırıcı deyildir. Çünki Məsiha İsgəndərdən uzun müddət sonra anadan olmuşdur.

Həmçinin qeyd edir ki, deyirlər Dara İsgəndərin qardaşı olmuşdur. Dara ölərkən vəsiyyət etmişdi ki, İsgəndər onun qızını alsın. Məsiha dini ilə İsgəndər öz qardaşı qızını nesə ala bilərdi?! Onun məcus dinində olması doğrudur.

İsgəndərin Daranın qızını istəməsi hekayəti də yalandır və s.

Əbdi bəy İsgəndərdən sonra «Əshabi-kəhf»dən, Qazı Əhməd isə Əşkanilərdən bəhs edir.

Qazı Əhməd «Tarixi-cahan-ara»da Makedoniyalı İsgəndər haqqında cəmi 3 sətir məlumat vermişdir (səh.30). O, yazır:

İsgəndər ibn Darab İbn Bəhmən - ləqəbi Zülqərneyndir. Anası Rum padşahı Filuqusun qızıdır. Fəlsəfədə Ərəstunun şagirdidir. Herat, Bərdə, Arran və Rum İsgəndəriyyəsi onun saldırdığı şəhərlərdəndir. İranı istilası 14 il. Vəfatı - Zur şəhərində. Dəfn olduğu yer - İsgəndəriyyə.

**Mənkuciyyə tayfası.**

Əvvəlinci Mənkucək Qazı. O, Alp Arslanın hökmü ilə Ərzincan, Kəmax və onun ətrafının hakimi idi. (Hakimiyyət) ondan sonra nəsilbənəsil keçərək Fəxrəddin Bəhram şah ibn Davud ibn Mənkucəkə çatdı. O, Qılınc Arslanın qızını istədi.

Şeyx Nizami «Sirlər xəzinəsi»ni ona ithaf edib, göndərmişdir. O, əvəzində 5 min dinar qızıl və 5 yorğa qatır hədiyyə göndərdi. Məzkur şeyxin vəfatı: Gəncədə, 597 (1200-1201)-ci ildədir.

Atabəy Məhəmməd ibn İldəgiz atasının yerinə keçir. Sultan Arslan öləndən sonra Arslanın oğlu Toğrulun atabəyi (ləләsi) və İraqda əmirül-üməra olur. Öz qardaşı Qızıl Arslanı Azərbaycana göndərir və Abbasi xəlifəsinin adını bir il xütbədən saldırır. Xəlifə ona çoxlu mal göndərir ki, onun adını xütbədə yenidən çəksinlər. Onun hakimiyyəti on il olmuşdur.

Atabəy Qızıl Arslan, Zəhir, Xaqani, Şeyx Nizami və başqaları onun məddahı olmuşlar. Atabəy Məhəmməd öldükdən sonra Toğrulun atabəyi olur. 587-ci (1191) ildə Toğrulu həbs edir. Qapanın Kehram qalasına göndərir. Özü taxta çıxır. Həmin gecə onu yatağında öldürürlər. 50 bıçaq yarası vardı və qatil məlum olmadı (B-vər.183a).

Qazı Əhməd İsgəndərdən Kəyanilər sülaləsi haqqında məlumat verərkən, Əbdi bəy isə Rum hakimlərindən bəhs edərkən danışmışdır.

**Dördüncü kəlmə. Mənkcikilər**

Mənkucək Qazı-Sultan Alp Arslan Ərzincan, Kax Kuğusə və onun ətrafının idarəsini ona tapşırdı. Müəyyən müddət o və övladları oranı idarə etdilər. Onlardan Fəxrəddin Bəhram şah ibn Davud ibn Mənkucək Qazı Qılıc Arslanın qızının kəbinini özünə kəsdirdi. Bütün Ərzincanda elə bir zümrə olmadı ki, ona həmin izdivacın hədiyyə duası yetişməsin.

Şeyx Nizami «sirlər xəzinə»sini ona ithaf etmişdir. Əvəzində 5 min dinar qızıl və 5 yorğa qatır hədiyyə almışdır. Şeyx Nizaminin vəfatı 597-ci (1200-1201) ildədir (səh.134)

Cahan Pəhləvan (adı ilə) məşhur olan Atabəy Məhəmməd ana tərəfdən Arslanın qardaşıdır. Arslanın kiçik olan oğlu Toğrulu padşahlığa namizəd edir. (Lakin) hər işi özü aparırdı. Nə qədər ki, o, (Cahan Pəhləvan) sağ idi bir dəyişiklik olmadı. Nəhayət, 582-ci ildə zilhiccə (ayının) axırında (mart 1187) Reydə vəfat etdi.

Atabəy Qızıl Arslan ibn İldəgiz həmçinin Sultanın anasından idi. İstədi ki, Toğrulla qardaşı kimi rəftar etsin. Ancaq artıq o (Toğrul), yaşa dolduğu üçün dözə bilmədi. Böyük narazılıq baş verdi. O, əvvəlcə Toğrulu və oğlu Məlik şahı tutub Azərbaycan Qəbanının Kehran qalasında həbs etdi. Özü hökmdarlıq iddiasına düşdü və Bağdaddan təsdiq aldı. Səhəri taxta oturduğu günün gecəsi - 587-ci ildə şaban ayının 1-də yekşənbə gecəsi (24 avqust 1191) öldürüldü. Qatili məlum olmadı. Şeyx Nizami Gəncəvi və Zəhir Fəriyabi onu mədh edənlər olmuşlar (səh.125).

«Təkmilətül-əxbar»ın səltənət kitabxanası nüsxəsinin son səhifəsinin kataloqdakı fotosurətində və Məclis kitabxanası nüsxəsinin son səhifəsində Əbdi bəy yazır ki, əsəri (Kərayim asare) tarixində tamamlamışdır. Məclis kitabxanası nüsxəsində «kərayim asare» sözlərinin yanında çox ehtimal ki, mərhum prof. Səid Nəfisi sonralar əlyazmasının əvvəlini bərpa edib əsər və onun müəllifi haqqında məlumat verərkən «979» rəqəmini yazmışdır. Əslində isə həmin iki söz əbcəd hesabı ilə 978-ə bərabərdir. (K=20, R=200, A=1, İ=10, M=40, A=1, S=500, A=1, R=200, H=5, cəmi 978). Bu maddeyi tarixdən belə nəticə çıxır ki, Əbdi bəy «Təkmilətül-əxbər»ı 978 (5 iyun 1570-25 may 1571)-ci ildə yazıb qurtarmışdır.

«Təkmilətül-əxbar»ın bu qurtarma tarixini daha da dəqiqləşdirmək, sabitləşdirmək üçün demək lazımdır ki, Əbdi bəy əsərin sonunda «Quy yil»in

(qoyun ili) - hicri qəməri 978-979-cu ilin hadisələrini təsvir etmişdir. Yuxarıda göstərildiyi kimi Səfəvilər dövründəki tarixi hadisələrin təsviri bir qayda olaraq monqol-türk təqvimi və hicri-qəməri təqvimi əsasında verilmişdir. Daha doğrusu, əvvəlsə monqol-türk illəri - siçan, öküz, pələng, dovşan, balıq, ilan, at, qoyun, meymun, toyuq, it, donuz - verilir, sonra isə həmin illərə müvafiq olan hicri-qəməri təqvimin illəri göstərilir. Bu iki təqvimin birincisində təqvim Ay - Günəş sisteminə, ikincisində isə ancaq Ay sisteminə əsaslandığı üçün hər monqol-türk ili hicri-qəməri təqviminin 2 ilinin hər birinin bir neçə ayına təsadüf edir.

«Təkmilətül-əxbar»da son il olaraq təsvir edilən «quy yil» (qoyun ili) hicri-qəməri təqvimin 978-979-cu illərinin hər birinin bir neçə ayına təsadüf edir.[53] Buna görə Əbdi bəy «Quy yil»in yanında qəbul etdiyi ümumi qayda əsasında yazmışdır:

«Dər quy yil, bəziha sənə səmanə və səbeyn və tisəmiətə və bəziha sənə tisə».

(Qoyun ilində, bəzi (ayları) doqquz yüz yetmiş səkkiz və bəzi (ayları) isə (doqquz yüz yetmiş) doqquzuncu ildə).

Bu qeyddən sonra Əbdi bəy Allaha şükür edir ki, Şah Təhmasib, şahzadələr sağ və salamatdır, məmləkətdə əmin-amanlıqdır.

Cəmi üç sətir olan bu ümumi sözlərdən sonra göstərilir ki, «Kitab həmin ilin əvvəllərində tamam oldu. Bundan artıq yazmayacağam. Əgər həyatım baqi qalsa, bundan sonra ayrısa bir «cild» yazacaq və vacib hadisələri orada qeyd edəcəyəm». Bu məlumatdan sonra əsərin «zeyl» (əlavə) hissəsi başlayır.

Bütün bu qeydlərdən belə nəticə çıxır ki, «Təkmilətül-əxbar» 978-ci ilin əvvəllərində tamamlanmışdır. Həmin nəticənin doğruluğunu həm müəllifin 978-ci ilin hadisələrindən əsaslı bir şey yazmaması, həm 269-cu vərəqdən 289-cu vərəqə qədər olan «Zeyl» və «Xatimə»də 979-cu il hadisələrindən danışmaması, həm də «zeyl»in əvvəlində «indi ki, 978-ci ildir» deməsi təsdiq edə bilər. Maddeyi-tarix kimi verilmiş «Kərayim-asare» (=978) sözləri də buna əlavə bir sübutdur.

Qarşıya belə bir sual çıxa bilər, bir halda ki, Əbdi bəy əsərini 978-ci ildə qurtarmağı nəzərdə tutmuşdu, bəs nə üçün bəziləri 978 və bəziləri 979-cu ildə yazmışdır? Çünki qoyun ili hicri-qəməri 978-979-cu illərə bərabərdir. Həm də güman etmək olar ki, müəllif əsərini davam etdirmək fikrində imiş. Lakin hər hansı bir hadisə onu əsəri 978-ci ildə tamamlamağa məcbur etmişdir. Məsələn, ola bilər ki, Şah Təhmasib «Sərihül-mülk»ü tələb etmiş, o, Qəzvinə gəlməli olmuş, gələrkən «Təkmilətül-əxbar»ı da özü ilə paytaxta gətirib. Pərixan xanıma təqdim etmək fikrində olmuşdur. Yaxud, sadəcə olaraq paralel işlədiyi «Sərihül-mülk»ü qurtarmış, onu gətirib şaha, «Təkmilətül-əxbar»ı isə Pərixan xanıma təqdim etmək istəmişdir və s. Bu və digər səbəblərə görə Əbdi bəy 978-ci ildə baş vermiş hadisələri təsvir etməmiş, əsərin «Zeyl» və «Xatimə» hissələrini yazıb, Qəzvinə gətirmişdir.

Hər halda, son nəticə olaraq qeyd edilir ki, Əbdi bəy «Təkmilətül-əxbar» adlı ümumi tarix əsərini Ərdəbil şəhərində yaşayarkən 1570-ci ilin ortalarında yazıb tamamlamışdır.

«Təkmilətül-əxbar» xüsusi tədqiqat obyekti kimi geniş tədqiq edilməmiş və heç bir dilə tərcümə olunmamışdır. Əgər bəzi tarixçilərin, kataloq müəlliflərinin qeydləri nəzərə alınmazsa, Əbdi bəy və onun «Təkmilətül-əxbar» əsəri haqqında ilk, nisbətən geniş və dəqiq məlumat bu sətirlərin müəllifi tərəfindən verilmişdir.[54]

Tarix elmləri doktoru Oktay Əfəndiyev «XVI əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin yaranması»[55] və «XVI əsrdə Azərbaycan Səfəvi dövləti»[56] adlı monoqrafiyalarında «Təkmilətül-əxbar» və onun müəllifi haqqında bəzi qeydlər etmişdir. Bunlardan əlavə, o, «Təkmilətül-əxbar» barədə ayrıca bir məqalə də yazmışdır.[57] O. Əfəndiyev ilk dəfə olaraq «Təkmilətül-əxbar»ın Şah İsmayıla aid hissəsini (905-930-1499-1524-cü illər) rus dilinə tərcümə etmiş və B.N.Zaxoder nüsxəsinin 242a-252a vərəqlərinin foto-surətini çap etdirmişdir.[58]

Yuxarıda qeyd edildiyi kimi, Əbdi bəy «Təkmilətül-əxbar»ın Səfəvi dövrü hissəsini yazarkən şəxsi müşahidələrinə əsaslanmış və yeri gəldikcə saray dəftərxana və kitabxanasındakı rəsmi sənədlərdən, həmçinin Şeyx Səfi məqbərəsi nəzdindəki zəngin kitabxanadan istifadə etmişdir. O, bunlardan əlavə, xüsusilə, Ülamə, Əlqas Mirzə və Osmanlı Sultanzadəsi Bayəzidlə əlaqədar hadisələrin təsvirində «Təzkireyi-Təhmasib» adı ilə məşhur olub bir neçə dəfə çap və bir neçə dilə tərcümə olunan əsərdən də faydalanmışdır.

XVI əsrin son rübü, XVII əsrin əvvəllərində Şah İsmayıl və Şah Təhmasibin hakimiyyət başında olduğu illəri təsvir edən çoxlu tarixi əsər yazılmasına baxmayaraq, «Təkmilətül-əxbar» öz əhəmiyyətini itirmir. Bu əsərin də özünə görə bir sıra məziyyətləri vardır. Belə ki, «Təkmilətül-əxbar»da olan bəzi hadisələrin təsvirinə başqa əsərlərdə rast gəlmirik, yaxud burada olan bəzi hadisələr nisbətən geniş və dəqiq təsvir edilmişdir və s. «Təkmilətül-əxbar» XVI əsrin ilk üç rübündəki hadisələri öyrənmək üçün ilk mənbə kimi çox qiymətlidir. Buna görə «Təkmilətül-əxbar» Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun yazılı abidələrin nəşri və tədqiqi şöbəsində Azərbaycan dilinə tərcümə edilib, nəşrə hazırlanmışdır. Tərcümə zamanı «Təkmilətül-əxbar»dakı bir sıra tarixi hadisələr bəzi tarixi əsərlərlə müqayisədə verilmişdir. Həmin əsərlərin adı qısa şəkildə aşağıdakı şərti işarələrlə qeyd edilmişdir;

B - «Təkmilətül-əxbar»ın B.N.Zaxoder - Bakı nüsxəsi.

M - «Təkmilətül-əxbar»ın Məclisi-şurayi-milli kitabxanası nüsxəsi.

T.Ş.İ. - Mahmud ibn Xandəmirin «Tarixi-Şah İsmayıl və Şah Təhmasib əsəri, Britaniya muzeyi nüsxəsi, OR - 2939.

Ə.T. - Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» əsəri, Kəlküttə, 1931.

Ş.N. - Şərəf xan Bidlisinin, «Şərəfnamə» əsəri, rus dilinə tərcümə edəni E.İ.Vasilyeva, Moskva, 1967.

S.Ə. - Budaq Münşi Qəzvininin «Cəvahirül-əxbar» əsəri, Leninqrad Saltıkov-Şedrin adına Dövlət Kütləvi kitabxanasındakı avtoqraf əlyazması, Dorn № 288.

M.Ş.T - «Mükalimeyi-Şah Təhmasib ba elçiyani-Rum», Saltıkov - Şedrin adına Dövlət Kütləvi kitabxanasındakı əlyazması, Dorn № 302.

T.T. - «Təzkireyi-Təhmasib», Kəlküttə, 1912.

S.A. - Qazı Əhməd Qəffarinin «Tarixi-cahan-ara» əsəri, Tehran, 1343 h.ş.

F.Ş. - İbrahim Əmininin «Fütuhati-şahi» əsəri, Tacikistan SSR EA Şərqşünaslıq İnstitutunun kitabxanasındakı əlyazması, inv. № 225.

Z.N. - Şərəfəddin Əli Yəzdinin «Zəfərnamə» əsəri, Daşkənd, 1972. Orijinalda ərəbcə olan ifadələr, «Quran» ayələri tərcümədə iri şriftlərlə verilmişdir.

Əbdi bəy «Təkmilətül-əxbar»da Azərbaycan, Əcəm İraqı və Rum yazarkən əsasən müasir Cənubi Azərbaycan, İran və Türkiyə ərazilərini nəzərdə tutmuşdur.

Əsərdə xüsusilə Çin, Hind, Kilək, Kürd, Monqol dillərində çoxlu coğrafi və şəxs adları vardır ki, ərəb-fars əlifbasında bir çox sait hərflərin olmama-sı ilə əlaqədar olaraq tərəfimizdən onların düzgün oxunuşu şübhəlidir. Buna görə əksər hallarda həmin sözlərdən sonra sual işarəsi (?)qoyulmuşdur.

Tərcüməni oxuyub məsləhətlər vermiş filoloji elmlər namizədi Əli Abbasova, ərəbcə ifadə, hədis və Quran ayələrinin tərcüməsində bizə kömək etmiş tarix elmləri namizədləri Tariyel Həsənov, Sabir İsgəndərov və tərcüməni redaktə edən tarix elmləri doktoru Vaqif Piriyevə öz minnətdarlığımızı bildiririk.

Şübhəsiz ki, bu ilk tərcümədə bir sıra tərcümə xətaları və digər nöqsanlar vardır. Bunları göstərəcək yoldaşlara qabaqcadan təşəkkür edirik[*].

Əbülfəz Haşim oğlu Rəhimli
Bakı - 1985

[Bütün] işləri idarə edən, nurdan işıq yaratmış Allahın adı və şükrü ilə. Səsi hər tərəfdə eşitdirilən peyğəmbərə, onun pak nəslinə, xüsusən, məsum imamlara Allahın xeyir-duası olsun. Onların hamısına Allahın xeyir-duaları.

**Üçüncü səhifə.**[1] On iki imamlı yüksək Cəlalli Səfəvi şahları haqqında - Onların hakimiyyəti əbədi olsun.

## ŞER

«Dövlət hər kimə yar olsa,
Onun dünya və dində başı uca olar.

[*] Görkəmli İran tarixçisi Əbdül - Hüseyn Nəvai «Təkmilətul - əxbar»ın Səfəvi dövrü hissəsini 1369 (1990)-cu ildə Tehranda 4200 tirajla çap etdirmişdir.

Dövlət sərmayə ilə dolu bir humay (quşudur),
Allahın kölgəsi ilə qonşuluq edir.
Kövhər səpən xoşbəxt buluddur,
Bahar buludu kimi dünyanı rövnəqləndirir.
Səadət hər kimə yar olsa,
Onun dininə və dünyaya yol göstərən olar.
Taca layiq olan baş,
Dinin taxtı[2] ilə yüksələr».

Hamı bilir ki, dünyanı yaratmaqda məqsəd Allahı tanımaq nurunu sədaqətli və inanan camaata çatdırmaqdır. «Mən bir gizlin xəzinə idim, istədim ki, məndən götürsünlər».[3] Buna görə də ilk məxluq necə ki, kitabın əvvəlində demişik, Məhəmmədin və Əlinin[4] müqəddəs nurlarıdır. Demək, dünyanın hökmranlığı Məhəmməd və ondan sonra Əliyə məxsusdur. (Əli) isə həm Allah tərəfindən və həm də peyğəmbər tərəfindən məxluqatın imamı və rəhbəridir. Həzrəti-[Məhəmməddən] sonra bu yüksək (B-2416) mənsəb növbə ilə on iki imama mənsubdur. Onlardan başqa hər kim bu işə girişsə, zülmkardır. Sultani-zaman və sahibi-əmr[5] (yəni 12-ci imam) - ona Allahın salamı olsun-mərhəmətli allah (tərəfindən) qeyb olduğu üçün haqq odur ki, (M-211a) ali-Ələviyyeyi-Fatimiyyə[6] silsiləsindən bu işə qabil olan bir adam (şahlıq) etsin. Allahın bəndələri arasında zamanın imamının (yəni, 12-ci imamın) hökmlərini yerinə yetirsin. Camaatı zülm və pis işlərdən çəkindirsin. On iki imamın haqq məzhəbinə yol göstərsin. Səltənət taxtına cülus edib, Məhəmmədin nəslinin hökmlərini icra etsin. Necə ki, həzrəti-peyğəmbər - ona və nəslinə salam olsun - buyurmuşdur.

Taleqanda[7] bizim elə bir xəzinəmiz vardır ki, nə qızıl və nə də gümüşdəndir. Bəni-haşimidən[8] olan, boz rəngli qatır üstündə başı qırmızı örtüklü bir gəncin başçılıq etdiyi 12 min kişidən (ibarətdir). Mən sanki ona baxıram. Onların Allah, Allah, Allah çağırışı Fəratı[9] aşıb keçir. O görünən kimi şeyxin yanına gedər, ona tərəf qaçışarlar.

Həmçinin Həzrəti-Əmirəlmöminin [Əli] - ona Allahın salamı olsun-xəbər vermişdir.

Hülaku xanın[10] əhvalatının (təsvirinin) əvvəlində deyilmiş və indi bu məqamda o yenidən təkrar olunur.[11]

## MİSRA

***«Dəfələrlə demişəm, bir daha deyirəm».***

Ona [Allahın] duası və salamı olsun demişdir: Bəni-Abbasın[12] hakimiyyəti uğurludur, bir ehtiyası yoxdur. Əgər türk, deyləm,[13] Sind[14], bərbər[15] və Təbəristan[16] onların hakimiyyətini aradan götürmək üçün onlara qarşı yığışsalar da, onu aradan

götürə bilməzlər. Hətta onların hökmdarları və dövlət başçıları onlardan tələb etsələr, onların üzərində türklərdən bir hökmdar ağalıq etsə və onları məhv etsə də. Belə ki, onların hökmdarının keçdiyi elə bir şəhər yoxdur ki, onu fəth etməsin. Onun üçün qaldırılmış elə bir bayraq yoxdur ki, onu endirməsin. Vay o kəsin halına ki, onunla düşmənçilik edə! Beləcə də qələbə çalmaqdadır. Sonra isə qələbəni mənim nəslimdən olan, haqq deyən və haqla iş görən bir adama verməkdədir.

Bu xəbər həqiqətdir. Necə ki, Bəni-Abbas Əbu Müslim Mərvəzi[17] (M-2116) vasitəsilə ölkəni asanlıqla aldı. Səlcuq türklərinin, deyləmilərin və Sind, hind və başqa ölkələrin hakimi olan Sultan Mahmud Qəznəvinin[18] cəhdinə baxmayaraq, Bəni-Abbasın hakimiyyəti süqut etmədi, Nəhayət, Abbasi Müstəsimin vəziri İbn Əlqəmi[19] və Abbasilər dövlətinin başqa əyanlarının səyi nəticəsində türk Hülakü xanın hökmü ilə Bəni-Abbasın hakimiyyəti aradan getdi. Bu qələbədən sonra hakimiyyətə Hülakülar sülaləsindən Səfəvilərə qədər Əmirəlmöminin [Əlinin] övladlarından heç kəs keçmədi. Nəhayət, ali Səfəvi sülaləsindən cənnət-məkan Şah [İsmayıl] dünyanı fəth edib, haqqı dedi. Yəni on iki imamın adına xütbə[20] oxutdurdu. Onların düşmənlərinin batil olduğunu zikr etdi. Yəni, batil sözlü və əməlli xaricilərin[21] və sünnilərin[22] kökünü kəsdi. Bəni-Fatimilərin[23] Seyid sülaləsindən heç kəsə bu müyəssər olmamışdı.

O zamandan ki, məlun Müaviyə[24] birbaşa fəsada başlayıb, hakimiyyəti ələ aldı, Bəni-Fatimilərə imkan vermədilər. Bəni-Üməyya[25] haqsız olaraq hakimiyyət başına keçdi. Onlardan sonra hakimiyyətə Abbasilər keçdilər. Abbasilər dövründə doğruluğu müəyyən edilmiş on iki [imam] nəslindən olan Ali-Buyə[26] hakimiyyət başına gəldi. Lakin onlar Abbasilərin səltənətini yıxıb, on iki imamın hakimiyyətini saxlamağa imkan tapmadılar.

Abbasilər alçalıb süqut etdikdə hakimiyyəti bir müddət monqol və tatar kafirləri ələ aldılar.[27] Qazan xan[28] islamı qəbul etdi. Ondan sonra günahı bağışlanmış Sultan Xudabəndə-Sultan Məhəmməd Ulcaytu xan[29] həqiqət gözünü açıb on iki şiə [imamının] məzhəbinin yolunu aləmə göstərdi. Ömrü vəfa etmədiyinə görə tezliklə cənnətin dinclik evinə köçdü (yəni öldü). Beləliklə, bu həqiqi yolun intibahına qədər gedə bilmədi. Ondan sonra doğru hadisəyə qədər zamanın özündə hərc-mərclik üz verdi. (M-212a).

«Haqq gəldi və batil yox oldu».[31] Dünyanı bəzəyən Şah [İsmayıl] örtüyü qaldırıb özünü göstərdi.

«Zalim olan kəslərin kökü kəsilmişdir. Bunun üçün dünyanın ağası Allaha şükür olsun».[32]

Səltənət güzgüsündə parıltı göründü. Yəni dünyaları fəth edənin qılıncının sığalı və İsgəndər[33] taxtlı Cəmşid[34], zamanın axırının Süleymanı[35], Sahibəzzamanın irəlidə gedən xoşbəxt padşahı Əbülmüzəffər Sultan Şah İsmayıl ibn Sultan Şah Heydər ibn Sultan Cüneyd ibn Sultan Şeyx İbrahim ibn Xacə Əli ibn Sultan Xacə Şeyx Sədrəddin Musa ibn Sultan Şeyx Səfiəddin İshaq ibn Seyid Əminəddin

Cəbrayıl ibn Seyid Saleh ibn Seyid Qütbəddin ibn Seyid Səlahəddin Rəşid ibn Seyid Məhəmməd əl-Hafiz ibn Seyid Əvəz Əlxas ibn Seyid Firuzşah Zərringülah ibn Seyid Məhəmməd ibn Seyid Şərəfşah ibn Seyid Həsən ibn Seyid Məhəmməd ibn Seyid İbrahim ibn Seyid Səfər ibn Seyid Məhəmməd ibn Seyid İsmayıl ibn Seyid Əhməd ibn Seyid Məhəmməd Ərabi ibn Seyid Məhəmməd Qasim ibn Əbülqasim Həmzə ibn İmam Musa ibn Səfər əl-Kazim - ona və atasına salavat və salam olsun - zülmətin pasını və inkarın tozunu rüzgarın güzgüsündən əbədi sildi.[36]

Bu hekayətin müxtəsəri belədir:

Elə ki, bu tayfa tərəfindən cahangirlik vahiməsi zahir oldu və onların uğurlu şiə məzhəbi qələbə çaldı, zəmanənin padşahları onlarla hesablaşmağa başladılar.

«Kafirlər istəməsələr də allah öz nurunu yenə yayacaq».[37]

Bəlkə də alqışlanmaq qəsdi, ilahi səltənət hissi (B-2426) ilə dövranın hadisələrinin və türkman[38] Sultanlarının, xüsusilə Rüstəm ibn Maqsud ibn Həsən Bayandurinin[39] tuğyanına qədər uşaqlıq vaxtlarında Lahicanın Gilanında yurd salan (M-2126) tərifli və əlahəzrət-haqq son qələbə ilhamı ilə kənara çıxdı. Yer üzünü zir-zibildən təmizlədi. Sikkə və xütbəni on iki imamın şanlı adı ilə bəzədi. Xəlil kimi balta ilə[40] sünnilərin sevincini sındırdı. O zaman Hüseyni[41] seyidlərindən Karkiya Mirzə Əli ibn Karkiya Sultan Məhəmməd[42] oranın (Gilanın) padşahı idi.

[Mirzə Əli] xidmətkarlığı və qonaqpərvərliyi hörmətlə yerinə yetirdi.

Böyük əlahəzrətin (Şah İsmayılın) xəyalına yola düşmək xəbəri hasil olduqda [Mirzə Əli] bir qədər gözləməyi təkid etdi. Bu hələ səltənət hilalının çıxmasının əvvəli idi. Bu ay on dördə çatana qədər (yəni kiçik Şah İsmayıl 14 yaşına çatana qədər) gözlədi. O, əlahəzrətin (Şah İsmayılın) yaşı on üçə (qədəm) qoyduqda, o dinpənah dedi ki, yüksək aləmdən nümayəndəyəm və bu hərəkətdə üzürlüyəm.

Ətraflardan və tərəflərdən hal-hazırda qədim Çilani[43] sufilər adlanan, qələbə çalan sufilər hörmətdə mübaliğəyə vardılar. Karkiya [Mirzə Əli] başa düşdü ki, bundan artıq Günəşin (Şah İsmayılın) qarşısını ümumiyyətlə tutmaq olmaz. Buna görə o, əlahəzrətin vidalaşıb [getməsinə] icazə verdi.

Allahın yanında qüvvətlənmiş [Şah İsmayıl] 905-ci ildə məhərrəm ayının ortasında (avqust 1499) mübarəklik və xoşbəxt tale ilə Deyləman vilayətinin yaxınlığında olan ordunun düşərgəsindən dünyanı fəth etməyin bayrağını qaldırdı.

Gilanın son hüdudunda, Talış mahalına bitişik və Ərdəbil yaxınlığında yerləşən Astara Ərsivanında[44] qışladı. Ulduzların padşahı qışın cədy, dəlv və hut[45], yayın həməl və sour[46] aylarında şahlıq çadırı qurulduqdan [sonra] Ərcivandan[47] Ərdəbilə gəldi. Müqəddəs nişanlı həzrətlər olan ata-babalarının ziyarətinə nail oldu. Onların müqəddəs ruhundan yardım diləyib, Arran Qarabağına yola düşdü. O zaman Cahanşah padşahın[48] nəvəsi[49] olduğunu iddia edən Sultan Hüseyn adlı bir şəxs o həzrətlə [Şah İsmayılla] görüşüb, xəyanət etmək məqamında idi.[50] Bu iş xaqan (Şah İsmayılın) Günəş ürəyində aydınlaşdı. Dərhal oradan köçüb, (M-213a)

Çuxursəd[51] tərəfə üz çevirdi. Oradan Doqquzulama yola düşdü.[52] Orada pak niyyətli və etiqadlı sufilərin meydan sulayanı Qaraca İlyas Bayburdlu Rumlu dəstəsi ilə [Şah İsmayılın] xidmətinə yetişdi.

Həmçinin ürəklərində Əli nəslinin məhəbbəti və başlarında düşmənlərinə qarşı ədavət olanlar hər şir meşəsindən və hər igid dəstəsindən çeşmələr arxlara, arxlar çaylara, çaylar böyük dənizlərə üz tutan kimi, hər tərəf və cəhətdən dostlar və hamilər bir-bir, iki-iki seçilib gəldilər. Bir-birləri ilə birləşərək, özlərini Ali-Əlinin ali bayrağı altına çatdırdılar. O diyarın yolunun üstündə olan Məntəş qalasının adamları sufilərə qarşı pis münasibətdə olduqları üçün dinin ağaları və həqiqi əshabın ilk ildırımı bu oldu ki, o qalaya hücum etdi. Qalanın əhalisini qılıncdan keçirdilər və var-yoxunu talan etdilər. Oradan keçib Kağızmana[53] gələrkən başqa yaylaqlardan çox gözəl olub, Araz çayının başlanğıcında (yerləşən) Mingöl yaylağına yönəldilər. Ora Ustacluların oymağı idi. O düşərgədə Ustaclular yaşayırdılar.

Həmzə bəy Fəth oğlu Ustaclu ali fərmanla uğurlu dövlətin yaranması müjdəsi ilə onların içərisinə getdi. Onu Oğlan Ümmət Çavuşlunun evinə düşürtdülər. Sabahısı bütün ağsaqqallar, başçılar, cavanlar, comərd kişilər, sufilər, dostlar - yəni bütün o tayfa can-başla məzkur Həmzə bəyin söhbətini dinləməyə tələsdilər.

O ali-həzrəti (Şah İsmayılı) şərafətlə, Mədinə ənsarı[54] [Məhəmməd] peyğəmbəri Mədinəyə apardıqları kimi-ayaq döymək və himn deməklə öz camaatının arasına aparıb, canlarından keçmək məqamına gəldilər. Nəvvabi-xaqan [Şah İsmayıl] bir neçə ay onların içərisində qaldı. Bu xəbər sufilərin[55] və şiələrin arasında yayıldı. Ondan sonra o oymağın birləşməsi ilə Tərcanın sarıqayasına və oradan Azərbaycan[56] vilayətinə təşrif apardılar. Sufilər və qazilər[57] dəstə-dəstə Rumlu[58], Şamlu və Zülqədərlər[59] Rum[60], Şamı[61] Misir[62] və Diyarbəkr[63] ellərindən gəlməyə başladılar.

Həzrəti-Sahibəzzamanın zühurunun müqəddiməsi olan o əlahəzrətin zühuruna hazır olanları çağırmaq üçün hər tərəfə pərvanəçilər[64] getdi. On iki min nəfərə qədər qələbə çalan əsgər həzrəti-risalət-pənah [Şah İsmayıl] çağırdığı üçün cəm oldu.

Dünyanı bəzəyən [Şah İsmayılın] fikri ilə Şirvana yürüş etmək və ədavətin banisi olan Fərrux Yəsarı[65] dəf etmək qərara alındı.

Əlahəzrət xaqan [Şah İsmayıl] Ustaclu tayfasının köç evini, qocaları və zəifləri qorumaq barədə Sultan Bayəzidə[66] iltimac məktubu yazdı və qəbula yetdi. Özü belinə fədakarlıq kəməri bağlayıb, qələbə nişanlı bayrağın altına gəldi. Özünə münasib başıucalıqla Şirvan tərəfə gəlməyi qərara aldı. 906-cı ildə[67] (28.VII.1500 - 16.VII.1501) Qoyunölümü [adlı yerdə] Kürü keçib (B-2436) Şirvana gəldi. Gülüstanan[68] qalasının yuxarısındakı Cəbani məntəqəsində 12 min Rüstəm[69] ürəkli, Bəhmən[70] biləkli, İsfəndiyar[71] qüvvəli qazi və sufi düşərgə saldı. Qərara aldılar ki, Yezid ibn Cəvnin nəslindən olduğuna görə Müaviyənin oğlu Yezidə[73] iqtida[74] edib,

Hüseyni Sultan Heydərə qəsd etmiş,[75] dövlətin gözəl xoşbəxtliyini əldən verib, şükümsüzlük bədbəxtliyinə düçar olmuş yaramaz Fərrux Yəsarın 20 min atlı və piyada[76] [qoşunu] Kərbəla yezidləri ilə qarşı-qarşıya durub müharibəyə başlasınlar. Şir ovlayan Heydəri-məzhəb[77] qazilər Zülfüqar[78] kimi kəsici qılıncla Şirvanın Sasani[79] nəsilli yezidlərinin üstünə düşdülər. Fərrux Yəsar ölkənin alçaq əyanları ilə iti qılıncın zərbəsinə məruz qaldı. Onların qanlarından çaylar axmağa başladı. Elə ki, belə bir qələbə qazanıldı, üç gün müharibə meydanının ətrafında dayandılar. Ondan sonra darüssəltənə[80] Şamaxıya təşrif gətirdilər. Oradan adı Xadim bəy olan və dili ilə ilham verən Xüləfa bəyə xəlifətül-xüləfa mənsəbi verib, onu bir dəstə fədai ilə müharibə meydanından çıxararaq dəniz kənarında Şirvan ordusunu toplayan Şeyxşah ibn Fərrux Yəsarı tutmağa göndərdi. Şirvan qoşunu bu doğru xəbəri eşitcək dağıldı. Şeyx-şah gəmiyə minib Gilana yollandı. Şah [İsmayılın] Mahmudabadda[81] qışlaması qərara alındı.

Orada ikən əhli-beytə[82] və o nəslə yaxınlığı olan Şeyx Məhəmməd Göcəcinin[83] övladlarından olub, illərlə türk səltənətində vəzirlik edən[84] onların dövlətinin dayağı, əvvəllərdə dövləti idarə etmək işində səriştəsi olan və peyğəmbərin xanədanına, vilayətinə[85] etiqad bəsləyən, təsadüfi və batil tayfadan üz döndərib, haqq tayfaya üz tutan Əmir Zəkəriyyə Təbrizi Göcəci torpağı öpmək şərəfinə nail olub, vəzirlik mənsəbinə çatdı. Nəvvabi-xaqan sahibqran [Şah İsmayıl] onu «Azərbaycanın açarı» adlandırdı. Ondan sonra Bakını mühasirə etdilər.[86]

Əmir Zəkəriyyə Bayandurilərin asayişi pozmalarını və onların hökumətinin üsyanını ali zirvəyə çatdırdıqda, [Şah İsmayıl] Azərbaycanın fəthini mühüm bilib, qalanın üstündən qalxıb (yəni, Gülüstan qalasının mühasirəsindən əl çəkib) Azərbaycana yönəldi və Naxçıvan tərəfə yola düşdü.[87] (M-2146)

İgidliyinə görə Tozqoparan adlandırılan Piri bəy Qacar isə ordunun ön dəstəsi olaraq yola düşdü. [Rəqib] tərəfdən özünü Rüstəm və İsfəndiyardan əskik bilməyən Həsən ağa Şəkər oğlu qaraula (kəşfiyyata) gəlmişdi [o], Mişkin vilayətinin Kərmavəz [adlı yerində] Piri bəy Qacarın gəlmək xəbərini eşidib qaçdı və Azərbaycan padşahı olan Əlvənd bəy ibn Yusif bəyin qoşunu ilə birləşdi. Xəbər çatdırdı ki, artıq Şah İsmayıl və ordunun ön dəstəsi yaxındadır.

Xülasə, Əlvənd bəy həddən artıq hücuma hazır olan qoşununu nizama saldı və Naxçıvan vilayətinin Şərur düzündə şahanə müharibə oldu. Piltən bəyin nəvələri Qarçıqay Məhəmməd, Lətif bəy və Seyid Qazi bəy 8 min süvari igidlə öldürüldü. Əlvənd bəy güclə canını qurtarıb Diyarbəkrə qaçdı. Əzəmət bayraqları (Şah İsmayıl) darüssəltənə Təbrizə gəldi. Kama çatmış Şah [İsmayıl] xoşbəxtliklə padşahlıq taxtına oturdu. Xütbə və sikkə padşahın ləqəbləri ilə bəzəndi.

907 (17.UN.1501 - 6.UP.1502)-ci ildə Əmirül-üməralıq[87a] mənsəbi Hüseyn bəy Lələ Şamluya, Sədarət[88] isə Gilanda nəvvabi-xaqan [Şah İsmayılın] müəllimi olmuş, yürüşlərdə onunla yan-yana gedən Qazı Şəmsəddin Gilaniyə tapşırıldı. O qış qışlaq Təbrizdə vaqe oldu. Türkmanlar[89] sünukdan[90] qoşun göndərdilər. Şiələr

müxalifətçilərin əksinə olaraq, fələyin mavi göyünə hay-küy saldılar. İnsan şeytanlarını lənət və tənə ilə zəmanə göylərinin örtüyünün kənarından qaçırdılar.

### BEYT

***«Şiə məzhəbinin təbərzini[91] sünnilərin bütünü İbrahimin zərbəsi Azərin bütlərini sındırdığı kimi sındırdı».[92]***

Belə bir hakimiyyət heç kəsə müyəssər olmamışdı. Bəni-Üməyya zamanında Muxtar ibn Əbi Übeyd əl-Səqəfi yezidilərin qətli üçün qılınc çəkib, Kərbəla şəhidlərini[93] qətl edən Übeydüllah ibn Ziyad[94], Əmr ibn Səd,[95] Şümr ibn Zilcovşən[96] və başqalarını öldürdü. Ancaq dövrün padşahı olan Əbdülməlik (M-215a) ibn Mərvanı[97] ortadan götürə bilmədi ki, zamanın imamı Əli ibn Hüseyn Zeynalabidinin[98] - ona salam olsun-səltənət taxtına cülusu mümkün olsun. Buna görə də bir neçə gündən sonra [Muxtar] şəhidlərə qoşuldu.

Əbu Müslim Mərvəzi[99] əhli-beyt üçün qılınc vurdu, ancaq səltənətin [qapısını] Abbasilər üçün açdı. Onun səyi günahsız imamlar üçün deyildi. Abbasilərdən mükafatı o oldu ki, Əbu Səfər[100] bu fədakarlığın muzdu olaraq [onu] parça-parça etdi.

Qardaşlarının və qardaşı oğlanlarının hər biri bir ölkədə padşah olan əcəm Sultanlarından Müiziddövlə Əhməd ibn Buyə əl-Deyləmi[101] qüvvət və əzəməti ilə Bağdad xəlifəliyini özünə tabe etdirməsinə baxmayaraq, 352-ci ilin rəbiüs-sani [ayında] (29.IV - 27.V.963) kinayə yolu ilə o məlunlara lənət yağdırmaq və onun məzmununu məscidin qapısı üzərində həkk etdirmək istədi, mümkün olmadı. Axırda bu iki kəlməyə qərar verdi:

«Allah Məhəmmədin əvvəldən axıra kimi nəslinə zülm edənlərə lənət etsin» (6-2446). Yalnız bu qədər bacardı ki, Müaviyəyə aşkar lənət etsinlər.

Hülakülar[102] taxtına oturan Sultan Məhəmməd Xudabəndə[105] Bəni-Abbasilərin axırına çıxdı. 709 (II.VI.1309 - 30.V. 1310)-cu ildə fərman verdi ki, on iki imamın adına sikkə və xütbə hazırlasınlar. Bu iş çox yerlərdə, o cümlədən İsfahanda həyata keçmədi. İsfahan əhalisi bunu qəbul etmədi. 710 (31.V.1310—19,V.1311)-cu ildə [Sultan Məhəmməd Xudabəndə] istədi ki, oraya 20000 atlı göndərib, onları itaətsizliklərinə görə czalandırsın. Çox zəhmətdən sonra sünnilərin başçısı olan Molla Əbu İshaqı tutub, düşərgəyə gətirdilər, və isfahanlıların inadcıllığı bir qədər yumşaldı. Ancaq necə ki, lazımdı, yola gəlmədilər.

Sultan Məhəmməd [Xudabəndə] 717 (16. III.1317 - 4.III.1318)-ci ildə vəfat etdiyi üçün[104] bu məqsəd, o itaət: siz diyar və mahalda həyata keçmədi. Sultan Əbusəid[105] zamanında Sultan Məhəmməd [Xudabəndənin] səyi zay oldu.

Sultan Hüseyn mirzə Kürəkani[106] (M-2156) istədi ki, on iki imamın adını xütbədə zikr etsin. Camaatın hücumu o dərəcəyə çatdı ki, Mir Seyid Əli Qainini minbərdən aşağı saldılar. Cənnətməkan xoşbəxt sərdar Əbülmüzəffər Şah İsmayıl

Səfəvi Musəvi Hüseyni imamların adını xütbə və sikkə ilə zinətləndirməyə müvəffəq oldu və fələyin mavi günbəzinə böyük səs-küy saldı. Pak imamların yaşadıqları dövrdə təqiyyə[107] libasında gizlənmiş on iki şiə imamının haqq məzhəbi aşkar olub yayıldı. Xarisi qılınc çəkənlər torpağın üstünə sərildilər. İnad göstərənlər məhv edildilər. Bu məzhəb elə rəvac tapdı ki, indi dinin pənahı Şah Təhmasibin hakimiyyəti zamanı onun qorunmayan məmləkətlərində belə, geniş yayılmışdır. Belə ki, Hindistanda Nizamülmülk padşahın ordu və rəiyyətləri bu məzhəbdədirlər.[108]

Dinin padşahı olan Şah [Təhmasibin] günlərinin hekayəti bundan sonra yazılacağına görə, bu məzhəbin rövnəqi oradan məlum olacaqdır.

**BEYT**

«Dünya durduqca cəlalı var olsun,
Bütün aləm onun pənahında olsun».

Müxtəsər, ucalıq bayraqdarı [Şah İsmayıl] bu ilin baharında Əlaüddövlə Zülqədərə qulaqburması vermək üçün Ərzincana yola düşdü. Alataq yolu ilə Tərcana getdilər. Əlvənd Təbrizi boş görüb, Təbrizə gəldi və oradan Ucana getdi. Elə ki, bu xəbər ali orduya çatdı, [həmin] gün Azərbaycana yollandılar. Maku qalasının ətrafından bahadırların bir dəstəsi ilə hücuma keçdilər. Əlvənd xəbərdar olan kimi, Ucandan Həmədana və Həmədandan Bağdada qaçdı. Şah [İsmayıl] Təbrizdə qışladı. Baharın əvvəllərində Əcəm İraqını tutmaq üçün yollandı. Sultan Murad ibn Yaqub[109] həmin qışı Dilicanda qışlamışdı (B-245a). Qışlaqdan çıxıb, 70 000 atlı ilə müharibə etmək arzusunda idi. (M-216a).

908-ci il zilhiccə ayının 24-də (20 iyun 1503) düşənbə günü Həmədanın Almaqulağı çölündə sərt döyüş oldu. Əmirül-ümərа olan Gözəl Əhməd Bayandur və «namurad» Sultan Muradın ordusundan 10 000 nəfər öldürüldü. Döyüşçülərə çoxlu silah və mal nəsib oldu. İraq, Azərbaycan və onlara tabe olan yerlərdə səltənət bütünlüklə Bayanduriyyə tayfasından ali Səfəvi sülaləsinin əlinə keçdi.

«Həmd olsun o allaha ki, öz vədinə sadiq, öz bəndəsinə yardımçı olub və öz ordusunu güclü edib».

Bu qalibiyyətin tarixi «həz» dir.[110] Ondan sonra «namurad» [Sultan Murad] Şiraza getdi. Qələbə rəmzli bayraqlar [Şah İsmayıl] onu təqib etməyə başladı. Bu hərəkət zamanı Kirman zəbt edildi və onu Xanəhməd Ustacluya verdilər. O, 600 atlı ilə orada qaldı. 2000 cavanı olan Mahmud bəy Türkman oranı tərk edib Xorasana qaçdı.

[Şah İsmayıl] siçan ilinin[111] novruzunda fars [vilayətinə] təşrif gətirdi. Şənbə [günü] 909-cu il rəbiüs-sani ayının 2-də (24 sentyabr 1503) əzəmətlə darülmülk Şiraza daxil oldu. Kazerunun xətibləri sünni olduqları üçün aradan götürüldülər və qətl olundular. Şiraz vilayətini Zülqədər Keçəl bəy hacılar [adı ilə]

məşhur [olan] İlyas bəyə verdilər. O tarixdən Şiraz Zülqədər tayfasına mənsub oldu.

[Şah İsmayıl] cümadiəl-sani [ayının] əvvəlində (21 noyabr 1503) oradan yola düşüb, Mədinətül-möminin (Möminlər şəhəri) olan Quma[112] təşrif gətirdi və orada qışlaq etdi.

Xar, Simnan, Dəmavənd və Firuzkuh hakimi Hüseyn Kiya Cəlavi üsyan etdi və Reyin hakimi İlyas bəy İyğut oğlunu qətlə yetirdi. Cəlal bayraqları (Şah İsmayıl) ramazan [ayının] 12-də (28 fevral 1504) Deyro Kas yolu ilə Reyə Gedib, oradan Cəlavilərin yiyələnmiş olduqları Külxəndan qalasına təşrif gətirdi. O qala iki günə fəth olundu. Orada və Dəmavənddə qətl və qarət etdilər (M-2166). O günlərdə sədarətə Qazı Məhəmməd Kaşi ilə Mövlana Şəmsəddin şərik oldular.

[Şah İsmayıl] şəvval [ayının] 11-də (28 mart 1504) Firuzkuh qalasını mühasirə etdi. 15 gündən sonra oranın hakimi Əli Kiya Zamandar fələyə bənzər dərgaha gəldi və qalanı təslim etdi. Dünyanı gəzən ordu (Şah İsmayıl) həbəlrud yolu ilə Hüseyn Kiya Cəlavi və Murad bəy Cahanşahinin[113] olduqları Osta qalasının altına gedərək [onu] mühasirə etdi. Bir aydan sonra qalanın suyunu axıtdılar. Hüseyn Kiya zilhiccə ayının əvvəlində (mayın ortaları, 1504) əlacsız qalıb, dostları ilə bayıra çıxdı. Müzəffər döyüşçülər [başqalarına] ibrət üçün Murad bəyi kabab etdilər. Hüseyn Kiyanı qəfəsə saldılar. O, özünü öldürdü. Cəsədini savucbulağın Quhə [adlı yerində] yandırdılar.

Qalanın altında olan vaxt Sultan Hüseyn mirzə Kürəkaninin atasından incimiş oğlu Məhəmmədhüseyn mirzə sığınmaq üçün dünyanın pənahı [Şah İsmayılın] dərgahına gəldi (B-2456). Karkiya Mirzə Əlinin qardaşı Karkiya Sultan Hüseyn fələyə bənzər dərgaha gəldi və razı salınmış halda öz ölkəsinə getdi.

Bu il «Namurad» [Sultan Murad] Bağdada getdi.[114] Yəzdin hakimi Murad bəy Bayandur oranı öz vəziri Sultan Əhməd Saruqiyə tapşıraraq, öz köçü və adamları ilə Herata getdi.

Ali divandan[115] Yəzdi tiyul[116] olaraq Lələ bəy [adı] ilə məşhur olan Hüseyn bəy Lələyə verdilər. O, Cuqə adlı birisini oranın darğalığına[117] göndərdi. Sultan Əhməd onu hörmətlə qarşılayıb, hər cür xidmət göstərməkdə heç nəyi əsirgəmədi. Elə ki, bir neçə gün keçdi, Sultan Əhməd Cuqə bəyi hamamda öldürdü. Başına bir qədər piyada toplayıb Yəzdi zəbt etdi. Bayandurilərin vaxtında istiqlaliyyət tapmış Rəis Məhəmməd Kərə Yəzdi mühasirə etməyə getdi. Bir neçə gündən sonra oranı tutdu. Sultan Əhmədi və onun mülazimlərini öldürüb, hakimiyyəti ələ aldı.[118]

910-cu ildə (14.VI.1504 - 3.VI.1505) Cəlal bayraqları (Şah İsmayıl) (M-217a) Hüseyn Kiyanı dəf etdikdən sonra Təxti-Süleyman yaylağına təşrif gətirdi. Qışı İsfahanda keçirdilər. Həmin qışlaqda Mir Miraniyyəni və onun qohumlarını məhv etdilər.

Cümadiəs-sani [ayının] 28-də (6 dekabr 1504) Yəzdi mühasirə etmək üçün hərəkət etdilər. Şəhərin özünü 20 gündən sonra və ondan daha 20 gün sonra

qalasını tutdular. Ondan sonra hamını qətl etdilər. Məhəmməd Kərəni qəfəsə saldılar.

O günlərdə Sədr Əmir Kəmaləddin Hüseyn (Xorasan hakimi) Sultan Hüseyn mirzə Kürəkan tərəfindən Şah İsmayıla elçi gəldi. Buna görə əlahəzrətin qəlbi qaraldı.

[Şah İsmayıl] oradan kiləklərin Təbəs [şəhərinə] basqın etdi. Çərşənbə [günü] şaban [ayının] 2-də (8 yanvar 1505) qətl etməyi buyurdu. 7-8 min adamı öldürdülər və Yəzdə[119] qayıtdılar.

Şiraz hakimi Zülqədər Keçəl bəy [adı ilə] məşhur olan İlyas bəyi etdiyi günaha görə öldürdülər. Yəzd vilayəti Lələ bəyə verildi.

Şaban [ayının] 26-da (26 yanvar 1505) çaharşənbə [günü] İsfahana təşrif gətirdilər.

Məhəmməd Kərə yolda özünü öldürdü. Cəsədini İsfahana gətirdilər və onun bütün adamlarını - kişili, qadınlı bu ilin şəvval [ayında] (mart 1505) yandırdılar.[120] Bu zaman Zülqədərin qaziləri (döyüşçüləri) Məhəmməd Kərənin əmisi oğlu Rəis Qeybinin[121] zəbt etdiyi Əbərquhu tutdular və onu Şirazda qətlə yetirdilər.

Qazı Mir Hüseyn Mibədi[122] Yəzddə öldürüldü.

Bu qışlaqda Rum padşahı Sultan Bayəzid Osmaninin[123] elçisi fələyə bənzər dərgaha gəldi. Pələng ilinin novruzundan sonra, pəncşənbə (günü) şəvval ayının 17-də (23 mart 1505) Şah İsmayıl Surluq və Təxti-Süleyman yaylağına[124] təşrif gətirdi.

911 (4.IV.1505-23.V.1506)-ci ildə Şirvan Təbərsəranında iştirak edənlər[125] dindirildi və Sultan Heydərin öldürülmə hadisəsinin [tədqiqi] qorçibaşı Dədə bəyə tapşırıldı. Buna görə riyakarlardan çoxlu adam (B-2456) öldurüldü.[126]

(M-2176) Şiraz vilayətinin [idarəsi] bir neçə günlüyə Mənsur bəy Əfşara həvalə olundu. Süleyman Zülqədər qəzəbə gəldiyi üçün cəzalandırıldı. Zülqədər qoşununun [başçılığı] Ümmət[127] Sarı Şeyxlu Zülqədərə tapşırıldı və ona Sultan Xəlil ləqəbi verdilər. Şiraz vilayətinin [idarəsi] ona layiq görüldü.

Uğurlu qışlaq Əcəm İraqının Tarım [şəhəri] oldu.

Zəfər rəmzli bayraqlar (Şah İsmayıl) o vaxt Əmirə Dubacın atası Əmirə Hücaməddinə tabe olan Gilanın Biyəh-pəsinə yürüş etməyi qərara aldı. Nəhayət, xaqan (Şah İsmayıl), fələyə bənzər dərgahına yaxın olan adamlardan olan Şeyx Nəcm Zərgər[127a] Gilaninin xahişi ilə oraya olacaq qəsddən imtina etdi.

[Şah İsmayıl] zəfər təsirli əsgərlərinin düşərgəsi olan Zəlrud Altunkeşə geri qayıtdı. Tarımın hakimi Çəlipa bəy Xalxalı cəzalandırdı.

Dovşan ilində (mart 1506 - mart 1507) ali ordu Şah İsmayıl Sultaniyyə və Qidar yaylağına gəldi. Ov edə-edə Azərbaycana təşrif gətirdi. Qışı Xoyda keçirdilər. Qalib əsgərlər özünü tamamilə müstəqil aparan Sarım bəy Kürdü dəf etmək üçün göndərildi. Kürdlər hündür dağlara və əlçatmaz yerlərə çəkildilər. Əbdi bəy Şamlu və Sarı Əli Möhrdar bu mərəkədə öldürüldü. Bu hadisə 912 (24.V.1506 - 12.V.507)-ci ildə oldu. Ondan sonra balıq ilində (mart 1507 - mart 1508)

Əlaüddövlə Zülqədərin ədəbsizliyi xəbəri [Şah İsmayılın] qulağına çatdıqda, onun vilayətinə yürüş etmək qərara alındı. Əvvəlcə Oğlan Ümmət Çavuşlu Ustaclunu[128] elçi sifəti ilə onun yanına göndərdilər. Sonra onu (Əlauddövlə Zülqədəri) Korgöldə həbs etdilər. O, iki il məhbus oldu. Bir gecə yuxuda gördü ki, nəvvabi-əlahəzrət Şah [İsmayıl]  ona deyir:

- Özünü suya vur və üz. Sudan çıxandan sonra özünü bizə çatdır. O, belə də etdi, xilas oldu və dünyanın pənahı [Şah İsmayılın] dərgahına gəldi (M-218a). Xoyun Yəzdəkan kəndi o tarixdən ona və övladına mərhəmət edildi.

Xülasə, Oğlan Ümmət getdikdən sonra cəlal bayraqları (Şah İsmayıl) Rum Sultanlığının sərhəddindən keçdi. Dədə bəyi ordunun ön dəstəsi etdilər. O, hökmün əksinə olaraq, Sahan çayını keçib düşərgə saldı. Əlaüddövlə zülqədərləri gecə xəbərsiz okun üstünə düşüb, məğlub etdilər və yenə çaydan keçib dayandılar. Qələbə rəmzli bayraqlar (Şah İsmayıl) döyüş olan yerə çatdıqda, vəziyyətdən xəbərdar oldu. Bir-iki mənzil[129] irəli gedib, Aqçaqşan dağının ətəyində düşərgə saldı. Arxa tərəflər möhkəm və ağacla dolu meşə olduğuna görə onun bəzi vilayətlərini qarət etdilər. Zülqədərlərin işğal etdikləri Xərbərt qalasını qəzəb və zorla tutub, geri qayıtdılar.

913 (13.V.1507 - 1.V.1508)-cü ildə (B-246a) Əlvənd hadisəsindən sonra Diyarbəkri ələ keçirmiş, ata-babadan o təbəqənin əmir və əmirzadələri olan Əmir bəy Mosullu öz ailəsi və ulusu ilə dünyanın pənahı [Şah İsmayılın] dərgahına gəldi. Şahanə mərhəmətlərlə başı uca oldu və əmirlər cərgəsinə daxil edildi. Hədiyyə verdiyi şeylərdən Dəvəgözü ləli məşhurdur.

Bu il Diyarbəkr vilayəti tayfanın nəsilbənəsil əmiri olan Xanməhəmməd ibn Mirzə bəy Ustacluya verildi. Ona o vilayətdə cürbəcür qələbələr nəsib oldu. O, vilayəti qılınc gücünə təmizlədi. O cümlədən Əlaüddövlə Zülqədərin həddən artıq bahadırlığına görə Sarı Qaplan adlandırılan oğlunun başçılığı altında olan qoşunun üstünə bir ordu göndərdi. O, Hərzində qışlayan zaman düşmənləri hədsiz-hesabsız ordu ilə onunla müharibə etdilər, (M-2186). Cənnətməkan Şah [İsmayıl] sayca az qüvvəsinin köməyi ilə qalib gəldi. Sarı Qaplan və oğlu öldürüldü. Zülqədərlərin başqa qohum və əyanları bu mərəkədə qətl edildilər, əsir [alındılar], başlarını və bədənlərini qoydular. Onların başlarını Xoy qışlağında ali dərgaha gətirdilər.

Əlaüddövlə öz oğlanları Kor Şahrux və Əhməd bəyi 14 min atlı ilə Xanməhəmmədi dəf etmək üçün göndərdi. Döyüşdən əvvəl hər iki tərəfin «itləri» bir-birinin üstünə cumdu. Nəhayət, Ustacluların ordusunun «itləri» Zülqədərlərin ordusunun «itlərinə» qalib gəldilər. Xanməhəmməd bunu yaxşı fal hesab edib, ürəyini qələbəyə bağladı və döyüşə başladı. Xanməhəmməd bir dəstə ilə pusquya durdu. Zülqədərin qoşunu bir az qələbə qazanıb, qarətə başladı. Xanməhəmməd və dostları pusqudan çıxıb, onları qılınclamağa başladılar. Əlaüddövlənin oğlanları, öz tayfa başçıları ilə öldürüldülər. Onların başlarını dünyanın pənahı Şah [İsmayılın] dərgahına göndərdilər.

914 (2.V.508 - 20.IV.1509)-cü ilə müvafiq olan İlan ilində (mart 1508 - mart 1509) cənnətməkan Şah [İsmayıl] Ərəb İraqını işğal etmək üçün yola düşdü. Həmədanın yaylaqları padşahın düşərgəsi oldu. Orada müxalifətçi Zülqədərlərin [kəsilmiş] başlarını dünyanın pənahı [Şah İsmayılın] dərgahına çatdırdılar. Orada Mir Nəcm Zərgər Gilaniyə inanılıb vəkillik mənsəbi verildi [o], hakimlər arasında əmirlərin möhrü üstündən möhür vurdu. Maliyyə işlərində dəyişiklik etdi və türk əmirlərini maliyyə işlərinə daxil etmədi. Mülki işlərdə ən əsas [şəxs] o oldu.

Dünyanın hakimi [Şah İsmayılın] hökmünə görə Xəlil Yasavul[130] Bağdad hakimi Barik bəy Pornak üçün qiymətli xələtlər aparıb, onu itaətə dəvət etdi. Barik [bəy] ona təzim etdi, öz şirəçisi Əba İshaqı ali taxtın ayağına (yəni, Şah İsmayılın hüzuruna) göndərib öz səmimiyyətini və itaətini ərz etdi (M-219a). Cənnətməkan Şah [İsmayıl] buyurdu:

- Biz bir halda ki, onu sadiq bilirik, dayanmadan bizim xidmətimizə gəlsin.

Əba İshaq (B-247a) geri qayıdıb, bu sözü ona çatdırdı. O, bundan qorxuya düşüb, üsyana başladı. Əvvəlcə tacını tulladı, sonra Ərəb İraqının əsil-nəcəbli başçılarından olan Seyid Məhəmməd Kəmunəni - tutub zindana saldı. Qalaya çoxlu azuqə gətirdi və qalanın möhkəmliyinə güvəndi. Elə ki, bu xəbər Cəlal Sahibi [Şah İsmayılın] qulağına çatdı, Lələ bəyin ön dəstəsinin ölkələr tutan bayrağını o tərəfə yönəltdi. Bariki (bəy) qaçmağa qərar verdi. Bağdadlılar Seyid Məhəmmədi zindandan çıxarıb, şahın adına xütbə oxuyub, sikkə zərb etdilər.

Qələbə rəmzli bayraqlar [Şah İsmayıl] cümadiəs-sani [ayının] 20-də (16 oktyabr 1508) Bağdada gələrək Pirbudağın[134] Çaharbağında əzəmətlə yerləşdi.

[Şah İsmayıl] o zaman Ətabati-aliyyəni[135] ziyarət etmək səadətinə çatdı. Ondan sonra əhalisindən həmişə əzab çəkdikləri Qəzyə[136] ərəblərinin vilayətinə hücum edib, qələbə qazandı. O camaatı şahanə cəza ilə cəzalandırdı. O çöldə xoş əhvali-ruhiyyə ilə şir ovu etdilər. O, (Şah İsmayıl) çoxlu ov etməsi ilə başqalarından fərqləndi. Oradan Bağdada təşrif gətirən zaman, oranın hakimliyini divan əmiri Xülafə bəy Talışa verdilər.

Ətabatın hamiliyini Seyid Məhəmməd Kəmunəyə layiq bildilər. Ona əmirlik rütbəsi, təbil, bayraq verib ordu və qulluqçularının sayını artırdılar.

Cəlal bayraqları (Şah İsmayıl) oradan məzhəbi həddən artıq şişirdən Xuzistanı istila etmək üçün yollanmağı qərara aldı.

Cahangirlik bayrağı (Şah İsmayıl) Hüveyzə[137], tərəf hərəkət edib, o vilayəti işğal etdi. Yol gedərkən Əmir Nəsm Gilani və Bayram bəy Qaramanı Şah Rüstəm Abbasinin ulusuna basqın etmək üçün göndərdilər. Hüveyzə işğal olunandan sonra (M-2196) bu inadkar tayfanı məhv etdilər. Kuh Giləvə yolu ilə Şiraza gəldilər və qışlaq orada vaqe oldu.

Bu vaxt Lur hakiminin yanına elçi getmiş Əxi bəy oranın hakimi Mir Əlaülmülkün hədiyyəsi ilə uca dərgaha gəldi. Həmçinin orada Əmir Yarəhməd Xuzani İsfahani və Mövlana Şəms vəzirlik mənsəbi və vergi yığmaq hüququ aldılar.

Elə ki, at ilinin (1509-cu ilin) baharı oldu, İraqı [işğal etmək] qəsdi ilə yola düşdülər.

915-ci ilin səfər [ayında] (21.V - 18.VI.1509) bütün sədarətə, əmirlərə başçılıq edən, bəzi vaxtlarda

Yəzd, Kaşan və bəzi vaxtlarda Şiraza da hakimlik etmiş Qazı Məhəmməd Kaşi Əmir Nəsm Gilaninin ədavəti ilə qətlə yetirildi. Həmçinin bu bir neçə gündə Qəzvin, Savucbulaq, Rey və Xar hökumətini idarə edən Abdal bəy Dədə Zülqədər əmirlikdən çıxarıldı. Onun (idarə etdiyi) vilayətləri Zeynal xan Şamluya tapşırdılar.

Sədarət ata tərəfdən nəsli Mazandaran valisi Məhəmməd ibn Zeydə, ana tərəfdən əllamə[138] Cürcaninin şərafətli nəvələrinə çatan Mir Seyid Şərifəddin[139] Əli ibn Seyid Tacəddin Əli ibn Mir Mürtəza Astarabadi (B-2476) əl-əsl Şiraziyə[140] verildi. Ondan sonra kainatı çapan ordu Azərbaycana gəldi. Bir neçə gün Təbrizdə dayandı. Lələ bəy Şamlu[141] divanı idarə etməkdən kənar edildi. Divanı idarə etmək vəzifəsi Məhəmməd bəy Ustacluya[142] mərhəmət qılındı. [Ona] Çayan Sultan ləqəbi verdilər. O, əvvəllər süfrəçi[143] idi. Əmir Nəcm Gilani[144] Xamnədə sətəlcəm xəstəliyindən vəfat etdi. Əmir Yarəhməd Xuzani onun yerinə vəkil olub, «Əmir Nəcm-sani» ləqəbini aldı. Qışlaq Xoyda oldu. Qış vaxtı Şirvana yürüş başlandı. Şeyxşah ibn Fərrux Yəsar Biğord qalasına pənah apardı. Bakı və Şabran qalalarının qalabəyləri isə dünyanın pənahı [Şah İsmayılın] dərgahına gəldilər.

(M-220a) Dəmir qapı Dərbəndin mühafizəçiləri müxalifət göstərdilər. Qələbə nişanlı bayraqlar (Şah İsmayıl) o tərəfə hərəkət etdi. İşləri çətinləşəndən sonra oranın qalabəyləri Yarəhməd ağa və Məhəmməd bəy fəaliyyətdə olan xilafət taxtının ayağına gəldilər. O qala da alındı. Oranın hökuməti Mənsur bəyə, Şirvanın başqa [vilayətləri] Lələ bəyə verildi.

Həzrəti-Sultan Heydərin sümükləri Təbərsərandan darülirşad Ərdəbilə köçürüldü. Qələbə ayəli bayraqlar (Şah İsmayıl) Qarabağa gəlib qışladı. Qoyun ilinin (1510) baharında İraqın Xərrəqan yaylağına yola düşdülər.

916 (10.VI.1510 – 30.III.1511)-ci ildə özbəklərin Kirmana hücumu [Şah İsmayılın] şərəfli qulağına çatsaq, Qazı İsa Sədr Yəqubinin qardaşı oğlu Qazı Nurullah Ünsini, daha sonra Şeyxzadeyi-Lahisi [adı ilə] məşhur olan Şeyx Məhyəddin Əhmədi özbək Şeybani xanın[145] yanına elçi göndərdilər ki, onu bu hərəkətdən çəkindirsinlər. O, (Şeybani xan) axırıncı dəfə Əmir Kəmaləddin Hüseyn Əbivərdini ali dərgaha göndərib, özü haqqında lovğalıq etdi. Belə hərəkət [Şah İsmayılın] şərəfli xatirinə ağır gəlib, yaylaqdan Xorasana yönəldi. Elə ki, Damğana çatdılar, Şeybək[146] xanın kürəkəni Əhməd Sultan[147] və Astarabad hakimi Xacə Əhməd Qənqərat[148] oradan qaçdılar. Həmçinin Xorasanın əksər vilayətləri özbəklərdən təmizləndi.

Yüksək divanın darğaları təyin edildi. Cənnət-məkan xaqan [Şah İsmayıl] yüksək mərtəbəli cənnətdə [İmam] Əli Rzanın[149] məzarını ziyarət etmək şərəfinə nail oldu. Oradan Sərəxs tərəfə üz tutdular. Şeybək xan rəcəb (oktyabr) ayının

axırlarında tələsik Heratdan Mərvə yönəldi. Dana Məhəmməd (B-248a) Əfşar hədsiz-hesabsız ordu ilə ön dəstədə yola düşdü. Tahirabad vilayəti ətrafında özbəklərin qoşununa rast gəldi. Məqlub olmuş özbəklər Mərvin [qala] divarlarının qapısına qədər qaçdılar. Onları təqib edən ali ordu Mərvi mühasirə etdi. Mühasirədən fayda olmadığına görə çaharşənbə günü şaban [ayının] 28-də (30 noyabr 1510) şəhərin ətrafından qalxıb, Mahmudi çayının körpüsündən şəhərə qədər olan 3 fərsəng[150] yolu keçib düşərgə saldılar. Pəncşənbə gününədək orada dayandılar.[151] Etimada layiq olan adamla Şeybək xana məzəmmətlə dolu məktub göndərildi. Səhərisi, cümə günü ordu Qələxtəna köçdü. Əmirxan ləqəbi almış Əmir bəy Mosullunu körpünün üstündə qoydular.[502] Qərara aldılar ki, əgər düşmənlərin qaraltısı görüncə, döyüşə başlamadan özünü ali orduya çatdırsın. Şeybək xan bu taktikadan xəbərsiz 15 min atlı ilə qaladan çıxıb hücuma [başladı]. Əmir bəyin qaçmasını da onun zəifliyi hesab edib, Mahmudi çayının körpüsündən keçdi. Cəlal bayraqları (yəni, Şah İsmayılın əsas qoşunu) dərhal o tərəfə qayıdıb, hücuma hazırlaşdı. Döyüş başlandı. Səhərdən günbatana qədər bərk qırğın oldu. Şeybək xan qorxuya düşərək özünü 500 [nəfər] süvari ilə xaraba qalaya salmaqla canını qurtarmaq istədi. Burun Sultan Təkəlu və başqa qazilər ona hücum etdilər. Özbəklər təşvişə düşüb, bir-birlərinə dəydilər. Şeybək xan o basabasda əl-ayaq altında həlak oldu. Zəfər aqibətli qazilər onun başını kəsib, [Şah İsmayılın] şərəfli hüzuruna gətirdilər.[153] Kama çatmış cənnətməkan əla-həzrət [Şah İsmayıl] o qalanın içərisinə gəlib, öldürülən özbəklərə tamaşa etdi.

Özbəklərin Canvəfa mirzə və Qənbər kimi əksər sərkərdələri tutulub öldürüldülər. Şeybək xanın şiə məzhəbli vəziri Xacə Mahmud Sağərçi Mərvdən şəhərin açarını [Şah İsmayılın] dərgahına göndərdi (M-221a). Ona şahanə qayğı göstərildi və o ali divanın vəzirləri cərgəsinə daxil edildi. Bu hadisənin tarixi «Fəthişahi-din-pənah»dır.[154] (Dinin pənahı şahın fəthi).

Qələbədən sonra əzəmət və cəlal bayraqları (Şah İsmayıl) xoşbəxt tale ilə darüssəltənə Herata təşrif gətirdi. Oranın hökuməti Lələ bəyə və Mərvin hökuməti Dədə bəyə verildi.

Heratın şeyxülislamı, yəni Seyfəddin Əhməd ibn Yəhya ibn Mövlana Sədəddin Təftəzani sünni olduğuna görə öldürüldü.

Xanmirzə [adı ilə] məşhur olan Mirzə Sultan Üveys ibn Mirzə Sultan Mahmud xidmətə gəldi. Nəvaziş tapdı və məskəni olan qalaya şad getdi.

Meymun[155] ilində (mart 1511 - mart 1512) - 917 (31.III.1511 - 18.III.1512)-ci ildə cəlal bayraqları (Şah İsmayıl) Mavəraünnəhri[156] istila etmək üçün Meymənə və Faryabı tutdu. Qələbə çadırları quruldu. Özbək sultanları və xanları şəfaət qapısına gəldilər. Yenilməz simalı dövlətin böyükləri vəzir Xacə Mahmudu günahlarının bağışlanması və Amu-Dərya çayını keçməyin dayandırılması üçün vasitəçi etdilər.

Cənnətlik hökmdar [Şah İsmayıl] Bəlx, Əndəxud, Şibirğan, Çiçəktu, Meymənə, Faryab, Murğab və Ğərcestanı bacısının əri Bayram bəy Qaramanluya layiq bildi.

Şah İsmayıl Xorasandan İraqa təşrif gətirdi. O günlərdə 15 minə yaxın Təkəlu tayfası Rumda (Türkiyədə) üsyan edərək, Rum əmirləri ilə bir neçə dəfə vuruşduqdan sonra, Ərzincan ətrafında 500 nəfər camaatı olan qafiləni qarət və qətl etdikdən sonra ali dərgaha üz tutmuşdular. İraqın Şəhriyar [adlı yerində] onların sərdarlarını cəzalandırıb, həmin camaatı əmirlərə bölüşdürdülər ki, onların xidmətində olsunlar.

Qışlaq Qumda oldu. Mazandaranın gündən-günə yüksələn hakimləri Seyid Əbdülkərim və Ağa Məhəmməd dünyanın pənahı [Şah İsmayılın] dərgahına gəlib, oranın təyin olunmuş 30 min tümən məbləğində [vergisini] verdilər.

Mir Seyid Şərif sədarəti tərk edib (M-2216) Əta-bati-Aliyyəni ziyarətə getdi. Bu mənsəb darülibad[157] Yəzddə taxta istiqamət verməkdə təmkinli olan Nemətüllahi Seyid Əbdülbaqiyə həvalə olundu.

[Şah İsmayılın] qələbəsini təbrik etmək üçün Misir və Şamın padşahı Qancunun[158] və Rumun padşahı Sultan Bayəzidin[159] elçiləri dərgaha gəldilər.

Həmçinin bu ildə Osmanlı Sultan Səlim[160] öz atası Sultan Bayəzidə və qardaşlarına qələbə çalaraq, bəzilərini aradan götürməklə taxta oturdu.

Sultan Murad ibn[161] [Sultan Bayəzid] qorxudan qaçıb dünyanın pənahı [Şah İsmayılın] dərgahına pənah gətirdi.

Şah [İsmayılın] bəndələrinin köməyi ilə Mavəraənnəhri istila edən Babur padşah Kürəkanidən[162] müxalifət nişanəsi gözlənilmirdi. Lakin qışlaqda olarkən onun dönük çıxması xəbəri gəlib çatdı. Əmir Nəcm Sanini onu tənbeh etmək üçün göndərdi. Bayram bəy Qaramanlu kimi başqa Xorasan əmirlərinin ona kömək etməsi qərara alındı.

[Şah İsmayıl] zilhiccə ayının axırında (1512-ci il fevralın axırında) Qumdan Xorasana yola düşdü. Meymun ilində (1512) yayı keçirmək üçün Surluq və Təxti-Süleymana gəldi. İsfahanda qışladı.

Əmir Nəcm 918 (19.III.1512 - 8.III.1513)-ci ildə Şərq tərəfə yola düşərək, köç edə-edə Bəlxə çatdı. 20 gün orada dayandı və Heratdan özü ilə gətirdiyi Yusifin nəvəsi Mir Məhəmmədi Mirzə Babur padşahı gətirtmək üçün Şadman qalasına göndərdi. [O], rəcəb ayında (12.IX - II.X.1512) Termezdən keçdi.

Dəmir sədd adlandırılan Təngçiçəkdə Babur padşah (B-249a) onun yanına gəldi. Ondan sonra onun tərəfindən ziyafət, riayət, töhfə və hədiyyələr verildi və Mavəraünnəhrə getdilər. Həraz qalasının hakimi Ağpolad Sultan müqavimət göstərməyə qüdrəti olmadığına görə sülh üçün [qaladan] çıxdıqda tutuldu. Bulqutur Bahadır Yurhəngi[163] qalada müdafiə olunmağa başladı. [O], özbək camaatı ilə öldürüldü. [Oradan] (M-222a) Qərşiyə getdilər və oranın hakimi Şeyxəli mirzə müqavimət göstərməyə başladı. [Əmir Nəcm Sani] oranı zorla və qəzəblə tutub qırğın törətdi. 15 minə yaxın adam öldürüldü. Şair Mövlana Binai[164] də bu vaxt iti

qılınc meydanında öldürüldü. [Ordu] oradan köç edib, Buxaranın 2 fərsəxliyində dayandı. Orada məlum oldu ki, Məhəmməd Teymur ibn Şeybək xan və Əbusəid Kuçkunci Canibəy xan və Übeyd xan Buxaraya gəlirlər. Nəcm-Sani buna görə Bayram xan Qaramanlunu bir dəstə əsgərlə onları dəf etmək üçün göndərdi. Özbəklər müqavimət göstərə bilmədikləri üçün özlərini Ğucdevam qalasına saldılar. Əmir Nəcm-Sani bunu eşitcək qalan əsgərləri ilə oranı mühasirə etmək üçün getdi. Bir neçə gün qalanın altında durdu. Oraların vəziyyətindən xəbərdar olan Babur padşah və vəzir Xacə Mahmud Əmir Nəcmə burada qalmağı məsləhət görmədilər. [O], bunu qəbul etmədi. Sabahı seşənbə günü ramazan [ayının] 3-də (12 noyabr 1512) Canibəy xan və Übeyd [xan] Buxaradan Ğusdevana üz tutdular. Ğusdevanın daxilində olan özbək əmirləri qaladan çıxıb, onlarla birləşdilər və döyüş başlandı. İraq (Səfəvi) qoşununa yaman göz dəydi. Bayram bəy döyüşün əvvəlində öldürüldü. Ondan sonra Əmir Nəcm və Əmir Zeynalabidin Səfəvi qətl edildilər. Babur padşah davadan qaçmağı «igidlik» hesab edərək, Şadman qalasına üz tutdu.

Qızılbaş qoşunu məğlub oldu. Buna görə özbəklər cəsarətləndilər. Canibəy xan zilqədə ayının əvvəllərində (1513-cü il, yanvarın əvvəli) Heratı mühasirə etməyə gəldi və Kuhdestan (çəmənliyində düşərgə saldı. Onun ardınca Übeyd [xan] gəlib, Səqsəlmanda dayandı. Mühasirə 2 ay davam etdi. Bu acı xəbərlər İsfahanda [Şah İsmayılın] qulağına çatdı. Xorasana yürüş etmək qərara alındı.

Toyuq ilində (mart 1513 - mart 1514) - 919 (9.III.1513 - 25.II.1514)-cu ildə özbəklər Herat qalasından tərpəndilər. Canibəy Ceyhun çayından keçib, (M-2226) öz ölkəsinə getdi. Lakin o yaxınlıqda çayı keçmiş Məhəmməd Teymur Murğa yaxınlığında Übeydlə birləşərək birlikdə müqəddəs Məşhədə tərəf getdilər. Mərvdən Əsfərainə qədər [olan yerləri] işğal etdilər. Heratda azuqə çatışmazlığına görə Lələ bəy, Əhməd bəy Sufi oğlu Ustaclu müqavimət göstərməyi məsləhət bilməyib, Sistan və Təbəs yolu ilə İraqa gəldilər. Bu xəbəri Herat camaatından (B-2496) Xacə Əbulvəfa və başqaları Teymur Sultana çatdırıb, onu oraya dəvət etdilər. O da tələsik [gəlib[ oradakı Cahanara bağına düşdü. Herat sünniləri əl-ələ verib şiə olduqlarına görə çoxlu adamı öldürdülər. Axırda Mir Məhəmməd [ibn] Mir Yusifin[165] tədbiri ilə fitnə bir qədər sakitləşdi.

Bu tərəfdən qələbə ayəli bayraqlar [Şah İsmayıl] Herata tərəf yollandı. savuçbulağın Sarıqamış [adlı] yerinə çatdıqda vəkillik mənsəbi və əmirül-üməralıq Mir Əbdülbaqi Nemətüllahiyə verildi və «Pəsəxisiz sultan» ləqəbi aldı.

Bu vaxt Seyid Şərif Ətabati-aliyyatdan geri qayıdıb fars [vilayətinə] getmişdi. Onun üçün qiymətli xələt göndərdilər və sədarəti ona layiq bildilər. Bu iki böyük şəxsiyyət arasındakı narazılıq Mir Əbdülbaqinin qızının Mir Seyid Şərifə ərə getməsi ilə aradan qaldırıldı. Hazırda yaşayan Mir Seyid Şərif 920-ci ilin zilqədə [ayında] (18.XII.1514 - 16.I.1515) o qızdan dünyaya gəldi.

Xülasə, elə ki, qələbə aqibətli (Şah İsmayıl) Xorasan tərəfə hərəkət etdi və Bistamın Kalpuş yaylağına çatdı, Şiraz hakimi Sultan Xəlili ön dəstə olaraq [irəli]

göndərdi. Özbək Übeyd [xan] bu xəbəri eşitcək Məşhədi-müqəddəsdən hərəkət edib, Şüştər yolu ilə Carcuy keçidindən keçib Buxaraya getdi. Oranın böyüklərindən bəzilərini özü ilə apardı. Həmçinin Teymur Sultan da Heratın zadəganlarını, [o cümlədən] Mir Məhəmməd ibn Mir Yusifi özü ilə götürüb Səmərqəndə qaçdı.

Bu illərdə o ölkədə müstəqil bir hakim qalmadığına görə (M-223a) Sultan Hüseyn mirzə [Bayqara] zamanında böyük etibar qazanmış, Şeybək xan vaxtında böyüklük əldə etmiş və [onun] oğlu Məhəmməd Teymurun hakimliyi vaxtı görkəmli bir şəxs olmuş Əbülqasim Bəxşi baş qaldırdı. İstədi ki, bu hərcmərclikdə dövləti idarə edən mütləq hakim kimi hamını özü ilə birləşdirib, fitnəyə başlasın. O, bir neçə gün Heratı mühasirə etdi.

O zamanlar Fuşəng hakimi təyin olunmuş Piri Sultan həmin vilayətə çatdıqda, onun (Əbülqasim Bəxşinin) fitnəsi aradan qalxdı.

Cəlal bayraqları (Şah İsmayıl) Kalpuşdan Radeqan çəmənliyinə gəldi. Dədə bəy Mərvi qoyub qaçdığına görə, başqalarına ibrət üçün [ona] arvad paltarı geyindirib, eşşəyə mindirdilər və ordunun ətrafında dolandırdılar.

Heratın idarəsi Zeynal xan Şamluya, Bəlx və [ona] tabe olan [yerlər] Div Sultan adlandırılan Əli bəyə və Qayin Əmirxan Mosulluya verildi.

Şah İsmayıl Babaxaki yaylağına yollanaraq, Şahrux Sultan Əfşarı o ölkənin Qəndəhar və Gərmsir [şəhərlərini] işğal etmək üçün göndərdi. O, oranın hakimi Şüca bəy Ərğun ilə sülh edib, onun (B-250a) hədiyyələrini [Şah İsmayılın] ali dərgahına gətirdi. Qışlaq İsfahanda oldu.

Mir Əbdülbaqi, Çayan Sultan Ustaclu və Cuhə sultan ləqəbi almış Bəxşi bəy Təkəlu Nəsa [şəhərində] Sultan Məhəmməd ibn Bayqara ibn Əbu Möhsin mirzə) ibn Sultan Hüseyn mirzəni hakimiyyət başına kətirmiş Rəhmanqulunu dəf etmək üçün yola düşdülər. Onlar əsas işin öhdəsindən gəlib, İsfahan qışlaqında dünyanın pənahı [Şah İsmayılın] dərgahına gəldilər.

Bu ilin zilhiccə [ayının] 26-da (22 mart 1514) kama çatmış, şahanə bəxtli, Allahın kölgəsi, dinin pənahı Şah Təhmasibin - hakimiyyəti əbədi olsun - səadətli təvəllüdü mübarəklik və xoşbəxt tale ilə üz verdi.

İt ili (mart 1514 - mart 1515)-920-ci ildə (26.II.1514 - 14.II.1515) Rum padşahı Sultan Səlim ibn Sultan Bayəzid Osmani öz atasını dəf etdikdən, hakimiyyətini sabitləşdirdikdən sonra Azərbaycanı fəth etmək eşqinə düşüb, onun sərhəddinə yaxın gəldi. Bu xəbər İsfahanda izzət və cəlalın [Şah İsmayılın] qulağına çatdıqda, onun zərərini aradan qaldırmaq üçün Azərbaycana tərəf yollandı. Çurəsə çatdıqda, Diyarbəkr qoşunu Xanməhəmməd Ustaclu ilə gəlib yetişdi. Xoyun Çaldıran [adlı yerində] iki qoşun arasında müharibə oldu. Bu mərəkədə, islamiyyətin əvvəl çağlarında müqəddəs döyüşlərdə üz verdiyi kimi, Durmuş xan Şamlu və başqa əmirlərin qüruru nəticəsində Qızılbaş ordusuna göz dəydi.

Mir Əbdülbaqi, Mir Seyid Şərif, Seyid Məhəmməd Kəmunə, Xanməhəmməd Ustaclu, Sarı Birə Lələ bəy, Sultanəli mirzə Əfşar, şirəçi Pir Ömər bəy Çavuşlu şəhadət şərbəti içdilər (öldürüldülər).

Cənnətməkanlıq hökmdar [Şah İsmayıl] qoşunun məğlubiyyətinə, nə sağ və nə sol cinahın döyüşə bilməməsinə baxmayaraq, özünü düşmən qoşununun ortasına vurub, onların arasına vəlvələ saldı.

Arabaları zəncir ilə bir-birinə bağlayıb qoşunu almaq onların döyüş tərzi olub, zərbəvuran toplardan atəş açdıqlarından Heydəri[166] hökmdar (Şah İsmayıl) ondan çəkinmədən sürət addımı atıb Əmr Əbdövüd[167] kimi şücaətli olan Malqoçoğlunun başına elə bir qılınc vurdu ki, sinəsinə qədər onu parçaladı. Arabalara çatıb qılıncla arabaların möhkəm zəncirini kəsdi. Yeniçərlərin[168] bir bölüyünü parça-parça etdi. Belə bir vaxtda xəbərdar oldular ki, bütün Qızılbaş qoşunu qaçmışdır, nə sağ cinah möhkəmdir, nə sol cinah. Bir sözlə, o şahsuvarın (Şah İsmayılın) əsil nailiyyət cilovu istər - istəməz geri döndü.

(B-2506) Bundan sonra o, hər nə etdisə, faydasız oldu. Aradan salamat çıxıb Dərcəzinə qədər getdi. Sultan Səlim ardınca gəlib Təbrizdə dayandı. Bundan artıq [irəliləməyə] sürət etmədi və (M-224a) tələsik yola düşüb Ruma geri qayıtdı. [Sultan səlim] ali ordu ilə [Şah İsmayılla] gedə bilməyib, geridə qalan qızılbaşların bəzilərini əsir edərək, özü ilə apardı, O cümlədən, o vaxt Səfəvilərin müqəddəs məqbərəsinin[169] «vəziri» olan və öz ailəsini qorumaq üçün Ərdəbildən darüssəltənə Təbrizə gəlmiş bu fəqirin (yəni, Əbdi bəyin) ana babası Xacə Nizaməddin Məhəmməd ibn Xacə İmadəddin Əli Şirazini əsir edib, özləri ilə apardılar. [sonralar] övladları onun başına nə gəldiyini bilmək üçün ardınca mülazim göndərdilər. O mülazim bir neçə ildən sonra qayıtdı və heç bir xəbər gətirmədi. O şiə qocanın harada və necə məhv olması məlum olmadı.

Xülasə, Sultan Səlim Rumun Amasiya [şəhərinə] getdi və [orada] qışladı.

Xaqana layiq müqəddəs nəcəbli cənnətməkan hökmdarın (Şah İsmayılın) qışlağı darüssəltənə Təbrizdə oldu. Əmirülüməralıq Çayan Sultan Ustacluya və ali divanın nəzarəti Mirzə Şahhüseyn İsfahaniyə verildi. Xoyun məliki səadətə və əmirlik [mənsəbinə] çatdı. Sədarət Seyid Abdullah Laleyi Təbriziyə tapşırıldı. Az müddət sonra bu vəzifə, şiəliyinə şübhə olmayan Mir Cəmaləddin Məhəmməd Şirəngi[170] Astarabadiyə verildi.

Bu il Heratda taxıl qəhətliyi oldu. Özbəklər ora hücum etdilər. Donuz ili (mart 1515 - mart 1516) əbcəd hesabı ilə «Fəzail»ə[171] bərabər olan 921 (15.II.1515 - 4.II.1516)-ci ildə cəlal bayraqları (Şah İsmayıl) Ucana gəlib, oradan Səfəvilərin müqəddəs şanlı [məqbərəsini] ziyarət etməyə getdi. Ondan sonra qayıdıb Səhənd yaylağına təşrif gətirdi.

Qayinin hakimi Əmirxan[172] ali taxtın ayağına gəlib, Xorasanın vəziyyətini və özbəklərin hücumunu ərz etdi. Bu zaman Div Sultan da Bəlxdən (M-224b) dərgaha gəldi və həmin əhvalatı Şah İsmayılın qulağına çatdırdı. Buna görə bütün Xorasanın idarəsini Amu-Dərya çayının kənarından İraqın (İranın) Simnanına

qədər kama çatmış, ali şərəfli, Allahın kölgəsi, dinin pənahı Şah [Təhmasibə] - hakimiyyəti əbədi olsun-həvalə etdi. O Həzrətin (Şahzadə Təhmasibin) ləlşliyini Əmirxan Mosulluya verdilər Mir Məhəmməd ibn Mir Yusifi [isə] o Həzrətə sədr təyin etdilər. Bütün əmirləri Əmirxanın tabeliyinə verib, Xorasana yola saldılar.

Şah [İsmayılın] qışlağı Təbrizdə oldu.

Bu il Rumun padşahı Osmanlı Səlim Əlaüddövlə Zülqədəri öldürdü. (B-251a)

Bu kiçik bəndə [Əbdi bəy] həmin ildə rəcəb [ayının] 9-da (19 avqust 1515) anadan olmuşdur.

Siçan ili (mart 1516 - mart 1517)-922-ci ildə (5.II.1516-23.I.1517) yaylaq Səhənddə və qışlaq Təbrizdə oldu. Novruzdan 3 gün keçmiş, cümə [günü] səfər [ayının] 10-da (15 mart 1516) Bəhram mirzə dost Sufi tayfasından olan Xanbiki xanım Mosulludan anadan oldu.[173]

Öküz ili (mart 1517 - mart 1518)-923-cü ildə (24.I.1517-12.I.1518) yaylaq Surluqda, qışlaq Naxçıvanda oldu.

Sam mirzə və Bəhram mirzə[174] bu ildə anadan oldular. Şirvan padşahı Şeyxşah itaətini izhar etdiyinə görə Mir Cəmaləddin Məhəmməd Sədr və Mirzə ŞahHüseyn onun qəlbini xatircəm etmək üçün Şirvana gedib, onun ürəyində olan qorxunu and içməklə aradan qaldırdılar və geri qayıtdılar.

Pələng ili (mart 1518-mart 1519)-924-cü ildə (13.I.1518-2.I.1519) [Şah İsmayıl] əvvəlcə Surluq yaylağına gəldi və oradan Təlvar çayı hövzəsinə təşrif gətirib, balıq ovu ilə məşğul oldu. Oradan köç evinin[175] ordusunu Mirzə ŞahHüseynlə Quma göndərdi. Cəlal bayraqları (Şah İsmayıl) ov edə-edə Bisütun ətrafına və Çəmçala[176] gəldi. Oradan qayıdıb, Qumda qışladılar.

Mazandaranın hakimləri vergini verməyə diqqətsizlik etdiklərinə görə Durmuş [xan] və Zeynal xan Şamlunu onları tənbeh etmək üçün göndərdilər. Zilhiccə [ayının] 7-də (10 dekabr 1518) Ulad və Kilis qalalarını mühasirə etdilər (M-225a). [Həmin ayın] 11-də (14 dekabr 1518) Kilis fəth olundu. Ağa Məhəmməd özü Ulad qalasını təslim etdi.

Xülasə, Mazandaran zəbt olundu. Mazandaran, Rüstəmdar və Həzarcərib[177] hakimləri dünyanın pənahı [Şah İsmayılın] dərgahına gəlməklə, günahları bağışlandı və araqarışdıranlar yaxınlaşdırıldılar.

Dovşan ili (mart 1519-mart 1520)-925-ci ildə (3.I.1519-22.XI.1519) Təbrizdə qışladılar. Karkiya Sultan Əhməd Lahisi [Şah İsmayılın] dərgahına gəlib, hədsiz dərəcədə qayğıya nail oldu. O anda Gilan Biyəh-pəsinin valisi Əmirə Dubasın üsyanı xəbəri [Şah İsmayıla] çatdırıldı. Durmuş xan Şamlu və Zeynal xan Şamlu, Rüstəmdarın, Mazandaranın başçıları və Karkiya Sultan Əhmədlə birlikdə onun üstünə göndərilməsi qərara alındı. O, (Əmirə Dubas) Karkiyaya yalvarıb Divanə [adı ilə] məşhur olan Mövlana Abdullahı və Xəlifə Seyid Əlini [Şah İsmayılın] dərgahına göndərdi. Yuxarıda adı çəkilən Karkiya onun günahının bağışlanmasını xahiş etdi və [bu xahiş] qəbul olundu.

Karkiya ona yazdı ki, dünyanın pənahı [Şah İsmayılın] dərgahına gəlməsən, sənin işin rövnəq tapmayacaq. Əmirə Dubas Karkiyanın yazısına əsasən Həmədan çəmənliyində busatı öpmək izzətinə çatdı. Müzəffər Sultan ləqəbi aldı və mehdi-ülya[179] Xanış bəyimi ona nişanladılar.[180]

Balıq ili (mart 1520-mart 1521)-926-cı ildə (23.XII.1519-2.XII.1520) sarayın yaxın adamlarından təbib Mövlana Əlaəddin Əhməd ibn Mövlana Sədrəddin Əli Şirazi qışlamaq üçün İsfahana gələrkən, Kaşanda sətəlcəm xəstəliyindən vəfat etdi.

Şiraz hakimi Sultan Xəlil Zülqədərdən pis hərəkətlər üz verdiyinə görə, Kor Süleymanı göndərdilər ki, (B-2516) onun başını hökumət [adamlarının] gözü qarşısında kəsib ali dərgaha gətirsin.[181]

Şiraz vilayəti və Zülqədər qoşunu əsl adı İzzəddin olan və bundan əvvəl qorçibaşı[182] vəzifəsi daşıyan Əli Sultan Çiçəklu Zülqədərə verildi.

[Şah İsmayıl] İsfahanda olarkən osmanlı Sultan Səlimin ölüm xəbəri onun qulağına çatdı. «Xan-digarın zəvalı»[183] onun vəfat tarixidir.

(M-2256) Cənnətməkan [Şah İsmayıl] Durmuş xan və Zeynal xanı Firuzguh qışlağına göndərdi ki, əgər Xorasanda bir şey olsa, Əmirxanın köməyinə getsinlər.

İlan ili (mart 1521-mart 1522)-927-ci ildə (12.XII.1520-30.XI.1521) Div Sultan Rumlunu Gürcüstana göndərdilər. O, oranın Ləvənd, Qərğərə və Davud kimi hakimlərini qiymətli hədiyyələr və layiqli bəxşişlərlə dünyanın pənahı [Şah İsmayılın] dərgahına gətirdi. Div Sultan əmirlərdən biri olan Çirkin Həsən Təkəlunu etdiyi günahlarına görə öldürdü.

Mazandaran, Rüstəmdar və Həsəzarcərib [vilayətlərinin hakimləri] vergilərini verib, öz ölgələrinə getdilər. Ancaq Ağaməhəmməd Ruzəfzun qaçıb, özünü Mazandarana saldı. Cuhə Sultan Təkəlu onu tutmağa təyin olundu və o, onu (Ağaməhəmmədi) tutub, fələyə bənzər dərgaha gətirdi.[184]

Bu ildə özbək Übeyd [xan] cümadiəl-əvvəl [ayının] 19-da (27 may 1521) Heratı mühasirə etməyə gəldi. Rəcəb [ayının] 2-də (8 iyun 1521) Mavəraünnəhrə qayıtdı.

Əmirxan Mosullu rəcəb [ayının] 6-da (12 iyun 1521) baş komandan, bütün əmirlərin başçısı olan Mir Məhəmməd [ibn Mir] Yusifi Babur padşahla əlbir olmaqda təqsirləndirib, öldürdü.[185] Əmirxanın mülazimi Şahqulu bu xəbəri şaban [ayının] əvvəllərində (iyun ayının ortaları 1521) [Şah İsmayılın] şərəfli qulağına çatdırdı və Həzrət [bundan] qəzəbləndi. Buna görə Əmirxan Mosullunun şahlıq kamına çatmış, allahın kögəsi olan hökmdar (daha doğrusu, şahzadə) Təhmasiblə saraya [gətirilməsini] tələb etdi. Onların əvəzində Sam mirzəni Durmuş xan Şamlu ilə Herata göndərdilər.

Bu ildə Şirvan padşahı Şeyxşah ramazan [ayının] 30-da (3 sentyabr 1521) Marağanın Bənab [adlı] yerində kandarı öpməklə başıuca oldu. Bir müddət sonra getmək icazəsi alıb, öz ölkəsinə qayıtdı.

At ili (mart 1522 - mart 1523)-928-ci ildə (1.XII.1521 -19.XI.1522) Şirvan padşahı Şeyxşahın oğlu Sultan Xəlil dünyanın pənahı [Şah İsmayılın] dərgahına gəldi.

Həmin ildə Müzəffər Sultan ləqəbi almış Əmirə Dubas Gilaninin nişanlısı Xanış bəyimi Müzəffər Sultanın evinə göndərdilər.

(M-226a) Allahın kölgəsi, kama çatmış [şahzadə Təhmasib] - mülkü əbədi olsun - Əmirxan lələ ilə Heratdan təşrif gətirdilər. Əmirxan ali dərgahda vəfat etdi.[186] Nəvvabi-kamyabın[187] lələliyi Mirzə ŞahHüseynə verildi. Əmirxanın [hakim olduğu] vilayət və qoşunu möhrdar olan qardaşı İbrahim Sultana verildi və İbrahim xan ləqəbi aldı.

Qoyun ili (mart 1523-mart 1524)-929-cu ildə (20.XI.1522-9.XI.1523) əmirlik rütbəsinə çatmış çilovdarbaşı[188] mehtər Şahqulu Halvaçı oğlu Ərəbgirlu (B-252a) o vaxt bütün ölkənin səlahiyyətli vəkili olan Mirzə ŞahHüseyni öldürüb qaçdı. Təəccüblü burasıdır ki, «Mirzə ŞahHüseyn İsfahani» [əbcəd hesabı ilə] onun öldürülmə tarixidir.[189] Bir neçə vaxtdan sonra mehtər Şahqulunu tutub, Mirzə ŞahHüseynin intiqamını aldılar.

Mirzə [Şah] Hüseynin qətlindən sonra onun vəzifəsi bundan əvvəl onun naiblərindən olan Xacə Cəmaləddin[190] Məhəmməd Xandəmir Təbriziyə həvalə olundu.

Bu ildə Çayan Sultan Ustaclu təbii əcəllə vəfat etdi. Oğlu Bayəzid bəyə Bayəzid Sultan adı verib, atasının yerinə qoydular.[191]

Meymun ili (mart 1524 - mart 1525)-930-cu ildə (10.XI.1523-28.X. 1524) ali ordu [Şah İsmayıl] Naxçıvan qışlağından çıxıb, atla ov edə-edə Şəki vilayətinə gəldi. Qayıtdıqdan sonra Göytəpə və Silanda[192] yaylaq etdi. Şeyxşah Şirvani (Şirvanşah) yenidən [Şah İsmayılın] xidmətinə gəlib, razılıqla geri qayıtdı.

Cəlal bayraqları (Şah İsmayıl) oradan Ərdəbilə gedərək, ali Səfəvi şeyxlərinin-Allah onlara rəhmət eləsin-(məqbərələrini) ziyarət edib, Saraba yola düşdülər. Şah sayın gədiyində düşərgə saldı. Orada Çayan Sultanın oğlu Bayəzid Sultan Allahın rəhmətinə getdi. Əmirül-üməralıq mənsəbi təkcə Div Sultan Rumluya verildi.

Bu vaxt cənnətməkan şahın səhhəti pisləşdi. İş əlac və müalicədən keçdi. Nəhayət, müqəddəs ruhu (M-226b) bütün Sismani əlaqələrdən uzaqlaşıb, müqəddəs aləmə uçdu. Elə ki, öldü, ruhu göyə qalxdı. Allah onu cənnətin bağlarına sakin etdi. Mərhəmət və nemət töhfələrini üstünə yağdırdı.

Mövlana Həsən Dikbənd Əbərquhi onun vəfat tarixini belə vermişdir:

«Aləmin pənahı olan Şah İsmayıl,
Elə ki, Günəş oldu, örtüyə büründü.
Günəş getdi və «Zel»[193] (kölgkə) tarix oldu,
Kölgə Günəşin tarixi oldu».

Kama çatmış padşah, asiman üzəngili, zəfər hərəkətli, müqəddəs adamların müqəddəsi, Sultanların ağası, Allahın yer üzərində su və palçıqdan yaratdığı xaqanların havadarı olan hökmdar, Sahibəzzamanın köməkçisi, Allahın qaliblərinin ən yaxın adamı, Yəni Allahın kölgəsi əlaHəzrət Əbülmüzəffər Şah Təhmasib ibn Şah İsmayıl Heydəri, Cüneydi, Səfəvi, Musəvi, Hüseyni, Ələvi-Allah mülkünü və səltənətini əbədi etsin - hər iki aləmə şadlıq, ədalət və ehsan yağdırdı. Allah ona ehsan etməklə, məxluqata da ehsan etdi. 930-cu [ildə] rəcəb [ayının] 19-da (23 may 1524) səltənət və padşahlıq taxtına oturdu. «Axiruz-zəman[194] əbcəd hesabı ilə onun səltənətinin tarixinə müvafiq olduğu üçün «Axirüz-zəman»ın səltənəti o əlahəzrətə məxsusdur.

Məhəmmədin dini və on iki imam məzhəbinin rövnəqi o əlahəzrətin hökmdarlığı zamanı (B-252b) elə bir mərtəbəyə çatıb əlverişli şərait yaratdı ki, Sahibül-əmr zühur etmək bayrağı qaldırsın.

Gizli qalmasın ki, asimana bənzər ali xilafət taxtı onun cülusu ilə yaraşıq tapdı. O Həzrətin (cülusu) dövlətin inkişafına səbəb oldu. O Süleyman şövkətlinin ləlƏliyinə Div Sultan Rumlu təyin olundu. Çayan Sultanın Köpək Sultan adı ilə tanınan qardaşı Mustafa (M-227a) Sultan Ustaclu qardaşının əvəzinə hakimiyyət tapdı və əmirül-üməralıqda Div Sultanla şərik oldu.

Mirzə Şahhüseynin vəzifəsi oranın pak seyidlərindən olub, elm, hüsnxət, inşa, üslubiyyat, vəzirlik qayda-qanunları və sahibdivanlıqda bərabəri olmayan seyid Qazı Cahan Hüseyni Qəzviniyə verildi.[195]

Mənimsəmə və fırıldaqçılıqda az bir vaxtda ixtiyar sahibi olub, bəzi qəbahətlərinə görə ittiham edilmiş Xacə Cəmaləddin[196] - Məhəmməd Təbrizi [və] Mir Seyid Şəhristaninin müdaxiləsi ilə vəzirlik mənsəbinə çatmış ölkənin mustovfisi Şəmsəddin saxta dəftərlər və qaydalar düzəltdikləri üçün tutulub həbs edildi. Nəhayət, ədalətli nəsilli hökmdar [Şah Təhmasibin] buyuruğu ilə o, ali orduda yandırıldı. Bu vaxt onun Heyrani Həmədaninin[197] bu beytini öz vəziyyəti ilə əlaqədar oxuması məşhurdur:

«Bəlanın astanasında ev tutdum, məni atəş bürüdü, hər kəs bəla astanasında ev tutsa, belə olar».

Mövlana Ədhəm Münşi Xiyarsi Qəzvini də fitnə törətdiyinə görə qətl edildi.

Qazı Cahan Qəzvini ilə Mir Cəmaləddin Məhəmməd Sədr Astarabadi arasında ziddiyyət olduğuna görə şaban ayında Mir Qəvaməddin Hüseyn Nəqib İsfahanini sədarətdə onunla (Mir Cəmaləddin Məhəmmədlə) şərik etdilər. [Şah Təhmasib] qışı Təbrizdə keçirdi.[198]

Cuhə Sultan Təkəluya İsfahan vilayətinin [hakimliyini] verib yola saldılar.

Toyuq ili (mart 1525 - mart 1526)-931-ci ildə (29.X.1524-17.X.1525) Cəlal bayraqları (Şah Təhmasib) Səhənd və Ucan yaylağına gəlib,[199] [gününü] eyş-işrətlə keçirərkən, özbəklərin Xorasana gəlməsi xəbəri ona çatdı. Buna görə şahın müşayiətçilər dəstəsi o tərəfə yola düşərək, Təbrizin Əlixan bağında düşərgə saldılar. Nəhayət, [istilanı] ləğv etmək üçün yola düşdülər.

Əmirül-üməralıqda Köpək Sultandan irəli olan Div Sultan Rumlu ilə məsləhətləşib, özbəkləri dəf etməyi ona tapşırdılar. [O], yüksək dərgahdan ayrılaraq, yola düşdü. İraq və fars əmirləri Təbəristan sərhəddindəki Lar yaylağında onunla birləşdilər.

(M-227b) Qəzanın fərmanı ilə İsfahan hakimi Cuhə Sultan Təkəlu, Şiraz valisi Əli Sultan Zülqədər, Həmədan sahibi Qaracə Sultan Təkəlu və Məşhədi-müqəddəs hakimi Burun Sultan Təkəlu (B-253a) yuxarıda adı çəkilən yaylaqda onun ətrafında birləşib, Köpək Sultanı və Ustaclu tayfasını dəf və ləğv etməyi qarşılarına məqsəd qoydular. Oradan Xorasana getməmiş, ali dərgaha (Şah Təhmasibin yanına) yola düşdülər. Bu xəbər dünyanın pənahı [Şah Təhmasibin] dərgahına çatdıqda, Köpək Sultan o fitnəni mülayimliklə dəf etmək inamı ilə onların qarşılanmasına hörmət əlaməti olaraq Kərmrudun Türkman kəndinə gəldi. Onlarla birləşərək ali taxtın ayağına (Şah Təhmasibin yanına) yola düşdülər.

Şahın ordusu Təbrizin xaricində Çərəndab çölündə yerləşirdi. Elə ki, əmirlər çatdılar, şahın ayağını öpməklə şərəfləndilər.

Bir gün fitnəni dəf etmək bəhanəsi ilə Qarıncə bəy Hacı Fəqihlu Ustaclu və Narın bəy Qacarı öldürdülər. Qazı Cahanı tutub Lori qalasına göndərdilər.[200] Onun mənsəbini Div Sultanın ailəsinə mənsub olan Mir Səfər Avəsiyə verdilər. Köpək Sultan işi belə gördükdə öz vilayətinə yola düşdü. Cuhə Sultan onun yerinə hökmlərə möhür vurdu. Div Sultan məlikul-üməra və Cuhə Sultan səltənətin sütunu oldu.

Həmin ildə Mir Cəmaləddin sədr və Mir Möhsin rizəvi Qumi cənnətlik oldular. «Udxuluha Bisəlamin aminə»[201] (oraya salamat girin) onların vəfat tarixidir. Həmçinin bu ildə Sam mirzənin lələsi Durmuş xan Heratda vəfat etdi. Onun vəzifəsi ğardaşı Hüseyn xan ibn Əbdi bəy Şamluya verildi.[202] Hüseyn xan Allahın kölgəsi Şah [Təhmasibin] bibisi oğlu idi. Həmçinin Şirazın hakimi Əli Sultan Zülqədər Təbrizdə vəfat etdi. Onun qoşunu və vəzifəsi əvvəl qardaşı oğlu Murad Sultana, sonra isə (M-228a) Həmzə Sultan Caməsblu[203] Zülqədərə verildi.

İt ilində (mart 1526 - mart 1527)-932-ci ildə (18.X.1525-7.X.1526) [sarayda] olmadığına görə hakimiyyətdən məhrum edilmiş Köpək Sultan Ustaclu rəcəb [ayının] əvvəllərində (aprel 1526) Rumlu və Təkəlu[lar] ilə vuruşmaq məqsədi ilə Xalxal tərəfdən Sultaniyəyə gəldi. Ustaclu əmirlərindən bəziləri, o cümlədən Qılıc xan ibn Xanməhəmməd və Sarı Birə qorçibaşının qardaşı Müntəşa bəy Şeyxlər[204], Qorçibaşı Bədr bəy və Kürd bəy onunla birləşdilər və ali orduya tərəf yönəldilər.

Şənbə [günü] səhər, şaban [ayının] 14-də (26 may 1526) türklərin Səksəncik adlandırdıqları Həştad-coft [adlı] yerdə şahanə döyüş baş verdi. Bu zaman Qaracə Sultan Təkəlu Həmədandan [gəlib] həmin yerə çatdı və gəlib çatması ilə Ustacluların əlində öldürülməsi bir oldu. Burun Sultan Təkəlu da öldürüldü. Ancaq Rumlu və Təkəluların böyük qorçilərin və əmirləri Ustaclulara güc gəldi. Ustaclu əmirləri onlara arxa çevirdilər və Əbhərə getdilər. Orada Təkəlunun yorğa at

sürənləri onlara çatdı. Salamat qalanları Tarıma gedib Biyəh-pəs hakimi Müzəffər Sultan Kiləkiyə sığınmağa məcbur oldular.

(B-253b) Xanməhəmmədin qardaşı oğlu olan Abdulla xan ibn Qara xan Ustaclu və Lori qalasından xilas olub özünü Qəzvinə çatdırmış Qazı Cahan əl-Hüseyni Rumlu və Təkəlu[lara] qarşı çıxdılar. Kirman hakimi Əhməd Sultan Sufi oğlu Ustaclu da onlara qoşuldu. Axırda onların təşkil etdikləri ittifaq pozuldu. Qazı Cahan Gilana, Abdulla xan və Əhməd Sultan Sufi oğlu Ustaclu Rey və Xara getdilər.

Bir daha Ustaclu və o iki tayfa (Rumlu və Təkəlu) arasında Xərzəvil vilayətində böyük dava oldu.[205] [Ustaclular] özləri ilə Gilandan da çoxlu piyada gətirmişdilər. Ustaclu və gilanlılar böyük məğlubiyyətə uğradılar. Belə ki, onların başlarından Qəzvində minarə düzəltdilər. Onlar (Ustaclu və gilanlıların sağ qalanları)  Rəştə getdilər.

Cəlal bayraqları (Şah Təhmasib) (M-228b) Qəzvinə gəldi. Bu [Şah Təhmasibin] Qəzvində birinci qışlağı idi.

Donuz ili (mart 1527-mart 1528)-933-cü ildə (8.X.1526-26.IX.1527) özbəklərin qovğası və Heratın mühasirəsi qarşıda idi. Şah Təhmasib Xorasana tərəf yola düşüb,[206] Savuxbulağa[207] qədər gəldi. Gilanın Rəşt [şəhərində] olan Ustaclu əmirləri Xalxal yolu ilə Ərdəbilə getdilər. Oranın hakimi Badıncan bəy Rumlu onlarla vuruşmaq üçün [şəhərdən] kənara çıxdı. Dəstələr üz-üzə gəldikdə məlum oldu ki, Badıncanla cəmi bir neçə nəfər var. Bir saata Rumlu [tayfasını] məğlub etdilər. Badıncan Sultan o vaxt Köpək Sultanın tavaçısı[208] olan Əhməd ağa Çavuşlunun əli ilə öldürüldü.

Ərdəbildə bu işləri etdikdən sonra yola düşüb, Div Sultanın ordusunun dayandığı və Rumlu tayfasının məskən saldığı Çuxursədə getdilər. Div Sultan və Cuhə Sultan bu xəbəri eşitdikdə, Xorasana getməkdən vaz keçib, cümə [günü] ramazan [ayının] 8-də[209] (8 iyun 1527) Savuxbulaqdan hücuma keçib, Azərbaycana getdilər. Cümə [günü] ramazan [ayının] 29-da (29 iyun 1527) Naxçıvan tüməninin[210] Arpaçay məntəqəsində onlara çatıb, şahanə vuruşdular.[211] Ustaclular məğlub oldular, Köpək Sultan öldürüldü.

[Şah Təhmasibin] dərgahından üz döndərib, ustaclulara qoşulan Türkmanın eşikağası Dərviş Həmzə bəy Hacılu[212] və Məhəmmədi bəy ibn Bəhram bəy Qaramanlu tutulub qətlə yetirildilər.

Cəlal bayraqları (Şah Təhmasib) Savuxbulaqdan[213] Sultaniyyəyə təşrif apardılar. Sultaniyyənin çəmənliyində bir qədər dayandılar ki, əmirlər qayıtsınlar. Orada pəncşənbə günü şəvval [ayının] 26-da[214] (26 iyul 1527) Cuhə Sultanın göstərişi ilə Div Sultan öldürüldü. Onun qoşunu və vilayəti mülazimlərindən olan Süleyman bəy Rumluya tapşırıldı və [ona] Süleyman Sultan ləqəbi verildi.

Cuhə Sultan vəkalət işlərində yeganə şəxs oldu və onu əmirül-ümərə (M-229a) yazdılar.[215]

Qışlaq Qəzvində oldu. Həmçinin bu ildə Əxi Sultan Təkəlu və Dəbri Sultan (B-254a) Şamlu Bistamda özbək Übeyd [xanla] döyüşdə öldürüldülər. Əxi sultanın vəzifəsi və onun Qəzvində olan vilayəti Cuhə Sultanın nökərlərindən biri olan Məhəmməd bəy Şərəfəddin oğlu Təkəluya verib, onu Məhəmməd Sultan adlandırdılar.

Siçan ili (mart 1528 - mart 1529)-934-cü ildə (27.IX.1527 - 14.IX.1528) ordu Xərrəqan yaylağına getdi.[216] Xəbər gəldi ki, Astarabad hakimi Zeynal xan Şamlu, Səbzəvarın hakimi Çəgirkə[217] Sultan Şamlu və Savənin tiyuldarı Mustafa Sultan Əfşar yekşənbə günü şaban [ayının] 21-də (11 may 1528) özbək Zeynəş bahadırla Firuzguhda döyüşərkən öldürüldülər. Özbək (lər) tam qələbə qazandılar. Buna görə Cuhə Sultan Sultan Meydanidən[218] Damğana hücum edib, Zeynəşi oranın qalasında mühasirəyə aldı. Məzkur qalanın ətrafında böyük ağaclar ucalırdı. İgid tüfəngçilər mərdanə hücum edib [qalaya] yaxınlaşdılar. Qalanın içərisində və Damğan şəhərində kim görünürdüsə, xətasız öldürülürdü. [Cuhə Sultanın] özü igidlərlə xəndək və hasara (qalaya) üz qoydu.

Dərin xəndək və möhkəm hasara alınmış Damqanı az bir vaxtda fəth edib Zeynəşi öldürdülər.[219] Başını fələyə bənzər dərgaha (Şah Təhmasibə) göndərdilər. Onun ardınca Cuhə Sultanın özü də dərgaha gəldi. Cəlal bayraqları (Şah Təhmasib) bu qələbədən sonra Xorasana yola düşdü. Həmçinin bu ilin ramazan [ayının] 14-də (2 iyun 1528) o vaxt Noxud Sultan Mosullu [adı ilə] tanınan Gülhər hakimi Zülfüqar ibn Əlibəy[220] Əmir Xaninin qoşununa sahib olub, Bağdad və Ərəb İraqının hakimliyinə çatmış və Mahi-Dəştdə[221] yaylayan əmisi İbrahim Sultanın üstünə hücum etdi və əmisini öldürdü. [Zülfüqar ibn Əli bəy] öz əmisi oğlanlarını da, xüsusilə Mərcümək Sultan ibn Əmirxanı öldürdü və bütün Ərəb İraqını zəbt etdi.[222]

Yenə siçan ili (mart 1528 - mart 1529)-935-ci ildə (15.IX.1528-4.IX.1529) məhərrəm [ayının] 10-da, şənbə günü (24.IX-1528) özbək Sultanları içərilərində Küçum xan [adı ilə] tanınan Kuçinsi xan olmaqla, Camın Bərduyə [adlı] yerində şahlıq kamına çatmış, Allahın kölgəsi [Şah Təhmasibin] adamları ilə vuruşdular. İlk anda özbək [lər] qızılbaş [lara] bir az güc gəldilər.

Cuhə Sultan, Ulamə Sultan Təkəlu, Yəqub Sultan Qacar və bəzi başqa əmirlər məğlubiyyətə uğrayıb, üz çevirdilər (yəni qaçdılar). Özbəklər [onlar] qovmağa başladılar. Şahlıq dövləti və Heydər [İmam Əli] öz qüdrətini köstərdi. Şahlıq kamına çatmış Allahın kölgəsi [Şah Təhmasib] öz yerindən getmədiyinə görə (yəni, Xorasanda idi) o tayfanın (yəni özbəklərin) iddia sahibi və daha igidi olan özbək Übeyd [xana] tərəf yönəldi. Onun bütün adamlarını öldürdülər. Şah [Təhmasibin] qorçilərinə məxsus olan bir qorçi Übeyd [xana] çatıb, tanımadan çiyninə bir qılınc[223] (B-254b) vurdu və ondan keçərək, başqası ilə məşğul oldu (yəni vuruşdu). Dinqılıc bahadır və Übeyd (xanın) başqa adamları onu (Übeyd xanı) bu mərəkədən çıxardılar. Übeyd [xanın] məğlub olma xəbəri Kuçim xan və Canibəy xana çatdıqda onlar pozunuq halda Mərvə qədər dayanmadan [qaçdılar].

Arxa çevirib [qaçmış] Cuhə Sultan bütün qoşunun qaçdığını gördükdə, döyüşə başladı və o saat da geri qayıtdı. Qalib gəlmiş bütün adamlar qayıtdılar və kama çatmış şahın başına toplaşaraq, gecəni o səhrada keçirdilər. Übeyd [xanın] halından xəbərləri olmadı. Elə ki, sübh oldu, bildilər ki, Übeyd [xan] qaçmağa üz qoymuşdur. Onu təqib edərkən hər kimi tapdılarsa öldürdülər. Xorasanı özbəkin murdar qoşun və xəbis vücudlarından xilas edib, Nişapura gəldilər. İstədilər ki, [orada] dayansınlar.

Nəhayət, Bağdad məsələsinə görə İraqa [tərəf] yola düşüb, Quma gəldilər. Orada qışlaq etdilər.

Bu ildə [vəzifə] əldə etməyə çalışan Mir Nemətüllah Hilli Əmir Qəvaməddin (M-230a) Hüseyn Nəqib İsfahani ilə sədarətlik mənsəbində şərik oldu.

Öküz ilinin (mart 1529) novruzundan sonra Qum qışlağından yaylaqlara gedən qələbə nişanlı bayraqlar (Şah Təhmasib) Bağdad tərəfə yola düşdü və Bağdadı mühasirə etdi.

Hava olduqsa isti idi və mühasirə çox uzun çəkdi. Qalanın alınması son dərəcə çətin idi. Şahlıq dövləti kömək etdi: Sufi Xəlil Mosullunun nəvəsi Əli bəy Bəktaş oğlu və qardaşı Əhməd bəy [birlikdə] Zülfüqara əl qaldırıb onu öldürdülər. Başını kəsib şəvval [ayının] 3-də (10 iyul 1529) ali taxtın ayaqları altına atdılar. Bağdad fəth olundu.

Məhəmməd Sultan Şərəfəddin oğlu Təkəluya Məhəmməd xan ləqəbi verərək, Bağdadın idarəsini ona tapşırdı və Əcəm İraqına geri qayıtdı.

Ali ordunun qışlağı Qəzvində oldu. Geri qayıdarkən Məlik bəy Xoyinin oğlu şatır[224] Əlini Əbhərin Farsaçin çəmənində öldürdü.

Pələng ili (mart 1530-mart 1531)-936-cı ildə (5.IX.1529-24.VIII.1530) Bədr xan, Müntəşa Sultan, Cayan Sultanın qardaşı Qazaq [adı ilə] tanınan Həmzə Sultan və Gilanda olan başqa Ustaclu əmirləri Cuhə Sultanın təşviqinə əsasən busatı öpmək izzəti ilə şərəfləndilər. Hər biri üçün vilayət təyin olundu və [onlar] öz vilayətlərinə getdilər.

Mir Qəvaməddin Hüseyn sədr İsfahani Əbhərin Farsaçin çəmənində vəfat etdi. Mir Qiyasəddin Mənsur Şirazi oranın Dəştək seyidlərindən Əmir Nemətüllah Hilli ilə sədarətə şərik oldu.

Cəlal bayraqları (Şah Təhmasib) yenə özbəkləri dəf etmək üçün Xorasana tərəf yola düşdü. Mərvdə toplaşmış özbək Sultanları qaçıb Mavəraünnəhrə getdilər.

(B-255a) Sam mirzə və Hüseyn xan Heratı keçib Sistan yolu ilə Fars [vilayətinə] getdikləri üçün Bəhram mirzəni Heratın hakimi təyin etdilər (M-230b). Div Sultan Gürcüstan müharibəsindən sonra qayıdıb çirkin Həsən Təkəlunun oğlu Qazı bəyi dedik ki, Cuhə Sultanın xidmətçiləri sırasından çıxarıb şahın xüsusi qəyçaçısı[225] etmişdi - məzkur vəzifəsindən əmirlik rütbəsinə çatdırıb, Qazı xan ləqəbi verdi və Bəhram mirzənin ləlәliyini ona tapşıraraq, Heratda hakimiyyətə çıxardı.

Cəlal bayraqları (Şah Təhmasib) səadət və xoşbəxtliklə Təbəs çölü ilə Yəzdə və sonradan İsfahana gəlib, orada qışladı. Bu səfərdə zamanın müctəhidi Şeyx Əli ibn Əbdülali onun yol yoldaşı idi. [o da] İsfahana gəldi. Onunla Seyid Qiyasəddin Mənsur Şirazi sədr arasında mübahisə baş verdi. Zamanın müctəhidinin bütün məsələlərdə qalib gəlməsinə baxmayaraq, Mir Qiyasəddin Mənsur onun müstəhidliyini etiraf etmədi və öz inadında qaldı.

Dovşan ili (mart 1531-mart 1532)-937-ci ildə (25.VIII.530 - 14.VIII.1531) Sam mirzə, Hüseyn xan və Şamlu tayfası üsyan vahiməsi ilə əlaqədar olaraq, Heratı özbaşına qoyub Şiraza getmişdi. Qışlaqda olan vaxt Cuhə Sultanla Hüseyn xan arasında elçilik və yazışma oldu.

Cuhə Sultan bu işi hiyləgərcəsinə öhdəsinə götürdüyü üçün Hüseyn xan qərara aldı ki, [Sam] mirzəni [Şah Təhmasibin] dərgahına gətirsin. Bunun müqabilində Cuhə Sultan boyun oldu ki, onun Hüseyn xanın barəsində şahanə şəfqət və hüsn-rəğbətinin artması hasil olacaqdır.

Xorasanın ən yaxşı yerləri [Sam] mirzə, [Hüseyn xan Şamlu] və onun dost əmirləri üçün ayrıldı və onları tezliklə [o yerlərə] göndərdilər. Onlar qışlaqdan çıxıb Fars [vilayətinin] sərhəddində olan Kəndman, Lar və Məzus yaylağında düşərgə saldılar. Yekşənbə günü zilqədə [ayının] 2-də (17 iyun 1531) məzkur [Sam] mirzə, Hüseyn xan və qoşun toplaşaraq [Şah Təhmasibin] dərgahına gəldilər. Cuhə Sultan, ali orduda hazır olan Təkəlu və başqa əmirlər onları qarşıladılar. O camaatı böyük (M-231a) izzət və hörmətlə dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gətirdilər. Sam mirzə şahın dövlətxanasının çadır və çətirinin qübbəsini görən kimi dərhal atdan düşüb, böyük həvəs və sevinclə büsatı öpməyə yollandı. Onunla dost olan əmirlər də Sam mirzə kimi behişt bəzəkli məclisin torpağını öpməyə gəldikdə, bir neçə dəfə sədaqət alınlarını torpağa endirərək, bargah meydanının gözəl iyli torpağında batil sevdaları başlarından çıxardılar.

[Sam mirzə] torpaqı öpmək səadətinə çatdıqda, sonsuz nəvazişlər taparaq çox ümidvar oldu. Həmçinin Hüseyn xan və dostları şahanə hörmətlə başıusa oldular.

(B-255b) Cuhə Sultan Hüseyn xanı «oğul» deyə çağıraraq, qərara aldı ki, o biri gün [Hüseyn xan] Cuhə Sultanın mənzilinə gəlib qonaq olsun. Ziyafət və rəsmiyyətlərdən sonra hər nə məsləhət olsa icra olunsun.

Nəhayət, gecə yaxınlaşdıqda Hüseyn xan icazə aldı ki, öz ordusuna getsin.[226] Sam mirzəyə onunla qayıtmaq icazəsi vermədilər. Kama çatmış Şah [Təhmasib] onu özü ilə ali Hərəmə[227] apardı ki, ana əvəzi olan Bəyim və bacıları onu görməklə sevinsinlər. Bu hərəkət Hüseyn xana ağır gəldi və fikri dəyişdi.

Cuhə Sultan müşahidə etdi ki, [Sam] mirzəsiz mənzilə gedən Hüseyn xan əsəbiləşmişdir. [Buna görə] Mir Səfər Avəcini, Arıq vəzir adlanan öz vəziri Xacə Hidayətüllah Savəcini və Təkəlu [lar]ın Quduz Sultan kimi iki-üç nəfər mötəbər

əmirlərini onun yanına göndərdi ki, mülayim və xoş söhbətlərlə onun gönlünü alsınlar. Elə etsinlər ki, ürəyi incimədən sabah [Cuhə] Sultanın mənzilinə gəlsin.

[Cuhə] Sultan ordusunda şadlıq və ziyafət hazırlığına, təmizlik, heyvan [kəsmək] və arıtlama işlərinə başladılar. Elə ki, göndərilənlər oraya getdilər, vəziyyəti başqa cür gördülər (M-231b). Belə ki, [Hüseyn] xanın son dərəcə pərt, tərəfdarlarının narazı halda olduqlarını başa düşdülər. Bir təhər özlərini o mərəkədən salamat çıxarıb, ali orduya gəldilər. Ordu sevinc içərisində idi. Hamı Sam mirzənin gəlməsinə sevinirdi. Cuhə Sultan yaşlı kişi idi. Qısası, şahzadə [Sam mirzəni] belə [asanlıqla] ələ gətirib və [onu] kama çatmış Şah [Təhmasibə] tapşırmasına şübhə edirdi. [Cuhə Sultan] öz hərəmxanasına gedib istirahət etməyə hazırlaşırdı ki, göndərdiyi adamlar geri qayıtdılar. Yolun tozu ilə onun yanına tərəf getdilər və içəri girmək icazəsi alıb, hərəmiyə daxil oldular. Dedilər ki, biz Hüseyn xanı əsəbi gördük. Ondan bu gecə bir pis hərəkət baş verə bilər. Cuhə Sultan dedi:

- O elə kişi deyildir ki, əlahəzrətin dövlətxanasına hücum edə.

Dedilər:

- Onun hər nə [işi] varsa, səninlədir və sənin üstünə gələr.

[Cuhə Sultan] dedi:

- Əgər mən ölsəm, mənim ölməyimə baxmayın, siz qorxaq və ürəksizsiniz. sizinlə həmrah olan türklər [çətin] vəziyyət görməyiblər.

Xülasə, onlar (yəni Hüseyn xanın düşərgəsinə gedib qayıdanlar) bu haqda nə qədər mübaliğə etdilərsə, o, [Cuhə Sultan] az qulaq asdı. Belə bir yelbeyin xatircəmliklə onların hər biri öz mənzillərinə getdilər.

Səhər vaxtı idi. Hüseyn xan silahlı və hazır halda [ətrafına] toplananlar, nökər və qoşunu ilə şahın dövlətxanasının üstünə gəldi. Səs-küy qalxdı. Cuhə Sultan ayıldı və ata minib, məşəlsiz özünü dövlətxanaya çatdırmaq istədi. Buna görə heç kim yolda onu tanımadı. Bir dostu [belə] ona çatmadı. Elə ki, əlahəzrətin divanxanasının qapısına çatdı, böyük kama çatmış [Şah Təhmasib] də divanxanaya təşrif gətirdi. O, eşikdə olan böyük qorçilərə şamluları dəf etməyi əmr etdi.

(B-256a) Elə ki, Cuhə Sultan çatdı, o da divanxananın qapısında dayandı, ox atmağa və düşmən qoşununu dəf etməyə başladı. Başqa əmirlər xəbərdar oldular və Cuhə Sultanın qoşununu xəbərdar etdilər. Hamı silahlanıb (m-232a) dövlətxanaya üz qoydu. Səhərin gözü açılanda qoşun hər tərəfdən və hər yandan [gəlib] çatdı. Şamlu [lar] müqavimət [göstərə] bilməyib, məğlubiyyətə uğradılar. Təkəlu əmirləri onların ardınca düşdülər və [onları] qovmağa başladılar. Ancaq Cuhə Sultan divanxanasının ətrafında dayanıb ox atırdı. Qorçi Cəmşidin əlində olan oxqabından ox və kaman qurtardıqda, o, divanxananın qapısına gəldi. Kama çatmış [şahdan ox] istədi. Göy üzəngili [şah] ona bir oxqabı bağışladı. O, həmin oxları da atdı.

Zülqədər qorçiləri və Şamlu qorçiləri Cuhə sultanı məhv etməkdə Hüseyn xan ilə dilbir olduqları üçün Misir adlı qorçi Qurğulu Zülqədər nizə ilə Cuhə sultanın qasığını yaralayıb onu taqətdən saldı. Cuhə Sultanın iki yaxın adamı,

yəni ox və kaman qorçisi Cəmşid və cübbədarı[228] Mustafa onu yerə yıxılmış halda tapdılar. Onu götürərək əlahəzrətin divanxanasının içərisinə gətirdilər. Şah əlahəzrətləri onu o halda gördükdə, həmin iki nəfərə buyurdu ki, onu çadırın bayırına aparsınlar. Yaralı olduğu üçün bir [qədər] istirahət etsin. Onun vəziyyətini hamıya bildirməməyi buyurdular. Çünki [istəmirdi ki,] qəsd edənlər və qatillər onun keçinəcəyini bilsinlər. Elə ki, hava işıqlandı, şamluların ardınsa gedən əmirlər və camaat onları çox təqib etdilər. Onlardan adlı-sanlı adam[lar]ı tutub dərgaha gətirdilər. Şahın dövlətxanasının qarşısında onları qılıncdan keçirdilər.

Hüseyn xan və Şamlu[lar]ın qılıncdan keçirilməyənləri İsfahan yolu ilə Fars [vilayətinə] yollandılar.

Əlahəzrət şah qovğa yatandan sonra Cuhə Sultanın böyük oğlu Şahqubadı atasının yerinə qoydu. Sultanlıq vəzifəsi və əmirlik rütbəsi olan Şahqubadın yerini [isə] Cuhə Sultanın kiçik oğdu Əliyə verdi. Hər ikisi səltənətin idarə edilməsinə cəlb olundu. Fitnə bir qədər yatdı.

(M-232b) Uzun müddətdən bəri Cuhə Sultanı aradan götürmək istəyən Ustaclu, Zülqədər, Əfşar əmirləri və başğa oymaqların[229] [arzuları] indi bu üsulla dəf edildi. Onun yeri oğlanlarına verildiyi üçün əmirlər tab gətirmədilər və fitnə yenidən başlandı.

Kama çatmış şah son dərəcə müstəbid və məğrur olan Cuhə Sultan və onun özündən yüz dəfədən artıq məğrur olan övladlarına və onların xidmətində sabitqədəm olan başqa tayfalara digər oymaqlara tərəf getmələrini rəva bilmədi.

Şah Təhmasib 20 günlük fasilədən sonra lənətlənmiş şeytan cinsli Təkəlu [lar] ın üstünə getməyə qərar verdi. Bütün oymaqlar silahlanıb (B-256b) dövlətxananın qapısında cəmləşdilər. Təkəlu tayfası dövlətxananın qapısına gəlib, vəziyyəti nəzərdən keçirdikdə - tamamilə naümid qayıdaraq Bağdad yoluna üz tutdular. Əvvəlki hadisə təkrar olundu. Başqa tayfaların ikidləri Təkəlu(lar)ı təqib etməyə başladılar. Təkəlu [lar [dan qorçibaşı Duray bəy və mehrdar Kəbə Xəlifə adı ilə məşhur [olan] İbrahim xəlifəni öldürdülər. Təkəlu [lar] ın əyan və əmirzadələrini bir-bir və iki-iki bağlayıb dərgaha gətirdilər. Əvvəlki mərəkədə şamlu[lar]ın daddıqları şərbəti onlara dadızdırdılar və «Afəti-Təkəlu» o hadisənin tarixi oldu.[230]

Bir neçə gündən sonra qaçanların hamısı və başqa Təkəlu [lar] «bizim şəxsi günahımız yoxdur» ümidi ilə Həmədan ətrafında dərgaha gəldilər və qılınc cəzasına məruz qaldılar. Qılıncdan keçirilməyənlər isə qaçaraq, özlərini Bağdad hakimi Məhəmməd xan Şərəfəddin oğluna çatdırdılar.

Fitnəyə səbəb olanların bəzisi öldülər və bəzilərini isə əlahəzrət şahın göstərişlərinə əsasən Məhəmməd xan aradan götürdü.

Fitnə-fəsadın xəmir-mayası olan Quduz Sultan və əmirül-üməralıq iddiasında olan Cuhə Sultanın oğlu Şahqubad [saraydan] uzaqlaşdırıldılar və onların fitnəsi dəf oldu.[231](M-233a).

Ali taxtın ayaqlarında başqa oymaqların əmirləri özlərinə münasib [şəkildə] yüksəldilər. Bəziləri əmirlik və vilayət hakimi rütbəsinə çatdılar.

Kama çatmış [Şah Təhmasib] Hüseyn xana iltifat göstərib, onun ardınca Fars [vilayətinin] Kərmsir [şəhərinə] adam[232] göndərdi. Onu ali orduya gətirdilər. [Şah] əmirül-üməralıq mənsəbini ona və Abdulla xan ibn Qaraxan Ustacluya[233] verdi. [Onların] hər ikisi Allahın kölgəsi, dinin pənahı olan şahın bibisi oğlanları idi.[234]

Hüseyn xan ürəyində Əmir Səfər Avəsiyə qarşı kin bəsləyirdi. Hüseyn xan, əlahəzrət [Şah Təhmasibin] xidmətinə yaxınlığı və hörməti olduğu üçün istəyirdi ki, Əmir Çəfərin vəzifəsini öz nəzarətçisi tutsun.

[Hüseyn xan] 938-ci ilin məhərrəm [ayında] (15.VIII - 13.IX.1531) [Əmir Səfəri] öldürdü. Öz vəziri olan Əhməd bəy Nurkamal İsfahanini onun yerinə qoydu. Bu əsnada Həzrəti xaqanın (Şah İsmayılın) zamanında alçaq bir yasavul, ondan sonra tərəqqi edib, eşikağası olan və Allahın kölgəsi, kama çatmış Şah [Təhmasibin] hakimiyyəti zamanı əmirlik rütbəsinə çatan Üləmə Təkəlu üsyan elan etdi.

Təkalu[lar] arasında iki-üç nəfərin Cuhə Sultanla qərəzi vardı. Cuhə Sultanın yüksəldiyi günlərdə qorçibaşı Vəli bəy Tatar oğlu öz qərəzini izhar edib, Cuhə Sultanın qəsdində durmuşdu. Cuhə Sultan istəyirdi ki, onu qabaqlayıb aradan götürsün. Ancaq Üləmə ehtiyatlı idi, elə ehtiyatsızlıq etmədi ki, yaxasını onun əlinə versin (B-257a).

Pələng ilində (1530-cu ildə) Xorasana yürüş ortalığa çıxdıqda o (Cuhə Sultan), Azərbaycanın əmirül-ümərası idi. 300 nəfəri Xorasana cəza dəstəsi kimi göndərdi. Aləmi tutan ordu (Şah Təhmasibin ordusu) qışlamaq üçün İsfahanda olarkən, Sam mirzə və Hüseyn xan Şirazda ikən Üləmə Təbrizə gələrək, Təbrizin darğalığını ələ keçirmək istədi. Şahın Təbrizdə olan xüsusi atlarını ələ keçirdi. Bundan əlavə zərlə işləmək sənəti üçün alınıb, (M-233b) Təbriz zərlə işləyənlərinə tapşırılan şahın bəzi kənizlərini öz mülazimlərinə verdi. Təbriz fərraşxanasında olan şaha məxsus rəsmlər çəkilmiş çadırı çıxarıb öz başının [üstünə] vurdu. Şah Təhmasibin yaxın adamlarının Təbrizdə və o ətrafda qalmış sunukə mallarına yiyələndi. Bununla bərabər Özkəmər bəy Zülqədər ilə müxalifət barədə söhbət edib Təbrizdən çıxdı. Bir-birinin namusuna təcavüz etməkdə həddi-hüdudu aşan, buna təəssüflənməyən və bu səbəbdən parlər adlandırılan, dinsizlik və kafirlikdə məlum və məşhur olan Sarulu tayfasının adamlarından bəzilərinə seçmə əmirlik rütbələri verməklə hamısını öz tərəfinə çəkdi.

Bu xəbər ordu qərar tutduqdan, Təkəlu [lar] ın fitnəsi dəf olduqdan, hərbi hazırlıq başa çatdıqdan, sarayda əmirlər və vəzirlər təyin olunduqdan sonra şərafətli [Şah Təhmasibin] qulağına çatdığı vaxt böyük hökmdarın xidmətində məsləhətləşib, hamı belə qərara gəldi ki, Üləmənin üstünə hücum edib onu və onun bütün tərəfdarlarını cəzalandırsınlar. Şah Təhmasib böyük sürətlə yola düşüb, neçə günlük yolu bir gecədə qət etdilər. Həyat camı hələ dolmadığı (yəni, əcəli

çatmadığı) üçün [Ülamə] bu məsələni başa düşüb həmin gecə qaçdı. Səhər onun ordusu üzərinə hücum edildikdə, aparılması mümkün olmayan çadır və bəzi başqa şeylərdən başqa heç nə yerində qalmamışdı. Əmirlər onun ardınca getdilər. O, Vana qaçdı [və] Sultan Süleymanın[235] baş vəziri İbrahim paşa ilə görüşüb, onu aldatdı.

Onların əhvalatını sonra yazacağam. Xülasə, Şah [Təhmasibin] ordusu Ülamə qaçandan sonra darüssəltənə Təbrizə təşrif gətirdi. Fitrət vaxtında[236] cəsarət edib vəzir Xacə Əxi bəyi, maarif adamlarını və məmurları əzabla öldürmüş Təbriz camaatını cəzalandırdı. Fiqhdən[237] payı olmayan [lakin] hikmət, fəlsəfə, heyət,[238] riyaziyyat və tibdə görkəmli alim olan Sədr Mir Qiyasəddin Mənsuru o mənsəbdən (sədrlikdən) çıxarıb, müasirləri içərisində fiqhdə məşhur, ilahiyyatda və möminlikdə başıuca olan Mir Müizəddin Məhəmməd Nəqib Mir-Miranı [onun yerinə] təyin etdilər.

Bu qışlaqda aləm və aləm əhlinin şahzadəsi Əbül-qalib Sultan Məhəmməd mirzə anadan oldu.[239] (B-257b) Şahzadəni böyük təntənə ilə Hüseyn xan Şamlunun evinə göndərib ləlәliyini ona tapşırdılar. O, (Hüseyn xan Şamlu) böyük şadyanalıq etdi. Bu [hadisə] mənim (Əbdi bəyin) inkişafımın başlanğıcı oldu. Çünki Cuhə Sultan hadisəsindən sonra Hüseyn xan Abdulla xan Ustaclunun bibisi olan (Cuhə Sultanın) arvadı Xanxanımı özünə aldı. Bu kəminənin (Əbdi bəyin) atası məzkur xanımın vasitəsilə Cuhə Sultandan sonra Hüseyn xanın ailəsinə bağlandı. O isə mənə təlim və tərbiyə verib məktəbə göndərdi və Şeyx Əli ibn Əbdülalinin şagirdliyinə verdi. Bu yolla məni yüksəltdi və şahzadənin «vəziri» (baxıcısı) vəzifəsilə saraya göndərdi. Atam isə çox keçmədən vəfat etdi. Mən tək qaldığıma görə Hüseyn xanın adamları və onun vəzirləri ilə dolana bilmədim. Nəhayət, kitab və qovluğu bir yana ataraq, şahın dəftərxanasına gəlib, dəftər və vərəqlərlə məşğul oldum. O tarixdən bu bəndənin adı hesabdarların siyahısına düşdü.

Balıq ili (mart.1532 - mart 1533) - 938-ci ilin əvvəlləri və 939-cu ilin axırları (1531 - 1533) da Kürdüstanın Bidlis [vilayətinin] idarəsini Ruma getmiş Ülaməyə verdilər. O, Diyarbəkr bəylərbəyisi Fil paşa ilə birlikdə Bidlis və İmadiyyə hakimi Şərəf bəy Rujəki Kürdün[240] [üstünə] gəldi.[241] Şərəf bəy dünyanın pənahı [Şah Təhmasibin] dərgahına pənah gətirərək, nəvaziş tapdı və xanlıq vəzifəsi ilə şərəfləndi.

Şah Təhmasib Xoya təşrif apardı. Qaranqudərəyə çatdıqda Dəlu Yadigar Rujəki Bidlis qalasından gələrək xəbər çatdırdı ki, Fil paşa topları qoyub qaçdı. Buna görə ali ordu Çuxursədə hərəkət etdikdə, (M-234b) [Şah Təhmasib] Şərəf xanı bəzi əmirlərlə birlikdə Bidlisə göndərdi və özü Təbriz qışlağına gəldi.

Rumda Sultan Süleyman Firəngistana üz tutdu (yəni yürüş etdi). [O], Allahın kölgəsi, kama çatmış Şah [Təhmasib1 tərəfindən bir qədər [əvvəl] elçiliyə[242] getmiş Mehmandar Habil bəyi Firəng [istan] yolundan qaytarıb ali dərgaha yola saldı ki, Şərəf bəyi tutub [onun yanına] göndərsin. Bu söz əlahəzrət [Şah Təhmasibə], əmirlərə və dövlət xadimlərinə ağır gəldi. Çünki Ülamə bu

tərəfdən oraya (Türkiyəyə) getmiş və geri qaytarılmamış, əksinə [Sultan Süleyman] onu qüvvətləndirib, bizim ölkənin sərhəddi olan Bidlisi ona vermişdi ki, idarə etsin. Digər tərəfdən özü də hökm edirdi ki, Şərəf bəyi tutub, onun yanına göndərək. Xülasə, Hüseyn xan, Abdulla xan, Müntəşa Sultan və Elaldı ağa Hacıları rumluların yanına göndərdilər ki, desinlər:

- Ülamə bizdən qaçıb, sizin yanınıza gəlib, Şərəf bəy isə sizdən qaçıb, bizim yanımıza gəlib. Siz onu tutub bizim yanımıza göndərin, biz də Şərəf bəyi tutub sizin yanınıza göndərək.

Rumlular qəbul etmədilər. Ülaməni öz qanadları altına alıb Şərəf bəyi məhv etmək istədilər.

Qızılbaş əmirlərinə (B-258a) rumluların düşmənçiliyi yəqin oldu.

Hamı dilbir olub, kama çatmış [Şah Təhmasibi] Ruma yürüş etməyə təhrik edir və [deyirdilər] ki, Sultan Süleyman Firəng [istana] gedib, fürsət qənimətdir. Əlahəzrət Şah [Təhmasib] bunu qəbul etməyib [dedi] ki, o, din uğrunda müharibəyə gedib və kafirlərlə vuruşduğu üçün bizə bu vaxt onun ölkəsi üzərinə getmək, kafirlərə kömək etmək demək olar.

Əmirlər dedilər ki, Rum padşahının Ülaməni müdafiə etməsindən belə məlum olur ki, [o], yaxın vaxtda bizim üstümüzə gələcək. Hər halda biz onun qarşısına çıxmaq və müdafiə fikri etməliyik.

Bu niyyətlə hər bir [kəs] icazə alıb, öz yurduna getdi ki, döyüşə hazırlıq görsünlər və bahar olan kimi hər nə üz versə, imkan daxilində yardım göstərsinlər.

Şah Təhmasib Çuxursəddən darüssəltənə (M-235a) Təbrizə təşrif gətirib qışlaq etdi.

O vaxtlar səltənətdə xanlıq edən özbək Übeyd [xanın][243] Xorasana gəlib, Heratı mühasirə etməsi xəbəri Şah Təhmasibə çatdı. Oranın camaatı xüsusilə dinin pənahı şahın əlahəzrət qardaşı olan Bəhram mirzə və başqa əzizləri çətin vəziyyətə düşmüş, qəhətlik və aslıq baş vermişdi.[244]

Nəvvabi-kamyab [Şah Təhmasib] Xorasana üz tutmağı, özbəkləri dəf edib, qardaşını mühasirə və təhlükədən xilas etməyi vaçib bilib, Herata tərəf gəlməyə başladı.

İlan ilinin baharında[245] özbək Qəmiş Oğlan Herata hücum edib Savucbulağın Məxur çəmənində şahlıqla birləşən Astarabad vilayətinin (valisi) əbədi dövlətdə rütbə və xanlıq vəzifəsi tapmış Şahrux ibn Əlaüddəvlə Məhəmməd xan Zülqədərin ordusunun üstünə düşdü, qarət və qətl etdi.

Nəvvabi-kamyab [Şah Təhmasib] Əlqas mirzəyə təbil, bayraq, ilxı və qoyun sürüsü bağışlayıb, Bədr xan Ustaclunu onun lələsi təyin etdi və dua ilə Xorasana özbəkləri, xüsusilə Qəmiş Oğlanı dəf və ləğv etməyə göndərməyi qərara aldı.[246]

O günlərdə Şah [Təhmasibin] möhrdarı Mahmud bəy Zülqədər qopuq oyunu[247] meydanında hürkmüş atdan yıxılıb öldüyü üçün, eşikağası olan Şahqulu xəlifə Qurqulu Zülqədəri onun yerinə möhrdar [təyin] etdi. Qaravulçu Ərəbkirlunu onun (Şahqulunun) yerinə eşikağası qoydular. [Şah Təhmasib] Musa bəy ibn İsa

bəy Mosullunu Azərbaycanın əmirül-ümərası təyin edib, darüssəltənə Təbriz vilayətində qüvvətli hökumət yaratdı. 939-cu ilin Zilhiccə [ayında]. (24.VI-22.VII. 1533) dünyanı fəth edən [Şah Təhmasibin] bayrağı Xorasana tərəf dalğalandı. Elə ki, qələbə ayəli bayraqların yaxınlaşması xəbəri Xorasana çatdı, yerlərdə olan özbəklər təcavüzdən əl çəkib qayıtdılar. Übeyd [xan] da Heratın mühasirəsindən əl çəkib Mavəraünnəhrə getdi.

Cəlal bayraqları (Şah Təhmasib) qalib, müzəffər və xoşbəxtliklə (M-235b) böyük Allahın mühafizəsinin köməyi ilə Xorasana gəldi (B-2586). Cənnət kimi Heratda qışladılar.[248]

940-cı ilin aylarında (23.VII.1533-12.VII.1534) Ülamə Bidlis şəhərinin üstünə gəldi.[249] Kürd Şərəf xan Acə Sultan Qacar və Şərəf xana kömək edən, onunla dost olan əmirlərlə müharibə etdi və bu vaxt Şərəf xan öldürüldü. Şəmsəddin bəy ibn Şərəf xan atasının yerinə tayfa başçısı oldu. Bu xəbər Herat qışlağında cah-cəlallı [Şah Təhmasibin] qulağına çatdı. Təbil, bayraq, tac, saruq[250] və Bidlis vilayətinin Şərəf xanın hakimiyyəti və ölkəsinin xanlıq ləqəbi ilə ona verilməsi barədə olan [fərmanı] onun üçün göndərdilər.

Həmin ilin (940-cı ilin) at ilində (1534-cü ildə) Əlqas mirzəni Mərv tərəfə, Hüseyn xan Şamlu, Müntəşa Sultan Ustaclu və keçmişdə xəzinədar olub, ondan sonra Qəzvin valisi və tiyuldarlığına çatmış Əmir bəy Rumlunu Ğarcistanı[251] işğal etmək üçün göndərdilər.

Nəvvabi-kamyab (Şah Təhmasib) [imam] Rzanın-ona salavat və salam olsun-şərəfli cənnətini (yəni məqbərəsini) ziyarət etməklə şərəfləndi.[252] O, əmr etdi ki, o cənnətin günbəzini qızıla tutsunlar. Bunun üçün o, işə lazım olan xalis qızılı və qızıl pulu şəxsi xəzinəsindən verdi. [İstəyirdi ki,] bütün gümbəzi səthdən qübbəyə qədər qızıl kərpiclə tərtib edib, fələyin firuzə rəngli günbəzinə bənzətsinlər; uca günəşi[253] yer üzündə əbədiləşdirsinlər.

Cəlal bayraqları (Şah Təhmasibin) qələbə və bəxtlə Herata təşrif apardı. Bu vaxt Əlqas mirzə Reydən salamat və qənimətlə qayıtdı. Ğarsistana getmiş əmirlər qələbə və zəfər qazanaraq, oranı zorla işğal etmiş Şah Məhəmməd seyfülmülkü dəf edərək, ali dərgaha gəldilər. Bu ildə Şiraz vilayətinin [hakimliyi] Həmzə Sultan Zülqədərdən alınıb, Sultan Xəlilin qardaşı Qazıxan Zülqədərə verildi.

Qələbə ayəli bayraqlar (şah Təhmasib) Zilhiccə [ayının] 12-ci günündə (24 iyun 1534) Heratdan çıxıb Bəlx və Mavəraünnəhrə[254] tərəf hərəkət etdi, (M-236a) 40 gün Ələngnişində dayandılar. Ondan sonra İraqdan və Azərbaycandan çaparlar gələrək Ülamənin Təbrizə gəlməsi xəbərini gətirdilər.

[Hadisə] belə olmuşdu: Ülamə osmanlı padşahı Sultan Süleymanın baş vəziri İbrahim paşanı aldatmışdı ki, Şərq ölkəsi[255] boşdur və Qızılbaşların əksər əmirləri mənimlə dilbirdirlər. Əgər Sultan [Süleyman] o tərəflərə gəlsə, mən öhdəmə götürürəm ki, o ölkəni paşa üçün istila edəm. İbrahim paşa onun sözü ilə yoldan çıxdı. Ülaməni böyük ordu ilə göndərdi.[256] Özü də onun ardınca yola düşdü.[257]

Sultan Süleyman onlardan sonra Azərbaycan və İraqa yollandı. Ülamə 940-cı ildə qurban bayramı günü (22 iyun 1534-cü ildə) Təbrizə gəldi. Musa Sultan onun gəlişindən xəbərsiz (idi). Rum qoşunlarının ön dəstəsində taun xəstəliyi olduğuna görə şəhərdən kənara çıxaraq, Həştrud və Kavrudun Aydoğmuşçahi adlı yerində dayandı. Ülamə Təbrizi tutdu və Musa Sultan Aydoğmuşçahidən İraqa getdi.

Ülamədən sonra 941-ci ilin məhərrəm ayında (13.VII.-11.VIII.1534) İbrahim paşa saysız-hesabsız ordu ilə Təbrizə gəldi. Daha sonra Sultan Süleyman saysız-hesabsız ordu ilə Təbrizə gəlib, oraya darğa təyin etdi. Azərbaycan məmləkətinin hər bir vilayətinə adamlar göndərib, İraqa tərəf yola düşdü.

Qələbə ayəli nəvvabi-kamyab [Şah Təhmasib] o xəbəri [eşitdikdən] sonra Sam mirzəni Ağzıvər xan Şamlu ilə Heratda qoyub, Ələngnişindən 23 köçə[258] İraqa[259] gəldi. Bəhram mirzə və Qazı xan Təkəlunu özü ilə gətirdi.

Şah Təhmasib Oğlan xəlifə Qorçibaşı [adı ilə] məşhur olan Məhəmməd xəlifə Şamlunu bəzi qorçilərlə və Müntəşa Sultan Ustaclunu ordunun ön dəstəsi [kimi] göndərdi.

Əbədi səadət və daimi dövlət bu uca rütbəli Şah [Təhmasibin] dostu olduğuna görə bu hərəkət zamanı elə ki, Bistama çatdılar (M-236b) şah ordusunun pişnamazı[260] Seyid Məhəmməd Cəbəl Amoli yuxuda gördü ki, [Məhəmməd] peyğəmbər - ona və ailəsinə Allahın salamı olsun-yüksək rütbəli şaha buyurdu ki, qadağan edilmiş şeylərdən əl çəksən, ölkənin fəthləri sənə müyəssər olacaq. [O], bu yuxunu Şah [Təhmasibə] danışdı. Vəzir olan Əhməd bəy Nurkamal və o məslisdə hazır olan bəzi əmirlərin hər biri bu yuxu haqqında fikir yürü-dürdülər ki, görəsən hansı yolla qadağan olunmuş şeylərdən keçmək olar.

Nəvvabi-kamyab [Şah Təhmasib] ilham dili ilə bəyan etdi ki, istəyirəm bu gecə yuxuda hər nə görsəm, səhəri ona əməl edək.

Həmin gecə yuxuda o Həzrətə (Şah Təhmasibə) əyan olur ki, pəncərənin bayırında ins və cinsin imamı [İmam Rza] - ona Allahın salavatı və salamı olsun - möhtəsib[261] Mir Hadi Musəvinin əlini tutub [deyir ki,] içki, zina, uşaqbazlıq və məstedici içkilərdən tövbə etsinlər.

Səhər olcaq yuxunu əmirlərə danışıb nəsuh tövbəsi[262] buyurur. Əmirlər, hökumətin məsul adamları və qalib əsgərlər gördülər ki, tövbə qapısı açıqdır, razılıq etdilər.

Şərab, qumar və şəriətin qadağan etdiyi başqa [şeylər] barədə olan şahın əmrini tabelikdə olan bütün ölkəyə göndərdilər. Buyurdular ki, hər il şərabxana, məcunxana, qumarxana və fahişəxanalardan mədaxil olan böyük məbləği bütün ölkənin [maliyyə, mədaxil] dəftərlərindən çıxarıb, bundan sonra dilə [gətirməsinlər] və qələmə almasınlar. Təyin edilmiş vergi silinsin. Hər kəs bu hökmün əksinə getsə, cəzalandırılacaqdır. Bu qadağan və hökm uzun müddətdir ki, qüvvədədir. Belə ki, indi o dövrdən 40 ilə yaxın vaxt keçsə də,[263] heç kəs bu kimi işlər etməyə qadir deyildir. Bu işin üstündə çox başlar bədəndən ayrıldı.

Xülasə, (B-259b) dünyanıg ordu 21 köçə Ələngnişindən Reyin Kəbud günbəzinə[264] çatdı. Bu yürüşdə qələbə şüarlı döyüşçülərin (M-237a) çoxlu at və dəvəsi tələf oldu. Tələf olmayanlar həddən artıq zəif idilər. Buna baxmayaraq yolu davam etdirirdilər. Savucbulaq ətrafına çatdıqda Əlqas mirzə, Bəhram mirzə, Hüseyn xan Şamlu, Qazıxan Təkəlu, Əmir bəy İnaq Rumlu, Süleyman Sultan Rumlu və Məlik bəy Xoyini ordunun ön dəstəsi etdilər. Şahın ordusu Qəzvinə gəlib oradan Əbhərə getdi. [Şah Təhmasib] Qəzvində olarkən Zəncan çayının kənarında olan, yuxarıda adları çəkilən, böyük əmirlər tərəfindən ona xəbər çatdı ki, təhqiq üçün Xandigar Süleyman çoxlu qoşun və ləvazimatla gəlib Zəncana çatmışlar.

Şahqulu xəlifə mehrdar və Şahqulu Sultan Əfşar hökmə əsasən ordunun köç [evini] ali ordu ilə birləşdirdi.

Xandigarın özünün ordu ilə birlikdə gəldiyi müəyyən edildikdə, köç evini ayırıb İsfahana göndərdilər. Əmirlərin yanına ön dəstə göndərərək Sultaniyyənin Ağdağının arxasında şahın ordusu ilə birləşməsini Əmr etdi. Əmir bəy Rumlu, Çıraq Sultan Ustaclu və Məhəmməd xan Zülqədər oğlunu qaravul təyin etdilər. O vaxt əlahəzrət şahın ətrafında cəmi 7 mindən artıq adam yox idi.

Hüseyn xan Şamlu, Qazıxan Təkəlu, Əlaüddövlənin nəvəsi olan Məhəmməd xan Zülqədər oğlu və başqalarının çoxu nifaq məqamında idilər (ikitirəlik edirdilər).

Şərafətli şaha məxsus olan bütün ordunun, böyük əmirlərin və kəramətli qorçilərin kara gələ bilən atları mindən artıq deyildi.

Bu zaman Zülqədər oğlu Qiya Sultan Zülqədər 1000 atlı ilə Burun Sultan Təkəlunun oğlu Hüseyn Sultan Şah Təhmasibdən üz çevirib, rumluların yanına getdiklərindən əlahəzrət [Şah Təhmasibin] ürəyi sarsıntıya məruz qaldı və onu fikir götürdü. Əmirəlmöminin nəsli dövlətinin (Səfəvi dövlətinin) bütün havadarları fikir etməyə başladılar ki, görəsən saysız-hesabsız Rum qoşununun dəfi həqiqətən mümkün deyil?! (M-237b) Bu vaxt vəziyyət necə olacaq? Dinin pənahı [Şah Təhmasibin] qoşununun aşkar azlığı, fikir ayrılığı, dördayaqlıların zəifliyi, ziddiyyət yaradanlar və dönüklərə neçə müqavimət göstəriləcək?!

Hələ əqrəb[265] [ayının] əvvəlləri idi və qışa 50 gün qalmışdı. [Birdən] bölünən bir ildırım çaxdı. Güclü qar yağmağa başladı. Soyuğun şiddəti o dərəcəyə çatdı ki, adamlar və atlar buz bağladı. Bu vəziyyət rumluların hərbi düşərgəsində onların həlakına səbəb oldu. Gecənin şiddətli soyuğu o ordunu qarışqa və çəyirtkə kimi qırdı. Əbrəhə əl-Şərmin ordusunu Əbabil quşları səccil daşları ilə həlak etdikləri kimi[266] onlar da məhv oldular. (B-260a) Ağcaqanadların yuxarı qalxıb Nəmrudun qoşununun beynini yeməklə, onları məhv etdikləri kimi, o camaat da elə məhv oldu.[267]

Qəribədir ki, şiddətli soyuqdan bir qədər sonra isti olduqda, hərəkət etməyi bacarmayanlar zəlalət çölündə qaldılar.

Nəvvabi-kamyab [Şah Təhmasib] o yerdən köç edib Dərcənizin tərəfə hərəkət etdi. Bu vaxt Kuhgilə və hakimi Əlvənd xan Əfşar 1000 təzə qüvvəli süvari ilə oraya çatdı və iki tövlə kök, güclü atı hədiyyə gətirdi. Nəvvabi-kamyab Şah [Təhmasib] Qara Mahmud Ovçubaşı Ərəbgirluya o atlardan birini verib 50 nəfər döyüşçü ilə dil gətirməyə göndərdi. Onlar Xərrəqanın Gələngin səhrasında düşmənin bir dəstəsinə rast gəlib, onlardan beş nəfərini tutdular və şahın yanına gətirdilər. Onların dediyindən məlum oldu ki, Sultan Süleymanın özü Bağdada getməkdədir. O, Ülamə və Zülqədəroğlunu Təbrizə göndərmişdir. Bu məsələ nəvvabi-kamyaba aydın oldu. Hüseyn xan Şamlunun da ikitirəliyi aşkar idi. Nəvvabi-kamyabın göstərişi ilə onu şahın qabağında qılınclayıb öldürdülər.

(M-238a) Özünü Ülaməyə çatdırmaq məqsədi ilə qaçmış Qazıxan Təkəlu rumluların arasına getdi və Təbrizə yollandı.

Cəlal bayraqları (Şah Təhmasib) Ülamə, Zülqədər oğlu və Qazıxanın ardınca Təbrizə tərəf yollandı. Xandigar Bağdad tərəfə getmişdi.

Nəvvabi-kamyab [Şah Təhmasib] Abdal Hüseyn Çavuşlu Ustaclu və Həmzə bəy Ğəzal oğlu Təkəlunu Bağdada Məhəmməd xan Şərəfəddin oğlunun yanına göndərdi ki, Xandigar Süleyman çatınca, Bağdadda olan azuqəni çaya töküb, sudan keçsin və Hüveyzə yolu ilə özünü dünyanın pənahı [Şah Təhmasibin] dərgahına çatdırsın.

Qazıxan Təbrizdə Ülaməyə çataraq, onu dinin pənahının zəfər dəsgahlı ordusunun gəlməsindən xəbərdar etdi. Buna görə [Ülamə] təşvişə düşdü. Qazıxan, Zülqədər oğlu və Təbrizə toplaşmış bütün səfil və qovulmuşlar Təbrizdən çıxaraq, Ruma getməyə başladılar. Ülamə Van qalasında yerləşdi.

Nəvvabi-kamyab Təbrizə tərəf təşrif gətirib, 20 gün [orada] dayandı. Ondan sonra Ülamənin ardınca Vana getdi. Oranı mühasirə edərək, qışı başa çatdırdı.

Məhəmməd xan Şərəfəddin oğlu şahın əmrinə əsasən Bağdadı tərk edərək kənara çıxdı. Xandigar boş Bağdada gəlib oranı işğal etdi və orada qışladı.

Ğədir günü[268] 940-cı ildə Zilhiccə ayının 18-də (30 iyun 1534) zamanın müctəhidi Şeyx Əli ibn Əbdülali Nəcəfdə cənnət bağlarına getdi - torpağı yumşaq olsun - tarixi «müqqədai-şiə» oldu.[269]

Qoyun ilinin baharında (1535-ci ildə) (B-260b) Van qalasını mühasirə etməyi buyurmuş nəvvabi-kamyanın ətrafında əmirlərdən, qorçilərdən və başqalarından ibarət 1400 nəfərdən artıq müşayiətçi yox idi. Bununla belə mühasirədəkilərin işini çətinləşdirmişdilər.

(M-238b) Bu bəndə (yəni Əbdi bəy) o səfərdə zəfər məiyyətli şahın mülazimi[270] idi.

Təbrizi zəbt edib darğalıq etməyə başlamış Həsən bəy Yüzbaşı Ustaclunun mülazimi Qubad ağa [gəlib] çatdı. Hamama təşfif aparmış nəvvabi-kamyab [Şah Təhmasib] ondan həqiqəti aşkara çıxaran xəbərlər soruşdu. Bu zaman Müntəşa Sultan Ustaclu və Əmir bəy İnaq Rumlunu çağırdılar ki, Qubad ağanın xəbərlərini

diqqətlə araşdırsınlar. Qalanı mühasirə edənlər bu iki əmiri yol keçərkən gördükdə, fəryad etdilər ki, Sam mirzə yağı olub və Xandigar onu «oğul» deyə çağırıb.

**BEYT**

Arif salikin[271] bir kəsə demədiyi bu sirri
Heyrət edirəm ki, badə satan haradan eşidib.

Xülasə, Qubad ağa da həmin xəbəri gətirmişdi. Yaxın adamlar bu işi təhqiq etməyə başladılar. [Belə məlum oldu] ki, Sultan Süleyman da Bağdaddan çıxıb[272] və Altunköpri (Altun körpü) yolu ilə Təbrizə gəlməkdədir. Buna görə qaladan çıxıb [təsili] Təbrizə gəlmək vacib oldu. Çunki orada hadisə baş vermişdi.

Alçaqlıq və nifaq mədəninin ləyaqətsiz cövhəri olan Məlik [bəy] Xoyini cəzalandırdılar. Ali divanda Hüseyn xanın vəkil və vəzirləri olan, onlardan bir neçə dəfə alçaq işlər aşkar edilən Əhməd bəy Nurkamal və qardaşları Qiyasəddin Mahmud ilə Şəmsəddin Məhəmməd Xorasan yolunda nəvvabi-kamyabı zəhərləmək istədilər.[273] O vaxt Hüseyn xan [onları] himayə etdiyi üçün heç kim onların sirrini faş edə bilməzdi. İndi əməllərinə görə tutuldular və Əlincə qalasında həbs edildilər. Mir Qiyasəddin Xuzani İsfahani[274] və Qazı Mir Hüseyn Mibədi[275] Yəzdinin oğlu Xacə Müinəddin Əli onların əvəzində ali divanın vəzirləri oldular.

Cəlal bayraqları (Şah Təhmasib) Təbrizdən çıxıb, Ərəb İraqına yollandı. Sultaniyyə nəvvabi-kamyabın hərbi düşərgəsi oldu.

(M-238a) Təkəlu [lar] ın xidmətini rədd edib, Gilanın Biyəh-pəsinə getmiş və orada Müzəffər sultanın bir müddət həbs etdiyi Qazı Cahan əl-Hüseyni əl-Qəzvini Müzəffər Sultanın hakimiyyətində qarışıqlıq baş verəndə, fürsət tapıb ali taxtın ayağına gəldi və hədsiz-hesabsız şahanə hədiyyələrlə başı ucaldı. 942-ci ilin səfər ayında (avqust 1535-ci il) baş vəzir vəzifəsinə yiyələndi.[276]

Allahın kölgəsi [olan] şahın ordusu Dərcəzinə təşrif apardı.

Xandigar Sultaniyyəyə gəldi və oradan [yola düşüb] Dərcəzin yaxınlığında düşərgə saldı.

Nəvvabi-kamyab hərəmxananın ordusunu eşikağası-başı Ərəbkirlunun qaravulçuluğu ilə ayırdı və qərara aldılar ki, onu İsfahana çatdırsınlar (B-261a). Beləliklə də, [Hərəmxananın] köç evinə əngəl törədilməsin deyə, zəfər aqibətli əsgərlər döyüşə hazır oldular.

Qızılbaş köç evinin ayrıldığını və indi döyüş məqamı olduğunu eşidən Sultan Süleyman Dərcəzindən qayıdıb, Ruma yollandı. Nəvvabi-kamyab [onu] təqib etdi. Sultan Süleyman Təbrizə getdi. Nəvvabi-kamyab Ucana çatdı. Ucanda saleh adamlardan biri yuxuda gördü ki, Həzrəti Sultan Şeyx Sədrəddin[277] ona deyir ki, şaha deginən astananı[278] ziyarətə gəlsin və 12 çıraq nəzir gətirsin. Şeyxləri ziyarət etdikdən sonra hara istəyirsə getsin.[279] [O saleh adam] bu yuxunu ərz etdi. Buna görə nəvvabi-kamyab ordunu qoyub, Ərdəbil Səfəvilərinin müqəddəs

astanasını ziyarət etməklə şərəflənib geri qayıtdı və Sarabda əğroq[280] ilə birləşdi. Xəbər gəldi ki, Xandigar Sultan Süleyman Təbrizdən çıxıb, buna görə [Şah Təhmasib] ali ordunun ardınca gedərək, Mərəndə təşrif apardı və oradan Xoya getdi. Orada məlum oldu ki, Xandigar Əxlata gedib. Buna görə Müntəşa Sultan Şeyxlu Ustaclu, Əmir bəy İnaq Rumlu, Şahqulu xəlifə Möhrdar Zülqədər, Budaq xan Qacar, Sarı Birə Ustaclunun oğlu Sədrəddin xan (M-239b) və İsa bəy Mosullunun oğlu Məhəmmədəmin[281] bəy Süfrəçi [və digər] yasavul, bukavul,[282] qapıçı və qiçaçılar Bəhram mirzənin başçılığı ilə müxalifətçilərin ardınca yola düşdülər. [Şah Təhmasib] oradan Qaranqudərəyə gedib balıq ovu ilə məşğul oldu.[282]

O gün iki nəfər kürd gəlib xəbər gətirdi ki, Ülamə Vandadır. Nəvvabi-kamyab [Şah Təhmasib] dərhal səadət [atına] minib, hücuma keçdi. Molla Həsən zaviyəsinin[283] ətrafına çatdıqda əlahəzrət [Şah Təhmasibin] hərarəti bir qədər artdı və orada istirahət üçün bir qədər dayandılar. Qissəxan[285] Ustad Mahmud[286] fəsahət və bəlağ əti vasitəsi ilə kədər tozunu (şahın) ürəyindən sildi. Axirətlə bağlı olan ürəyinin gizli güzgüsünün tozunu ürəyəyatan hekayələr və misilsiz rəvayətlərlə təmizlədi.

Qiya bəy Qorçi Qacar[287] və Şirhəsən Qorçi İymur Zülqədəri 30 nəfər qorçi ilə Vandan xəbər gətirmək üçün göndərdilər. İkindi zamanı,[288] xəbər gətirməyə gedənlərdən iki nəfəri qayıdıb Ülamənin Vanı qoyub qaçdığı xəbərini gətirdilər. Buna görə ali bayraqlar (Şah Təhmasib) o biri gün köç edib, Vanın ətrafında düşərgə saldı. Oradan Şiraz hakimi Qazıxan Yəqub Sultan Qacarı və 600 nəfər qorçini Hüseynəli bəy Köpəkqıran Qacar və Hüseyn[289] bəy Yüzbaşı Ustaclu, əmirlərin mülazimlərindən dörd-beş min[290] süvari ilə Seyid Məhəmməd Kürdün[291] ölkəsinə və mal-qarasına basqına yollandılar. Bu vaxt xəbər çatdı ki, Bəhram mirzə, əmirlər (B-216b) və onun yaxın döyüşçüləri bir qədər əvvəl düşmənlərindən Hacı bəylə rastlaşıb, [onu] məğlub etmiş və 250 nəfər adamını öldürmüşlər. Tək o özü qaçmışdır. [Kəsilmiş] başları və qənimətləri dərgaha gətirdilər.

Həmin gün ikindi vaxtı Süleyman Sultan Rumlu namaz qılmaq üçün dənizin kənarına gedir. Görür ki, (M-240a) Adilsivazla[292] Ərsiş[293] arasında böyük bir toz mavi göyə yüksəlir.[294] [O], nəvvabi-kamyabın (Şah Təhmasibin) xidmətinə gələrək ərz edir ki, dənizin kənarında səfalı, havası son dərəcə gözəl olan bir çəmən vardır. O qədər tərif edir ki, nəvvabi-kamyab dəniz kənarının seyrinə meyl göstərir. Elə ki, ora gəlirlər məzkur Sultan (yəni, Süleyman Sultan Rumlu) təxminən 30.000 süvarinin tozu olan (yuxarıda haqqında danışılan) qaraltını uzaqdan ona göstərir.

Belə qərara gəlirlər ki, [bu qaraltı] Xandigarın Bəhram mirzə, əmirlər və onun dostlarının üstünə gedən qoşununun tozudur. Buna görə nəvvabi-kamyab [Şah Təhmasib] o zaman qorçi olan bayraqdar Şahverdi xəlifə Zülqədər Sokən oğlunu Bəhram mirzə və onun dostlarının yanına göndərir. Beləliklə, onları xəbərdar edirlər ki, qafil olmasınlar. Əgər [həqiqətən] belə olsa, xəbər etsinlər, köməyə çataq. Ondan sonra nəvvabi-kamyab [Şah Təhmasib] istədi ki, Vəstan

tərəfə getsin və Bəhram mirzə ilə əlaqədar xəbərin həqiqiliyini aşkara çıxarmaq üçün orada dayansın. Həmin gün dəniz kənarına gəzintiyə çıxmış Hilhil Bahadır Ərəbgirlu və Kor Şeyxi Çeşmkəzəki ali dərgaha gələrək, Ülamənin yanından qaçmış bir rumlunu onun yanına gətirdilər. O rumlunun dediyindən aydın oldu ki, Ulamə və Diyarbəkr paşası  Van qalasına gəlmək niyyəti ilə Vəstana çatanda, Əlqas mirzənin yasavullarından birini tutub, ondan dinin pənahı olan Şah [Təhmasib] in Vanda olmasını öyrənmiş və buna görə oradan qayıtmışlar.

Nəvvabi-kamyab [Şah Təhmasib] həmin saat qorçilərdən 80[295] nəfəri vəziyyətdən xəbər tutmaq üçün Vəstana göndərdi. Bu vaxt Qara İsmayıl qorçi Türkman və Kor Şahsuvar qorçi Türkman düşmənlərdən [bir kəsik] baş və bir əsir gətirdilər. Əsir dedi ki, Xandigarın qulamıyam.

Nəvvabi-kamyab [Şah Təhmasib] soruşdu: - Xandigar haradadır?

O dedi ki, Əxlatdadır.

Ondan soruşdular ki, sən burada nə edirsən? O dedi:

- Xandigar Ülaməni Vana göndərmişdi.

Elə ki, Ülamənin adını çəkdi, onun qalan sözlərinə qulaq asmadılar. Nəvvabi-kamyab bir anda atlanıb, Ülamənin üstünə hücum etməyi buyurdu. Bu vaxt getmiş türkman qorçiləri 17 [nəfər] əsir rumlu ilə gəldi və hücuma qəti qərar verildi.

Gecə olduğu üçün yeddi şahlıq məşəli yandırıldı. Nəvvabi-kamyab (Şah Təhmasib) hücuma başladı. Eyni zamanda 300 nəfər türkman qorçi və Zülqədər qəçərçi[296] Van və Vəstan arasında olan körpüdən keçmək mümkün olmadığı üçün (B-262a) ağacdan ona dar körpü düzəltdilər. Bəzi adamlar körpüdən və bəziləri suyun axını ilə keçərək yola düşdülər.

Nəvvabi-kamyabın (Şah Təhmasibin) ardınca gedən Yəqub Sultan Qacar, Seyid Məhəmmədin vilayətindən qayıtmış Həsən bəy Yüzbaşı 600 qorçi, Abdulla xan Ustaclu, Gögcə Sultan Qacar, Yadigar Sultan Mosullu[297] öz adamları ilə [hava] işıqlananda körpünün yanında hamının cəm olduğunu gördükdə elə təsəvvür etdilər ki, nəvvabi-kamyab (Şah Təhmasib) orada dayanmış olar. Xülasə, bu camaat orada atlarını yemləmək üçün dayandı və nəvvabi-kamyabın onlara gəlib çatacağını fikirləşdilər.

Ülamə köhnə döyüşçü olduğuna görə məşəllərin işığından Cəlal bayraqlarının (Şah Təhmasibin) [hücum] edəcəyini başa düşdü və Paşa ilə birlikdə Diyarbəkrə qaçmağı qərara aldılar.

Xülasə, sübh vaxtına yaxın nəvvabi-kamyab (Şah əhmasib) 2000 atlı ilə onlara çatdı və döyüşə başladı. Düşmənlərdən çoxu öldürüldü. Dəlu[298] Pərvanə və alaybəyi Məmi Çələbini diri tutub gətirdilər. Qalan düşmənlər məğlub oldular.

Dəlu Pərvanə və Məmi Çələbi İbrahim paşanın Bəhram mirzə və əmirlərin üzərinə hücum etməsini dedilər. Buna görə Cəlal bayraqları (Şah Təhmasib) geri qayıtmağı buyurdu. Bu zaman [Şah Təhmasib] Bəhram mirzənin gəlməsini tələb etdi. O gəldi və dedi ki, bizim üzərimizə gəlmiş İbrahim paşa onlardan yeddi

nəfərin qələbə ulduzlu döyüşçülərin qılıncı ilə öldürüldüyünü [gördükdə] arxa çevirib geri qayıtmışdır.

Xülasə, bir dəfə Ülamə, Diyarbəkr paşası (M-241a) bir tərəfdən, İbrahim paşa başqa tərəfdən məğlub və nizamsız [halda] Xandigarın ordusuna tərəf gedirlər. Onların qoşunu pozulur və çəkilib öz ölkələrinə qayıdırlar.

Ərciş və Van ölgələri yenilməz dövlətin tərkibinə daxil edildiyi üçün nəvvabi-kamyab [Şah Təhmasib] oraları qabaqlarda Kirman hakimi olan və Sultan adlanan Əhməd xan Sufi oğlu Ustacluya tiyul olaraq verdi. [Şah Təhmasib] özü zəfər dəsgahlı ordu ilə Adilcəvaza və oradan Əxlata qədər Xandigarı qovmağa, onun canlı qüvvəsini məhv etməyə getdi. [O], Van gölünün[299] cənub tərəfindən Kürdüstanın mərkəzinə gəlib, üsyan edən kürdlərə layiqli qulaqburması verdi. Kəvaş və Vəstan yolu ilə Vana yollandı. Kəvaşda dəfələrlə üsyan və nalayiq hərəkət etmiş Əlvənd xan Əfşarı öldürüb, onun qoşunu və vilayətini Mənsur bəy Əfşarın oğul nəvəsi Məhəmməd bəy ibn Həsən Sultana bağışladı və ona Şahrux xan ləqəbi verdilər. [Şah Təhmasib] ondan sonra səadət və xoşbəxtliklə darüssəltənə Təbrizə təşrif gətirib, qışlaq etdi. Bu qışlaqda xəbis batini ilə (B-262b) iki il Rumda olub geri qayıtmış, itaətsizlik iddiası ilə rumlularla görüşən, hakimiyyəti zavala uğradıqdan sonra Şirvana gəmi sürmüş[300] daxilən xəbis Müzəffər Sultan ləqəbli Əmirə Dubas Gilanini tutub ali dərgaha gətirdilər. Əlahəzrət nəvvabi-kamyab [Şah Təhmasib] əmr etdi ki, Təbriz şəhərini bəzəsinlər və bütün ordu üzvləri və şəhər camaatı toplaşsın. Ondan sonra əlahəzrət [Şah Təhmasib] də ata minərək, xiyabanın başına qədər təşrif gətirdi. Məzkur Əmirə Dubasa dəri paltar geydirib qəfəsin içinə saldılar. Bu əhvalat «Firdovsi»[301] kitabında nəzmə belə çəkilmişdir:

**NƏZM**

«Qayıdan baş Gilan torpağında,
Müzəffər Sultan kimi din düşmənini vurdu.
Gilan torpağında onun bəxti döndü,
Hər yerdən ümidi kəsildi.
Gəmiyə oturdu ki, bir yana çıxsın,
Qolzom (Xəzər) dənizindən çıxıb başqa bir yerə getsin.
Gəmi gedərkən dəryada tufan oldu,
Dünya şahının sərhəddinə [tərəf] qaçdı.
Onun bəxti dönmüş ulduzunun yaxasından yapışdı,
Onu pis vəziyyətdə şahın dərgahına çatdırdı.
Şahın adamları onu şaha çatdırdılar.
Şah onu qəfəsə saldı.
Qəfəsin içində fələyin bu işinə heyran qaldı,
Əgər dodaqaltı bu sözü deməsə də

Dəryanın tufanından sonra qəfəs mənə məkan oldu,
Tələyə [düşmüş kimi] qəfəsin içində məkan tapdı.»

Vəzir olmuş Mir İnayət Xuzaniyə və Əmirə Dubasla dilbir olan iki-üç nəfərə dəri xələtlər geydirib, o alçaqları məsxərə və istehza ilə Təbriz bazarının ortasına gətirdilər. Oradan Qeysəriyyəyə aparıb, Qeysəriyyənin ortasında asılmış qəfəslərə saldılar. Qeysəriyyənin içərisində dindirildikdən bir neçə gün sonra Sahibabad meydanını bəzəyib onları oraya gətirdilər və qəfəslə Nəsriyyə imarətinin minarəsindən asdılar. Vəzir Mir İnayəti qəfəsin altına iplə bağlayıb yellədilər və od vurdular. Başqalarına ibrət olmaq üçün bütün cəhənnəmi onlara aşkar edib, cəhənnəmə göndərdilər.

Meymun ilində (mart 1536-mart 1517) - bəzi [ayları] [94] 2, bəzi [ayları] isə 943-cü ildə (2.VII.1535-9.VI.1537) Molla Rüknəddin Kazeruni məzəmmətləndi və qəzəbə düçar olaraq öldürüldü. Ondan sonra üçüncü gün[302] məhərrəm [ayının] 8-də (9.VII.1535) ali ordu (Şah Təhmasib) Ucan yaylağına gəlib,[303] oradan Ərdəbilin müqəddəs məqbərəsini ziyarət etməyə getdi. Bu ildə Əskuyə seyidlərinin münasibətləri yaxşılaşmağa başladı. [Şah Təhmasib] Ərdəbildən qayıtdıqdan sonra ən ali ehtiyacını alicənablıqla yerinə yetirmək üçün İraqa tərəf yollandı. Aydoğmuşçahidə Mir Müinəddin Məhəmməd İsfahanini sədarətdən çıxarıb, onun əvəzinə elmi fənlər və məhkəmə [işlərində] öz zəmanəsinin seçilmiş oğullarından (M-242a) olan (B-263a) Şahmirzə [adı ilə] məşhur Əmir Şəmsəddin Əsədüllah əl-Mərəşi Şüştəriyə sədarətlik mənsəbi verdilər. «Zillillahi-əbada» (Allahın əbədi kölgəsi) onun mənsəbə [keçməsi] tarixi oldu.[304]

[Şah Təhmasib] ondan sonra köç edə-edə Xorasana yürüş əzmi ilə Qəzvinə təşrif gətirib, neçə gün orada dayandı. Rəbiüse-sani ayında, seşənbə gününün səhəri[305] oradan yola düşüb Reyə getdi. Orada Kirman seyidlərindən bütün ölkənin münşilik işlərini aparan Xacə Mirək Münşi Allahın rəhmətinə getdi. O vəzifə əvvəllər bu dövlətin başlanğıcında — Həzrəti xaqan [Şah İsmayılın] vaxtında xidmətlər göstərmiş vəzir Məhəmməd bəy ibn Əmir İsmayıl bəy ibn Zəkəriyyə Köçəçiyə həvalə edildi.

Lahicanın Gilan [vilayətinin] padşahı Karkiya Sultan Həsən ibn Karkiya Xanəhməd məzkur [943-cu] ilin cəmadiəl-axır [ayında] (15.XI—13.XII.1536) vəfat etdiyi üçün oranın hakimliyi Bəhram mirzəyə verildi. Buna görə məzkur mirzə Qəzvində qışlaq edib, toyuq ilinin baharında (1537-ci ilin baharında) Lahicana yola düşdü və oranın əksər ərazisini öz idarəsi altına aldı.

Nəvvabi-kamyabın Muzəffər Sultan ləqəbi verdiyi kilək Kiya Xur Kiya Gilan əmirləri arasında son dərəcə məğrur olduqu üçün [Bəhram] mirzənin vəkili Həsən ağa Şamlunu və vəziri Xacə İnayətüllah Şirazini həbs edir. Bu, Gilan əmirlərinə olan etimadı aradan qaldırdı.

[Kiləklər] toyuq ilində (1537-ci ildə) üsyan etdilər. Bəhram mirzə Gilandan əl çəkib, Qəzvinin Dəryavək yaylağına gəldi.[306]

Meymun ilində (mart 1536-mart 1537) baş verən başqa hadisələr bunlardır:

Özbək Übeyd [xan] Herat hakimi Xülafə Sultan Rumlunun Sufiləri ilə vuruşub, onu Nişapurun Əbdülabad qalasında mühasirəyə alaraq tutdu və öldürdü, [sonra] Heratı işğal etməyə yollandı.

Gizli qalmasın ki, məzkur Xülafənin adamları Sam mirzə və Ağzıvər xanı Heratda qoyub Cahangirlik iddiası ilə Qəndəhara getmiş və orada məğlub olmuşdular. Ağzıvər [xan] orada öldürülmüş, Sam mirzə isə giləkin Təbəs (M-242b) [şəhərinə] getmişdi. [Xülafə Sultan Rumlu] Heratda hökumət başında qalmışdı. Özbək Übeyd [xan] Herata gəldikdə o, ehtiyatsız olduğu üçün, Heratdan kənara çıxıb, özbəklərlə vuruşa hazırlaşdı. Nişapur yaxınlığında vuruşaraq, Əbdulabad qalasına sığındı.

Xülasə, Übeyd [xan] Heratı mühasirə edərkən, Heratda məmləkəti qoruya biləcək Qızılbaş əmirlərindən bir kəs olmadığından oranı zəbt etmişdi. Şəhər əhalisindən Mir Sultan İbrahimin oğlu Mir Məhəmmədtahir səfər [ayının] 27-də (avqust 1536) səhər vaxtı darvazanın yanından yer açıb, özbəkləri içəri apardı. Bu vasitə ilə şəhər özbəklərin əlinə keçdi.

Cəlal bayraqları (Şah Təhmasib) Reydən Damğan və Bistama yollandı. Oradan Nəsa və Əbivərdə gəldi. Bu vaxt nəvvabi-kamyabın (Şah Təhmasibin) Sam mirzəni gətirmək üçün Kiləkin Təbəs [şəhərinə] göndərdiyi əmirlərdən bəziləri onunla birlikdə fələyə bənzər dərgaha gəldilər (B-263b). [Onun] fəsada bais olan bəzi mülazimləri cəzalandırıldılar. Şahzadə Sam mirzə iqrar etdi ki, bundan sonra şahın məiyyətinin xidmətində olacaq [və] heç yerə getməyəcəkdir.

Şah ordusunun sədası özbək Übeyd [xana] çatdıqda, Heratı qoyub Mərvə qaçdı. Bu xəbər nəvvabi-kamyaba [Şah Təhmasibə] çatdıqda Mərvə tərəf at çapdılar.

Qış son dərəcə sərt idi. Qoyun, taxıl və yeməli şeylər orduya azlıq edirdi. Ordu əhli çox çətinlik çəkirdi. Qarda və şaxtada o biri dünyanı qət edərək Mərvə yollandılar. Übeyd [xan] Mərvdən qaçıb, Mavəraünnəhrə getdi. Ali ordu Mərvə gəldi. Mərvin camaatı da qaçmışdı. Nəvvabi-kamyab o şəhəri Mustafa sultanın oğlu Şahqulu Sultan Əfşara tapşırdı. Ona tiyul olaraq verilmiş Kermanı siyurğal[307] kimi verdilər.

[Şahqulu Sultan] şahın xüsusi təsisatından verilməli (M-243a) olan azuqəni padşahlığa məxsus ləvazimat və təchizata iki qat xərc məbləğində Xorasan məmləkətinin mülkədar və rəiyyətlərindən toplamağı buyurdu. O, bir müddət orada oldu və rəiyyətlərdən heç kəs Mərvə gəlmədi. Çünki qorxurdular ki, düşmənlər oranın İskəndəri-Zülqərneynin[308] zamanında tikilmiş su bəndini dağıdar və beləliklə vilayət xaraba qalar. Şahqulu xəlifə oranı qoyub ali dərgaha gəldi. O, şəhərdən çıxdıqdan sonra mülkədarlar və rəiyyət şəhərə qayıtdı. Keçmiş qayda ilə düşmənlər oranı ələ keçirdilər.

Xülasə, toyuq ilinin novruzu (1537-ci ilin novruz bayramı, 11 mart 1537-ci il) 29 ramazanda oldu. Novruz bayramını Babaxakidə keçirdilər və oradan

darüssəltənə Herata təşrif gətirdilər. Heratın idarəsi şahzadə Sultan Məhəmməd mirzəyə verildiyi üçün Məhəmməd xan Şərafəddin oğlu Təkədunu onun lələsi etmiş və onlar həmin şəhərdə hökumət taxtına oturmuşdular. Cəlal bayraqlarının gəlməsi münasibəti ilə sevinib, [Şah Təhmasibi] qarşıladılar.

Qış səfərinə düşüb, yorulmuş dördayaqlılar bir neçə vaxtdan sonra qıc oldular. Bu zaman aləm və dünyanın şahzadəsi Əbülmənsur İsmayıl mirzənin təvəllüd xəbəri mədinətül-möminin Qumdan əlahəzrət [Şah Təhmasibin] qulağına çatdı; rəhbərlik və şahlıq günəşindən Əmirəlmöminin [Əli] nəsli dostlarının ürəklərinin güzgüsünə şad xəbərin nuru düşdü. O şərəfli təvəllüddən ürək qüvvətləndi, dünya [isə] təzələndi. Cahangirlik bayrağı (Şah Təhmasib) Qəndəhara tərəf hərəkət etdi. Yayın ortasında oraya çatdılar.

944-cü ilin aylarında (10.VI.1537-29.V.1538) Qəndəhar işğal olundu. Sam mirzə və Ağzıvər xanın biçarə dostları orada öldürülmüşdülər (M-243b). Oranı (B-264a) münsiflər torpağı kimi ali divanın torpaqlarına qatıb, tiyul olaraq Budaq xan Qacara verdilər. [Şah TəhmasibY oradan Herata qayıdıb, şahzadə [İsma-yıl mirzənin] lələsi və onlara tabe olan əmirlərə vacib olan işləri qaydaya saldı. İraq[309] və Azərbaycana qayıtmaq fikrinə düşdü. Səadət və xoşbəxtliklə uzun yollar keçərək, oradan Cama və Samdan [imam] Rzanın müqəddəs məzarına gəldi. İmam Əli Rzanın məqbərəsini ziyarət etmək şərəfinə nail oldu. Oranı ziyarət edən hər kəsə, hər an min xeyir-dua və salam olsun. Allah, mələklər və bütün insanlar şərəfləndi.

Neçə gün mələk məskənli ziyarətgahı ziyarət edib, o ziyarətgahın xadimləri və ibadət edənlərinə mehribanlıq göstərib, İraqa yola düşdü. Tehranın Rey şəhərinə, çatdıqda, Əmir Qəvaməddin Nurbəxş qüruru və qəribəliklərinə görə cəzalandırıldı və həbs edildi.

Həmçinin Xacə Muinəddin Mibəydi də tutuldu və İsfahan qalasında həbs edildi. Mir Qəvaməddin orduda məhbus idi.

[Şah Təhmasib] oradan Qəzvinə və Qəzvindən darüssəltənə Təbrizə yola düşdü. Şaban [ayının] ortasında (yanvar ayının ortası 1538-ci il) oraya çatdı. Qışın qalanını orada başa çatdırdı.

İt ili (mart 1538-mart 1539) bəzi [ayları] [94], bəzi [ayları] isə 945-ci ildə (10.VI.1537 - 18.V.1539) Xorasanın Xəvaf [şəhəri] hakiminin oğlu Xacə Kəlan üsyan edib Xəvafın Osta qalasını tutmuşdu. Cəlal bayraqları (Şah Təhmasib) Xorasanda olduğu zaman bəzi əmirləri topçular və tüfəngçilərlə oranı işğal etməyə göndərmişdi.[310] O qala möhkəm olduğuna görə gec alındı.[311] Məzkur hakimin (Xacə Kəlanın) şi çətinə düşüb, o, yaxın kəndə sığındıqda Ustad Şeyx Topçubaşını ona nəsihət etmək üçün göndərdilər. [İstəyirdilər] ki, ona mülayim sözlərlə dərs versinlər. O, bəxti dönmüşü, Ustad Şeyx Topçubaşını (M-244a) bir oxla öldürdülər. Buna görə əmirlər hücum edib, qalanı tutdular. Onu (Xacə Kəlanı) əsir edib, Təbrizdə ali dərgaha gətirdilər. Qəzanın ali fərmanına əsasən onu

Sahiabadın Nəsriyyə məscidinin minarəsindən başışağı bir ayağından asdılar[312] ki, öz qəbih əməllərinin cəzasına çatsın.

Başqa [hadisə]: Bu ildə Əlqas mirzəni bəzi böyük əmirlərlə Şirvanı işğal etməyə göndərdilər.[313] Şirvan valisi [Şirvanşah] Şahrux ibn Sultan Fərrux [Yəsar] Biğord qalasına sığınmışdı. O qala son dərəcə möhkəm idi. Bir müddət mühasirədən sonra onu işğal etməkdən aciz olub, [əhvalatı] dünyanı bəzəyən [Şah Təhmasibə] ərz etdilər. Qələbə ayəli bayraqlar (Şah Təhmasib) dərhal Mərənd çəmənindən o tərəfə at çapdı. Məzkur [94]5-ci ildə rəbiüs-sani (ayının) düşənbə günündə qalanı aldılar.[314] Şahrux əsir alındı və bir qədər sonra (B-264b) aradan götürüldü. Bütün Şirvana yenilməz dövlətin rəhbəri [Şah Təhmasib] yiyələndi. Tarixi bu qitədə zəbt olundu:

## QİTƏ

Zəmanənin Günəşi Şah Təhmasib,
Yer üzünü işğal etdiyinə görə,
Qitənin rədifi «müsəxxər aməd»i (işğal olundu) tarix
etdi,[315] yəni ki, həmin «müsəxxər» gəldi.

Bu haqda şairlər öz sözlərini demişlər. O cümlədən müasirlərin qaymağı Mövlana Şərəfəddin Bafeqi Kirmani[316] o səfərdə iştirak edirdi. Qalanın alınmasının - təbriki üçün gözəl bir qəsidə yazdı. Mətləi budur:

«Şad xəbərin səsindən Zühəlin eyvanına.
Şirvan fəthinin avazəsi düşdü».

Bir başqası hər misrası ayrıca tarix olan bir qəsidə yazdı. Həmin fəth üçün bu iki beyt o qəsidədəndir.

## ŞER

«Fələyin başda ədəblə oturanları hamının ardınca
Tərif edə-edə, dəstə-dəstə astanaya gəldilər.
Bu cür əsgər və bu camaat hara üz tutsa.
Tale ona tərəf gəlib, onu qarşılayacaqdır».

Xülasə, [Şah Təhmasib] fəthdən sonra Əlqas mirzəni darüssəltənə Şamaxıda hökumət taxtına oturdaraq, ləl̇əsi Bədr xan Ustaclunu onunla qoydu. Bütün Şirvan ölkəsi onlara bağışlandı.[317] Cəlal bayraqları (Şah Təhmasib) darüssəltənə (M-244b) Təbrizə qayıtdı.

Xidmətləri və hüquqları bu ölkədə dillərdə əzbər olan və kitablarda yazılan Xacə Müzəffərin oğul nəvəsi olduğuna görə keçən il sultanlıq mənsəbi almış Məhəmməd saleh bitikçi Astarabadi cahilliyi ucundan üsyan edib, Astarabad

hakimi Sədrəddin xan Ustacluya qarşı çıxdı. Məzkur xan Bistamdan onun üstünə basqın etdi. Ağzıböyük Ustaclu [adı ilə] tanınan Dəli Şahverdi Kəngərli onu tutub, möhtəşəm dəsgahlı dərgaha gətirdi. Qəzəb qəhrəmanı [Şah Təhmasib] o kafərin qətlinə fərman verdi. Onu bir küpə qoyub, Təbriz Sahibabadının Nəsriyyə məscidinin minarəsindən atdılar. Onunla da Xacə Müzəffərin nəsli kəsildi. Həmin, qışlaq Təbrizdə oldu.

Donuz ili (mart 1539 - mart 1540)- bəzi ayları [94] 5, bəzi ayları isə 946-cı ildə (30.V.1538-7.V.1540) özbək Übeyd [xanın] ölüm xəbəri çatdı.[318] Kəndxudadan əyalət [hakimi] mərtəbəsinə çatmış Həsən Sultan Reyşəhrinin nankorluğu xəbəri aşkar olan kimi qəzadan iş düz gətirdi. Bütün fars əmirləri - Zülqədər, Əfşar və onlardan başqa [tayfalar] Reyşəhrinin qalasını mühasirəyə getdilər ki, onu tutub ali dərgaha gətirsinlər. Bunun üçün Qazıxan sarı Şeyxlu Zülqədər və başqaları da oraya getdilər. Hökmə əsasən Reyşəhrinin əmlakını zəbt etməyə məmur olunmuş Əmir seyid Şərif Baqi onu müəyyən olunmuş vaxtda qaladan bayıra çıxardı. Qazıxan Zülqədər onu dərgaha gətirdi (B-265a). Gərmrudun Miyanc[319] [məntəqəsinə] çatdıqda, Qazıxan vəfat etdi.[320] Qazıxanın mülazimləri Həsən Sultanı dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gətirdilər.[321]

Qazıxanın vəzifəsi Keçəl bəy Hacılu[322] Zülqədərin oğlu İbrahim bəyə verildi [və o] İbrahim xan ləqəbi aldı.

Həsən Sultan Reyşəhri hökmə əsasən öldürüldü. Həmin ildə ölkənin mustovfisi olan Xacə Qasım Nətənzi vəzifəsindən çıxarıldı. İsfahan vəziri Xacə Qiyasəddin Əli Şirazi onun yerinə mustovfi oldu.

Təbrizdə taun baş verdi. Ali ordu Dəzcəruda gəldi.

(M-245a) Bu vaxt nəvvabi-kamyabın (Şah Təhmasibin) baçısı Pərixan xanımı Şəkinin [hakimi] Həsən Sultanın oğlu Dərviş Məhəmməd xana [ərə] verdilər.[323]

Taun aradan getdikdən [sonra Şah Təhmasib] darüssəltənə Təbrizdə qışladı.

Siçan ili (mart 1540-mart 1541)-bəzi ayları [94] 6, bəzi ayları isə 947-ci ildə (19.V.1539-26.IV.1541) yaylağı Surluqda keçirdilər.

Rumilərdən üz döndərib, Ərəb İraqına getmiş, Əcəm İraqının Qara ulusunun[324] bəzi uluslarını Əcəmə gətirib, yenidən mələklərin gözətçisinin astanasına (Şah Təhmasibə) yalvarmaqla günahlarının tozuna güzəşt olunan Qazı xan Təkəlu əmirlər cərgəsinə daxil edildi. O, üzük, təbil, çətir, çadır və döyüş şöləsi ilə sərəfraz olundu. [Şah Təhmasib] əmirləri oradan kürd Hacı Şeyxin ölkəsinə göndərdi.

Cəlal bayraqları (Şah Təhmasib) Azərbaycana getdi. Əmirlər Hacı Şeyxin vilayətini fəth etdikdən sonra, dərgaha gəldilər. Salyan, Mahmudabad və Şirvan vilayətləri və Əlqas mirzənin ləlüliyi mənsəbi Qazı xana verildi.[325] Bədr xan Ustaclunu dərgaha çağırıb, ali divanın idarəsi mənsəbi ilə başını ucaltdılar.

Ərdəbil Səfəvilərinin müqəddəs nurlu astanasının idarəsi Qazı xanın qardaşı Əli bəyə verildi.

Qələbə ayəli bayraqlar (Şah Təhmasib) Gürcüstan döyüşünə getdi. Oranı fəth etdikdən və oranın valisi Ləvasa[326] məğlub olduqdan sonra çoxlu qız, oğlan və davarla darüssəltənə Təbrizə gəldi və orada qışladılar. Öküz ili (mart 1541-mart 1542)-bəzi ayları [94] 7, bəzi ayları 948-ci ildə (8.V.1540 - 16.IV.1542) [Şah Təhmasib] Ucan və Səhənd yaylağına gəldi. Əlqas mirzə və Şəki [hakimi] Dərviş Məhəmməd xan dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gəldilər. Nəvaziş qazanaraq, öz vilayətlərinə qayıtmaq icazəsi aldılar.

Özbək elçiləri: San Çöhrə bahadır Bəlx hakimi Kəskən Qara sultan ibn Canibəy xan tərəfindən və Xudaberdi (M-245b) Buxara sahibi Əbdüləziz ibn Übeyd xanın adından ali dərgaha gəlib hədiyyələr gətirdilər. Qışlaq Təbrizdə oldu.

Pələng ili (mart 1542- mart 1543)- bəzi [ayları] [94] 8, bəzi [ayları] isə 949-cu ildə (27.IV.1541-5.IV.1543) (B-265b) özbək elçiləri qayıtmaq icazəsi aldılar. Nəslən kürd olan Xəlifə Mehmandar Atabəyi onlarla birlikdə elçi göndərdilər.

Ali dərəcəyə çatmış Əskuyə seyidlərinə yaxşı münasibət bu ildə aradan getdi. Cəlal bayraqları (Şah Təhmasib) yaylaqdan sonra Xuzistanın Dizful və Şüştər [şəhərlərinə] tərəf hərəkət etdilər.[327] Oranın hakimi Əlaüddövlə Rənaşi, şahın məiyyəti oraya çatmazdan əvvəl, öz axmaqlığı və sarsaqlığından qaçıb Bağdada düşmənlərin yanına getdi. O vilayəti [Xuzistanı] yenilməz dövlətin rəhbəri zəbt etdi. Oranın idarəsini Əbülfəth Sultan Əfşara verdilər.

Qələbə ayəli bayraqlar (Şah Təhmasib) Əcəm İraqına qayıdıb, Qumda qışladı. Orada və İraqın[328] başqa mahallarında məscid kimi xeyriyyə binaları - Qumda Həzrəti Sahibəzzəmanə mənsub məscid, Qumda dəfn olunmuş Həzrəti-imamzadələrin müqəddəs qəbirləri üstündə və Rey, savuçbulaq və Əcəm İraqının başqa şəhərlərində gözəl binaların layihəsini hazırlayıb, az müddətdə uca imarətlər tikdirdi.

Dovşan ili (mart 1543-mart 1544)-bəzi [ayları] [9]49 və bəzi [ayları] 950 (17.IV.1542-24.III.1544)-ci ildə [Şah Təhmasib] Qum şəhərindən çıxıb, Sərbənd, Kozaz və Xangörməzə gəldi. Həmədanın yaxınlığında seyrə çıxdılar. Nəhavəndin ətrafında müqəddəs şərafətli [Şah Təhmasibin] səhhəti bir qədər pozuldu. camaat təşvişə düşdü. Abidlər, zahidlər və möminlər dua [etmək] və ağlamaqla o Həzrətin müqəddəs xasiyyətli vücudunun sağalması üçün yalvardılar. Göylərin mələkləri amin dedilər, beləliklə, o sağaldı. Yenidən din və dünyaya həyat suyu gəldi. Ondan sonra (M-246a) kəramətli əmirlər və böyük qazilər, Abdulla xan Ustaclunun, Savə və başqa vilayətlərin hakimi Həmzə Sultan Ustaclunun oğlu Şahəli Sultanın sərkərdəliyi[329] ilə dinə və dövlətə qarşı müxtəlif fəsad törədən Gülhər ulusuna basqın etməyi qərara aldılar. Məzkur əmirlər onları qətl və qarət edib, salamat [və] qənimətlə dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gəldilər.

Bu ildə Xacə Qasım Nətənzi[330] yenidən ölkənin istifa (vergi yığma) işlərini idarə etməyə başladı (yəni mustovfi oldu) Xacə Qiyasəddin Əli Şirazi [bu işdən] çıxarıldı və cəzalandırıldı.

[Şah Təhmasib] seşənbə günü[331] rəcəb [ayının] 12-də (11 oktyabr 1542) yaxşıca qışlamaq üçün behişt zinətli darüssəltənə Qəzvinə gəldi.

Qazı xan Təkəlu hər cəhətdən hökumətin düşməni olduğu üçün öz tabeliyində olanarla birlikdə Şirvanda öldürüldü. Əlqas mirzə lələsiz qaldı.

Balıq ili (mart 1544-mart 1545)-bəzi [ayları] [9] 50 və bəzi [ayları] 951-ci ildə (6.IV.1543-14.III.1545) novruzdan sonra 950-ci ilin zilhiccə (B-266a) (25.II-24.III.1544) ayı idi, [Şah Təhmasib] rəbiüs-sani [ayının] 14-də (5 iyul 1544) yaylamaq üçün Qəzvinə gəldi. Əbhər çəmənində düşərgə saldığı vaxt əfqan Şirxan [tərəfindən] məğlub edilib, Kabil və Qəndəhar sərhəddinə gələn və öz qardaşları Kamran, Əskəri və Hindaldan kömək istədikdə, Humayun şaha qarşı təşkil edilən qəsdlə əlaqədar olaraq, Kamran onun yolunun üstünü kəsib, onu bir daha məğlub etdikdən sonra yardım üçün Sultanlar pənahı [Şah Təhmasibin] dərgahına müraciət edən Hindistanın Dehli və s. böyük vilayətlərinin padşahı Kürəkani Teymuri Sultanlarından Humayun Məhəmməd padşah ibn Babur padşah özünün əmirləri, adamları və məğlub olmuş əsgərləri ilə gəldi.[332] Mümkün olan qədər hədiyyələr gətirmişdi. O cümlədən 4 misqal[333] və 4 dank[334] ağırlığında olan bir almaz idi.

Nəvvabi-kamyab (Şah Təhmasib) onun gəlişinə sevindi və (M-246b) heç bir padşahın vermədiyi bir ziyafət təşkil etdi. Ona səltənətə lazım olan padşahanə çadırlar, şahanə çətirlər, hərəmxanə və divanxana üçün naxışlı və sadə xeymələr, qızıl, gümüş, çini qablar, mis alətlər, ipək müxəlləfat, nər dəvə qatarları, o padşahın bütün əsgərlərinin minməsi üçün tövlələrlə gözəl qaçağan atlar, həmçinin padşaha məxsus adamlar üçün misli-bərabəri görünməmiş atlar bağışlanıldı. Məzkur padşah [humayun] onları (atları) çox bəyəndi və hər birinə bir ad qoyub, həmişə onlara tamaşa edirdi.[335] Həmçinin onun əmirləri, yaxın adamları, əsgərləri, xidmətçilərinə - rəisdən tutmuş sərbanlarına qədər dərgahdan gözəl xələt, at, silah və əlahiddə xərclik bağışlanıldı. Neçə min tümən xalis qızıl, gümüş pul, daş-qaş, gümüşlə bəzədilmiş qılınc və xəncər kəmərləri, hazır və qayib əsgərlərinə[336] döyüş günü kara gələn silah və yaraq bağışladılar. Onunla cürbəcür söhbətlər edildi və hörmətlər göstərildi. Əcəmdə misli-bərabəri olmayan Surluq və Təxti-Süleyman ovlaqlarında onunla birlikdə çoxlu ov etdilər. Bu ovların birində Əbulqasim Xüləfa Qacar ovdan yayınmış bir güllə ilə öldürüldü. Xülasə, humayun padşahın gözəl söhbətləri var idi və o, məclisi zinətləndirirdi. O və ordu nəfərləri on iki imam şiələrinin əlaməti olan-taci-şahini[337] (şahlıq tacını) başlarına qoydular. On dörd məsumə[338] salam-salavat söylədilər. Əbu-bəkr,[339] Ömər,[340] Osman,[341] Müaviyə, Yezid və onların varislərini, onlara iman gətirənləri söyüb, lənət oxudular. Ondan sonra Humayun padşah ordu ilə (M-247a) Azərbaycanı seyr və Səfəvilərin Ərdəbildəki müqəddəs astanasını ziyarət etmək arzusu ilə ayrılıb (B-166b) o tərəfə yola düşdü. Onlar ziyarətlə şərafətlənib, ali dərgaha qayıtdılar. Budaq xan Qacar və

başqaları kimi ölkələr fəth edən əmirlər təbəqəsi və zəfər şuarlı qorçilər Humayun şahın müşaiyəti ilə yola düşdülər. O, adlı-sanlı əmirlər və Qızılbaşların qələbə dairəli əsgərlərinin köməyi ilə əvvəlcə Qəndəharı tutdu. Qardaşı Kamrana qalib gəlib [onu] əsir aldı. Kabil və başqa [yerlərdə] olan qardaşlarını da ələ keçirdi. Az vaxta öz taxtına yiyələndi. Əfqanlıların əfqanını [göyə] qaldırdı.[342] İnşallah gələcəkdə onun (Humayunun) əhvalatını yazanda hadisələr ətraflı təsvir olunacaqdır.

Nəvvabi-kamyab darüssəltənə Qəzvinə qayıdıb qışladı. Bundan sonra qışlağın [həmişə] Qəzvində olması qərara alındı. Orada bağ və dövlətxananın layihəsini hazırladılar.

Həmin tikintilər ruzgarın gözü onların bərabərini görmədiyi bir tərzdə tamamlandı.

Biz o imarətlərin və bağların tərif və [təsvirinə] aid məsnəvinin beş bəhrində 5000 beytlik «Cənnəti-ədn» adlı bir kitab nəzmə çəkib nəvvabi-Humayunun (Şah Təhmasibin) qulağına və nəzərinə çatdırdıq.

İlan ili (mart 1545-mart 1546) - 951-ci ildə Zilhiccə ayının 27-də (11 mart 1545) novruz daxil oldu. 952-ci ilin məhərrəm [ayına] 3 gün qalmışdı. Həmin il (siçan ili) - 953-cü ildə məhərrəm [ayının] 7-də (10 mart 1546) sona çatdı.

Cəlal bayraqları (Şah Təhmasib) Sultaniyyə yaylağında yayladı. Oradan Xorasanın Damğan [şəhərinə] qədər təşrif apardı Mazandaran hakimi Ağaməhəmməd Ruzəfunun qərarlaşdırılmış xəracı ödəməyə əhəmiyyət vermədiyindən xəbərdar olan [Şah Təhmasib] o tərəflərə getdi və oradan Qəzvinə tərəf yola düşdü.

Bu ildə Müntəşa Sultan Şeyxlər Ustaclu (M-247b) vəfat etdi. Onun qoşunu, bayrağı, təbili oğlu Teymur xana verildi və Reyin idarəsi ona tapşırıldı.

Şirvandan Əlqas mirzənin üsyanı xəbəri Qəzvinə gəlib yetişdi.

At ili (mart 1546- mart 1547)-əksər [ayları] 953-cü ildə (4.III.1546-20.II 1547) əvvəlcə şayiə yayıldı ki, Bəhram mirzə Həmədan və ona tabe olan (yerlərdə) baş qaldırıb.

Sultan Məhəmməd mirzənin lələsi Herat hakimi Məhəmməd xan Şərəfəddin oğlu da yolunu azmışdı.

Nəvvabi-kamyab bu iki mühüm işin hansı tədbirlərlə islah etməsini fikirləşirdi.

Möhkəm əbədi dövlət adamları cəmimiyyətdən bir-birinin ardınca gələn hər iki xəbəri dünyanın pənahı [Şah Təhmasibin] dərgahına çatdırdılar. O, bunları aradan qaldırmaq istədi. Pəncşənbə günü rəbiül-əvvəl [ayının] 19-da (20 may 1546) Qəzvindən çıxıb, əvvəlcə Seyid Əbdüləzimi ziyarət üçün Reyə təşrif apardı.[343] Oradan (B-267a) Xərrəqana, sonra isə Əlqasın üsyanının düzgünlüyünü öyrənmək üçün Azərbaycana təşrif gətirdi.

Səhənddə yaylaq etdikdən və Məhəmməd xanı Herata göndərdikdən sonra əvvəlki kimi darüssəltənə Təbrizə gəlib, Çərəndabadda düşərgə saldı. Zülqədər və Əfşar tayfaları arasında çəkişmə oldu və yenidən sakitləşdi.

Əlqas mirzənin anası Xanbiki xanım Əlqasın böyük oğlu Sultan Əhməd mirzə ilə üzr istəmək üçün gəldilər.

Nəvvabi-kamyab (Şah Təhmasib) Seyid bəy adı ilə şöhrət tapan və eşikağası vəzifəsini icra edən Seyid Mənsur ibn Seyid Məhəmməd Kəmunəni, divan əmiri Bədr xan Ustaclunu, möhrdar Şahqulu Xəlifə Zülqədəri, qorçibaşı Sevindik bəy Əfşarı, o vaxtlar Səfəvilərin Müqəddəs nurlu, ali astanasının mütəvəllisi olan Məsum bəy Səfəvini, zəmanənin ibrətamiz, dövranın misilsiz və İran məmləkətinin şərəflənmiş sədaqətli seyiddərinin, zadəganların və dünya alimlərinin (M-248a) başçısı İbrahim Səfəvini və zəfər təsirli əsgər [lər] in qazısı Əmir Feyzülla Bağdadini Əlqas mirzənin anasına qoşub, ona nəsihət vermək üçün göndərdilər. Onlar Cavad[345] vilayətində onunla (Əlqas mirzə ilə) görüşüb and içdirdilər ki, bir daha itaətkarlıq yolundan kənara qədəm qoymasın.

Nəvvabi-ali (Şah Təhmasib) əmirləri yola saldıqdan sonra ölkənin bayraqları (Səfəvi ordusu) Gürcüstan tərəfə yönəldi. Şorakil və Dərəpənbəyidən keçib Gürcüstana gəldi. [Şah Təhmasib] o qışı vuruşaraq həmin ölkəni istila etməyi buyurdu. Oradan Arran Qarabağına[346] gəldi. Zilhiccə [ayının] 11-də (2 fevral 1547) Qoyunölümü [adlı yerdən] Kür çayını keçib Şirvan ölkəsinə gəldilər. Ərəş tərəfdən Əliçobana təşrif gətirdilər.

Əlqas çərkəzlərin [üstünə] qoşun çəkmişdi. O, Şirvanda yox idi. Nəvvabi-kamyab [Şah Təhmasib] məhərrəm 954-cü ilə [təsadüf edən] qoyun ilinin novruzunda (mart 1547) orada idi. Xəbər gəldi ki, Əlqas mirzə çərkəzlərlə döyüşdə məğlub olub. Şəki [hakimi] Dərviş Məhəmməd xanın qardaşı Şahnəzər və Əlqasın qorçi-başısı Əhməd bəy Ustaclu və başqa əyanların əsgərləri döyüşdə öldürülüblər. Əlqas məğlub olmuş ordusu ilə Qaytaq şamxalının paytaxtı Tərqu tərəfə, oradan da Dəmirqapı Dərbəndə gəlib, öz adına qızıl (pul) kəsdirmişdir.

[Əlqas mirzə] anasını Köhnə Şahverdi, Tənbəllu Əhməd və başqa inanılmış adamları ilə Dərbənd qalasında qoyub, özü möhkəm bir yer ələ keçirərək əlahəzrət [Şah Təhmasib] vuruşmaq niyyəti ilə (B-267b) hərəkət etdi. İnanılmış adamlarının uşaqları Şirvanda idilər və onların hamısı yenilməz dövlətin böyüklərinin əlinə keçdi. Nəvvabi-kamyab [Şah Təhmasib] onların ailəsinə toxunmağı hamıya qadağan etdi. (M-248b) Onları [sağ]-salamat Kür çayından keçirib Azərbaycana[347] çatdırmaq üçün inanılmış adamlar təyin etdi. Buna görə Əlqasın yaxın adamları dəstə-dəstə, yığın-yığın, oymaq-oymaq onu qoyub, əlaHəzrət [Şah Təhmasibin] dərgahına gəldilər. Əlqası pis öyrədən Çoban bəy Elcikoğlu Ustaclu və Kor Söhrab Zülqədər ələ keçdilər və ali dərgahda da öz adamlarının əli ilə öldürüldülər.

Əlqas Xınalıqda möhkəmlənmişdi. [Oradan] Qumuq və Qaytaq [tərəfə] yola düşdü. Möhrdar Şahqulu xəlifə Zülqədər, Şahverdi Sultan Ziyad oğlu Qacar və Məhəmmədi bəy ibn Əmirxan Mosullu kimi qoşunun ön dəstə əmirləri Axtının

Miskincə kəndində Şirvan dağlarının altından onun üstünə basqın edib, əksər yaxın adamlarını öldürdülər.[348] O (Əlqas mirzə), az bir adamla aradan çıxıb, özünü Şamxal tayfasına çatdırdı. Onların yanında dayanmayaraq, dənizlə Kəfəyə[349] və oradan İstanbula osmanlı Sultan Süleymanın yanına pənah apardı.[350]

Cəlal bayraqları (Şah Təhmasib) o yay Şamaxıya aid olan Cəbani, Ğəlbə Günbəz və başqa yaylaqlarda yaylaq etdi. Dövlətyar Qulam və tamğaçı Mirican Təbrizinin oğlu Məhəmmədin zəbt etdiyi Gülüstan qalası alındı və dağıdıldı. O iki nəfər fəsad törədəni başqa fəsad törədənlərlə öz əməllərinə görə öldürdülər. Həmçinin Dərbənd qalası da alındı. Orada olan Əlqasın anası [Şah Təhmasibin) dərgahına gəldi.

Şirvan vilayəti şahzadə Əbumənsur İsmayıl mirzəyə verildi və Həzrətin lələliyi Gögcə Sultan Qacara tapşırıldı. Başqa əmirlərə Şirvandan tiyullar müəyyənləşdirildi və onlara tabe olanlara verildi.

[Şah Təhmasib] payızın əvvəllərində Kür çayından keçib eyş-işrətli Təbrizə (M-249a) daxil olaraq, (burada) qışladı.[351] Bu qışlaqda Əlqasın müşayiətində olan adamların vəziyyətləri dərindən tədqiq edildi. Hər kəsdə itaətsizlik və üsyan aşkara çıxarıldısa, öldürüldü. Nəvvabi-kamyabın dövlətini istəmək niyyəti məlum olanlar və o Əlqasın üsyanına qarışmayanlar, bəlkə də mane olanlar, ya pis münasibət bəsləyənlər, [dövlətin]  idarəsində mənsəbə çatdılar.

Meymun ili (mart 1548-mart 1549)-955-ci ildə (11.II.1548-29.I.1549) baharın əvvəllərində təhqiqat nəticəsində yəqin oldu ki, Əlqas Ruma gedib və on iki şiə [imamlarının] nişanəsi[352] olan taci-şahini (şahlıq tacını) atıb osmanlılara qoşularaq, «suda batan adam Saman çöpündən yapışar» [atalar] misalında deyildiyi kimi (B-268a) əlini onlardan çəkmir. Xandigar Süleyman iki dəfə bu ölkəyə gəlsə də, bədbəxtlikdən başqa heç bir şey əldə edə bilmədi. Aləmə məlum olan bir rüsvaylıqla geri qayıtdı. Axır nəticəsi bu oldu ki, [Sultan Süleyman] Bağdadı işğal etməklə öz ürəyini sevindirdi.

Bu dəfə Əlqas [mirzə] onu aldatmışdı ki, bütün Qızılbaşlar mənimlə dilbirdir. [Ancaq]  onun [haqqında] deyilənlərdən xəbərsizdi: «Sən Qızılbaş şahzadəsi idin və başında taci-şahi vardı, hansı etibarlı Qızılbaş səninlə dostluq edirdi. Bu gün ki, tacı tullayıb, osmanlılara sığınmaqla atanın, babanın və günahsız şiə imamlarının yolundan uzaqlaşmısan, kim səninlə olacaq»?! [Bu ümidlə də Xandigar] böyük ordu ilə Azərbaycana yola düşdü.

Nəvvabi-kamyab [Şah Təhmasib] köç evini [Hərəmxananı] Seyid bəy Kəmunənin sərkərdəliyi ilə İsfahana göndərdi. [O], Azərbaycandakı iqamətgahını düşmənlərin öhdəsinə buraxıb, cümadiəs-sani ayının 4-də (11 iyul 1548) Təbrizdən çıxdı. Hörmətli qorçilərə padşahanə hədiyyələr: silah, şir ürəkli, yel kimi yaxşı qaçağan müharibə atları və ürəkləri igidliklə dolu əsgərlər verdilər.

Bununla bərabər, böyük əmirlərə (M-249b) öz vilayətlərindən hər il onlara çatacaq gəliri tez hökmdarın şəxsi xəzinəsindən ödədilər ki, onlar öz qoşunlarını tərtib edib, bacarıqla düşmənləri dəf etsinlər. Bunun əvəzində öz vilayətlərinin

malü-cəhatlarını[353] [gələcəkdə] xəzineyi-amirəyə çatdırsınlar. Azərbaycan və İraq oymaqlarındakı yüz mindən təxminən 20-30 min atlı seçib, onlara nökər adı verdilər və şahın göstərişi ilə hökmdarın xəzinəsindən qorçilərə illik məvacib təyin etdilər. Cəbbəxanadan lazımi silahları alıb, müharibəyə hazırlaşdılar.

[Şah Təhmasib] Əşkənbər və Gülənbər yaylağına gedib, yaylamaqla günlərini keçirirdi.

Xandigar və Əlqas Azərbaycana gəldilər. Nəvvabi-kamyab (Şah Təhmasib) Abdulla xan Ustaclu və bəzi adlı-sanlı, qələbə şuarlı əmirlərə ön dəstədə getməyi buyurub, qabağa göndərdi ki, əkər Xandigarın qarovulçularına çatsalar, görünüb yaxınlaşmasınlar və özlərini ali orduya çatdırsınlar ki, düşmənlər qalibcəsinə ölkənin içərilərinə tərəf irəliləsinlər və Təbrizdə qərar tutsunlar. Dünyanı bəzəyən nəvvabi-kamyab (Şah Təhmasib) öz fikrini heç kimə aşkar etmədən həyata keçirir, məzkur əmirlər də əməl edirdilər. Hələ gəlib ali orduya birləşməyənlər də var idi, bunlar: 1000 nəfərə malik olan Bəhram mirzə, 2500 nəfərə malik olan Şiraz hakimi İbrahim xan, 1000 nəfərə malik olan Kuhgiləvə hakimi Mahmud[354] xan Əfşar 500 nəfərə malik olan Darabsurd[355] hakimi Allahqulu Əlsik oğlu Kərənpa Ustaclu. 500 nəfərə malik olan İç Neyriz və Fəsa hakimi Çərəndab Sultan Şamlu, (B-268b) 300 nəfərə malik olan Kazerun və fars hakimi Köpək[256] Sultan Əfşar, 500 nəfərə sahib olan sunqər, Dinəvər və Kürdüstan hakimi Çıraq Sultan Kiranpa Ustaclu, 300 nəfərə sahib olan Əliqulu bəy Türkman, 350 nəfər olan Qəzvin qorçiləri (M-250a), 200 nəfər Qəzvində olan Suklan və tatar nökərləri. Cəmi 7150 nəfər idi.[357] Belə məsləhət oldu ki, onlar da [gəlib] birləşənə qədər, döyüşə girməsinlər və Mişkin tüməninin Əhər çayı [kənarında] düşərgə salıb, əmirlərin gəlib çatmalarını gözləsinlər.

Çıraq Sultan, Çərəndab Sultan, Əliqulu bəy və Allahqulu bəy öz qoşunları ilə gəldilər. İbrahim xan Zülqədər öz qoşunundan 300 nəfərlə orduya birləşdi. O biri gün məlum oldu ki, qalanları [da] tezliklə gələcəklər.[358]

Xandigar pəncşənbə [günü] cümadiəs-sani [ayının] 20-də (27 iyul 1548) Təbrizə gəldi. Orada olduğu 4 gündə elə bir mərəkə gördü ki, onun [Təbrizdə] dayanması Sultan Əbusəid Kürəkaninin Qarabağda dayanması kimi oldu.[359] (Buna görə) O, seşənbə gecəsi məzkur ayın 25-də (1 avqust 1548) Təbrizdən çıxıb, gəldiyi yol ilə qayıtdı. Bu vaxt aləmi-qeybdən dinin pənahı Şah [Təhmasibə] iki qələbə üz verdi. Biri: şahənşahlıq bürcü, padşahlıq mücrisində səadətli təvəllüd, yəni dünyanın və dünyanı idarə edənin örtüyünün ağası, yüksək naib, aləmlərin namusu, zəmanənin Fatiməsi ülyahəzrət şahzadə Pərixan xanımın [anadan olması] - Allah onun kölgəsini üstümüzdən əskik etməsin, onun hakimiyyətini hər tərəfə yaysın - bu kitab onun adlı-sanlı adı ilə bəzənmiş və onun hakimiyyətinin uzanması duasına həsr olunmuşdur.[360]

Digəri isə aqibəti şərəfli bu təvəllüdün sevindirici qədəmi ilə Xandigarın Təbrizdən Rum tərəfə iztirab [içində] məcburi qayıtmasıdır.

Dərhal İbrahim xan Zülqədər və bəzi mötəbər əmirlər düşmənləri təqib etməyə məmur edildilər.

Zəfər nişanlı bayraqlar Çaldıran yüksəkliyinə getdi. Nəvvabi-kamyab oradan İsmayıl mirzəni Şirvan qoşunu və bəzi əmirlərlə (M-250b) Qars qalasını təmir etməyə gələn düşmənlərin üstünə göndərdi. [Şah Təhmasib] özü xoş əhvali-[ruhiyyə] ilə düşmənlərin ölkəsinə yola düşdü. Xərpərt və Trabzon ətrafına qədər Pasin, Sarusu, Xünus, Əxlat, Ərzənrum, Tərcan, Bayburd, Ərzincan qələbə əsərli əsgərlər [tərəfindən] tapdalandı. Rüstəm Səyavuş hadisəsindən sonra Turan torpağında nə etmişdisə, onu etdilər.[361]

Qızılbaşlar o ətrafları elə istila etdilər ki, əvvəllər Xurcunlunun kar nökərləri [adı ilə] tanınanlar Rumun mühüm vilayətlərinə hücum edib, onları alt-üst etdilər. Xurcunlu tayfası vilayətlərindən olan bir vilayətin adamları (B-269a) qaçıb, o ətrafda olan böyük bir şəhərin kənarına pənah apardılar. Onlardan soruşanda ki, hansı Qızılbaş xanı və sultanı sizin vilayətinizə gəlmişdi ki, belə səlayivətən olmusunuz? Onlar cavabında dedilər ki, bizim vilayətə Xurcunlu Sultan gəlmişdi.

Xülasə, Rumun mühüm vilayətlərində [elə] bir iş qayırdılar ki, onun əvəzini çıxmaq illərlə müyəssər olmadı. Şahın düşərgəsi Pasində olan vaxt Qarsı təmir etmək üçün gələnlərin hamısının üstünə düşdülər, qalib gələn İsmayıl mirzə və onun yanınca gedən əmirlər [gəlib] çatdılar. 6000[362] atlı olan o camaatdan özləri ilə 2000 kişi, qənimət və onların başçısı Əlaüddövlə Zülqədərin nəslindən olan Məhəmməd xan Zülqədəroğlunun kiçik qardaşı Əli bəyi də gətirdilər.[363]

Qəribə təsadüflərin maraqlısı budur ki, bu vaxt Astarabad hakimi Şahəli Sultan Ustaclunun bayraqdarı İsgəndər ağa Astarabaddan gəldi. Başçıları Dinməhəmməd xanın qardaşı Əli Sultan olan özbək Xarəzm qoşunundan bir qatar dəvə, məzkur Əli Sultanın təbil və bayrağını - [o], Günbədi-Qabus ətrafına 7 min adamla gəlmişdi və adı çəkilən Şahəli 1500 nəfərlə onunla vuruşub qalib gəlmişdi - gətirib çatdırdı.[364]

Şah [Təhmasib] Ərzincanda düşərgə salan zaman hərə öz tabeliyində olanlarla qarovulda olmuş Zülqədər yüzbaşıları təsadüfən bir dərədə istirahət edərkən, qalxanlarına söykənib, yuxuya getmişdilər. Xandigarın mötəbər əmirlərindən olan Osman paşa 600 nəfərlə naməlum yolla yuxarıda göstərdiyimiz yüzbaşıların üstünə düşüb, vuruşmağa başladı. Aldadıcı peşəli meşə şirləri və qorxmaz igidlər - yüzbaşılar yerlərindən qalxıb, dünyanı çapan atlarına minərək Osman [paşa] və osmanlıları məğlub etdilər. Onların əksəriyyətini iti qılınclarla cəhənnəmə göndərdilər. Onların başlarını, qızıl və gümüş yəhərli qaçağan atlarını, Misri qılınclarını, ərəb nizələrini və Davudi zirehlərdən ibarət qənimətlərini dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gətirib, öz qədr və qiymətlərini artırdılar.

Aldadılmış və yolunu azmış Xandigar Süleyman nə müsəlman və nə kafir [olan] haqqı tanımayan Əlqas ilə öz növbəsində geri qayıtdılar.

Çərşənbə günü, ramazan ayının 14-də (17 oktyabr 1548) dünyanı dolaşan [Şah Təhmasibin] ordusu Ərzincandan çıxıb, Azərbaycana tərəf geri qayıtdı. Şəvval ayının əvvəllərində (noyabrın əvvəllərində) xeyir və xoşbəxtliklə Çuxursədin Üçkilsə[365] ətrafı qalib ordunun düşərgəsi oldu. Bu vaxt Vanın hakimi Şahəli Sultan Çəpəni Xandigarın mühasirəsinə davam gətirməyib, Vanı onlara (osmanlılara) təslim etdiyi üçün İsmayıl mirzə, Abdulla xan və Gögcə Sultanı oranı tutmaqa göndərdilər. [Şah Təhmasib] özü Şəki və Arran Qarabağını (B-269b) istila etmək üçün yola düşdü. Sevindik bəy qorçibaşı Əfşarı böyük qorçilərlə [Kür] çayından keçirib Şəkiyə göndərdi. [Şah Təhmasib] özü isə [İsmayıl] mirzə və əmirlərin gəlməsini gözlədiyi üçün Kür çayını seyr etməyə başladı.

Xandigar [Sultan Süleyman] və Əlqas qayıtdılar. [Əlqas] Xandigardan icazə istədi ki, mühasirəni dəf etmək üçün Bağdad (M-251b) və Kürdüstan tərəfdən özünü Əcəm İraqına çatdırıb, İsfahana qədər getsin, fürsətdən istifadə edib Qızılbaşın köç evini ələ keçirsin və İraqı işğal etsin. Xandigar, vəziyyət tələb etdiyi üçün, ona icazə verir və bunu nəzərdə tutur ki, əgər [Əlqas] Əcəm İraqı sərhəddinə getsə və bu xəbər nəvvabi-ali [Şah Təhmasibə] çatsa, [o] , həyəcanlanar və narahat olub Rumdan geri qayıdar.

Əlqas şəvval [ayının] 3-də (5 noyabr 1548) Bağdad yolu ilə Həmədana gəlib, Bəhram mirzə və Çıraq sultanın ordusunu qarət etdi. Bəhram mirzənin kənizlərini öz yaxın adamlarına verdi. Bəhram mirzənin oğlu Bədiüzzaman mirzəni özü ilə götürüb, Qum və Kaşana yola düşdü. Bu iki şəhərdə sənətkarların və girov saxlayanların əlində şahlıq mal-dövlətindən nə vardısa, aldı və dayanmadan özünü İsfahanın qapısına çatdırdı. Şahın hərəmxanasındakı bütün kənizlər, əmirlərin, vəzirlərin, yaxın adamların və ordu əhlinin köç evinin hamısı o şəhərdə olduğu üçün Seyid bəy Kəmunə və Hərəmxana qorçilərinin yasavulbaşısı Süleyman bəy Mülkən oğlu Zülqədər məzkur qorçilərlə mühafizə ilə məşğul oldular. Seyidlər, İsfahanın nəqibi,[366] kələntərlər, ərbablar və əhali ona görə onlara qoşuldular ki, dinin pənahı olan şah bizə etimad edib, öz köç evini bizim şəhərə göndərib, mərdlik edib şəhəri qoruyun, Əlqasın daxil olmasına imkan verməyin.

Seydi Qulu Kərdur Məzyar Həmədandan Əlqasın İraqa gəlməsi xəbərini tam sürətlə Kürün kənarında nəvvabi-ali [Şah Təhmasibə] çatdırdığı üçün o, həmin saat İsmayıl mirzə və əmirləri Van yolundan qaytardı.

[Şah Təhmasib] Şirvan hökumətinin [idarəsini] Abdulla xan Ustacluya verib, əvvəlcə Bəhram mirzəni [Əcəm] İraqına göndərdi. Özü onun ardınca yola düşdü. [Şah Təhmasib] bu qışda Xalxal və Tarım yolu ilə Qəzvinə təşrif gətirdi. Bəhram mirzənin hərəkəti və nəvvabi-kamyabın (Şah Təhmasibin) ona tərəf gəlməsindən Əlqas qorxuya düşərək, (M-252a) həmin gün İsfahandan çıxıb, fars [vilayətinə] yola düşdü. Elə ki, Yəzdxast qalasına çatdı, oranı tutub qətl və qarət etdi. Dayanmadan Şüştərə çatıb, oranı mühasirə etdi.[367]

Şahmir sədr [adı ilə] məşhur olan seyid Şəmsəddin Əsədüllahın adlı-sanlı övladları, xüsusilə Mir seyid Əli və Mir Əbdülvahab əl-ələ verərək məmləkəti

(Şüştəri) möhkəmləndirib onu müdafiəyə qalxdılar. Əlqas orada da bir şey əldə edə bilməyib Dizfula, oranı da ələ keçirə bilməyib, Bayat qalası yolu ilə Bağdada kedir.[368]

Böyük bir ordu ilə İraqa gəlmiş Bəhram mirzə Kaşanda Əlqasla əlbir olub, nifaq salan riyakarları cəzalandırır.

Ataları tutulub həbs edilmiş Şəhriyari [adı ilə] məşhur olan Rəis Mir Əli saruqinin övladı öz təhsildarı Məhəmmədi bəy Qacarla Əlqasa kömək ümidi ilə üsyan edir. [Məhəmmədi bəy] kobudluq etdiyi üçün öldürülür. Onlar özlərini Əlqasa çatdırıb, onun xələtlərini geyir, tamahkarlıq etməyə, fəsad törətməyə və qoşun toplamağa başlayırlar. Bu vaxt isə yuxarıda qeyd edildiyi kimi, Əlqas yox idi. [O, Bağdada tərəf getmişdi].

Bəhram mirzə tənbeh etməkdən qayıdır. Ordu, qarətə gedib, kefi kök halda Kaşana çatır. Yuxarıda qeyd olunan əməlləri etmiş məzkur övladlar layiqincə cəzalandırılır. Ondan sonra öz yurduna gedir və ordusunu nizama salmağa başlayır.

Toyuq ili (mart 1549-mart 1550) əksər [ayları] 956-cı ildə (30.I.1549-19.I.1550) qələbə ayəli bayraqlar (Şah Təhmasib) rəbiüs-sani (ayının) 9-da (8 may 1549) Qəzvindən çıxıb, Həmədan yaylağına tərəf yola düşdü. Oradan köç edə-edə Kürdüstana yollandı.

Əlqas rumlulardan üz çevirib Şəhrəruz ətrafında dayandığı üçün Bəhram mirzənin oğlu Bədiüzzaman mirzəni özünün günahlarının bağışlanması vasitəçisi kimi ali dərgaha göndərdi (M-252b) və öz nökəri Qaraca Mirəki ona qoşdu. Nəvvabi-kamyab (Şah Təhmasib) bir neçə dəfə imam Rzanın nurlu, müqəddəs, ali astanasının - orada yatana min xeyir-dua və salamlar olsun-xadimbaşısı Mir Əbdüləzim Babelqani kimi seyidləri saysız-hesabsız nəvazişlərlə Əlqasın yanına göndərdi ki, onu əfv edib, bağışlayacağına ümidvar etsinlər. O, ali dərgaha gəlməyə tərəddüd edirdi. Bu vaxt Rum qoşununun üstünə gecə basqını etdi və onun adamları, Qazanın ordusu Səncərin adamlarını dağıtdığı kimi, dağıldılar. [Əlqas] əlacsız qalıb Kuhistana Bəkənin qardaşı Sorxabın Ərdəlan ölkəsinə pənah aparır. [Şah Təhmasib] Mir Əbdüləzimdən sonra Şah Nemətüllah Baqi ibn Mir Şəhid Əbdülbaqi Nemətüllah Yəzdini Əlqasın yanına göndərdiyi üçün seşənbə günü ramazan [ayının] 9-da (1 oktyabr 1549) onu 20 nəfərlə Marağanın Miyanduab adlı məntəqəsində [Şah Təhmasibin] ali dərgahına gətirdilər. İki gündən sonra [Şah Təhmasib] İbrahim xan Zülqədər və Həsən bəy Yüzbaşı Ustaclunun müşayiəti ilə onu Mişkin tümənində olan Qəhqəhə qalasına göndərir. Rəbiül-əvvəl [ayının] 25-də gözətçilərdən iki nəfəri ataları və qardaşlarının qisasını alaraq, onu qaladan [aşağı] atırlar. Bununla o, həlak oldu və onun şəri aradan getdi.[368a]

Həmçinin bu vaxtlarda Bəhram mirzə xəstələnib, ramazan ayının 19-u gecəsi (11 oktyabr 1549) Allahın rəhmətinə getdi. Onu ins və cinsin imamının müqəddəs məşhədinə aparıb, orada dəfn etdilər. [Öləndə] 33 yaşı vardı.

İsmayıl mirzə və Gögcə Sultan dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gəldikdən sonra, rumlularla olan fitrət dövründə,[369] Şirvanşahın nəvələrindən olan Bürhan adlı bir şəxs oranı istila etdiyi üçün meymun ilində (1548) Şirvana göndərilmiş Abdulla xan Ustaclu bu əhvalatı ali nəvvabi-kamyab [Şah Təhmasibə] xəbər verdi. (M-253a) Azərbaycan əmirlərinə Şirvana Abdulla xanın köməyinə getmək əmr olundu. Qəzanın fərmanı ilə əmirlər məzkur [Abdulla] xanla birləşmək üçün Cavaddan gəmi ilə keçib, Əliçoban [adlı yerin) yaxınlığında düşürlər. Burhan Şirvan qoşununu cəm edib, Biğord qalasına gəlir. Onun üstünə getmək çətin olduğu üçün. 15 gün Əliçobanda dayanırlar. Belə bir vəziyyətdə Burhan öz əsəli ilə vəfat edir. Şirvanlılar onun adamlarından Mehrab adlı bir qocanı hakimiyyət [başına] gətirir və öz yerlərini çəpər və xəndəklərlə möhkəmləndirirlər. Bu xəbər [Abdulla] xana çatdıqda, onların sığınağına yürüş edib, oranı qəzəb [və] güclə alır. Şirvanlılardan çoxlu adam öldürülur. Mehrab canını [qaçmaqla] qurtarır. Ondan sonra onun adamlarından olan Qurbanəli adlı başqa bir şəxs şirvanlılardan bir qədər adamı dənizin kənarında olan və hər iki tərəfindən Kür çayının axıb dənizə tökuldüyü Dərav adasına çatdırır və müqavimət göstərməyə başlayır. [Abdulla] xan və əmirlər qışın ortasında onun üstünə gedib, Qurbanəlini əksər adamları ilə öldürürlər. Ondan sonra Şirvan təmizlənir. Abdulla xan öz hökumətini idarə etməyə başlayır. Əmirlərin hər biri öz yurdlarına gedir. Bu xəbər Qəzvin qışlağında cah-cəlal [sahibi Şah Təhmasibin] qulağına çatır.

Bu ildə aləm və aləmdə yaşayanların şahzadə xanımı, zəmanənin Xədisəsi,[370] dövranın Bilqeysi[371] ali nəvvabi-kamyabın (Şah Təhmasibin) bacısı şahzadə [Məhinbanu] Sultanım imam Rzanın müqəddəs və şərafətli məzarını ziyarət etməklə şərəfləndi. Möhrdar Şahqulu xəlifə qələbə şüarlı qorçilərdən bir dəstə ilə o şahzadə xanımın xidmətində idi.

İt ili (mart 1550-mart 1551)-bəzi [ayları] 957, bəzi [ayları] isə [95] 8-ci ildə (20.I.1550-28.XII.1551) Şah Təhmasib (M-263b) pəncşənbə günü,31 cümadiəl-əvvəl [ayının] 19-da[373] (8.VI.1550) Qəzvindən Sultaniyyə yaylağına yola düşdü. Oradan Azərbaycana tərəf üz tutdu. Köç evini ayırıb Qəzvinə göndərdi. Bayandur bəy (B-271a) Məlkən oğlu Zülqədəri köç evinin ordusu ilə göndərdilər. Nəvvabi-kamyab (Şah Təhmasib) o il Arran Qarabağında qışladı.

O vaxt Xorasan mülkünün vəzirliyindən Xacə Qiyasəddin Əli Şirazi ilə şərafətli ali divanın vəzirliyi mənsəbinə şərik olan Mir İbrahim ibn Əmir Zəkəriyyənin oğlu Xacə Əmir bəy Göçəci tutulub həbs edildi. Şirvan vəziri Ağa Məhəmməd Fərahani onun əvəzinə təyin edildi.

Donuz ili (mart 1551- mart 1552) - bəzi [ayları] 058 və bəzi [ayları] isə [95] 9-cu ildə (9.I.1551- [7.XII.1552) Kür çayından keçib, Şəkini işğal etdilər. Səfəvi dövləti sayəsində gündən-günə artaraq tam iqtidar tapan Dərviş Məhəmməd xan ləqəbi alan, bir vaxtlar nəvvabi-kamyab [Şah Təhmasibin] basısı [Pərixan] xanımın əri olmuş və həmin şahzadə xanımın ölümü ilə dövləti aradan getmiş Şəki [hakimi]

Dərviş Məhəmməd xan ibn Həsən Sultandan dəfələrlə müxalifət nişanələri zahir olmuşdu. [Dərviş Məhəmməd xan] Elbrus dağının təpəsində tikilmiş Gələsən-görəsən[374] qalasından qaçdıqdan sonra Çərəndab Sultan Şamlunun mülazimi Cərid oymağından olan Kosa Pirqulu Şamlu [onu] tutub öldürdü. Başını dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gətirib, hörmət qazandı.

Həmçinin bu ildə Firəng[375] padşahının elçisi hörmüz yolu ilə Şah Təhmasibin yanına gəldi. Nəfis töhfə və hədiyyələr gətirdi. Tezliklə icazə alıb, həmin yol ilə geri qayıtdı.

Həmçinin bu ildə Həmzə Sultan Qazağın oğlu Şahqulu Sultan Ustaclu [İmam Rzanın] müqəddəs məşhədinin - ona Allahın duası və salamı olsun - Xorasanın hakimliyindən çıxarılıb, Çuxursədin hakimliyinə təyin olundu. Onun əvəzinə (M-254a) Əli Sultan Tati oğlu Dəmirçulu Zülqədər müqəddəs Məşhədə getdi. Şah Təhmasib Şəkidən Qarabağa gəlib, [oradan] Gürcüstana getdi. Təmuk qalasını, başqa vilayətləri və mötəbər kilsələri fəth etdilər. Ordunun bəzi adamları arasında taun aşkar edildiyi üçün, şahın əmrinə əsasən o camaatı ordudan çıxarmaqla həmin bəlanı qalib əsgərlərdən dəf etdilər.

Qış Arran Qarabağında[376] oldu.

Xarəzm [hakimi] özbək Dinməhəmmədin yanına nəvvabi-kamyab [Şah Təhmasib] tərəfindən nəsihətə getmiş Qazı Ətaüllah Razi əl-Hüseyni[377] o tayfanın (özbəklərin) adlı-sanlı bahadırlarından olan Qulməhəmməd ilə birlikdə gəldi. Şahanə nəvazişlərdən sonra qayıtmaq icazəsi aldı. Səbzəvara yetişən vaxt Dinməhəmmədin ölüm xəbəri ona çatdı. [Qulməhəmmədin] ürəyinə qorxu düşdüyü üçün oradan qaçıb gizləndi.

Siçan ili (mart 1552- mart 1553) - bəzi ayları 959 və bəzi ayları isə 19] 60-cı ildə (29.XII.1551 - 6.XII.1553) (B-271b). O illərdə Ərzənrum hakimi olub, sərhəd əmirlərinə hədəli məktublar yazan, bununla kifayətlənməyərək Gürsüstan sərhədlərinə basqın edən, bütün dünyanı özünə tabe edən [Şah Təhmasibin] ali hökmünə əsasən o tərəflərdə vuruşan və sərhəddi qoruyan bəzi Qızılbaş nökərlərinin üstünə düşüb, hamısını öldürən İsgəndər paşaya qulaqburması vermək üçün [ordu] Əxlat, Ərciş və o tərəflərə səfər etdi. Ramazan ayında Əxlatda aqibəti qələbə olan çadırlar qurdular. Şahın ordu nəfərləri və igid əsgərləri rumluların Xeybər[378] kimi möhkəmləndirdikləri qala və şəhərə yaxınlaşıb müharibəyə başladılar. Bununla bərabər, aqibəti qələbə olan döyüşçülər o camaatı da himayə edirdilər. Bu səfərdə şahlıq silsiləsinin top və tüfəngləri özləri ilə olmasa da, onların hər cür başqa silahı vardı. Şəhər alındı. Qala camaatının işi çətinləşdi. Əlaman, əlaman sədası (M-254b) mavi göyə ucaldı. Qala əhlinin halına şahlıq şəfqət və mərhəməti göstərildi.

Qorçibaşı Sevindik bəy və böyük qorçilərə əmr olundu ki, qalanın qapısında dayanıb, qələbə əsərli əsgərləri qala camaatından bir kəsə toxunmağa qoymasınlar. Onlar öz arvad, uşaq, mal, mal-qara, taxıl, ərzaq və ehtiyat [azuqələri] ilə çıxıb, hara istəyirlərsə getsinlər.[378a] Bu kimi bir mərhəmət heç

kəsdən, heç zaman eşidilməmiş və müşahidə edilməmişdir. Oradan sonra keyfiyyətcə Əxlatdan yaxşı saxlanılmış və daha möhkəm olan Ərciş qalasının üstünə getdilər. Oranı döyüşlə fəth etdilər.[379] Onun qorçibaşısı olmuş Əlqasın dayısı oğlu Əli bəy Mosullunun[380] oğlu Bədiüz zaman da orada öldürüldü. Bununla bərabər Barkir qalası da alındı. Hər üç qalanı dağıdıb, yerlə yeksan etdilər.

Bəzi əmirlərlə Ərzənrum hakimi İsgəndər paşanın üstünə getmiş İsmayıl mirzə onunla şahanə vuruşdu. Ona qalib gəlib, qoşununu tarmar etdi. O (İsgəndər paşa), qılıncdan keçirilməmiş az bir [adamla] qaçıb qalanın içərisinə çəkildi. İsmayıl mirzə əmirlərlə salamat, qənimətlə, müzəffər və qabiliyyətlə dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gəldi. Onların qoşunundan az adam tapılardı ki, düşmənlərdən bir [kəsik] baş, yaxud bir əsir və qəniməti olmasın. O döyüşdən Qızılbaş qoşununun əlinə çoxlu qaçağan at, qızıl və ya gümüş yəhər, qılınc kəməri, qızıl və gümüş xəncər kəməri və nəfis silah keçdi.

Zülqədər sancağının[381] sahibi Kəsr İsa kimi çoxlu adam tutulub, ali orduda iti qılıncdan keçirildilər. Kəsr İsanın dərisini soydular.

O qış həmin səfərlə başa çatdı. Novruza az qaldığı üçün Şah Təhmasibin adamları Urmiyəyə tərəf (B-272a) qayıtdılar.

Öküz ilinin novruzunda (mart 1553-mart 1554) - bəzi ayları 960, bəzi ayları isə [9]61-ci ildə (18.XII.1552-25.XI.1554) onlar Urmiyədə idilər. Həmin sərhəddəki ayağını cızıqdan kənara qoyan kürdləri cəzalandırdılar.

Xandigar [Sultan Süleyman] işi belə gördükdə sülh istəmək qərarına gəldi. (M-255a) Sultan [Süleymanın] baş hərəmi və qızı dinin pənahı Şah [Təhmasibin] yanında hörməti son dərəcə əziz olan əlahəzrət şahın bacısı şahzadə [Məhinbanu] Sultanım xanıma[382] məktub yazdılar. Xandigarın baş vəziri və damadı olan Rüstəm paşa da böyük əmirlərə məktub yazıb, sülh istədilər.

Ali nəvvabi-kamyab [Şah Təhmasib] onların həqiqətən sülh istədiklərini və bu sözlərin etibarı olub-olmamasını yəqinləşdirmək üçün Əcəm İraqının mötəbər seyidlərindən və o vaxtlarda gözəl danışıq qabiliyyətinə malik olub, dolanan göylərin Günəşi kimi şöhrət tapan Seyid Mehdinin oğlu Mir Şəmsəddin Əli əl-Hüseyni əl-Dilicanini oraya nümayəndə göndərdi. Şah Təhmasib baharın əvvəlində Naxçıvan şəhərinə təşrif gətirdi. Şahın dəstəsi hərbi yükü ilə birləşərək Naxçıvandan yaylamağa getdilər. Səlmas və Xoya qədər [olan yerlər] seyr olundu. Həmin səfərdə Kürdüstanın çoxlu qalası fəth olundu. Xoşbəxtliklə Naxçıvan qışlağına meyl etdilər.

Uzun müddət baş vəzir olmuş, sonradan istefaya çıxıb Qəzvində öz evində oturmuş Qazı Cahan əl-Hüseyni bu il bəzi müddəaları ərz etmək üçün fələyə bənzər ehrama gəlib, bəzi işlər gördükdən sonra, icazə alıb geri qayıdarkən Zəncanda vəfat etdi.

Rumda baş vəzir Rüstəm paşa Sultan Süleymanın oğlu Sultan Mustafadan qorxduğu üçün bir hiylə fikirləşdi. Xandigar [Sultan Süleymanı] ona qəsd etməyə

vadar etdi və sultan Mustafanı öldürdülər. «Məkri-Rüstəm»[383] (Rüstəmin hiyləsi) o hadisənin [maddeyi]-tarixi idi. Onun ardınca [sultan Mustafanın] oğlu sultan Məhəmməd öldürüldüyü üçün «setəmi-mükərrər»[384] (təkrar sitəm) bunun [maddeyi ]-tarixi oldu.

Pələng ili (mart 1554-mart 1555) - bəzi ayları 961, bəzi ayları [96] 2-ci ildə (7.XII.1553-5.XI.1555) - Xandigarın Azərbaycana tərəf gəlməsi xəbəri qışlaq yurduna çatdı və onun Hələbdə qışlaması bu xəbərin doğruluğuna dəlalət edirdi. Şərafətli [Şah Təhmasibin] ağlı qələbə mənalı əsgərlərin vəziyyətini fikirləşdi. [Bəzi] işlər görməyi buyurdu. Qələbə ayəli bayraqlar pəncşənbə [günü] rəcəb [ayının] 6-da (7 iyul 1554) Bazarçay tərəfə yola düşdülər.

Xandigar şaban ayının axırlarında (iyulun axırları, 1554) Naxçıvana gəldi. İki gündən sonra-məzkur [şaban] ayının 27-də (28 iyul 1554) geri qayıtdı, sülh danışıqlarına başlanılması üçün Ülamənin mülazimini göndərdilər.

Nəvvabi-kamyab [Şah Təhmasib] yasavul Ülamənin [yavərinin] sözü ilə sülhə razılaşmadı. [Dedi ki], əgər mötəbər paşalardan biri sülh üçün gəlsə, sözüm yoxdur. Nəvvabi-kamyab rumluları təqib edən, onların ordularını və vilayətlərini xarab edən vaxtda [iş] bir qədər asanlaşdı. Həm də ramazan ayı[385] (avqust, 1554) başlandı. Şahın ramazan ayına hörməti olduğu üçün Rum ölkəsinə deyil, Gürcüstanın, Şuşad və Qərqərə [məntəqələrinə] getdi. Qalib əsgərlər kafirlərin ölkəsinə hücum [edib] oranı tarac etmək və əsir tutmaqla məşğul oldular. Beləliklə, ramazan [ayı] qurtardı. Bu vaxt Xandigar [sultan Süleyman] Ərzənrumda idi. Ali dərgahda olan gürcü Ləvənd (Levan) xanın oğlu İsa bəyin mülazimi gürcü Nəsanabın dilindən Ayaz paşanın tək-tənha Ənti qalasında oturduğunu və Xandigar [sultan Süleymanın] Ərzənrumda olduğunu ərz etdi. Buna görə [Şah Təhmasib] Porkin qalası ətrafından möhrdar Şahqulu xəlifə, Məhəmməd bəy ibn Əmirxan, Div sultanın oğlu Ədhəm bəy, Əmirxan Mosullunun oğlu Yadigar Məhəmməd bəy Tərxan və bəzi əmirləri 5000 nəfər ilə bərabər Ayaz paşanın üstünə göndərdi. Qərqərənin oğlu Davtar və gürcü vəzirlərini onların çərxəçisi[386] etdilər. Məzkur Məhəmmədi bəyin oğlu Əmirxan 200 nəfərlə sol tərəfdən qarovulda durmuşdu ki, əgər qaladan bir adam addımını bayıra atsa xəbərdar olsunlar. Təsadüfən onlar rumlu Sinan bəyə rast gəlib, onun qoşununu məğlub edirlər, özünü isə diri tutub məzkur əmirlərin yanına aparırlar. Sinan bəy dedi:

- Bütün qoşun Xandigar [sultan Süleymandan] başqa Ənti [qalasına] gəlib. Xandigar da arxalarınca gəlir.

Əmirlər yoldan qayıdıb, Gürcüstanın Qanlıçəməninə gəldilər. Sinan bəy yenə həmin sözləri söylədi.

Rum paşaları tərəflər arasında təkrarən sülh məsələsini ortaya atdıqları üçün nəvvabi-ali [Şah Təhmasib] Sinan bəyin qanından keçib, Şahqulu ağa qorçi Qaçarı onunla birlikdə Xandigar [sultan Süleymanın] yanına göndərdi.

[Şah Təhmasib] oradan Ləvasanın (Laurasbın) ölkəsinə təşrif aparıb: din uğrunda müharibə ilə məşğul oldu. Bu müharibədə böyüklü-kiçikli 30 000-ə qədər əsir döyüşçülərin əlinə keçdi.

O qış orada başa çatdı. [Şah Təhmasib] qışın axırında Arran Qarabağına təşrif gətirdi. Bərdədə cəlalla düşərgə saldılar.

Ali Səfəvi xanədanının fədakar Qaradağ seyidlərindən olan eşikağası Fərruxzad bəy elçilik və sülh məsələsini canlandırmaq üçün Xandigarın yanına göndərildi. Ondan sonra yenə qədim sufilərdən olan Təbət ağa Mehnalu Zülqədər də göndərildi .

Bu il Xandigar [sultan Süleymanın] ordusunda Şirvanşahlar nəslindən olan Qasım adlı [bir] şirvanlı onun hökmü ilə (B-273a) 500 nəfər tüfəngli yeniçəri, araba və toplarla Kəfə yolu ilə Şirvana tərəf yollandı. O, Xandigarın hökmünə əsasən, qumuq və qaytaq qoşunlarını özü ilə birləşdirib, tam hazırlıqlı bir ordu ilə Şirvana gəldi.

Abdulla xan Ustaclu ali hökmə əsasən özünün 500 nəfərlik adlı-sanlı mülazimini oğlu Xanməhəmmədlə birləşmək üçün Naxçıvana yəsaqa[387] göndərməsinə baxmayaraq, qalan qoşunu və Şirvan əmirləri olan Kəbə [adı ilə] tanınan İbrahim bəy Şamlu və Əliqulu bəy Qasarla Qasımın qarşısına çıxdılar. Təbərsəranın[389] Tənkə [adlı yerində] ordular qarşılaşdılar. Qasımın qoşunu [Abdulla] xanın qoşunundan artıq olduğu üçün o gün gecəyə qədər davam edən döyüşdə üstün oldu. [Abdulla] xan gecə köçüb Şamaxıya tərəf yola düşdü. Qasım onu təqib etdi. Abdulla xan Biğord [qalası] dərəsinə gəldi. Orada bütün Şirvan camaatı onun (Qasımın) başına toplaşaraq, ordusu 20 minə qədər (M-256b) atlı və piyadaya çatdı. [Abdulla xan] Biğordla Gülüstan arasında düşmənlə üz-üzə gəldi. Yenə Şamaxı çayına qayıtdı. Qasım və qoşunu özlərini qalib sayaraq Gülüstan qalasının altında, Qəbələ tərəfdə düşərgə saldılar.

[Abdulla] xan Sarıqamışda olan ordusunun yükü ilə köçüb gecə ikən öz əsas ordusu ilə birləşdi. Qasımın ordusu səhər [Abdulla] xanın ordusunu müşahidə etdikdə o, xanın köməyinə yeni bir ordu gəldiyini təsəvvür etdi. Onların odunun üstünə su töküldü. Həmin gün [Abdulla] xan ata minib, onlara tərəf üz tutdu. Onların gününü qara elədi. Qasımın qoşunundan minə qədər adam öldürüldü. Qasım canını o mərəkədən bir təhər qurtardı. Şirvanlı müxaliflərin qovğaları tamamilə yatdı. Şirvan əsgərlərinin başlarından Şamaxı meydanında bir minara düzəltdilər.

Bu xəbər nəvvabi-kamyaba (Şah Təhmasibə) çatıb, yenilməz dövlətin başçılarını sevindirdi.

Dovşan ili (mart 1555-mart 1556) - bəzi ayları 962, bəzi ayları isə [96] 3-cü ildə (26.XI.1554 - 10.XI.1556) şahın müşayiətçilər dəstəsi qışlaq yurdundan darüssəltənə Təbrizə yola düşdü. Şah Nemətüllah Baqi Yəzdinin qızını kainatı fəth edən İsmayıl mirzə üçün alaraq, dünyanın gözü mislini heç bir zaman görmədiyi,

cahan əhlinin ona bənzərini heç bir dildən, heç bir vaxtda eşitmədiyi bir toy etdi.[389] Toydan sonra darüssəltənə Qəzvin qışlağına təşrif apardılar.

Qəzvinə xəbər çatdı ki, Şiraz hakimi İbrahim xan Kərmsir [şəhərinin] kələntəri Əmir Şəmsəddin Şəhriyar Cəhrəminini kor edib. Ədalət naminə İbrahim xanı və bu qəbahəti işlətməyi ona tövsiyyə edən onun nökərlərini (B-273b) ələ keçirib cəzalandırmaq üçün fərman verildi.[390] Buna görə Əli sultan Dəmirçulu Zülqədərin oğlu Şahrux bəy[391] Tatioğlu (M-257a) Şiraza yola düşdü. Şirazın idarəsi məzkur Əli sultana verildi.[392] Şahrux bəy hökmə əsasən Şiraza gedib İbrahim xanın boynuna zəncir vurdu. Həmçinin mülazimlərinin təhsildarı olan başqa qorçilər öz cəzalarına çatdılar. Şahrux bəy atası müqəddəs Məşhəddən Şiraza gələnə qədər Şiraz hökumətini idarə etdi. Məşhəd hökuməti hökmə əsasən Bəhram mirzənin oğlu sultan İbrahim mirzəyə verildi.

Balıq ili (mart 1556 - mart 1557) - bəzi ayları 963, bəzi ayları isə [96] 4-cü ildə (16.XI.1555 - 23.X.1557) Heratın idarəsi İsmayıl mirzəyə verildi. Onun lələliyi oranın hakimi Məhəmməd xan Şərəfəddin oğlu Təkəluya tapşırıldı. Paytaxtda (Qəzvində) olan Şərəfəddin Təkəlunun oğlu Əli sultan onunla yola düşdü. Məqsəd bu idi ki, aləm və aləm əhlinin şahzadəsi Məhəmməd mirzə Heratdan aləmin pənahı (Şah Təhmasibin) dərgahına gəlsin.

Rəbiüs-sani [ayının] 6-da (18 fevral 1556) yola düşdülər[393] Cümadiəl-əvvəl [ayının] 26-da (7 aprel 1556) Herata çatdılar.

Şahzadə sultan Məhəmməd mirzə şaban [ayının] 4-də (13 iyun 1556) məzkur Əli sultanla birlikdə Heratdan çıxıb, şəvval ayının axırlarında (sentyabrın əvvəli 1556) ali dərgaha [Qəzvinə] çatdılar.

Cəlal bayraqları (Şah Təhmasib) Dəryavəkə, oradan Cəbuqluya və oradan Savucbulağa gəldi. Orada bəlli oldu ki, məzkur Əli sultan mayeyi-fəsad olub dövlətə layiq olmayan bəzi işlər düşünüb və indi ikitirəlik məqamındadır. [Əli sultan] ali əmr ilə əmirlərin, Rüstəm ürəkli, günün İsfəndiyarı olan qorçilərin zərbəsi ilə tapdalanıb, hadisələrin ayağı altında əzildi.

Zilqədə ayında (sentyabr, 1556) günün və ayın gözünün nuru, Cəmşid cəlallı, dinin pənahı şahzadə sultan Heydər mirzə xoşbəxt tale, mübarəklik və səadətlə anadan oldu. Onun iqbalı Allahın əbədi kölgəsi altında olsun. Lələliyi Məsum bəy Səfəviyə tapşırıldı.

Həmçinin bu ildə Bəhram mirzənin oğlu sultan İbrahim (M-257b) mirzə Məşhəd vilayətinə [hakim təyin] olundu. O, pəncşənbə [günü] məzkur rəbiüs-sani [ayının] əvvəlində (13 fevral 1556) yola düşdü. Həmin ildə çox yaşlı və zəif olduğuna görə darüssəltənə Təbrizdə oturan, vəkilliyini oğlu Mir Seyid Əli etdiyi Şahmar [adı ilə] məşhur olan Sədr Şəmsəddin Əsədullah Şüştəri vəfat etdi. Onun cənazəsini [imam] Rzanın müqəddəs məşhədinə apardılar. Onun [vəfat] tarixi bu sınıq xatirimə belə gəldi:

**TARİX**

«Xoşbəxt sifətli sədrin vəfat tarixi (B-274a)

Məhəmmədin - ona salam olsun-hisrətindən. Tək rəqəmi 3, onluq rəqəmi 2 dəfə üç, yüzlük rəqəmi birinci ilə ikincinin cəmidir.»[394]

İlan ilində (mart 1557- mart 1558) - bəzi ayları 964, bəzi ayları isə 965-ci ildə (4.XI.1556-13.X.1558) Heratın idarəsi yenə şahzadə sultan Məhəmməd mirzəyə tapşırıldı. İsmayıl mirzənin dərgaha gəlməsini tələb etdilər. Qorçibaşı Sevindik bəy Əfşar səfər [ayının] 9-da (12 dekabr 1556) şənbə [günü] onunla birlikdə Qəzvindən xüsusi göstərişlə səfərə çıxdı. Az bir vaxtda Herata çatıb, sultan Məhəmməd mirzəni Məhəmməd xana tapşırdı. İsmayıl mirzəni cümadiəl-əvvəl [ayının] 27-də (28 mart 1557) Heratdan çıxarıb oranın müsəllasında[395] əyləndirdi. Düşənbə [günü] cümadiəl-sani [ayının] 5-də (5 aprel 1557) oradan yola düşüb, köç edə-edə Təbəs yolu ilə Yəzdə və oradan Savəyə gətirdi.

Etimadüddövlə olan Məsum bəy Səfəvi (bu Cəmaləddin Məsum ibn Xacə Xanəhməd ibn Xacə Məhəmməd ibn sultan Cüneyd əs-Səfəvidir, dinin pənahı [Şah Təhmasibin] əmirlərinin nəslindən idi) ali hökmə əsasən onu qarşıladı. İsmayıl mirzəni Azərbaycana aparıb Mişkin tümənindəki Qəhqəhə qalasında həbs etdi. Qəbul olunmuş vacib hökmə əsasən qərara alındı ki, Həsən bəy yüzbaşının qardaşı Həbib bəy Ustaclu və Ustaclu tayfasından olan (M-258a) bir neçə nəfər qorçi onu mühafizə etsin.

Məsum bəy ali dərgaha gəldi.

Həmin ildə bəzi əyanlar etdikləri fəsad və müxalifətə görə cəzalandırıldılar; bəziləri qalalarda həbs olundular, bəzilərinin gözləri çıxarıldı və müxtəlif növ cəzalara düçar oldular.

Şahrux bəy Tatioğlu Zülqədər, Kiçik Yüzbaşı [adı] ilə məşhur olan İbrahim yüzbaşı Quruğlu Zülqədər, əmirlərdən bəziləri - İsfəndiyar bəy ibn Qayıtmaz bəy, Cami bəy, Qara bəy Quruğlu və qardaşları, əmirlik rütbəsi və əmiraxur olan Süleyman bəy Qılıç oğlu Boyat və Boyat qorçilərinin yüzbaşısı olan qardaşı həsən bəy kimi Quruğlu qorçiləri və təfsilatı uzun olacaq başqalarının hamısı [cəzalandırıldı].

Bu ildə Təbrizdə hakimlik edən Qazı Məhəmməd ibn Müsafiri Kürd, Əlqas hadisəsinin fəsad törədənlərindən olub, Qazı Məhəmməd Müsafiri ilə yekdil olan Heydər bəy ibn Ustad Şeyx Topçi bədbəxtliyə düçar olub tutuldular. Hər ikisini Ələmut qalasında həbs etdilər və [onlar] orada öldülər.

Həmçinin bu ildə seşənbə [günü] şəvval [ayının] 8-də (24 iyul 1558) Herat hakimi Məhəmməd xan ibn Şərəfəddin oğlu Təkəlu vəfat etdi. Oğlu Qazağı, xan ləqəbi verib, atasının yerinə qoydular.

Həmçinin bu ildə sədarət keçmiş Sədr Mir Təqiəddin Məhəmməd ibn Mir Müizəddin Nəqib İsfahaniyə verildi.

At ilində (mart 1558 - mart 1559) - bəzi ayları 965, bəzi ayları isə (B-274B) [96] 6-Cı ildə (24.X.1557 - 2.X.1559) [Şah Təhmasib] Xərrəqan yaylağına təşrif Gətirdi. Böyük əmirlər: Divan əmiri Bədr xan Ustaclu, Möhrdar Şahqulu xəlifə Zülqədər Astarabada mühafizə dəstəsi kimi getməyə məmur olundular. Onlar şaban [ayının] 2-də (20 may 1558) şənbə [günü] Qəzvindən çıxdılar.[396] Yadigar Məhəmməd bəy Tərxan, Həsən bəy Qəbih oğlu Ustaclu, bundan əvvəl Astarabadın hakimi olmuş (M-258b) və türkmanın Uxluyəqə camaatının ona hücum edib öldürdükləri Keçəl Şahverdinin qardaşı Şahqulu bəy Çavuşlu, Abbasəli ibn Çərəndab sultan Şamlu, Rüstəm xan Əfşar və başqa əmirlər onlara qoşuldular.

Tutulub həbs olunduqdan sonra azad edilən, yenidən vilayət və hökumət verilib Astarabada hakim göndərilən İbrahim xan Zülqədər ata-babaları Keçəl Şahverdinin qatili olan Uxulu türkmanlarının üstünə getdi. Həmin tayfa məzkur ata-babalarının övladları ilə birləşib Ətuk çölünə gəldilər. Əmirlər arxadan hücum etdilər. O hücum axşamı yol gedərkən möhrdar Şahqulu xəlifə təsadüfən qulunc xəstəliyindən öldü. Bu [hadisə] həftənin üçüncü gecəsi ramazan ayının 18-də (4 iyul 1558-ci ildə) oldu. Başqa əmirlər bu hadisədən sonra suyun kənarına gəlib, onlardan bir əsər tapmayaraq geri qayıtdılar. Bu əsnada Dinməhəmmədin qardaşı özbək Əli sultan türkmanların köməyinə çatdı. Nəvvabi-kamyab [Şah Təhmasibin] bütün əmirlərə: «Əgər Əli sultan gəlsə, müharibə etməsinlər və vəziyyəti ona bildirsinlər» kimi qadağan hökmləri yazmasına baxmayaraq, əmirlər buna əhəmiyyət vermədilər. Məğrurluq edərək bütün heyətlə Cürcan çayından keçərək, onların üstünə töküldülər. Onlar öz düşərgələrinin ətrafında xəndək qazıyıb, çəpər çəkməklə yaxşı sığınaq (istehkam) düzəltmiş və onun arxasında tüfəngçiləri yerləşdirmişdilər.

Əmirlər döyüşə başlayıb məğlubiyyətə uğradılar. İbrahim xan, Rüstəm xan, Şahqulu bəy Çavuşlu öldürüldülər. Bədr xan, Yadigar Məhəmməd bəy və Abbasəli bəy əsir alındılar. Qalanlar qaçmağa başladılar. Bu hadisə şəvval [ayının] 10-da (26 iyul 1558) [həftənin] birinci günü baş verdi. Nəhayət, bütün tutulanlar baş əydilər, salamat qaldılar. Hər birinin rütbəsinə görə hədiyyə alıb buraxdılar. Onlar dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gəldilər.

Ali divandan Hacı Üveys bəy Məlik oğlu (M-259a) Bayat, bayat qoşunu ilə Astarabadı idarə etmək üçün getdi.

965-ci ildə pəncşənbə [gününün] gecəsi, cümadi-əs-sani [ayının] 6-da (26 mart 1558) bitikçi Xacə Məhəmməd Müzəffər və yaxın adamları fürsət tapıb Türkman Əbanın üstünə gedib onu öldürdülər. Başını cümə [günü] məzkur ayın 28-də (17 aprel 1558) Qəzvin yaylağında[397] dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gətirdilər. Əbanın fitnəsi aradan götürüldü.[398]

Bu ildə həmçinin əksər alimlərin onun İMAMƏTLİYİNİ (B-275a) qəbul etməsinə çalışan Şeyx Zeynəddin Cəbəl Amilini rumlular Məkkə ibadətgahında tutub, İstambula apardılar. Pəncşənbə [günü] rəcəb [ayının] 12-də (30 aprel 1558) şəhid etdilər. Allah ona rəhmət eləsin.

Həmçinin bu ildə böyük hökmdar [Şah Təhmasib] təntənə və səadətlə çaharşənbə günü rəbiül-əvvəl ayının 17-də (28 dekabr 1558) mübarəklik və xoşbəxt tale ilə köhnə dövlətxanadan Qəzvinin yüksək tərəfində tikilmiş yeni dövlətxanaya köçdü.[399]

Əmirlər, əyanlar, ordu, zadəganlar və ölkənin hər yerindən ali paytaxtda olan camaat hədiyyələr verdilər. Bu fəqir [Əbdi bəy] bir qəsidə yazdı. Mətləi və bəzi beytləri bunlardır:

## NƏZM

«Sübhi-sadiq (dan yerinin sökülməsi) paytaxta xoşbəxtliklə gəldiyi üçün
Şərqin dövlətxanası ondan rövnəq aldı.
Xoşbəxtlikdən [Məhəmməd] peyğəmbərin anadan olduğu kün idi.
Nurlu Günəşi [bu] təvəllüd bəzədi.
Zəmanənin anası Günəşin doğmasından şad oldu.
[Bu] elə bir təvəllüd idi ki, bir gündə dünyanı tutdu.
Belə bir mübarək gündə [bina] böyük şadyanalıq ilə
Ürəyi işıqlı şahın yeni dövlətxanası oldu». Rəsmiyyət və dua üçün bu iki beyt də əlavə edildi.

## HƏMÇİNİN:

«Nə qədər ki, [peyğəmbərin] mövludundan dünya şərəf tapır,
Nə qədər ki, Ğədir bayramı[400] tac və taxta bəzək verir,
Peyğəmbərin mövludu günü mübarək olsun.
Ona görə ki, Ğədir gününün səadətindən xoşbəxtlik yaranmışdır».[401]

Qoyun ilində (mart 1559 - mart 1560) - bəzi ayları 966, bəzi ayları isə [96]7-ci ildə (14.X.1558-21.IX.1560) novruzdan iki gün sonra gecə sel Qəzvin şəhərinin 2000-ə yaxın evini viran etdi.[402] (M-2596) Şəhər camaatının və qoşun əhlinin çoxlu malı tələf oldu.

Bu ildə [Şah Təhmasib] yaylağa getmədi.

Gedib-gələnlərdən və tacirlərdən Xandigar [sultan Süleymanın] oğlu sultan Bayəzidin Amasiyada qoşun toplaması qardaşı sultan Səlimlə vuruşması haqda sözlər eşidildi. Bu əsnada Ələşgərd və Kağızmanın[403] tiyuldarı Yadigar bəy Pozukinin mülazimi dərgaha gəldi. Əlqas hadisəsindən sonra sultan Bayəzidin mülazimi olmuş onun iki nökərini gətirdilər. Onlar, sultan Bayəzidlə sultan Səlim arasında Konyada müharibə xəbərini verdilər. Sultan Bayəzid məğlub olub, Amasiyaya getdi. Bizi sövdagər paltarında bu tərəfə göndərməsindən məqsəd dinin pənahı şaha ərz edək ki, ona 1500 tümən yardım etsin, o, atasının yerinə keçəndən sonra birə on əvəz[404] verəcəkdir.

Nəvvabi-kamyab [Şah Təhmasib] bu sözdən Bayəzidin işinin əsil məqsədini bildi. İki padşah arasında sülh, dostluq mövcud olan vaxtda belə bir müddəaya əməl etmək son dərəcə ağılsızlıqdır.

[Şah Təhmasib] gələnlərin sözlərini yoxlamaq üçün hər ikisini Həsən bəy Yüzbaşıya tapşırdı. (B-275b) 30-40 gündən sonra məzkur Yadigar bəy xəbər göndərdi ki, Pasində bir neçə çadır qurulmuşdur. Belə bir vəziyyətdə Çuxursəd hakimi Şahqulu sultan Ustaclunun mülazimi sultan Bayəzidin çavuşbaşısı Əli ağa ilə nəvvabi-kamyab [Şah Təhmasibin] yanına gəldilər ki, onu (Bayəzidi) qoruyacaq, ya yox.

İki gün bundan keçdikdən [sonra] xəbər çatdı ki, Rum paşaları sultan Bayəzidin üstünə tökülüb, onu məğlub etmişlər. [Bayəzid] dörd oğlu və məğlub olmuş ordusu ilə Çuxursədə Şahqulu sultan Ustaclunun yanına gəlib. Həmin saat Qəzvin vəziri Ağa Mollanı, elçi Seyid Şəmsəddin Dilicanini, mehmandar Allahverən ağanı nəğd pul, xələt və silahla göndərdilər ki, onu Təbrizə gətirsinlər. (M-260a) [Bayəzidin] qorxusunu dəf etmək üçün Həsən bəy yüzbaşını neçə xarvar[405] nəğd qızıl pul, alət, silah və paltarlarla onun yanına göndərdilər. [Bayəzidə] xəbər verdilər ki, ürəyi sakit olsun, [Şah Təhmasib] and içmişdir ki, onu və oğlanlarını Xandigara verməyəcəkdir. Əli ağa çavuşbaşının yanında da belə and içdilər.

Əli ağa Həsən bəylə birlikdə [Bayəzidin] yanına gedib, Təbrizdə ona ziyafət verdilər. Oradan Qəzvinə qədər hər bir mənzildə qonaqlıqlar etdilər. Hər gün onun şəninə yeni bir qayğı göstərdilər.

O (Bayəzid), Təbrizdən nəvvabi-kamyab [Şah Təhmasibə] sifariş göndərdi ki, bu tərəfə təşrif gətirin, ikilikdə məsləhətləşək, Xandigarın ölkəsinə gedək. Xandigar [özü] İstambuldadır, onun qoşunları mənimlə dilbirdir.

Nəvvabi-kamyab [Şah Təhmasib] cavab verdi ki, hələlik Qəzvinə gəlin, bir-birimizi görək. Ondan sonra hər neçə məsləhət olsa əməl edərik. Bu arada Sinan bəy Xandigar [sultan Süleyman] tərəfindən və Duraq ağa sultan Səlim tərəfindən elçi gəldi ki, Bayəzidə heç bir hörmət göstərilməsin, [yoxsa] aramızdakı sülh işi pozular.

Nəvvabi-kamyab [Şah Təhmasib] buyurdu:

- Sultan Bayəzid hüzurumuza gələndən sonra hər nə məsləhət olsa, əməl edərik.

Xülasə, çərşənbə günü 966-cı[406] il məhərrəm ayının 21-də (3 noyabr 1558) sultan Bayəzid Qəzvin şəhərinə gəlib, yenicə tamamlanmış Səfərabad meydanında padşahın ayaqlarını öpdü. [Həmin hadisə] bu qitədə belə nəzmə çəkilmişdir:

«Elə ki, Rum qeysəri sultan Bayəzid,
Təcili olaraq İraq mülkünə tərəf gəldi,
Dinin padşahı Şah Təhmasibin ayağını öpməklə,
Ulduzların üstünə qədər əklil qoydu.

Əgər ilinin və ayının tarixini soruşsalar
De: «məhərrəm ayı idi, qoyun ili».[407]

Nəvvabi-kamyab [Şah Təhmasib] onu ata kimi qarşılayaraq kəramətli, doğru «Qonağa hörmət et» [hədisini] nəzərə alıb, ehtiram və nəvaziş göstərdi. (M-260b) [Ona] nəsihət, və öyüd verib təqsirləndirdi. Onun günahlarının bağışlanması barədə Xandigar [sultan Süleymana] məktub yazıb, (B-276a) mötəbər qorçilərdən Əli ağa Ağsasaqqal Qacarla[408] göndərdi.

Həmçinin işin mahiyyətini yaxşılıqla yoluna qoymaq məqsədi ilə yazılmış başqa bir məktubla Ərəşti ağa Mehnalunu [Duraq ağanın] müşayiəti ilə sultan Səlimin yanına göndərdi[409] sultan Bayəzidə kömək etməyə çalışıb, ona 20 min tümən hədiyyə və bəxşiş verdi.

Bu hadisənin xülasəsi «Cənnati-ədn» kitabında nəzmə çəkilmişdir.[410]

[Bayəzidin] qoşununun böyüklərini və əyanlarını cürbəcür nəvazişlərdən sonra Gilana, Mazandarana, Herata, Qəndəhara, Sistana, Məşhədə və Kirmana yolladı ki, onları oralarda hökumət və hakimlər saxlasın və istənilən vaxt [Qəzvinə] göndərsinlər.

[Şah Təhmasib] sultan Bayəzid üçün hədiyyələr göndərdi və onu qədim dövlətxanada yerləşdirdilər. Ona böyük sultanlara layiq olan hörmət göstərdilər.

Bu hadisələr cərəyan edərkən fəsad törədənlərin Ucundan Bayəzidin Dəli Quduz və Miraxur Sinan kimi dost[lar]ı düzgün yoldan çıxararaq, şahın məiyyətinə zidd olmağı ürəklərindən keçirib, beş-altı min atlı ilə ov etmək adı altında [oradan] çıxıb qaçmağı qərara aldılar. Özlərini Astarabad türkmanlarının yanına çatdırıb, oradan gəmi ilə, Ağrıçaya[410a] getsinlər. Hacıtərxan[411] və Qazana gəlib, rus padşahının yanına adam göndərib desinlər ki, Xandigar [sultan Süleymanın] düşməniyik. Ondan kömək alıb, Çərkəz ölkəsinə gələr, Noqay və Krım [camaatını] özümüzə kömək götürüb, Xandigar [sultan Süleymanın] ölkəsinə basqın edərik. Beləliklə, Rumu zorla, güclə ələ keçirərik.

Qara Uğurlu, Mustafa Nişançı və Mahmud[412] Çərkəz bu əhvalatı Həsən bəy yüzbaşı vasitəsilə Şah [Təhmasibə] çatdırdılar. Sultan Bayəzid (M-261a) məsələdən xəbərdar olub, onları öldürdü. Onun [Bayəzidin] eşikağası Ərəb Məhəmməd Mazandarandan gəlmişdi. Səadətabad bağında sultan Bayəzidin [şərəfinə] ziyafət verirdilər. Ziyafət zamanı o [Ərəb Məhəmməd], nəvvabi-kamyab [Şah Təhmasibə] sultan Bayəzidin müxalifətini işarə ilə anladıb [onu] xəbərdar etdi. sultan Bayəzid bu məsələdən xəbərdar olub, Ərəb Məhəmmədi də öldürdü.

Səkbanbaşı [413] Əli ağa və Quduz Fərhad [şaha] ərz etdilər ki, iş-işdən keçib və o (Bayəzid), sabah qaçacaqdır. Xülasə, nəvvabi-kamyab [Şah Təhmasib] ondan öz yanına gəlməyi tələb etdi. Sabahısı, cümə günü, rəcəb [ayının] 22-də (18 aprel 1560) bahar günlərində meymun ili (mart 1560-mart 1561) - bəzi ayları 967, bəzi ayları isə [96] 8-ci ildə (3.X.1559-10.IX.1561) onu diri tutdular. Ləl> paşa, Fərrux

bəy, mehtərbaşı Sinan, çaşnigir[414] İsa və Xacə Ənbər kimi əksər fəsad törədənlər öldürüldülər.

Bu bəndə [Əbdi bəy] belə mətləli bir qəsidə yazıb, ən şərəfli, ən müqəddəs [Şah Təhmasibin] nəzərinə çatdırdı.

## NƏZM

(B-276b) «İnsan olmayanı hörmətlə bəsləməyin nə faydası,
Adamlıq öz yerindədir, əgər adamdırsa».
Qəsidənin axırında deyilir:
«Ey şah, bu işi öz yerində etmisən,
Hamıdan ağıllı olduğun üçün dövlət səninlədir.
Can- [başla] elə bir iş etmisən ki,
Həşr gününə qədər, nöqsansız təb «səni mədh edər».

[Bayəzidin] böyük oğlu Orxanı Həsən bəy yüzbaşıya kiçik oğlu sultan Mahmudu Məsum bəy Səfəviyə, başqa oğlu sultan Məhəmmədi qorçibaşı Sevindik bəyə və dördüncü oğlu sultan Abdullanı Mir Seyid Şərif Baqiyə tapşırdılar. Özünü dövlətxananın daxilində saxlamağı buyurub, qəddar və zalım qorçiləri ona nəzarətçi təyin etdilər.

İlin ortasında ali əşrəf [Şah Təhmasibin] səhhətində pozulma əmələ gəldi. Allaha şükr olsun ki, xezliklə sağaldı.

Seşənbə günü cümadiəl-əvvəl [ayının] 15-də (12 fevral 1560) Gürcüstan hakimi Ləvənd xanın oğlu İsa xan (M-261b) islamı qəbul etdi, niyyəti nəzərdə kimiya kimi bir şey oldu.

Qazı Əqai Hüseyni Razi[415] bu misranı tarix üçün dedi:

«İsi Ləvənd şod müsəlman əz sedq»[416] (İsa Ləvənd ürəkdən müsəlman oldu.)

Ox və kaman qorçisi Hüseyn bəy Çavuşlu Ustaclu bu ildə düşənbə günü zilhiccə [ayının] 17-də (8 sentyabr 1560) vəfat etdi.

Toyuq ili (mart 1561- mart 1562) - bəzi ayları 968, bəzi ayları isə [96] 9-cu ildə (22.IX.1560-30.VIII.1562) Xandigar [sultan Süleymanın1 elçiləri başda Mərəşin hakimi Əli paşa və qapıçıbaşı Həsən ağa olmaqla 700 nəfər kişi seşənbə [günü] rəcəb [ayının] 22-də (8 aprel 1561) Qəzvinə gəldilər. Yekşənbə [günü] rəcəb [ayının] 27-də (13 aprel 1561) [Şah Təhmasibin] busatını öpməyə nail oldular. Xandigarın hədiyyələri: hər biri bir ölkənin gəliri olan cəvahirlə bəzənmiş qılınc və xəncərləri, nəfis rum və Firəng qumaşları və bir neçə doqquz[417] atdan ibarət töhfə və bəxşişləri verdilər.

Nəvvabi-ali [Şah Təhmasib] onlara hörmət və mərhəmət göstərdikdən sonra intizamlı əmirlər silkindən olan Səfər bəy Kəngərlu Ustaclunu elçi göndərməyi qərara aldı və onlarla (türk elçiləri ilə) birlikdə Ruma göndərdi.

Şaban [ayının] 15-də (1 may 1561) başında xam xəyal olan Ləvənd xanın oğlu Gərgin Gəncə hakimi Şahverdi sultan Ziyad oğlu Qacarla müharibə etdi və öldürüldü.

Rum elçiləri hazır olarkən (yəni Qəzvində olarkən) gürcülərin kəsilmiş başlarını, qənimətləri və əsir düşmüş aznaurlarını əşrəf [Şah Təhmasibin] nəzərinə çatdırdılar.

Həmçinin bu ildə (1561-ci ildə) Xandigar [sultan Süleymanın] kürəkəni olan baş vəzir Rüstəm paşa öz əsəli ilə öldü.

Seşənbə [gününün] gecəsi rəbiüs-sani [ayının] 10-da (29 dekabr 1560) Həsən Yüzbaşı Ustaclu vəfat etdi.

Cümə [günü] səhər [vaxtı] sübh tezdən zilhiccə [ayının] 3-də (15 avqust 1561) şah qoşununun pişnamazı Seyid Məhəmməd Cəbəl Amoli Allahın rəhmətinə getdi.

Zilhiccə [ayının] 17-də (29 avqust 1561) ölkənin baş mustovfisi (maliyyə vəziri) Xacə Qasım Nətənzi (M-262a) bağışlayan Allaha qovuşdu (yəni öldü). Bu qitə onun haqqında deyildi:[418]

**ŞER**

«Vəzirlərin çırağı, yüksək rütbəli mustovfi hanı?
Qədd-qaməti bu gün dövləti işıqlandırmır.
Toxum kimi torpağın altına getdi ki, sabah
Tornaqdan qiyamət səhrasına baş qaldırsın.
Vəfat edərkən ölümünün tarixi üçün dedi:
«Şəhidin becəhan sələmət bad»
(Dinin şahı dünyada salamat olsun).

[Onun] yerinə Mir Sədrəddin İsmayıl oğlu Mir seyid Mustovfi Şəhristani İsfahani [adı ilə tanınan] Mir Qiyasəddin Mahmud təyin olundu.

[96]9-cu il məhərrəm ayının 8-də (18 sentyabr 1561) ordunun katibi[419] Xacəki bəy [adı ilə] məşhur olan Xacə Sədəddin Məsud vəfat etdi. «Beheştibərin[420] (Əla behişt) onun vəfat tarixi oldu.

Ondan sonra Qazı Sahan Hüseyninin elmdə, kamalda və natiqlikdə əvəzsiz olan oğlu Mirzə Şərəf Cahan rəhmətə getdi. Nəvvabi-kamyab [Şah Təhmasib] bəzi vaxtlarda Tarım və Xərzəvil tərəfə balıq ovuna gedirdi. Qəzvinə qayıtdıqdan sonra [orada] qışladı.

Şahzadə [Məhinbanu] sultanımın cənazəsini çaharşənbə gecəsi, cümadiəssani [ayının] 4-də (9 fevral 1562) ülyahəzrətin behişt qəbiristanına[421] yola saldılar. Bu qitə o vaxt [mən] fəqirin dilinə gəldi:

**QİTƏ**

«Elə ki, zəmanənin Həzrəti-Bilqeysinin beşiyi (tabutu) yola düşdü,
Süleymanın taxtı kimi bərbad oldu.
Bu yəqin oldu ki, bu xarababaddan
Ülyahəzrətin beşiyi cənnət bağına tərəf yola düşdü.
Əqlin pirindən [vəfatının] tarixini sual etdim,
Dedi:«Dövləti-şahi-zəmanə baqi bad»[422]
(Zəmanənin şahının dövləti əbədi olsun).

O sədarət pənahlı ülyahəzrətin müəllimi olmuş müctəhidlərin baş müctəhidi sədarət pənahlı Mir Təqiəddin Məhəmməd, Hərəmin eşikağası Mövlana Yulqulu bəy İymur Zülqədər o həzrətin cənazəsini möminlər şəhəri Quma aparıb, imam Musa ibn Səfərin - ona və onun ata-babasına salam olsun - basısı Həzrəti-Məsumə Fatimənin [məqbərəsinin] yanında dəfn etdilər.

[Aşağıdakı] bu qitədən məlum olur ki, (M-262b) yaxın adamlardan, əmirlərdən və alimlərdən 4 ay müddətində bir neçə nəfər vəfat etmişdir.

**ŞER**

«Bax ki, 4 ay ərzində
Dünya meydanı içərisində nələr oldu.
Xacəki getdi və Qazı mərhum oldu,
O, bu xoşbəxt mülkə dayaq idi.
Onun ardınca Seyid bəy Kəmunə getdi,
Dövlətdə və ədalətdə onun tayı yox idi.
Yaxşı əməlli, saleh adamların
Bağışlanılmışı şatır Məmməd getdi.
Ondan sonra Bağdad şəhərinin elm dəryası
Mir Feyzüllah getdi.
Onlardan sonra fələyin yanında bənzəri olmayan
Tərxan torpağa getdi.
Ondan sonra qorçibaşı getdi.
Onların hamısını Allah bağışlasın.
Sonra onların ölüm tarixini dedim:
«Becəhan şahi-din sələmət bad»
(Dünyada dinin şahı salamat olsun).

İt ilində (mart 1562- mart 1563) bəzi ayları 969 bəzi ayları isə [9] 70-ci ildə (11.IX.1561-20.III.1563) Mirzə Kafi Münşi Ordubadi pəncşənbə [günü] zilqədə [ayının] 28-də (30 iyul 1562) vəfat etdi.

Həmin il Ruma elçi getmiş yasavulbaşı Vəli bəy Ustaclu oranın hakimlərindən Xosrov paşa, çaşnigir Sinan bəy və Əliağa çavuş başı və 200 nəfər kişi ilə zilqədə [ayının] 14-də (16 iyul 1562) pəncşənbə günü Qəzvinə çatdılar. [həmin ayın] 17-də (19 iyul 1562) axşam Səadətabad bağında [şahın ayaqlarını] öpməklə başıuca oldular. [Onlar] Xandigar [sultan Süleymanın] xəttilə yazılmış əhd və peymandan ibarət məktub gətirdilər və o ölkədən gətirdikləri hədiyyələri verdilər.

Sultan Bayəzidi 4 oğlu ilə zilqədə [ayının] 21-də (23 iyul 1562) pəncşənbə günü Xandigar [sultan Süleymanın] buyuruğuna əsasən elçilərə təqdim etdilər.

Onlar Xandigarın dediyi kimi, beşini də boğub həlak etdilər. Bu şer [o hadisənin] tarixini saxlamaq üçün deyilmişdi:

**ŞER**

«Hicri-qəməri 969-cu ildə
Əcəmdə əcayib bir vəziyyət baş verdi.
Bayəzidi və onun dörd nəfər övladını
Rumluların arasından götürdülər.
Bu müəmmadan onun tarixini axtar:
«Pənc kəm əz zümreyi-osmaniyan»
(Osmanlıların zümrəsindən 5 əskik oldu).[424]

Məzkur ayın axırında (zilqədə ayının 30-da - 1 avqust 1562) onların cəsədlərini Ruma apardılar.

Rəbiüs-sani [ayının] 20-də (17 dekabr 1562) gürcü Ləvacədin oğlu Davud bəy dərgaha gəlib, bir dəstə aznaurla islamı qəbul etdilər. Ona Davud xan (M-263b) ləqəbi verib, Tiflisin idarəsini ona tapşırdılar.

Donuz ili (mart 1563-mart 1564) - bəzi ayları 970 və bəzi ayları isə [9]71-ci ildə (31.VIII.1562- 8.VIII.1564) nəvvabi-kamyab [Şah Təhmasib] Qəzvinə təşrif gətirmişdi. Elçi getmiş Səfər bəy Kəngərlu Xandigar [sultan Süleymanın] elçisi İlyas bəylə dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gəlib, 40 baş qaçağan atı, qızılla işlənmiş məxmər çulları, daş-qaşla bəzədilmiş yəhərləri, hazırda İran torpağında 30 min tümənə bərabər olan 50 min Qibris[425] əşrəfisi,[426] Rum, Firəng, Misir və Yəmən nəfis şeyləri və məskukatlarını,[427] təhvil verdilər.

Ləvənd xanın oğlu İsa xan ona göstərilən hörməti unudub, qaçmaq istədiyindən çaharşənbə [günü] [9] 70-ci il rəbiüs-sani [ayının] 28-də (25 dekabr 1562) tutulub seşənbə [günü] cümadiəl-əvvəl [ayının] 16-da (11 yanvar 1563) Ələmut qalasına göndərildi.[428]

Sədr Mir Təqiəddin Məhəmməd İsfahani rəcəb [ayının] 13-də (8 mart 1563) sədarətdən çıxarıldı. Sabiq sədr Mir Seyid Əli ibn Mir Şəmsəddin Əsədüllah

Mərəşi əl-Mütəbərri Astarabad seyidlərinin fazillərindən olan Mir Məhəmməd Yusiflə birlikdə onun yerinə sədr oldular.[428a]

Əsl vətəni Kaşan olan və Rüknəddin Kazerunidən «Kaşi» (nisbəsi ilə) fərqlənən həkim Nurəddin Məhəmməd ibn Mövlana Kamaləddin Hüseyn ibn Mövlana Rüknəddin Məsud Təbib Şirazi cümə [günü] şaban [ayının] 8-də (2 aprel 1563) vəfat etdi. Onun [vəfatından] əvvəl rəcəb [ayının] 27-də (22 mart 1563) düşənbə günü nəvvabi-kamyab [Şah Təhmasibin] Qazıoğlu deyə çağırdığı Qazıoğlunun oğlu Mövlana Qütbəddin Məhəmməd Bağdadi vəfat etdi. Dostlardan bəziləri [mən] fəqiri danladılar ki, nə üçün məşhur [adamların] və əyanların [maddeyi]-tarixini yazmırsan? Bu fəqir [Əbdi bəy] bu qitə ilə üzr istəyib, öz yaxasını [onların əlindən] qurtardı.

**ŞER**

«Söhbət zamanı bir müsahib təəccüblə Əbdiyə
Dedi: Şer yazmaqda çəldsən, səbəbi nədir?
Hər gün məşhur [adamlar] dünyadan gedir,
[Onlara] əvəz olacaq şəxsi ruzgardan axtar.
Onun vəfat tarixini niyə iltifatla göstərmirsən,
Halbuki, mənalı bir xəzinə sənin əlindədir
Dedi: Ölümün şərəfli mələyi deyiləm
Ki, onun gördüyü işləri mən yazım».

Siçan ili (mart 1564-mart 1565) - bəzi ayları 971, bəzi ayları isə [97]2-ci ildə (21.VIII.1563-28.VII.1565), Məsum bəy səfəvini əmirlərdən bəziləri ilə Mazandarana göndərdilər. Nəhayət, oranın hakimi Seyid sultan Murad xanın xahişi ilə [Şah Təhmasib] onları geri çağırmağı buyurdu. O ölkənin [hakimliyini] məzkur xana verdilər. Əmr etdilər ki, Məsum bəy və yoldaşları Mazandarana daxil olmasınlar.

Bəlxin hakimi özbək Pirməhəmməd xan ibn Canibəy xan fəsad törədənlərlə müqəddəs Məşhədin ətrafına gəlib, zərər toxundurmadan geri qayıtdı. [sonra] Tülək bahadır xanı[429] üzr istəmək üçün dünyanın pənahı [Şah Təhmasibin] dərgahına göndərdi. Nəvvabi-ali [Şah Təhmasib] şahanə rəsmiyyət və mərhəmətdən sonra yasavulbaşı Hüseyn bəy Qalxançı oğlu Zülqədəri onunla birlikdə yuxarıda adı çəkilən [Pir Məhəmməd xanın] yanına göndərdi.

Bu ildə özbək Əli sultan və qardaşı uşaqları yurd salmaq məqsədi ilə Xarəzmdən Xorasana gəlib qayıtdılar.

Bu ildə Mavəraünnəhrin özbək tayfasından neçə nəfər əyan və əşrəf həcc niyyəti ilə Əcəm İraqına gəlib, şahanə mərhəmətlə qarşılandılar və Hicaza getdilər.

Sind ölkəsinin Bəkr hakimi sultan Mahmud xanın elçisi Seyid Əbülməkarim pəncşənbə [günü] zilhiccə [ayının] 14-də (24 iyul 1564) qiymətli

hədiyyələrlə dərgaha gəldi. Fəthi bəyin oğlu Haqverdi bəy pərvanəçini məzkur seyidlə [birlikdə] elçi sifəti ilə məzkur xanın yanına göndərdilər.

Siçan ilinin novruzu axşamında Şah Nemətüllah Baqinin evində olan nəvvabi-ali [Şah Təhmasibin] bacısı ülyahəzrət Xanış bəyim daimi aləmə qovuşdu. Şah Nemətüllah o ülyahəzrətin nəşini Ətabati-aliyə apardı. Oradan istəyirdi ki, həccə getsin. O yoldan Hicaza getməyə Xandigar [sultan Süleyman] tərəfindən icazə olmadığından (M-264a) Ətabatdan Bağdada və Bağdaddan Həmədana gəldi. Həmədanda cümə [gününün] səhəri zilhiccə [ayının] 11-də[430] (21 iyul 1564) vəfat etdi. Onun oğlu İbrahim bəy atasının yerini tutdu və atasının vəsiyyətinə görə adlarına Müsahib ləqəbi artırıldı. Böyük oğlu Xəlil sultan bundan əvvəl əyalət [hakimliyi] vəzifəsi almış və Astarabad hakimi olmuşdu.

Öküz ilində (mart 1565-mart 1566) - bəzi ayları 972, bəzi ayları isə [97] 3-cü ildə (9.VIII.1564-8.VII.1566). Adlarının çəkilməsində ifrata vardığımız Məsum bəy Səfəvi, onun oğlu Sədrəddin xan, vəli xəlifə Şamlu, Əmirxan ibn Məhəmmədi bəy Mosullu, Heydər bəy Mosullu Tərxan, Kirmanın hakimi Şahqulu sultan Əfşar, alicənab şahzadənin lələsi Məlikaslan bəy Əfşar, Şahverdi bəy Əfşar, alicənab şahzadə sultan Mustafa mirzənin lələsi Nəzər bəy Ustaclu, Xəlil bəy Siyah Mənsur kimi böyük və başqa əmirlər Xarəzm [hakimi] özbək Əli sultanı dəf etmək üçün məmur olundular. Çünki özbəklər Xəbuşan qalasını zorla tutub, Əli sultanın vəziri Mir Şəhriyara tapşırmışdılar. O, [Mir Şəhriyar] oranı öz qohumlarına verib, Əli sultanın yanına getmişdi. Oranın əhalisindən bəziləri Pəhləvan bəy Qəmərinin sərdarlığı altında birləşib, Şəhriyarın adamlarından bəzilərini öldürdülər, bəzilərini də qaladan kənara çıxardılar. Qalanı nəvvabi-kamyab [Şah Təhmasibin] adına zəbt etmişdilər. Əli sultan ora qoşun çəkdi və elə ki, əmirlərin hücumundan xəbərdar oldu, qaçdı. Pəhləvan bəy Qəməri bu səbəbə hədsiz şöhrət qazandı. Alicənab [Şah Təhmasibin] ürəyi onun yüksəlişinə rəğbət göstərdi və [o], əmirlik rütbəsi aldı.

İyqut bəy Çavuşlu Ustacluya əyalət [hakimi] vəzifəsi verib, Xəbuşan qalasının idarəsi, Nişapur və Əsfərainin hakimliyini ona tapşırdı. Heratda Məhəmməd xan Şərəfəddin Təkəlunun oğlu Qazağın zülmü və təhqiri (M-264b) yüksək dərəcəyə çatdığına görə və məzkur böyük əmirlərə onun dəf olunması işarə edildiyi üçün qərara alındı ki, Bəhram mirzənin oğlu sultan İbrahim mirzə müqəddəs Məşhəddən və yenə Bəhram mirzənin oğlu Bədiüzzaman mirzə Sistandan yuxarıda adları çəkilən əmirlərin köməyinə gəlib, Qazağın dəf edilməsinə çalışsınlar. Ancaq yenilməz dövlətin böyüklərinə qarşı hələ rəsmi bir müqavimət aşkar edilməmişdən əvvəl ali dərgahda onun müxalifət və xəyanətini əlahəzrət [Şah Təhmasibə1 xatırlatmış Qazağın qardaşları Tatar sultan, Əli bəy, Heratda onun qəsdində olan başqa qardaşları Mustafa bəy, Müseyib bəy və Əhməd bəy əsaslı bir iş görə bilməmişdilər. Buna görə müxalifətdə onunla əlbir olmayan, hökuməti istəyən Təkəlu camaatından bir dəstə, qardaşları ilə birlikdə ona qarşı vuruşmaq üçün Heratdan çıxaraq özlərini böyük əmirlərə çatdırmaq istədilər. O dəqiqə Quryana gəldilər və oranın hakimi Rumlu xəlifələrdən Safi Vəli ibn Sufyan

ilə birləşdilər. Qazaq elə ki, bundan xəbərdar oldu, onunla müttəfiq olan özünün digər qardaşı Hüseynqulunu, öz oğlu Səfəvi və Şəhidoğlu çağırılan Etimadinin mülazimlərindən qalanlarının hamısını onların ardınca göndərdi.

Quryan ətrafında şənbə günü cümadiəl-axır [ayının] 10-da (13 yanvar 1565) Mustafa bəy və dostları məğlub oldular. Mustafa bəy və bəziləri o mərəkədən çıxıb, özlərini Safi Vəli xəlifənin məskəni Kusviyə qalasına çatdırdılar. Əhməd bəy, Müseyib bəy bəzi yoldaşları ilə Hüseynqulu və Səfərin əlinə keçdilər. Onları Herata Qazağın yanına apardılar. Qazaq adı çəkilən Hüseynqulunu və nökəri Hüseyncan Təkəlunu 400 atlı ilə Safi Vəli xəlifə Rumlunun üstünə göndərdi ki, Mustafa bəy və başqa qaçqınları onlardan tələb etsinlər. Əgər verməsə güclə, zorla (M-265a) onun qalasını tutub, nə bacarırlarsa etsinlər. Hadisələr qeybdən belə gətirir ki, Qazağı dəf etməyə yollanmış böyük əmirlərin qaravulları o tərəfə çatır. Onun ardınca [isə] Vəli xəlifə Rumlu, Xəlil bəy siyah Mənsur çatır və Qazağın qoşunu ilə vuruşmağa başlayırlar. Qazağın adamlarının əksəriyyəti öldürülür. Qılıncdan keçirilməyənlər isə dağılırlar. Bu xəbər Qazağa çatdıqda o hədsiz dərəcədə həyəcanlanıb istisqa (qarın boşluğuna su yığılma) xəstəliyinə[431] tutulur. Onun bütün əzaları vərəmləmiş, qoşun nəfərlərinin əksəriyyəti dağılmışdı. Onun cavan bir oğlu Səfər axirət qapısına gəlib çatdı və əlindən bir iş gəlmədi. Fitnə-fəsad mühərriki olan qardaşı Hüseynqulu dilxoşluq etməklə sərdarlıq məqamında idi ki, böyük əmirlərin hamısı birlikdə Pəryan[432] rəbatında düşərgə saldılar. Elə ki, bu xəbər Herata çatdı, Qazağın qoşununun qalanı pərən-pərən düşüb dağılışdılar. Oğlu Səfər Heratdan çıxıb, Bəlxə tərəf getdi və oradan Hindistana qaçdı. Qazaq az bir adamla; şahzadə sultan Məhəmməd mirzə və aləmlərin ağası Əbülmöhsün sultan Həsən[433] mirzə ibn Sultan Məhəmməd mirzə ilə İxtiyarəddin qalasına gəldi. Böyük əmirlər Heratın [üstünə] töküldülər. Təkcə Məsum bəy Səfəvi neçə nəfər öz xüsusi adamları ilə İxtiyarəddin [qalasının] içərisinə gəldi. Qazaq onun qabağına çıxdı. Dərhal Qazaqla birlikdə Qazağın evinə gəlib, mənzillərinin və xəzinələrinin qapısını möhürlədi.

Qazağı cümə [gününün] axşamı cümadiəl-axır [ayının] 16-da[434] (19 yanvar 1565) qaladan çıxarıb bir yerdə həbs etdilər.

Ali əmrə əsasən fəthnamənin qaralaması hazır olduqda bu bəndə [Əbdi bəy] həmin hadisənin tarixini bu qitədə nəzmə çəkib, Mirzə Kafidən sonra (M-265b) haqlı olaraq ölkənin münşisi olmuş Məhəmməd bəy Köcəci bəy vasitəsilə [Şah Təhmasibə] çatdırdı və alqışlandı.

## QİTƏ

«Allaha şükür olsun ki, şahın taleindən,
Heratın camaatı zülm və sitəmdən nicat tapdı.
Yəni, şah o behiştə bənzər İrəm kimi ərazidən
Murdar Qazağı dəf etdi.

Elə ki, ağılın münşisi fəthnaməni yaratdı,
Onun tarixini «məmuri-Herat»[435] yazdı».

Qazağın ömrü xəstəliyinə görə sona çatdığı üçün bu vaxt vəfat etdi. Nəvvabi-kamyab [Şah Təhmasibin] tapşırığı ilə [Heratı] zəbt edib, Qazağın və xidmətçilərinin mallarını ələ keçirən böyük əmirlər ali dərgaha gəldilər.

Ali hökmə əsasən Heratı o vaxt müqəddəs Məşhədin hakimi olmuş Əmir Qeyb Ustacluya tapşırdılar. O, Herat hökumətini idarə etməyə başladı.

Sultan İbrahim mirzə müqəddəs Məşhədə, Bədiüz-zaman mirzə Sistana getdi. Başqa əmirlər bütün dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gəldilər.

Bu ildə dünya əhlinin şahzadəsi sultanəli mirzəni Gəncə və Bərdəyə göndərib, İbrahim bəy Ziyad oğlu Müsahib Qacarı onun lələsi etdilər.

Dünyanı qoruyan qüdrətli şahzadə sultan Mahmud mirzə Şirvana göndərildi. Onun lələliyinə oranın hakimi Abdulla xan Ustaclu təyin olundu. Həmçinin bu ildə məzkur Abdulla xan öz əsəli ilə vəfat etdi. Oğlu Əmir Həmzə bəy müvəqqəti olaraq atasının yerinə keçib, onun qoşununa sahib oldu.

Həmçinin bu ildə Xorasan vəziri Ağa Kəmali vəzifəsindən götürüldü. O cənaba son dərəcə yaxın olan oğlu Ağa Cəmali tutulub həbs edildi. Onun pis əməlləri Qəzvin şəhəri və bazarının ortasında xalqa çatdırıldı. Bir neçə vaxtdan sonra onu Ələmut qalasına göndərdilər.

«Həmçinin günahkarları cəzalandırırıq»[436]

**BEYT**

«Hər Kəmalinin (M-266a) zavalı öz ləpirindədir,
Onun kamalının nə qədər olduğunu kim bilir?»
Gizli qalmasın ki, bu ilin əvvəlində:

**ŞER**

«Şaban ayının 12-si geəsi, s
Səhərə qədər ulduzlarla hərəkət edirdi.
Yəqin fərvərdin ayının 4-cü gecəsinin sabahı pəncşənbə [günü] idi.
Hicri 972-ci ildə
Dövran arzuya doğru hərəkət etdi.
Dünyanı işıqlandıran Günəş Həməl (Quzu) [bürcündə],
Ay Sünbülə [bürcündə] müsəlləsə (üçlük) tapmışdı.
Günəş şərəfdən dünyaya işıq verirdi, Ayı isə şərəfdən işıq toplayırdı.
Şərəf evi təbəqəyə düçar olub,
(Merkuri) [səyyarəsi ilə] dost oldu.
Hut (balıq) [bürcündə] Utaridlə

Tir (Merkuri) Zöhrə (Venera) [səyyarəsi] ilə bir oturdu.
Ay Müştəri (Yupiter) [səyyarəsi] ilə yaxınlaşdı.
Dəlv (12 bürcün sıra ilə birincisi) Mərrix (Mars)
[səyyarəsini] məskən etdi.
Zühəl (saturn) [səyyarəsi] Əsədin (Şir) [bürcünün]
daxilində yerləşdi.
Qövs [bürcü] (Günəşin noyabr ayında daxil olduqu bürc)
Horizontda mənzil tapdı.
Zənəb (Quyruqlu ulduz bürcü) Cövzanın
(Ekizlər bürcünün) iki şaxəsi içərisində idi.
Kəhkəşan (Haçılar yolu, səmada ağ yol kimi görünən
ulduzlar yığını) Ümid tərəfə yol göstərdi.
Ömrün uzunluğundan yeni xəbər verdi.
Dünyaya nur səpən Ayın qübbəsi
Şahın dövləti kimi tərəqqidə idi».[437]

Pak olan imamların sonuncusu, aləmlərin tərbiyə verəni, Allahın dəlili, əsrin, zəmanənin ağası, əla-həzrət Əbülqasim Məhəmməd ibn əl-Həsən əl-Mehdi- Allahın yer üzərindəki xəlifəsi ona və ata-babasına hər bir zaman və hər bir anda Allahın xeyir-duası və salamı olsun - iltifatının nurundan pakizə xasiyyətli şahın əhvalının meydanına düşdü və öz mübarək üzünü yuxuda o həzrətə (Şah Təhmasibə) göstərdi. Onların arasında başqa bir mənzumədə müfəssəl şərhini tapacaq söhbət oldu. Sabahısı köməklik göstərən Allahın kölgəsi olan şah-Allah onun mülkünü və səltənətini əbədi etsin - məxluqat üçün onun xeyirxahlığını, ədalətini və ehsanını bol etsin - ölkənin tamğa [vergisini] (hər cür qayda və qanunla olursa-olsun) bağışladı. Ali əmrə əsasən onun (tamğanın) alınmasından vaz keçdilər. Bu [tamğa] təxmini hesabla 30 min tüməndən artıq idi. Onun cavabını on dörd məsumə bağışladı. Allah onu cənabından pak olan imamların hörmətinə qəbul etsin.[438]

Bu hadisə əlahiddə nəzmə çəkildiyindən burada bununla kifayətlənildi.

Pələng ili (mart 1566-mart 1567) - bəzi ayları (M-267b) 973 ayları isə [97]4-cu ildə (29.VII.1565-7.VII.1567) vəzarətə çatmış Mir Seyid Şərif Baqi ramazan ayında (mart-aprel 1556) vəfat etdi. Bu fəqir (Əbdi bəy) onun vəfat tarixini belə nəzmə çəkdi:

## ŞER

«Ey ürək, həqdən elə ki, fərman çatdı,
Az və ya çox necə nəfəs almaq olar?
Dünyada qələm və qılınc əhlinə iş buyuran
Seyid Şərif [də] getdi.

Onun vəfat tarixi haqqında dedilər:
Heyf Seyid Şərif Baqi, Heyf.»[439]

Bu zəif bəndə (Əbdi bəy) həftənin altıncı günü, şəvval ayının 20-də (10 may 1566) əlahəzrətin xassə əmlakının vergisinin haqq-hesabını aparmaq mənsəbindən çıxarıldı. Dərvişlikdə əziz oldu.

**ŞER**

«Qayğısız dövran məni
20 şəvvalda vəzifədən çıxardı.
Əgər istəyirsən tarixini biləsən,
Yadına həmin «işrin» (20) və «şəvval»ı sal».[440]

Bu ildə Abdulla xan Ustaclunun oğlu Əmir həmzə bəy şahzadə sultan Mahmud mirzə ilə birlikdə Şirvandan [Qəzvinə] ali dərgaha gəldi. Şirvan əyaləti Ərəc bəy Rumluya verildi.

Yuxarıda adı çəkilən şahzadənin lələliyi üçün Allahqulu bəy Əlcik oğlu Ustacluya müraciət edildi. Abdulla xanın qoşununa vacib olan [komandanlığın] təyini təxirə salındı.

Həmçinin bu ildə osmanlı sultanı Sultan Süleyman Xandigar vəfat etdi. Sultan Səlim onun yerinə [taxta] oturdu.

**ŞER**

«Süleyman [deyə] xitab edilən Osman[441] nəsəbli,
Əbubəkr[442] sifətli[443] səbəblər,
Yəni ki, Səlim ibn Süleyman şah oldu.
Cülusunun tarixi «Ömər ibn Xəttab»[444] dır.[445]

Bu ildə Seyid Abdulla Mazandaraninin qızını xoşbəxt, dünyanı qoruyan Əbülqalib sultan Məhəmməd mirzə üçün alıb, Qəzvində təmtəraqlı toy etdilər. Toydan sonra Şahqulu bəy Yəkan Çavuşlu Ustaclunu o cənabın lələsi edib, Herata göndərdilər.

Həftənin dördüncü günü, cümadiəl-əvvəl [ayının] 1-də (14 noyabr 1566) bu bəndə (Əbdi bəy) Qəzvindən köçüb, məzkur ayın 5-də (18 noyabr 1566) düşənbə [günü] darül-irşad Ərdəbilə gəldi və Musəvi, Hüseyni ali-səfəviyyənin şərəfli, müqəddəs, nurlu, ətirli, pak məqbərəsində güşənişin oldu.

Rəcəb [ayının] 1-də (12 yanvar 1567) bəndənin ailəsi və övladları da gəlib çatdılar. Ərdəbil məqbərəsində - Allah orada yatanlara rəhmət eləsin - guşə-Nişin olub, yalqız həyat keçirdiyim üçün həyatımı bütünlüklə dini elmləri mütaliə etmək

və dəqiq elmlərdən bəhs edən əsərləri [oxumağa] sərf etdim. Əgər bundan sonra dünyəvi hadisələrin təsviri bu kitabda geniş olmasa, üzürlü hesab edin.

Gizli qalmasın ki, dovşan ilində (mart 1567-mart 1568) bəzi ayları 974, bəzi ayları isə (97) 5-ci ildə (19.VII.1566-25.VI.1568) Çuxursəd hakimi Həmzə sultan Qazağın oğlu, ali divan idarəsinə aid şah hökmlərinə möhür vuran Şahqulu sultan Ustaclu, sultan Süleymanın təziyəsində iştirak etmək və sultan Səlimin [cülusunu] təbrik üçün Ruma gedib, töhfə və hədiyyələr apardılar. Sultan Səlim ona son dərəcə böyük hörmət göstərdi. Ziyafətlər verib, layiqincə insanlıq göstərdi.

Lahican Karkiyasından Xanəhməd qayda-qanunu çox pozduğuna görə, bu ildə dünyanın pənahı [Şah Təhmasibin] dərgahının yaxın və məhrəm adamlarından Qarınca bəyin oğlu Kor Həsən qorçi Hacı Fəqihlu Ustaclunu ona nəsihət etmək üçün Gilana göndərdilər. [O], bacarıqlı adam olduğu üçün ona necə lazımsa, ürəyəyatan nəsihət edib, ali dərgaha qayıtdı. Ancaq məzkur xanın hakimiyyəti sona çatdığı üçün - ürəyiqa-raya vəz etməyin nə faydası - yenə lahıc əmirlərinin qüvvəsi ilə addımını düz yoldan kənara qoydu və əmrə əsasən Gilana getmiş, dərgaha çox yaxın olan Yulqulu bəy İymur Zülqədəri öldürdü. Şahlıq qəzəbi Xanəhmədə [tərəf] çevrildi. Məsum bəy Səfəvi və oğlanları Seyid bəy və Sədrəddin xanı, bütün Zülqədər əmirlərini (M-267B) və Azərbaycan, İraq, Fars, Kuhkiləvə və Kirman qoşunundan 150 minə qədər atlı və piyada ilə Lahican Gilanını istila etməyə göndərdilər.

Qış son dərəcə soyuq oldu. Xanəhməd müqavimət göstərə bilmədi. Hökumətin idarəsini əmirlərə tapşırıb, məhdud adamla Əşkuhun Fərazkuhu dağında yerləşən Səxtəsir kəndinə gedib gizləndi. Məzkur əmirlər o dağın ətrafına gəldilər. Dağı mühasirə edib, hamıya Xanəhmədi tutmağa səy göstərməyi tapşırdılar.

Şahzadə sultan Mahmud mirzənin lələsi Allahqulu bəy Əlcik oğlu Xan [Əhmədin] harada olduğunu bildikdə, şahzadənin mülazimi olan Hüsam bəy ibn Rüstəm bəy ibn Bayram bəy Qaramanlunu 20-30 nəfərlə həmin dağdakı qalaya göndərdi. Özü [onları] o dağın ətəyinə qədər ötürdü. Hüsam bəygil onlardan ayrılıb, dağın qalasına gəldilər. Xanəhmədin olduğu yerə çatdıqda, Hüsam bəy yolun tozundan [istifadə edib], Xanəhməd olan yerə daxil oldu və düz onun üstünə gəldi. Xanəhmədi, xüsusi adamlarını və onunla birlikdə olanları tutub, Allahqulu bəyin yanına gətirdi. Əmirlərlə birlikdə məzkur Xan [Əhmədi] ələ keçirdikləri vəziyyətdə dünyanın pənahı [Şah Təhmasibin] dərgahına apardılar.

Hüsam bəy bu igidliyinə görə əmirlik rütbəsi aldı. Təbil və bayraq verib, Qaramanlu elinin əyalətini ona tapşırdılar. Lahıc zalımlarını dəf edib Biyəh-pəs Gilanının (hakimliyini) əlahəzrətin bacısı Xanış xanımın nəvəsi olan Cəmşid xan ibn sultan Mahmud ibn Əmirə Dubasa verdilər. Biyəh-piş Gilanı ali divanın dairəsinə daxil oldu.

**RÜBAİ**

«Allah türkləri dəstədən dəf etdiyi üçün,
Lahicandakı zalımların hamısı dəf oldu.
Şah fəna qılıncı ilə hamını dəf etdi,
Zalımların yoxolma tarixi «Zələmə»[447] (zalımlar) oldu».

Həmçinin bu günlərdə Qəhqəhə qalasında (M-268a) Sam mirzə və övladlarının olduğu mənzildə Əlqasın oğlanları: Sultan Əhməd və Sultan Fərrux cəm olub söhbət edərkən təsadüfən güclü zəlzələ oldu və o mənzil onların başına uçdu. Hamısı həlak oldu. Bu bəndə [Əbdi bəy] bu qitəni [onların] tarixini qeyd etmək üçün nəzmə çəkdi:

**ŞER**

«Dünyanın tarixinə şad kəklik qəhqəhə çəkdi,
Saqinin əlinləki varlıq badəsi daimi deyil,
Elə ki, dedim Samın halı necədir və tarixinə nə deyirsən?
Cavabımda dedi: Dövləti-Təhmasib şəh baqi»[448]
(Şah Təhmasibin dövləti əbədi olsun).[449]

Bu ildə sədarəti [idarə etməkdə] şərik olan Mir Seyid Əli Şüştəri və Mir Məhəmməd Yusif o vəzifədən çıxarıldılar və şərik olmaqdan xilas oldular. O vəzifəyə Qiyasəddin Mir Miran ibn Əmir Müizəddin Məhəmməd Nəqib İsfahani Mir Mirani keçdi.

Balıq ili (mart 1568-mart 1569)- bəzi ayları 975, bəzi ayları isə [97]6-cı ildə (8.VII.1567-15.VI.1569) Ruma getmiş Şahqulu sultan Ustaclu dünyanın pənahı [Şah Təhmasibin] dərgahına geri qayıtdı. Az bir müddətdən sonra o, Qəzvin ölkəsində «Allahın yanına qayıtdı» (yəni vəfat etdi). Vəzifəsi və vilayəti onun oğlu Məhəmmədi bəyə verildi.

Məsum bəy Səfəvi öz iki oğlu - biri alimlər zümrəsindən olub, Xanmirzə adı ilə məşhur olan Xanəhməd mirzə, digəri Xacəbəy adı ilə məşhur [olan] Xacə Nemət və onların ailəsi, keçmiş Sədr Mir Məhəmməd Yusif, dəftərxana darğası Bəşarət bəy (Əbdürrəhman bəy Mosullunun oğlu) və digər elm xadimləri ilə birlikdə [xidmətdən] azad olundular və həccə yola düşdülər. Rum ölkəsinə gəldikdə, Sultan Səlim onlara son dərəcə böyük hörmət göstərib himayə etdi.

Həmin ilin axırında nəvvabi-kamyab [Şah Təhmasib] dünya əhlinin şahzadəsi Xədicə sultan xanımı Biyəh-pəs Gilanının hakimi Cəmşid xana [ərə] verdi. Şahzadənin lələsi olan (M-268b) Əmirxan Xaliqin nəvəsi Əmirxan Mosullu onu Gilana aparıb Cəmşid xana tapşırdı. O ailədən Əmirxana nəzakət göstərildi və hədiyyələr verildi. Əmirxan ali dərgaha qayıdıb, icazəyə əsasən öz ölkəsinə getdi.

İlan ili (mart 1569-mart 1570) - bəzi ayları 976, bəzi ayları (97) 7-ci ildə (26.VI.1568 - 4.VI.1570) islam üləmalarına belə bir fərman verildi ki, tabelikdə olan məmləkətlərdə moizə məclisləri tətbiq edilsin və xalqa moizə etməyə başlasınlar. Xüsusilə, cümə günlərində bütün camaat vəz məclislərindən kənarda qalmasınlar. Bu bəndə [Əbdi bəy] bu qitəni [onunla əlaqədar] nəzmə çəkdi:

## QİTƏ

«Mələk xasiyyətli şahın fərmanı ilə
Bu ildə moizənin vəziyyəti rəsmiləşdirildi.
Vəzin tarixinə baxsan
Doqquz yüz yetmiş altı idi».

Pələng ilində (1566) vəzifə başına qoyulmuş Xacə Məlik Mustovfi İsfahani vəfat etdi. Mir Fəzlüllah Şəhristani onun köhnə düşməni olduğu üçün sevindi. Bu qitə bununla əlaqədar və [maddeyi-tarix] kimi nəzmə çəkildi.

Ancaq Mir Fəzlüllah hələ mənsəbə çatmamışdır.

## QİTƏ

«Mir Fəzlüllah [Xacə] Məlikin ölümündən xoşhal oldu.
Çünki, can və ürəkdən ona düşmən və bədxahı idi.
Yarəb, onun halı ondan sonra və bu il necə olacaqdır?! Onun tarixini axtardıq, «Fəzlüllah»[450] oldu».

Bu ilin şəvval ayında (mart-aprel 1569) nəvvabi-kamyab [Şah Təhmasibin] bibisi olan Həzrəti-sultan Heydərin qızı ülyahəzrət Fəxrcahan xanım Allahın rəhmətinə getdi.

Əyan və ailəsi ilə həccə getmiş Məsum bəy Səfəvi zilhiccə (ayının) 7-də (23 may 1569) ehrama[451] daxil oldu. Məkkeyi-müəzzimənin[452] yaxınlığında onun oğlu Xanmirzə, şahın dəftərxanasının darğası Bəşarət bəy, Məsum bəyin eşikağası Əlican ağa Qaramanlu, onun qardaşı olan Məsum bəyin qorçibaşısı Məhəmmədcan ağa (M-269a); onun başqa əyan və əsilzadələrinin hamısı - onların mülazimləri, məsləhət üçün Hacılar başçısı təyin edilmiş fazil adamlardan Mövlana Müinəddin Astarabadi gecə vaxtı istirahət etmək üçün yoldan kənara çıxıb yatarkən şəhadət şərəfinə nail oldular (yəni öldürüldülər). Məsum bəylə yol yoldaşı olub, yoldan kənara çıxmayıb, Hacılar arasında olan Mir Məhəmməd Yusif və başqa adamlar o təhlükəli yerdən xilas oldular. Məsum bəyin yerdə qalan ailə üzvləri, övladları və dostları həcc ziyarətindən sonra geri qayıtdılar. Qəribə burasıdır ki, onların yol yoldaşlarından olan təhlükəli yerdən xilas olub, ölümün çəngindən qurtulmuşdular və Hindistana getmək üçün gəmiyə minmişdilər, [onlar yolda ikən] tufan qopur və gəmi batır, hamısı ölüm tufanında

qərq olurlar. O cümlədən Seyid Məhəmməd Yusif - Allah ona rəhmət eləsin. Köç evi ilə qayıdan Məsum bəyin vəziri Mirək bəy Qəzvinə çatdı və vəziyyəti bildirdi. [O] az bir vaxtdan sonra Qəzvində vəfat etdi.

Bu ildə başqa [bir hadisə]: atasından sonra Gürcüstanın hakimi olmuş Həmyun ibn Ləvacəd yüksək şöhrət sahibi olan əmirlərdən və nəvvabi-kamyab [Şah Təhmasibin] inanılmış adamlarından olan Şəki vilayətinin tiyul sahibi Şamxal sultan Çərkəzin mülazimi tərəfindən tutuldu. Həmyunu dünyanın pənahı [Şah Təhmasibin] dərgahına apardılar. [Hazırda] bu dərgahdadır və şahlıq mərhəmətindən məhrum deyildir.

Həmin ildə başqa [bir hadisə]: Lahican Gilanının idarəsini dünyanı qoruyan Şahzadə sultan Mahmud mirzəyə verib, lələsi Allahqulu bəy İycik oğlunun müşayiəti ilə o tərəfə göndərdilər. Lahican qoşununun qılıncdan keçirilməyənləri fənalıq qılıncından keçirildilər. Qəzvində olan Xanəhmədi Qəhqəhə qalasına göndərdilər.

At ilində (mart 1569-mart 1570) - bəzi ayları 977, bəzi ayları isə [97]8-ci ildə (16.VI.1569-25.V.1571) (M-269b). Əlahəzrət nəvvabi-kamyab [Şah Təhmasib] ənənəyə görə yaylaq və qışlağı cənnət bəzəkli darüssəltənə Qəzvində keçirdi.

Bu ildə vilayət [hakimi] rütbəsi almış İsgəndər bəy Əfşar ilə Astarabadın (vəzifəsindən) çıxarılmış hakimi Xəlil sultan Ziyad oğlu [arasında] mübahisə oldu. Xəlil bəy öldürüldü.

Qoyun ilində (mart 1570-mart 1571) - bəzi ayları 978, bəzi ayları isə (97)9-cu ildə (5.VI.1570-13.V.1572). Allaha şükür və həmd olsun ki, nəvvabi-kamyab [Şah Təhmasibin] müqəddəs vücudu, aləm və dünya şahzadələrinin səhhəti səlamətdir. Məmləkət idarə olunur, əmin-amanlıq artıb. Düşmənlər bədbəxtdir. İctimai, faydalı işlərdə çalışan, ədalətə meyl edən camaatın hamısı xüsusən alimlər və möminlər bütünlüklə mərhəmət və xoş güzəran içərisindədir. Bu kitab bu ilin əvvəlində tamam oldu. Qələmin ucu bundan artıq cövlan etməyəcək. Yəqin, cilovu çəkiləcəkdir. Allah qoysa, əgər həyat baqi qalsa, bundan sonra müəllif başqa bir cild düzəldəcək, yazılması vacib olan məsələlər orada qeyd olunacaqdır. Allaha şükr ki, [bu kitab] tamamlandı.

## ZEYL (əlavə)

Rum, Misir, Şam, Hicaz, Ərəb İraqı, Diyarbəkr və Mosulda Səfəvi şahlarına müasir sultanların zikri haqda (əlavə).

Səfəvi şahları dövlətinin-hökuməti əbədi olsun -başlanğıcından indiki 978-si (5.VI.1570-25.V.1571) ilə qədərki vəziyyət belədir:

Dedik ki, Rumda osmanlı sultan Bayəzid[453] ibn sultan Məhəmməd[454] 886 (2.III.1481-19.II.1482)-cı ildə padşah idi [O], qardaşı Cəm sultanı məğlub edib, əksər vilayətləri fəth etdi. O cümlədən, həzrəti Şah İsmayılın Gilandan xüruc

etməsi ilə müvafiq olan 20 məhərrəm 905 (27 avqust 1499)-ci ildə Firəngin böyük vilayəti və qalası olan İnəbəxti tutdu. 906 (28.II.1500- 16.VII.1501) (M-270a)-cı ildə isə oranın çoxlu vilayət və qalalarını işğal etdi. Axırda oğlu Səlimin təhriki ilə yeniçərilər ondan üz döndərdi. Ədirnə ilə İstambulun arasındakı Əğraşkuyda Həzrəti Şah İsmayılın Mərv ətrafında Şeybə (Şeybani) xana qələbə çaldığı 916 (10.IV.1510-30.II.1511)-cı ildə ata ilə oğul [arasında] müharibə oldu. Sultan Bayəzid Səlimin əlinə keçərək, qalaların birində həbs edildi. 918-ci ildə səfər ayının axırında (may ayının ortaları 1512) vəfat etdi.

Sultan Səlim ibn sultan Bayəzid 916 (10.IV.1510-30.III.1511 )-cı ildə taxta çıxdı.[455] Öz qardaşları sultan Əhməd və sultan Qorxutu əksər övladları və yaxın qohumları ilə öldürdü. Zülqədər və Qaraman ölgələrini istila etdi. 920 (26.II.1514-14.II.1515)-ci ildə Xoyun Çaldıran [adlı yerində] cənnətməkan padşah Şah İsmayılla müharibə etdi və Təbrizə qədər gəldi. Oradan Ruma qayıtdı. Təkcə Diyarbəkrə sahib oldu.

921 (15.II.1515-4.II.1516)-ci ildə o Kəmax qalasını zəbt etdi. Həmin ildə Ədaüddövlə Zülqədəri öldürdü və Bursada qışlaq etdi. Ondan sonra ərəb ölkəsinə qoşun çəkdi. Hələb yaxınlığında Mərəh[456] ətrafında Misir və Şamın padşahı Qancu ilə müharibə edib, onu məğlub etdi.

923 (24.I.1517-2.I.1518)-cü ildə Misir ətrafında bir daha çərkəz qulamları ilə vuruşub qalib gəldi. Misirdə qışlaq etdi. Hərəmeyni-şərifeyndə[457] onun adına xütbə oxudular.

926 (23.XII.1519-11.XII.1520)-cı ildə Əğraşkuy ətrafında [onu] bir xəstəlik tapdı və atasını əsir etdiyi həmin yerdə öldü.

Sultan Süleyman ibn Sultan Səlim[458] atasının vəfat etdiyi vaxt Amasiyada idi. Onu tam gizli surətdə İstambula aparıb taxta oturtdular. O, atasından sonra bir çox vilayəti ona miras olaraq qalmış ölkəyə qatdı. O cümlədən 927 (12.XII.1520-30.XI.1521)-ci ildə Belqrad qalasını və (M-270b) 7 səfər 929 (26 dekabr 1522 )-cu ildə Ərvəs vilayətini fəth etdi.

Ülamə Təkəlunun təhriki ilə 941 (13.VII.1534-1.VII.1535)-ci ildə əlahəzrət nəvvabi-kamyab, Allahın kölgəsi Şah [Təhmasib] ilə ədavətə başlasa da - dinin pənahı şahın vəziyyəti təsvir edilərkən yazıldığı kimi - [bu ədavət] onların arasında sülhlə başa çatdı. Oğlu sultan Bayəzid hadisəsindən sonra 969 (11.XI.1561-30. VIII.1562)-cu ildə bu sülh [daha da] möhkəmləndi.

[Bu münasibətlə] Qazı Ətai Razi dedi:

«Allaha şükr olsun ki, dövranın kəramindən
Bu köhnə dünyada tale yar oldu.
Dünyanın şahları sülh arzulayırdı
Verdi və başqalarını həsrət oduna atdı.
Günləri yazan sülhün tarixini axtarırdı
Ağıl dedi ki, «əs-sülh xeyr»[459] (sülh xeyirlidir)».

Ondan sonra pələng ilində (1566) vəfat etdi. 974[460] (19.VII.1566-7.VII.1567)-cü ildə onun ölüm xəbəri əlahəzrət nəvvabi-kamyab [Şah Təhmasibin] qulağına çatdı.

Sultan Səlim ibn sultan Süleyman[161] atasından sonra taxta çıxdı. Qardaşlarından heç biri sağ qalmamışdı ki, ona maneçilik etsinlər. Onun sultan Murad adlı bir oğlu və həmçinin qardaşı uşaqları var.

**Şirvan.** Şirvanda Fərrux Yəsar padşah idi.[162] Cənnətməkan əlahəzrət Şah İsmayıl atasının qisası olaraq 906 (28.VII.1500-16.VII.1501)-cı ildə onu öldürdü. Fərrux Yəsarın qazıbəylik vəzifəsini ifa edən oğlu Qazı bəy atasının yerini tutdu.[163] [O], 907 (17.VII.1501-6.VII.1502)-ci ildə vəfat etdi. Şeyxşah [adı ilə] tanınan Şeyx İbrahim ibn Fərrux Yəsar hökumət başına gəldi.[464] Həzrəti Şah İsmayıl ona mərhəmət göstərdi. Adı çəkilən [Şeyxşah] 920 (26.II.1514-14.II.1515)-ci ildə ali Cəlallı Şah [İsmayılın] astanasını öpməyə gəlib, şahlıq mərhəməti ilə başıuca oldu.

930-cu ildə rəcəb [ayının] 17-də şənbə (günü) (21 may 1524) cənnətməkan Şah [İsmayıl]dan 2 gün əvvəl öldü.

Sultan Xəlil ibn Şeyxşah böyük övlad olduğu və cənnətməkan Şah [İsmayılla] qohumluq şərəfi (M-271a) ilə şərəfləndiyi üçün başqa qardaşlarına üstün gəlib, taxta çıxdı.[465] 942-ci ildə cümadiəl-əvvəl (ayının) 9-da cümə [günü] (5 noyabr 1535) vəfat etdi.

Şahrux ibn sultan Fərrux ibn Şeyxşah əmisindən sonra əmirlərin yardımı ilə taxta çıxdı. 945-ci ildə rəcəb [ayının] 27-də şənbə [günü] (19 dekabr 1538) Allahın kölgəsi olan əlahəzrət nəvvabi-kamyab [Şah Təhmasib] Biqord qalasını fəth etdikdə, onu tutdular. Bütün Şirvan ölkəsi dinin pənahı [Şah Xəhmasibin] ali divanı içərisinə daxil edildi. Şahrux 946 (19.II.1539-7.II.1540)-cı ildə vəfat etdi və bu sülalə onunla sona yetdi.

**Lahican Gilanı.** Karkiya Mirzə Əli ibn sultan Məhəmməd Gilan Biyəh - pişindən ibarət olan Lahican Gilanında padşah idi. Ali məkanlı həzrəti xaqan Şah İsmayıl Səfəvi qardaşı Şah sultanəlinin ölüm hadisəsindən sonra Gilana onun yanına getdi. Şah İsmayıl 905 (8.VIII.1499-27.VII.1500)-ci ildə Mirzə Əlidən ayrılıb cahangirliklə məşğul olana qədər, o xidmət kəmərini belinə bağladı, köməklik, qayğı [göstərmək] və mühafizə [etmək] və qorumaqda heç bir şeydən müzayiqə etmədi.

910 (14.VI.1504-3.VI.1505)-cu ildə qardaşı Karkiya sultan Həsən ibn sultan Məhəmməd onunla ixtilafa başlayıb, əmirül-üməraası olan Kiya Firudunu Səfidrudun Deyləman adlı yerində öldürdü.

Karkiya Mirzə əli canını qorumaq üçün hökumətin idarəsini qardaşının öhdəsinə buraxıb, bir guşəyə çəkildi və ibadətlə məşğul oldu. Sultan Həsən istiqlaliyyət qazandı.

Fəsad törədənlər sultan Həsəni vadar etdilər ki, Mirzə Əlinin üstünə gedib onu öldürsün. Sultan Həsən [Mirzə Əlinin olduğu] yerə çatdıqda, onun üstünə

töküldülər və onu gecə vaxtı öldürdülər. Bu [hadisə] 911 (30 yanvar 1506)-ci il pəncşənbə gecəsi ramazan [ayının] 5-də oldu.

Sultan Həsənin əmirləri bu hadisədən qəzəblənib, Lahicandan hücum etdilər və o yerə gəldilər. Pəncşənbə günü (M-271b) Mirzə Əlini öldürdülər. Mirzə Əlidən arxa (oğul) qalmadı. Karkiya sultan Əhməd ibn sultan Həsən atasının və əmisinin ölüm hadisəsindən sonra taxta çıxdı. Cənnətməkan Şah [İsmayıla] böyük hörməti vardı.

O, 933 (8.X.1526-26.IX.1527)-cü ildə Allahın kölgəsi olan əlahəzrət nəvvabi-kamyab Şah [Təhmasib] Qəzvində qışlaq edərkən (Cuhə sultan əmirül-üməra olarkən) dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gəldi. [Şah] öz mərhəmətini əsirgəmədi və Gilana qayıtdı. Nəhayət, 936 (10 iyul 1530)-cı ildə onun övladları zilqədə ayının 14-də yekşənbə [günü] alçaq rütbədən vəkillik mərtəbəsinə çatdırdığı Qasım tərəfindən qətlə yetirildi. Özü 940-cı ilin şaban [ayında] vəfat etdi (mart - aprel 1534).

Karkiya Seyid Əli Kiya ibn sultan Əhməd onun yerinə keçdi. [O], son dərəcə mülayim idi. Buna görə ordu hissələrində həddən artıq qarmaqarışıqlıq başlandı. Axırda kiçik qardaşı Karkiya sultan Həsənlə onun arasında ziddiyyət yaratdılar. 941-ci ilin əvvəllərində (1534-cü ilin sonları) çarpışma oldu. Seyid Əli Kiya və başqa qardaşları Səmamda öldürüldülər. Karkiya sultan Həsən ibn sultan Əhməd padşah oldu. O, Biyəh-pəs Gilanına da əl uzadıb, Əmirə Dubası avara saldı. Nəhayət, 943-cü ildə cümadiəl-axır ayının 5-də cümə [gününün] gecəsi (19 noyabr 1536) taun xəstəliyindən vəfat etdi.

Belə oldu ki, əlahəzrət ən müqəddəs nəvvabi-kamyab [Şah Təhmasib] Bəhram mirzəni Gilan hökumətini idarə etmək üçün göndərdi. Cəlal bayraqları Xorasanda olduğundan oranın hökuməti [Bəhram] mirzənin sərəncamına keçmədi. Gilan əmirləri qatlaşmadılar. [Bəhram mirzə] Dəryavək yaylağına qayıdıb hökumətin idarəsini Gilanlıların [xeyrinə] tərk etdi.

Xanəhməd ibn sultan Həsən padşah oldu. Nə qədər ki, nəvvabi-kamyab [Şah Təhmasibin] şahlığının xeyirxahlıq nəzəri onun [üstündə] idi, vəziyyəti olduqca yaxşı idi. Nəvvabi-kamyab Biyəh-pəs və Kəskər (M-272a), vilayətlərini ona vermişdi. [Xanəhmədin] Əmirə Dubas adlandırılan İshaqvənd nəslindən olması qəti idi.

Nəhayət, əyyaşlıq onun şıltaqlığına qalib gəldi. Qılınc oynadan, güləşən, qoç döyüşdürən, xoruz boğuşduranlarla həmsöhbət olub, içki içən və tiryəki oldu. Hökumətin idarə qaydalarını və dinin pənahı Şah [Təhmasib] ilə ədəblə riayət etməyi unutdu və [ona] etina etmədi. Onun fəsad törədən əmirləri əliuzunluq edib, yaramaz işlər gördülər. Belə ki, kübar əmirlərdən olan Yulqulu bəy İymuru və Şahqulu bəy Avənin oğlu Zülqədəri 975-ci ilin dovşan ilində (1568) öldürdülər. Buna görə nəvvabi-kamyab [Şah Təhmasibin] ona qarşı olan mərhəməti aradan getdi.

Yuxarıda qeyd edildiyi kimi, böyük əmirləri Gilana göndərdilər. Xanəhmədi tutdular və Biyəh-pəs Gilanını dinin pənahı Şah [Təhmasibin] bacısı nəvəsi, hazırda qohumluq (kürəkənlik) şərəfi ilə başıuca olan Cəmşid xan İshaqvəndə və Kəskəri Əmirə Sasana verdilər. Xanəhmədi Qəhqəhə zindanına salıb, Azərbaycanın Mişkin tümənində həbs etdilər. Rüstəmdarın Nüvərində Kavbarənin yerdə qalan məliklərindən Məlik Kavus ibn Cahangir hökumət [başında] idi. O, 940 (23.VII.1533-12.VII.1534)-cı ildə vəfat etdi. Məlik Cahangir ibn Məlik Kavus vəliəhd olduğuna görə hakim oldu və qardaşı Bisütunla döyüşdə öldürüldü. Məlik Kəyumərs ibn Cahangir Nuvər qalasını zəbt edib, Bisütuna yol vermədi. Axırda onunla Bisütun arasında vuruşma oldu və Kəyumərs öldürüldü.

Məlik Bisütun ibn Cahangir hakimiyyət başına gəldi. İstədi bütün Rüstəmdarı zəbt etsin. 910 (14.VI.1504-3.VI.1505)-cu ildə Kəsvərin üstünə qoşun çəkdi. Qaladan başqa bütün vilayətləri istila etdi. Nəhayət, 913-cü ildə səfər [ayının] 26-da (7 iyun 1507) məst olarkən oynaşı olan və qohumları Məlik tərəfindən öldürülmüş bir arvadın əli ilə öldü (M-272b).

Məlik Məhəmməd ibn Məlik Bisütun varis olaraq hakimiyyətə sahib oldu. O, Lahıclı Xanəhmədin bacısını və Mir Əbdülkərim Mazandaraninin bacısını aldı. 43 il hakimiyyətdə oldu. 957 (20.I.1550-8.I.1551 )-ci ildə vəfat etdi.

Məlik Kəyumərs ibn Məlik Bəhmən vərəsə olaraq onun yerini tutdu və Allahın kölgəsi olan nəvvabi-kamyab Şah [Təhmasibin] nəzəri onun üstündədir.

Məlik Üveys ibn Məlik Kəstməz ibn Bisütun da Nüvərin bəzi vilayətlərində hakim idi və Xanəhmədin kürəkəni olmaqla fəxr edirdi.

Rüstəmdarın Kənvər [vilayətlərində] Məlik Əşrəf ibn Tacüddövlə hökumət [başına] gəlmişdi. Məlik Bisütun onun ölkəsinə qoşun çəkən vaxt, özündə müqavimət göstərməyə qüvvə görmədiyi üçün böyük oğlu Məlik Kavusu qalada qoyub, özü Gilana getdi. Məlik Bisütunun ölümündən sonra qayıtdı. Məlik Kavus ona itaət etmədi. O da [hökumətin idarəsini] ona əsirgəmədi. 921 (15.II.1515-4.II.1516)-ci ildə vəfat etdi.

Məlik Kavus ibn Məlik Əşrəf 950-ci (16.IV.1543- 24.III.1544) ildə oğlu Məlik Cahangirin qəsdi [nəticəsində] öldü. Ondan əvvəl Məlik İsgəndər atasının sağlığında lahıclı sultan Əhmədin qızından olan qardaşına qəsd etmişdi. O diyarın əhalisi ondan çəkinərək Məlik Kəyumərsi hakimiyyət başına qoymuşdular.

Kəyumərs ibn Məlik Kavus 18 ilə yaxın şahın fərmanı ilə həbsdə idi. Axırda Ağa Məhəmməd Ruzəfzunun yardımı ilə atasının yerinə oturdu. II zilqədə 963 (16 sentyabr 1556)-cü ildə vəfat etdi.

Məlik Cahangir ibn Məlik Kavus qardaşından sonra taxta çıxdı. İmam Rzanın müqəddəs, nurlu, gözəl behiştinin ziyarəti və duası ilə şərəfləndi. Bu bəndə [Əbdi bəy] onun dərgahında olarkən o, Kəçvərin və Məlik Bəhmən ibn Məlik Kəyumərs Laricanın hakimi idi. İndi Darülmərzdə çevrilişlər olub, [kim bilir] necə bir vəziyyət yaranacaq (M-273a).

Təbəristan nahiyəsinin Çəlaviyyə hakimləri:

Əfrasiyab Çəlavinin nəslindən [olan] Mir Hüseyn Kiya ibn Mir Əli türkmanların hakimiyyətinin axırında[466] üsyan edib Astara qalasını zəbt etdi. Cənnətməkan əlahəzrət xaqan Şah İsmayılla üsyan məqamına gəldi. 909 (26.VI.1503-13.VI.1504)-cu ildə məğlub olub məhv edildi. Bu sülalə onunla sona çatdı.

Mazandaranda Mərəşiyyə Qəvami seyidlərindən Mir Əbdülkərim[467] ibn Mir Abdulla Seyid Zeynalabidinin qardaşı Mir Şəmsəddinlə hakim idi. 930 (10.XI.1523-28.X.1524)-cu ildə vəfat etdi. Ondan sonra Mir Şahi[468] ibn Mir Əbülkərim hakimiyyət başına gəldi. Ağa Məhəmməd Ruzəfzun onu qovdu. [O], 939 (3.VIII.1532-22.VII.1524)-cü ildə Dəmavənddə Ağa Məhəmmədin mülazimi Müzəffər bəy Türkmanın əli ilə öldürüldü. Mir Abdulla[469] ibn Mir sultan Mahmud ibn Mir Əbdülkərim qəzanın dövranının fərmanı ilə Allahın kölgəsi nəvvabi-kamyab Şah [Təhmasibin] hakimiyyəti günlərində Ağa Məhəmmədlə hakimiyyətə şərik oldu. O, Ağa Məhəmmədin vəfatından sonra qeyd olunduğu kimi, Şah [Təhmasibin] hakimiyyəti zamanı şahlıq dövlətindən xanlıq vəzifəsi əldə etdi. 954, yaxud [95] 5- (21.II.1547-30.I.1549)-ci ildə bütün Mazandaranın valisi oldu. Son dərəcə zalım olduğu üçün ali hökmə əsasən vəzifəsindən çıxarıldı.

Mir sultan Murad xan[470] ibn Mir Şahi ibn Mir Əbdülkərim qəzanın cərəyanının fərmanı ilə Mazandaran taxtına çıxdı. Mir Abdulla 969-cu ildə cümadiəl-əvvəl [ayının] 11-ci gecəsi (17 yanvar 1562) özünü dünyanın pənahı [Şah Təhmasibin] dərgahına çatdırıb, Mazandaranın təyin edilmiş vergisini ali divana göndərməsini öhdəsinə götürdü. Buna görə qeyd olunan vergini toplamaq Burun sultanın nəvəsi Əlixan bəy Təkəluya tapşırıldı.

Mir Abdulla Cacrud çayında Təkəludan qaçdı və yenə tutuldu. Zərurət üzündən onu Övladi-kilis qalasında həbs etdilər. Bu zaman bir dəstə adam (M-273b) öz qohumlarının qanının qisası olaraq onu öldürdülər. Hazırda Mazandaranda sultan Murad xan hakimdir.

Mir Əbdülkərim ibn Mir Abdulla bir-iki il ali fərmana əsasən Əmir Murad xanla [hakimiyyəti idarə etməkdə] şərik idi. Əməlləri nəvvabi-kamyab [Şah Təhmasibin] xasiyyətinə uyğun gəlmədiyinə görə onu vəzifəsindən çıxarıb Qəzvinə gətirdilər. O, tiryək[471] atıb, 972-ci ilin şəvval ayında cümə [günü] (may 1565) vəfat etdi.

Ruzəfzuniyyə tayfasından Ağa Rüstəm hökumət işlərində Mir Əbdülkərim ibn Mir Abdulla ibn Mir Əbdülkərim ibn Seyid Məhəmmədlə şərik idi. O vaxtlar özbək Şeybə (Şeybani) xan Xorasana əl uzatmışdı. Ağa Rüstəmin ürəyindən keçirdi ki, bundan sonra bizim əlimiz, Şeybə xanın ətəyi [olacaq]. Buna görə cənnətməkan Şah [İsmayıl] 916 - (10.IV.1510-30.III.1511)-cı ildə özbəklərə qalib gəldikdə, Şeybə xanı öldürdü. Əllərini [kəsib] Mazandarana göndərməklə Ağa Rüstəmin ətəyinə od atdı. O, bu kinayədən özünə qarşı olan şahlıq qəzəbini başa düşdü və bir neçə gündən sonra vəfat etdi.[472]

Ağa Məhəmməd ibn Ağa Rüstəm atasından sonra Mir Əbdülkərimlə birlikdə bitikçi Xacə Müzəffərin yol yoldaşlığı ilə Simnan ətrafında əlahəzrət, mərhəmət dəsgahlı Şah [İsmayılın] dərgahına yetişdilər. Ali divanda hər iki hakimin vergisini 30 min Təbriz tüməni miqdarında müəyyənləşdirdilər və [onlar] birlikdə qayıtdılar. [Vergini] ödəməkdə idilər. Ağa Məhəmməd bir müddət öz hissəsinin hakimi idi (yəni vergi vermirdi). 928 - (1.XI.1521-19.XI.1522)-ci ildə hökmə əsasən tutulub, Lori qalasında həbs edildi[473] və Allahın kölgəsi olan nəvvabi-kamyab [Şah Təhmasibin] hakimiyyətinin əvvəlində həbsdən xilas oldu. O, yenə Əmir Əbdülkərimə şərik idi. Sonra qüdrətləndi və 954 (21.II.1547-10.II.1548)-cü ildə vəfat etdi. Onun oğul nəvəsi Ağa Söhrab əl-ayağa düşdü. Ancaq yerinə keçə bilmədi və o nəslin hakimiyyəti aradan getdi (M-274a).

Xuzistanın parlayan seyidləri haqqında məlumat. Seyid Məhəmməd ibn Seyid Fəllah ibn Həsən ibn Elməddin Əliyyül Mürtəza ibn Seyid Əbdülhəmid Nəssabə ibn Əbi Əli Fəxxar ibn Məd ibn Fəxxar ibn Əhməd ibn Əbi əl-Ğənayim Məhəmməd ibn Əbi Abdulla Hüseyn Şəti ibn Məhəmməd əl-Hayiri ibn İbrahim əl-Məhab ibn Məhəmməd Saleh əl-Abidin ibn İmam Musa əl-Kazim - ona Allahın duası və salamı olsun - ondan sonra anadan olmuşdu. Rəhmətlik Şeyx Əhməd ibn Fəhdin şagirdi idi. Deyirlər ki, cənab Şeyx vəfat edərkən qəribə elmlərə aid cəm etdiyi kitabı ixtisar [halında] öz xidmətçilərindən birinə verib, vəsiyyət edir ki, onu Fərat çayına atsın. Seyid Məhəmməd ibn Fəllah onu (kitabı) hiylə ilə xidmətçidən alıb, o kitab vasitəsilə qəribə işlər gördü. Ərəbin sadə [adamlarını] öz müridi edib, səhv bir etiqad yaratdı. O camaatın sədası ətrafa yayıldı və qəribə günah işlər baş verdi. Belə ki, iti qılıncı öz qarnına soxub, onu əyirdi, ancaq bədəni ağrı hiss etmirdi. Başqa təəccüblü işlər də görürdü. Onun işi gündən-günə tərəqqi edərək bütün Həvizə, Dizful və Şüştərə yayıldı.

Molla Əli atası Seyid Məhəmməddən sonra o camaatın başçısı oldu. Onların etiqadı buna idi ki, Ruhuləmin[474] onda Hülul[475] edib yaşayır. Molla Əli Əcəm İraqına hücum edib, müqəddəs məqbərələri qarət etdi. Ətabati-aliyyatda son dərəcə böyük ədəbsizlik etdi. Axırda Kuh Giləvədə türklərin əli ilə öldürüldü. Qardaşı Seyid Möhsün ondan sonra taxta çıxdı. Doğru yoldan azanların başçıları küçədə və bazarda «Nə oruc, nə namaz, nə həcc və nə də zəkat lazımdır» deyib (M-274b), təkrar edirdilər. Ondan sonra Seyid Möhsünün oğlanları Seyid Əyyub və Seyid Əli həmin camaatın başçısı olub son dərəcə qüvvətləndilər. Onların etiqadının fəsadı cənnətməkan Şah [İsmayılın] cah-cəlallı qulağına çatdı. Bağdad yürüşündə o tərəfə hərəkət edib, Həvizəni və başqa vilayətləri istila etdi. Onlar çarəsizlikdən şaha xidmət etməyə gəldilər. Hər iki qardaş o tayfanın əyanları ilə 914 (2.V. 1505-20.IV.1506)-cü ildə qətl edildilər. İslam dini ehkamları o diyarda bərqərar oldu.

Seyid Fəllah ibn seyid Möhsun atasının yerini tutdu. Seyid Bədran ibn Seyid Fəllah atasından sonra canişin oldu. O, Allahın kölgəsi nəvvabi-kamyab Şah [Təhmasibin] sərəncam və qadağanlarına itaət edirdi. Ondan sonra Molla Səccad

ibn Seyid Bədran hakim oldu. Hal-hazırda Şüştər və Dizful dinin pənahı şahın ali divanına daxildir. Ancaq o nahiyənin Hüveyzə və Ərəbistan [vilayətləri] Seyid Bədranın əlindədir. Şahın fərmanına zidd getməkdən qorxsa da, adamları Dizful və Şüştəri sakit qoymurlar. Çox vaxt qarət və talan edirlər.

Rənaşiyyə tayfası haqqında məlumat. Rənaş Dizfulun bir kəndidir. Hadisələrin başlanğıcında Şeyx Məhəmməd ibn Mövlana Qəvaməddin Seyid Möhsünün uşaqlarının müəllimi idi. Şeyx Məhəmməd Dizfulun əmiri və Hacı Məhəmməd Şüştərin hakimi oldu. Nəhayət, Hacı Məhəmməd qardaşı oğlu Xəlilüllahın əli ilə öldürüldü.

Xəlilüllah ibn Şeyx Məhəmməd əmisinin qətlindən sonra hakimiyyət başına gəldi. Onunla Bədran arasında dəfələrlə mübahisə oldu. Dünyanın pənahı [Şah İsmayılın] dərgahına xərac göndərməkdə kahallıq etdiyinə görə əlahəzrət cənnətməkan xaqan Kuhgiləvə əmirlərini Seyid Bədran və Fəzlin ordusu ilə onu dəf etməyə göndərdi (M-275a). Onlar bir müddət Dizfulu mühasirə etdilər. Behişt dəsgahlı şahın ölüm xəbərini eşitdikdə, mühabirədən əl çəkdilər. Xəlilüllah vəfat etdikdə, oğlu Əlaüddövlə onun yerini tutdu.

Allahın kölgəsi asiman üzəngili nəvvabi-kamyab Şah [Təhmasibin] hüzuruna ərz etdilər ki, o, din və dövlət düşmənləri ilə dilbirdir.

Nəhayət, pələng ilində 949 (17.IV. 1542-5.IV.1543)-cu ildə qələbə ayəli bayraqlar (Şah Təhmasib) Dizfula gəldi, oranı ondan aldı. Əlaüddövlə qaçıb Bağdada getdi və bir daha Dizfulun üzünü görmədi.

Loristanda Şah Rüstəm Abbasi hökumət başında idi. Cənnətməkan Şah [İsmayılın] xidmətinə gəlib, hakimiyyətini möhkəmləndirdi. Ondan sonra Uğur ibn Şah Rüstəm hakim oldu. 940 (23.VII.1533 - 12.VII.1534)-cı ildə allahın kölgəsi əlahəzrət Şah [Təhmasibin] zəfərli dəstəsi ilə Xorasana yürüş etdi. Özünün kiçik qardaşı Cahangiri öz vəkili kimi tayfanın içərisində qoydu. Cahangir onun (Uğurun) olmamasından istifadə edərək ona qarşı çıxdı. Uğur Xorasandan qayıdan vaxt şahın icazəsi ilə ulusuna döndü. Nəhavəndin ətrafına çatdıqda, adamlardan bəziləri ona qoşuldu. Böyüklər və başçılar Cahangirlə idilər. Dava oldu və Uğur tutulub öldürüldü. Cahangir hökumətin idarəsində müstəqil oldu və ali divandan sultan ləqəbi aldı.

Şah Təhmasib 949 (17.IV.1542-5.IV.1543)-cu ildə Dizfula yürüş etdikdə, Cahangir ali əmrə əsasən öldürüldü. Ondan sonra oğlanları Şah Rüstəm və Məhəmmədi iş başına gəldilər. Məhəmmədi bir müddətdən sonra qəzavü-qədərin fərmanı ilə tutulub, Ələmut qalasında həbs edildi. [İndi] Şah Rüstəm tayfanın başçısıdır. Nəvvabi-kamyab [Şah Təhmasib] ona nəzərini salaraq xan ləqəbi verməklə aləmlərin şahzadə xanımı Şəhrəbanu xanımın ləlæliyini də ona tapşırdı. (M-275b)

Lar sultanlarından: Əmir Harun ibn Əlaülmülk taxtda idi. 927-ci ildə (12.XI.1520-30.XI.1521) vəfat etdi. Məhəmməd bəy ibn Əlaülmülk padşah oldu. Əlahəzrət nəvvabi-kamyab [Şah Təhmasibin] taxta oturduğu 930-cu ilin şəvval

[ayında] (2.VIII.1524 - 30.VIII.1524) öldürüldü. Adil şah kimi məşhur olub muğamlardakı şer və təsniflərdəki, qayda və icra etməni nizama salan Əmir Nuşirəvan ibn Əmir Əbusəid ibn Əlaülmülk padşah oldu. O, 948-ci ildə cümə [günü] səfər [ayının] 29-da (24 may 1541) məsciddən çıxarkən naməlum bir şəxsin əli ilə öldürüldü. Ondan sonra danin pənahı Şah [Təhmasibin] göstərişinə əsasən İbrahim xan ləqəbi və divan əmiri vəzifəsinə mənsub olan Əmir İbrahim ibn Məhəmməd bəy padşah oldu. Hal-hazırda taxtda o [oturubdur].

Hörmüz sultanlarından: əvvəlki səhifədə[476] demişdik ki, Sulğərşah ibn Şəhabəddin padşahdır. Hakimiyyət ondan Turanşah ibn Sulğərşaha çatdı. Ondan sonra [hakimiyyət] Sulğərşah ibn Turanşaha [keçdi]. Onun vaxtında Firəng Hörmüzünün tərkibinə daxil olan Bərcərunu istila etdi. Turanşah ibn Sulğərşah atasının yerinə [taxta] oturdu. Firəng hakimləri [ölkəni] tamam istila etdiklərinə görə səltənətin adından başqa Turanşaha bir şey qalmadı. Nəhayət, o, 971-ci ildə zilqədə [ayının] 10-da düşənbə [günü] (20 iyun 1564) öz əcəli ilə vəfat etdi. Onun əmisi oğlanlarından Məhəmmədşah ibn Firuzşah onun yerinə [taxta] oturdu və 972-ci ildə (9.VIII.1564-28.VII.1565) vəfat etdi. Hal-hazırda Fərruxşah ibn Məhəmmədşah onun yerindədir.

Kürəkani sultanlarından[477] Xorasanda Sultan Hüseyn mirzə padşah idi. Axırda iflis fəlakətinə düçar oldu. Övladları ona lazımınca itaət etmirdilər. Bu əsnada özbək Şeybə (Şeybani) xanın Xorasana gəlməsi xəbəri çatdı. O, (Sultan Hüseyn mirzə Bayqara) müdafiə olunmaq üçün qoşun toplayıb (M-276a) yola düşdü. Bağdizin düşərgələrindən Babaallahi düşərgəsinə çatdıqda, 911-ci il zilhiccə [ayının] 15-də (9 may 1506) günbatana yaxın o vəfat etdi.[478] Onun oğlanları Bədiüzzaman və Müzəffər Hüseyn əmirlərin məsləhətinə əsasən taxta oturdular. Bu düz olmayan məsləhətdən fitnələr törəndi və çaxnaşma düşdü. Müzəffərhüseynin böyük qardaşları ona tabe olmadılar. Şeybə (Şeybani) xan fürsət tapıb Xorasana qoşun çəkdi. Qardaşlar qoşunlarını toplayıb müdafiəyə başladılar. Maral yaylağında iki ordu arasında döyüş oldu. Görkəmli şəxsiyyət olan Əmir Zunnun öldürüldü. Qardaşlar 913 (13.V.1507-1.V.1508)-cü ildə biabırçı bir halda qaçmağa başladılar. Müzəffərhüseyn Astarabada getdi və həmin ildə vəfat etdi. Bədiüzzaman mirzə [isə] Qəndəhar valisi Şüca bəy ibn Zunnun Ərğunun haqqını qaytaracağı (yəni kömək edəcəyi) ümidi ilə o ölkəyə gedir. Ondan vəfasızlıq nişanələri gördüyü üçün qayıdıb Astarabada gəlir. Az bir vaxtdan sonra Şeybə (Şeybani) xanın yaxınlaşması ilə əlaqədar olaraq Astarabaddan əlahəzrət cənnətməkan Şah [İsmayılın] hüzuruna gəlib, [onun] göstərişinə əsasən Təbrizin Şənbi-Qazan [məhəlləsində] sakin oldu. Bu əsnada Xorasan ali divanın (yəni Səfəvi dövlətinin) dairəsinə daxil edildi. Şeybə (Şeybani) xan öldürüldü.[479] Bədiüzzaman Təbrizdə sakin idi. Sultan Səlim 920 (26.II.1514-14.II.1515)-ci ildə Təbrizə gəldi.[480] Onu Təbrizdən özü ilə birlikdə Ruma apardı. Dörd aydan sonra orada taun xəstəliyindən öldü.

Məhəmmədzaman ibn Bədiüzzaman cənnətməkan Şah [İsmayılın] dərgahına gəlmişdi. Qələbə ayəli bayraqlar (Şah İsmayıl) Səlimi dəf etməyə gedərkən, o, ali ordunun əksinə olaraq Astarabada getdi. Çığatay ordusunun qalıqları onun ətrafına toplaşdılar.

Bitikci Xacə Müzəffər (M-276b) Burun sultan və başqa Xorasan əmirləri birlikdə onun üstünə gəldilər. 920-ci il ramazan ayının 16-da şənbə [gününün] səhəri (4 noyabr 1514) o məğlubiyyətə uğrayaraq Əbivərd çölü ilə Ğərsistana getdi. Oranın hakimi Əmir Orduşahla birləşərək, Bəlxə yönəldi. O vaxt Div sultan Əmir Məhəmməd Baharlunu öz naibi kimi yerində qoymuşdu. Məhəmmədzaman 922-ci il rəbiül-axır [ayının] 3-də düşənbə [günü] (6 may 1516) oranı tutdu. Ondan sonra onunla Orduşah arasında çəkişmə oldu. Orduşah Məhəmmədzamanı [oradan] çıxardı. Axırda peşman oldu. Hiyləgərcəsinə əhd-peyman etdilər. Məhəmmədzaman mirzəni şəhərə gətirən zaman [rəbiül-axır] ayının çərşənbə günü idi. Məhəmmədzamanın nökərləri onun işarəsi ilə Orduşahı öldürdülər. Orduşahın qardaşı Qəvam bəy Bəlxi zəbt edib Babur padşaha verdi. Məhəmmədzaman Bəlxin darğası olan Baburun yaxın adamı İbrahimin əli ilə tutuldu. Onu Babur padşahın yanına Kabilə apardılar. Babur padşah Məmmədzamanı himayə edib öz qızını Bəlxin hakimliyi ilə ona verdi. O, 929-cu ilə qədər (20.XI.1522-9.XI.1523) oranın valisi oldu. Hakimiyyət onun əlindən gedəndən sonra o, Məhəmməd Humayun ibn Babur padşahın himayəsi altında idi. Əfqan Şirxan Məhəmməd Humayun padşahla müharibə zamanı Qanq çayında boğuldu. O xanədanın işığı onunla söndü (yəni o sülalə onunla sona yetdi).

Mirzə Məsud ibn Mirzə Sultan Mahmud ibn Sultan Əbusəid atasından sonra Qunduz qalası və Yəqlanın hakimi oldu. Əmir Xosrovşah Baysunqur mirzə ibn Sultan Mahmuda vilayət hakimliyi vəzifəsi verdi. Məsud 903-cü ildə (30.VIII.1497-18.VIII.1498) 500 [nəfər] süvari ilə Sultan Hüseyn mirzəyə qoşuldu. Sultan Hüseyn oğlu Bədiüzzamanla döyüşdə olduğu üçün Məsudun gəlişini xoşbəxtlik (M-277a) hesab edib, oğluna qalib gəldi. [Sultan Hüseyn] onu himayə etdi və öz qızını ona [ərə] verdi. Bundan başqa ona (Məsuda) qoşun verib, öz yerinə göndərdi.

Əmir Xosrovşah hiylə işlədərək ona xoş sözlər göndərdi və Sultan Hüseyn mirzənin əmirlərindən üzr istəyib, Geri qayıtdı. Özü çəkinərək, Xosrovşaha qoşuldu. Xosrovşah onu tutub [gözlərinə] mil çəkdi. Ondan sonra Mirzə Baysunqura da qəsd etdi. Başına səltənət havası düşdü. İkinci səhifədə (yarım fəsildə) Baysunqur və Sultanəlidən bəhs edildiyi kimi, öldürüldü. Təkrara ehtiyac yoxdur.

Mirzə Uluğ bəy ibn Sultan Əbusəid atasının buyruğu ilə Kabil hökumətini idarə edirdi. Atasından sonra taxta çıxdı və 907-ci ildə (17.VII.1507-6.VI.1502) vəfat etdi.

Əbdürrəzzaq ibn Uluğ bəy atasının yerini tutdu. Lakin uşaq olduğuna görə hakimiyyəti əldə saxlaya bilmədi. Əmir Zünnun Ərğunun kiçik oğlu

Məhəmmədmüqim oraya qoşun çəkdi və Əbdürrəzzaq 908-ci ilin axırlarında (7.VI.1502-25.VI.1503) Kabildən qaçdı. Hakimiyyət Ərğunilərin əlinə keçdi.

Ömər Şeyx ibn Sultan Əbusəid atasının sağlığında Fərqanənin valisi idi. Atasından sonra səltənətin idarəsinə çalışdı. Daima qayınatası moğol Yunis xanın ölkəsinə və öz qardaşları Sultan Əhməd və Sultan Mahmuda məxsus vilayətlərə basqın edirdi. 899-cu il ramazan ayının 14-də (8 iyun 1494) düşənbə [günü] damdan yıxılıb öldü. Onun üç oğlu var idi: Məhəmməd Babur, Mirzə Cahangir və Mirzə Nəsir.

Məhəmməd Babur padşah atasından sonra onun yerinə keçib Türküstan sərhəddinin bəzi qalalarını işğal etdi. 902-ci ildə (9.IX.1496-29.VIII.1497) Səmərqəndi Baysunqur ibn Sultan Mahmud ibn Sultan Əbusəiddən aldı. Sonra Baysunqur güc gəlib, Səmərqəndi yenidən ələ keçirdi. Məhəmməd Babur Əndicanda baş kirləyirdi. Şeybə xan Sultanəli mirzəyə gələk gəlib Səmərqəndi işğal etdi və özbəklər oranı ələ keçirdilər.

Xacə Əbülməkarim bir keçə Məhəmməd Baburun [yanına] adam göndərib onu (M-277b) şəhərin kənarına gətirtdi. Şeybə xan Kanikil çəmənində olduğuna görə Səmərqəndi tutmağa qüdrəti yox idi. Türküstana getdi.

Səmərqənddə qəhətlik oldu. Şeybə xan qoşun və adam toplayıb geri qayıtdı. Məhəmməd Babur Səmərqənddə dayana bilməyib, Daşkəndə getdi. O məmləkət Babura qarşı üsyan etmiş Sultan Əhməd Tənbəlin qəddar müxalifəti nəticəsində özbəklərin əlinə keçdi. Məhəmməd Babur padşah Daşkənddən Termezə getdi. 910-cu ildə (14.VI.1504-3.VI.1505) Kabili tutmaq üçün yola düşdü və oranı Ərğunilərin əlindən aldı.

Daha sonra əlahəzrət xaqan Şah İsmayıl Səfəvinin zamanında - 917 (31.III.1511-18.III.1512)-ci ildə Şeybə xan öldürüldükdən sonra Məvəraünnəhri işğal etməyə gəldi. Əmisi oğlu Xanmirzə də Bədəxşan qoşunu ilə ona qoşuldu. Rəxş çayının kənarında özbəklərlə vuruşdular. O, özbəklərə qələbə çaldı. Həmzə Sultan və Mehdi Sultan öldürüldülər. O, Hisar, Qunduz və Bəqlanı istila etdi.

Şahrux xan Əfşar və Əhməd Sultan Sufi oğlu Ustaclu cənnətməkan Şah [İsmayılın] hökmünə əsasən onun köməyinə gəldiklərinə görə o, Səmərqənd və Buxaranı da tutdu. Özbəklər səhraya getdilər. Şah [İsmayılın] əmirləri geri döndükdən sonra özbək Sultanları qayıtdılar.

918 (19.III.1512-8.III.1513)-ci ildə Məhəmməd Babur padşah cənnətməkan Şah İsmayılın göndərdiyi Əmir Nəcm Sani Xuzani İsfahani ilə birlikdə Buxara ətrafında özbəklərlə vuruşdu, məğlubiyyətə uğradı. Məvəraünnəhr yenidən özbəklərin əlinə keçdi. Ona (Babura) bir daha oranı tutmaq nəsib olmadı.

928-ci ilin cümadiəl-axır ayında (may 1522) Qəndəharı Şüca bəy Ərğunidən aldı. Zəmin-Davəri də işğal etdi. Qəndəhardan Bihara qədər [olan yerlər] onun tərəfindən işğal edildi.

[Babur] 937-ci ildə (25.VIII.1530 - 14.VIII.1531) vəfat etdi.[481]

Məhəmməd Humayun padşah ibn Məhəmməd Babur[482] 926-cı ildə (23.XII.1519 - 11.XII.1520) Xanmirzə öləndən sonra Bədəxşanın valisi oldu. Atasının vəfatından sonra taxta çıxdı. Qardaşları, xüsusilə Kamran onunla çəkişməyə başladı. Nəticəsi belə oldu:

Əfqan Şirxan Hindistanı tutmaq fikrinə düşüb iki dəfə Məhəmməd Humayun padşahla müharibə etdi. Axırıncı dəfə Məhəmməd Humayun məğlub oldu. Hindistan onun əlindən çıxdı. Məhəmməd Humayun padşah Hindistandan Qəndəhar və Kabil sərhəddinə gəldi ki, qardaşlarından yardım alsın. Qardaşı Kamran onun yolunun üstünü kəsdi. [Humayun] məğlubiyyət ardınca məğlubiyyətə uğradı. O, 952-ci ildə (15.III.1545 - 13.III.1546) özünü birtəhər Xorasana və Xorasandan İraqa, dünyanın pənahı [Şah Təhmasibin] dərgahına çatdırdı. Xaqanların müraciət etdiyi, Sultanların pənahı, Allahın kölgəsi nəvvabi-kamyab Şah [Təhmasib] onun inkişafı və qüvvətlənməsi üçün böyük səy göstərdi. Ona çoxlu qızıl, at, dəvə, hədsiz-hesabsız silah və qoşununa yaraq və [yaraq] ehtiyatı verib, böyük əmir və Qızılbaş qoşunu ilə birlikdə öz yerinə göndərdi. Onlar əvvəlcə Qəndəhara Kamranın üstünə getdilər.

Dəfələrlə onunla (Humayunla) qardaşları bir-birilə müttəfiq olan Qəndəhar hakimi Kamran və Kabilin valisi Əsgəri - arasında vuruşma və qırğın oldu. Müttəfiqlər bir-iki dəfə qalib gəlsələr də, nəhayət, 952-ci ildə (15.III.1545 - 3.III.1546) Məhəmməd Humayun padşah zəfər qazandı. Qardaşlarını ələ keçirdi. Kamranın [gözlərinə] mil çəkdi. Başqalarını da özünə tabe etdi. Hindistana qoşun çəkdi və 962-ci ildə şaban (ayının) 8-də çərşənbə [günü] (28 iyun 1555) oranın paytaxtı Dehlini işğal etdi. İstiqlaliyyət qazanıb (M-278b) əvvəllərdə olduğu kimi, hakimiyyətini ələ aldı. Həmin o ildə də qəsrin damından yıxılıb vəfat etdi. Şairlərdən biri bir qitəni onun tarixi kimi nəzmə çəkdi:

## QİTƏ

«Heç kəsin yadına məna mülkünün padşahı
Humayun kimi bir şahlar şahı gəlmir.
Birdən qəsrin damından yıxıldı,
Buna görə həyatının xırmanı bərbad oldu.
Tarixini ağıldan soruşdum, dedi:
Humayun padşah öz bam oftad»
(Humayun padşah damdan yıxıldı).[483]

Kamran ibn Məhəmməd Babur qardaşı [Humayun] məğlub olduqdan sonra bir müddət hakimiyyəti öz əlinə almışdı. Humayun padşah Allahın kölgəsi nəvvabi-kamyab Şah [Təhmasibin] yardımı ilə qüvvətləndikdən sonra bir neçə dəfə Kamranı ələ keçirdi. Qardaşı olduğuna görə rəhm edib öldürmədi. Nəhayət, sonuncu dəfə ələ keçdikdə ziddiyyəti həddən aşdığına görə və etdiyi

günahlarına cavab olaraq (gözlərinə) mil çəkdirdi. Sonralar o, Məkkeyi-müəzziməyə gedib, orada ibadətlə məşğul oldu. 964-cü ilin zilhiccə [ayında] (25.IX.1557-23.X.1557) vəfat etdi. Səlaləddin Məhəmməd Əkbər padşah ibn Məhəmməd Humayun padşah[484] atasından sonra ali cəlallı padşah oldu. Miras qalmış ölkəni öz hakimiyyəti altına aldı. Həmu adlı bir kafir ona qarşı çıxdı. Onun Ləhavərd və başqa vilayətlərinə əl uzatdı. 964-cü ildə məhərrəm [ayının] 2-də cümə [günü] (5 noyabr 1556) onların arasında dəhşətli qırğın oldu. Məzkur Həmu hədsiz-hesabsız malla Məhəmməd Əkbər padşahın və qoşununun əlinə keçdi. Məzkur [Əkbər] padşah öz əli ilə Həmunun boynunu vurdu. Buna görə onun ləqəblərinə ğazi [sözü artırdılar].

966-cı ilin cümadiəs-sani [ayında] (11.III - 8.IV.1559) o sülalənin bütün hakimiyyətini ələ almış və padşahın yanında adından başqa bir şeyi olmayan Şəkər Türkmanın oğlu Bayram xan Baharlu[485] vəzifədən çıxarıldı. [O], bir müddətdən sonra həccə yola düşdü. Kocaratda kafirlərin əli ilə öldürüldü. Məhəmməd Əkbər padşah ğazi sərbəst oldu və indi hakimiyyət başındadır.

Süleyman şah (M-279a) mirzə ibn Yadigar Nasir ibn Nasir mirzə ibn Ömər Şeyx Əbusəid öz əmisi Məhəmməd Babur padşahın fərmanı ilə Bədəxşanın valisi idi. Son dərəcə əxlaqlı və sufi təbiətli Süleyman şahla 966-cı ildə (14.X.1558-2.X.1559) özbək sultanlarından Bəlx valisi Pir Məhəmməd xan ibn Canibəy arasında Dərkəzdə müharibə oldu. İkid oğlu Məhəmməd İbrahim Bəlxin adamları tərəfindən əsir alındı. Onu Pir Məhəmməd xanın yanına apardılar. Çehrə Qərqərin[486] səyi ilə 22 yaşında öldürüldü. Süleyman şah bu rübaini oğlunun təziyəsindəki mərsiyəsində demişdir:

«Ey Bədəxşan ləli Bədəxşandan getdin,
Parlaq Gunəş kimi getdin,
Həyatda Süleymanın üzüyü kimi idin,
Əfsus ki, Süleymanın əlindən getdin».

Ancaq o müharibədə Süleyman şah qalibiyyət qazandı və Pir Məhəmməd xanın əli Bədəxşana çatmadı. Süleyman şah 971-ci (21.VIII.1563 - 8.VIII.1564) ildə Kabilə qoşun çəkib, oranı işğal etdi. Lakin hakimiyyəti Məhəmmədhəkim mirzə ibn Məhəmməd Humayun şaha verdi.

Allahın yardımı və xoşbəxtliklə üçüncü babın (hissənin) ikinci məqaləsi (fəsli) tamamlandı.

Mərhəmətli Allahın yardımı ilə türk və Türküstan xaqanları haqqında məlumat.

Birinci məqalədə Türküstan xaqanlarının hekayətini Qəbəl xanın padşah olmasına qədər çatdırmışdıq ki, moğolların Ələncik, yəni rəiyyətin qeydinə qalan adlandırdıqları o [Qəbəl xan], vəfat etdikdə, Qubilə ibn Qəbəl xan vərəsəlik qanununa əsasən padşah oldu. O, son dərəcə qüvvətli və şücaətli idi. Səs-sorağı o

dərəcəyə çatmışdı ki, yeddi arxadan keçmişdi. Onun pəncəsi ayı pəncəsinə oxşayırdı. Özündən gücsüzlərə əl tutardı. Tiri o qədər əyərdi ki, axırda sındırardı. Qış gecələrində odunlara od vurar və onun kənarında çılpaq yatardı. Həmin oddan qorlar onun bədəninə düşər (M-279b) və yandırardı. O, bunu heç vecinə almazdı, elə bilərdi ki, onu bit dişləyib. Əndamını qaşıyıb yenə yuxuya gedərdi. Onun vəfatından sonra Pərtan Bahadır ibn Qubələ moğolların başçısı oldu. Onun vaxtında əmisi Qaçuli[487] vəfat etdi. Onun Bərlas adlandırılan oğlu İrdəmçi Əmir Teymurun (Teymurləngin) Bərlas qəbiləsi və oymağından olduğu məşhurdur - atasının əvəzinə əmirlərin başçısı oldu. Pərtandan sonra Bəsuka[488] bahadır ibn Pərtan bahadır padşahlıq (taxtına) oturdu. O, Çingiz xanın atasıdır. Pələng ilinə müvafiq olan 502-ci ilin rəbiül-əvvəl [ayında]. (9.X.1108 - 7.XI.1108) öldü. O günlərdə Teymurun ulu babası olan Suğənçən ibn İrdəmçi də vəfat etdi. Bəsukadan sonra Çingiz xan hakimiyyətə gəldi. Çingiz xan ibn Bəsuka bahadır donuz ilində (1155) (müvafiq) 549-cu ilin zilqədə [ayının] 8-də (14 yanvar 1155) Moğolustanın Mulun Yulduqunda anadan olmuşdur.[489] Anadan olarkən ovucunda qan donmuşdu. Atası o ildə Tartarın hakimi Temuçinə qalib gəldiyi üçün ona Temuçin[490] adı qoydu. O, 13 yaşında ikən atadan [yetim] qaldı. Tərəfdarları dağılışdılar. Kərait oymağının padşahı Avəng xanla birləşdi. Onların arasında ciddi sədaqət vardı. Düşmənlər onların arasında ziddiyyət yaratdılar. İt ilinə (1202) mütabib olan 598-ci ildə (1.X.1201 - 19.IX.1202) Avəng xan ona qəsd etmək istədi. Çingiz xan onun qəsdindən xəbər tutub, camaatı başına toplayaraq Urnək hakimi olan Avənglə müharibə etdi və qalib gəldi. Donuz ili (1203) olan o biri il yenidən onların arasında çar-pışma oldu və Avəng öldürüldü. O, taxta çıxdı və Çingiz xan, yəni xaqanlar xaqanı ləqəbi aldı. Az bir müddətdə bütün moğol[191] və tatar oymaqlarının hakimi oldu. Xəta və Curcə vilayətlərini də tutdu.

Tacirlərin qətl və qarət olunması onunla Xarəzmşah Qütbəddin arasında kin və küdurətə səbəb oldu.[492] Dovşan ilinə (1218) [müvafiq olan] (M-280a) 615-ci ildə (30.III.1218 - 18.III.1219) Əcəm ölkəsinə yürüşə başladı və təxminən 6 ildən bir qədər az müddət ərzində bütün Türküstan, İran, Qıpçaq və Alanda qələbə qazanıb, Xarəzmşahın üstünə düşdü. Ölkədə ümumi qətllər edib, özünü möhkəmləndirdi. Hələ aram tapmamış Maçinə[493] hücum etməyə səbəb yarandı. Maçin padşahı Şidurqi xanı 30 min süvarisi ilə öldürdü və həmin səfərdə - 624-cü ilin ramazan ayında (15, VIII - 13.IX. 1227) fərman verdi. Çünki 75 yaşı və dörd adlı-sanlı oğlu vardı. Hər birinə müəyyən yer ayırıb, onlara el və oymaq bağışladı. Ədalət və səxavətdə başqa qardaşlarından seçilən ortancıl oğlu Oktayı (Uqedeyi) vəliəhd etdi.[493a] Onun övladları Ture deyilən qanuna əsasən ölkəni idarə edirdilər.

Oktay qaan (Uqedey) ibn Çingiz xan vəliəhdlik qanununa əsasən atasının vəfatından 2 il sonra 626-cı ilin rəbiul-əvvəl ayında (28.I - 26.II.1226) taxta çıxdı və qaan ləqəbi aldı. Ədalət və insafı əsas tutdu, Pələng ilinə [1232, müvafiq] 629-

cu ildə (29.X.1231-17.X.1232) Xəta [ölkəsinə] yürüş etdi. 631-ci ildə (7.X.1233—25.IX.1234) o ölkəni bütünlüklə işğal etdi və qoşunu İrana gəldi.

Oktay qaan Xarəzmşah Sultan Cəlaləddin Mənkibornini[494] qovdu. Nəhayət, pələng ilində (1241) cümadiəl-axır 639-cu ildə (11 dekabr 1241) vəfat etdi. Kuyuk xan ibn Oktay 4 ildən sonra Aqavini ilə birləşib at ilində (1254), 643-cü ilin rəbiül-axır [ayında] (26.VIII - 23.IX. 1245) xanlıq taxtına oturdu. O, nəsari (xristian) dinini qəbul etdi. Onun dövründə hakimiyyəti rahiblər qazandılar və müsəlmanlara güc gəldilər. [Kuyuk xan] axırda vərəm xəstəliyinə tutuldu. Ab-havasını dəyişmək üçün Səmərqəndə yönəldi. Bir həftədən [sonra] Xanbalıq[495] yolunun qabağında 644-cü ildə (19.V.1246 - 7.V.1247) öldü.

Mənku qaan[496] ibn (M-280b) Tuli ibn Çingiz xan əmisi oğlundan sonra anasının tədbiri və o vaxqlar sülalənin başçısı olan Batu ibn Cucinin yardımı ilə 648-ci ilin rəbiül-əvvəl [ayında] (3.VI - 2.VII.1250) taxta oturdu. Oktayın bəzi oğlanları və nəvələri ona qarşı çıxdılar və məğlub oldular. Heç kimdə əks çıxmağa qüvvə qalmadı. O, istiqlaliyyət qazandı. Cahangirlik fikrinə düşüb, Qubilay [adlı] bir qardaşını Şərqə və Xəta ölkəsinə göndərdi. Başqa qardaşı Hülakü xanı qərbə - İran torpağına yola saldı. Onun İrandakı fəaliyyəti Elxanilərdən[497] bəhs edilərkən qeyd olunmuşdur.

Qubilay qaan şərq tərəfdə Cahangirliklə məşğul idi. 653-cü ildə (10.II.1255-29.I.1256) Mənku qaan Biktaş və Qaştin adı ilə də məşhur olan Maçinə yürüş etdikdə Qubilay ordu ilə onunla birləşdi və ölkələr tutmağa başladılar. Mənku qaan 655-ci ilin məhərrəm [ayında] (19.I - 17.II.1257) Duli Məsamək qalası altında vəfat etdi. Ondan sonra moğollar arasında ixtilaf yarandı. [O] sülalənin adamları bir neçə firqəyə (dəstəyə) ayrıldı.

Birinci firqə. Oktay qaanın övladları. Qeydu ibn Qaşin ibn Oktay qaan. Oktayın ulusu içərisindən hakimiyyət başına keçdi. Ariq buka onunla idi, Axırda o öz ulusunu toplamaq istədiyi üçün ondan ayrıldı. Üsyan edib, Bərəkə xanın yardımı ilə Cığatay ulusunu toplayıb, öz adına hakimiyyət yaratdı. Qeydu ilə Cığatayın nəvəsi Olğu arasında dəfələrlə vuruşma oldu. Qeydu qalib gəldi.

Nəhayət, 700-cü ildə (16.IX. 1300-5.IX. 1301) Qubilayın nəvəsi Teymur qaan onun üstünə 100 tümən[498] qoşun göndərdi. O, həmin döyüşdə yaralandı. Bundan əlavə qulunc olmaq və qanlı ishala düşmək onu öldürdü.

Cabbar xan ibn Qeydu vəliəhdlik qanununa görə 702-ci ilin rəcəb [ayında] (19.II-20.III.1303) atasının yerini tutdu. Onunla Dəva xan ibn Buraq xan Cığatay arasında (M-281a) düşmənçilik yarandı. 705-ci ildə (24.VII.1305-12.VII.1306) Səmərqəndlə Xocənd arasında hər iki tərəfin qoşunu bir-birilə müharibə etdi. Cabbar xanın qardaşı Çərik Oğul əsir alındı. O, tamamilə zəiflədi. Bundan sonra Teymur qaan və Dəva xanın qoşunu onu araya alıb əl-ayaq açmağa qoymadılar. Himayə istəməkdən başqa bir əlac olmadığına görə [onlara] pənah apardı. Köpək ibn Dəva Baliqunu öldürən vaxt düşməni Köpəkdən qaçarkən Baliqunun mülazimləri tərəfindən öldürüldü. Ondan sonra Cığatay ulusu arasında Əli Sultan

ibn Ərkteymur ləqəbi aldı. Onun və ondan sonra sonrakıların əhvalatı İran səltənətinin Cığatay xanları hakimiyyətindən [danışılarkən] yazılmışdır.

**İkinci firqə.** Mavəraünnəhr, Türküstan ətrafında hakimiyyəti idarə edən Cığatay xanın şəcərəsidir.

Mavəraünnəhrdə hökuməti idarə edən Cığatay xan və onun nəsli haqqında məlumat Kabil şah ibn Dürsinin hakimiyyətinə qədər Mavəraünnəhr sultanlarından bəhs edilərkən göstərildi ki, Bəlx hadisəsində Əmir Hüseyn ibn Əmir Məsəlay ibn Quzğun 771-ci ildə (5.VIII.1369 - 15.VII.1370) öldürüldü.

Tuğluq Timur xan Əbcək ibn Dəva xan Moqolustanın padşahı idi.[499] 761-ci ildə (23.XI.1359 - 10.XI.1360) o, Mavəraünnəhrə qoşun çəkdi. Ancaq bir şey əldə edə bilməyib geri qayıtdı 765-ci ildə (10.X.1363 - 27.IX.1364) vəfat etdi.

Xızr Xacə xan ibn Tuğluq Timur xan ondan sonra Moqolustanın padşahı oldu. Onun dövründə Əmir Teymur (Teymurləng) dəfələrlə Moqolustana basqın etdi. Xızr Xacə 802-ci ildə (3.IX.1399-21.VIII.1400) vəfat etdi. Oğlanları arasında çəkişmə başlandı. Şamcahan ibn Xızr taxta oturdu. Az vaxtdan sonra rəhmətə getdi. Şirməhəmməd xan ibn Şamcahan vali oldu.

821-ci ildə (8.II.1418 - 28.I.1419) Üveys xanın əlində öldü. Nəqşcahan ibn Şamcahan hakimiyyət başına gəldi. Bir neçə gündən sonra Üveys xan ibn (M-281b) Şirəli Sultan padşah oldu. Ondan sonra İsənbuqa ibn Üveys xan taxta çıxdı. Qardaşı Yunis onunla çəkişməyə başladı. İsənbuğanın müqavimət göstərməyə qüvvəsi olmadığına görə Uluğ bəy mirzə Kürəkaninin yanına getdi. Uluğ bəylə Əbdüllətif[500] arasında qovğa olduqda İsənbuğa fürsət tapıb Mavəraünnəhrin sərhəddini Kəndi-Badama[501] qədər taladı. Əndicanın əhalisini əsir apardı. Yunis xan ibn Üveys xan özünü İraqa (Əcəm İraqına) çatdırdı. Oradan Şiraza İbrahim sultan Kürəkaninin yanına getdi. Ondan sonra Onun oğlu Mirzə Abdullanın yanında oldu. 18 il qürbətdə baş dolandırdı. Sultan Əbusəid Kürəkani hakimiyyət başına gələrək, İsənbuğanın məkanı Moqolustana qoşun çəkdi və onu məğlub etdi. Yunis xanı tələb edib, onu ölkələr tutmaq üçün lazım olan ləvazimatla Moqolustanda hakimiyyət başına gətirdi. Onun qızı Qutluğ Nigar xanımı[502] öz oğlu Ömər Şeyx üçün istədi. Məhəmməd Babur padşah [ondan] dünyaya gəldi.

Sultan Mahmud xan ibn Yunis xan Daşkənddə atasının yerinə keçərək Haseki adı ilə tanındı. Axırda o, və Ələcə [adı ilə] məşhur olan qardaşı Əhməd xan özbək Şeybə xanla olan müharibədə əsir düşdülər. Şeybə xan onları buraxdı. Qardaşlar Hacıtərxan tərəfə getdilər. Ələcə xan o ölkədə 2-3 il sərgərdanlıq etdikdən sonra Şeybani xanın mərhəmət edəcəyi ümidi ilə yenə [onun yanına] gəldi. Onun buyuruğuna əsasən öldürüldü.

Rəşid xan ibn Ələcə xan bir müddət Kaşğər və onun ətrafının valisi oldu. 971-ci ildə (21.VIII.1563 - 7.VIII.1564) vəfat etdi.

Sufi Sultan ibn Rəşid xan atasının yerini tutmuşdur.

Mənsur xan ibn Səid xan Tufanın hakimidir. Üçüncü firqə. Çingiz xanın böyük övladı Cuci xan və Cucinin nəsli.

Cuci xanın (M-282a) anası Borte Qucin[503] Qənqər padşahının qızı idi. İlk zamanlar Çingiz xanı ordusunu[504] talan edib, o arvadı əsir aparmışdılar; Geri qayıdarkən yolda doğur. Uşağı bükməyə başqa şey olmadığından xəmirin içinə qoyub Çingiz xanın yanına gətirirlər. (Ona) Cuci, yəni «yeni gəlmiş qonaq» adı qoyurlar. Onunla qardaşları arasında ikitirəlik baş verir. Onun soyuna (ana tərəfdən nəslinə) tənə edirdilər. Çingiz xan Qıpçaq çölünü və Xarəzmi Uzaq Şimala qədər ona vermişdi. O, Siçan ilinə (1227) (müvafiq) 624-cü ilin rəbiül-əvvəl (ayında) (19.II - 20.III.1227) atasından 6 ay əvvəl vəfat etmişdir.

Ləqəbi Sayin olan Batu xan ibn Cuci xan[505] Oktay qaanın hökmünə əsasən atasının yerini tutdu. O, böyük qardaşları cərgəsindən olduğuna görə ona xanlıq verməkdən müzayiqə etmədi. Batu 639-cu ildə (12.VII.1241 - 31. VI. 1242) iflic xəstəliyinə tutulub 650-ci ildə (14.III.1252 - 2.III. 1253) Amol[506] çayı kənarında vəfat etdi.

Mənku qaan Sərtaq ibn Batunu[507] atasının yerinə qoydu. O, yolda keçindi. [Onun yerinə] Ulağçi ibn Batu[508] təyin olundu. O da həmin günlərdə vəfat etdi.

Bərkə xan ibn Cuci[509] səltənət taxtına oturub, islamı qəbul etdi. Onunla Abaqa xan arasında vuruşma oldu. Bərkə xan 30 min atlı ilə Şirvanın Kür çayı kənarına gəldi. Burada çayı keçə bilməyib, getdi ki, Tiflisdən keçsin. 664-cü (13.X.1265 - 1.X.1266) ildə qulunc xəstəliyindən keçindi.[510] Ondan sonra hakimiyyət Cucinin övladlarına çatdı. [Onlar] iki tayfaya bölündülər:

Gög (Göy) orda tayfası - sağ tərəfdə olan Uruc, Bəsqa, Ukək Bacər, Bulqar[511] və Qazan.[512] Əvvəlcə Tuqta xan ibn Qurbutuy ibn Uzəd ibn Cuci taxta çıxdı. 702-ci (26.VIII.1302 – 14.VIII.1303) ilə müvafiq olan pələng ilində (1303) onunla Noqay arasında (M-282b) Səqin və Bulqar ətrafında müharibə oldu. O, qalib gəldi. Buna görə qürurlanıb, Qazan xanın yanına elçi göndərərək, Azərbaycanı tələb etdikdə (aralarında) ədavət baş verdi. Toğrul ibn Tuqta atasından sonra 17 il hakimiyyəti idarə etdi. 727-ci (27.XI.1326 - 16.XI.1327) ildə vəfat etdi. Özbək ulusuna mənsub olan Özbək xan ibn Toğrul varis olaraq hakimiyyət başına keçdi. 735-ci (1.IX.1334 - 20.VIII.1335) ildə İrana qarşı yürüş etdi, [73]6 (21.VIII.1335 – 9.VIII.1336)-cı ildə Kürün kənarına çatdı. Arpa xan Xacə Qiyasəddin Məhəmməd Rəşidinin[513] tədbiri ilə yürüşün qarşısını aldı və ona [Kür çayını] keçməyə imkan vermədi. Nəhayət, 30 illik hakimiyyətdən sonra vəfat etdi.

Canibəy xan ibn Özbək xan[514] - Mövlana Sədəddin Təftəzani[515] 756 (16.I.1355 - 4.I.1356)-cı ildə «Şərhi-müxtəsəri - təlxis»i (Təlxisin müxtəsər şərhi) onun adına yazmışdır - 758 (25.XII.1356 - 13.XII.1357)-ci ildə Azərbaycana gəldi. Çobani Məlik əşrəfin zülmünü dəf etdi. Öz oğlu Berdi bəyi 50 min süvari ilə Azərbaycanda qoyub [özü Qıpçaq] çölünə qayıtdı. Xəstələndi, onun əmirləri Berdi bəyin ardınca adam göndərdilər. Elə ki, Berdi bəy gəldi, o yaxşı oldu. Ondan sonra Berdi bəy və Berdi bəyi gətirməyə bais olan Toğlupay Cani bəyi pəncşənbə [günü] 3 şaban 758-ci ildə (22 iyul 1357) öldürdülər.

Berdi bəy ibn Canibəy xan özünün əksər qohumlarını məhv etdi. Özü də 3 ildən artıq yaşamadı. Bu şöbə (nəsil, sülalə) onunla tamamlandı.

Mədəqmaq Ordumə tayfası. - Uluğdağ hüdudundan Qaratal və Lus sərhəddinə qədər onlara mənsub idi.

Tudamnika ibn Nuqa ibn Tuli ibn Ordumə bir müddət dövləti idarə etdi. Ondan sonra Sasi Buqa ibn Nuqa hökumət başına gəldi. 720 (12.II.1320 - 30.I.1321 )-ci ildə öldü. İrzən ibn Sasi Buqa atasından sonra padşah oldu. 745-ci ildə (M-283a) (15.II.1344 - 3.V.1345) vəfat etdi. Mübarək Xacə ibn İrzən 6 ay hakimiyyətdə oldu və öldü. Cimay ibn İrzən[516] 17 il hökuməti idarə etdi. Gög Orda əmirləri onu hakimiyyətə həvəsləndirdilər, qəbul etmədi.

Urus xan ibn Cimay[517] istədi ki, hər iki ulusu zəbt etsin. Nəsli qışlaq arasında hakim olan Yulxosa Oğlan onunla razılaşmadı. Buna görə Urus xan onu öldürdü. Yulxosanın oğlu Toxtamış Əmir Teymura pənah apardı. Urus xan 9 illik səltənətdən sonra 778 (21.II.1376 - 9.II.1377)-ci ildə vəfat etdi.

Toqta Qiya ibn Urus xan[518] 2 ay hakimiyyəti idarə etdi və öldü.

Teymur Məlik ibn Urus xan[519] taxta çıxdı və sərxoşluğa başladı. Axırda Qaratalda 778-ci ildə (21.V.1376-9.V.1377) Toxtamışın əli ilə öldürüldü. Toxtamış xan ibn Yulxoca[520] Əmir Teymurun yardımı ilə padşah oldu. 17 il hökm sürdü. Vaxtaşırı vəfasızlıq edib, Əmir Teymur ilə vuruşdu, məğlub oldu.

Üçüncü dəfə çıxılmaz vəziyyətə düşüb, çöllərdə dolandı[521] Əmir Teymurun vəfat etdiyi 807-ci (10.VII. 1404 - 28.VI.1405) il tarixinə müvafiq olaraq Lus ətrafında vəfat etdi.[522]

Quzzi xan Oğlan ibn Urus xan Əmir Teymurun Qıpçaq çölünə olan axırıncı yürüşündə onunla müttəfiq idi. Toxtamış çıxılmaz vəziyyətə düşdükdən sonra Əmir Teymur Cuci ulusunun səltənətini ona verdi. 795-ci ildə (17.XI.1392-5.XI.1393) onu Amol çayı kənarından [Qıpçaq] çölünə göndərdi.

Teymur Qutluğ xan ibn Teymur Məlik[523] Toxtamışla ədavətinə görə 779-cu ildə (10.V.1377 - 29.IV.1378) Əmir Teymurun yanına gəlmiş, Qıpçaq çölünə olan birinci yürüşdə onunla müttəfiq olmuşdur. 793-cu ildə (9.XI.1390 - 28.XI.1391) Toxtamışın məğlubiyyətindən sonra Əmir Teymurun icazəsi ilə öz ulusuna gedib taxta çıxdı. 802-ci ildə (3.IX.1399 - 21.VIII.1400) vəfat etdi.

Şadi bəy ondan sonra taxta oturdu.[524] 811-ci ildə (27.V.1408 - 15.V.1409) (M-283b) vəfat etdi.

Fulad (Polad) xan ibn Şadibəy xan[525] hakimiyyət başına gəldi və 813-cü ildə (6.V.1410 - 24.IX.14P) vəfat etdi.

Teymur Sultan ibn Teymur Qutluğ xan[526] padşah oldu. 814-cü ildə (25.IV.1411 – 12.IV.1412) Cəlaləddin Sultan ibn Toxtamış ona qarşı çıxdı. Teymur Sultan Cəlaləddin tərəfindən məğlub olub, Xarəzmə gəldi. Xarəzmin mühasirəsi ilə məşğul olan Özbək əmirlərindən Qazan xanın əli ilə öldürüldü.

Cəlaləddin Sultan ibn Toxtamış xan[527] ondan sonra padşah oldu. Qardaşları Kərimberdi,[528] Köpək xan,[529] Cabbarberdi[530] Məhəmməd xan[531] və digər «oğlanları

Cəkvin»[532] Dərviş xan ibn Allahi və Qiyasəddin ibn Şadi bəy xanın hər biri az bir vaxt xanlıq etdilər. Onlardan sonra Bəraq xan ibn Quyzi xan ibn Urus xan 828-ci ildə (23.XI.1424 - 12.XI.1425) qalib gəlib, padşah oldu. Bundan əvvəl 823-cü ildə (17.I.1420 - 5.I.1421) Uluğ bəy mirzənin yanına gəlib, onun tərəfindən himayə edildi. İstiqlaliyyət qazandıqdan sonra nankorluq etdi. 830-cu ildə (2.XI.1426 - 21.X.1427) sığınaq ətrafında Uluğ bəy mirzə ilə vuruşub qalib gəldi. Mavəraünnəhrə basqın etdi. [Qıpçaq] çölünə qayıtdıqda, əmirlər birləşib, 831-ci ildə (22.X.1427 - 10.X.1428) onu öldürdülər.

Məhəmməd Sultan ibn Teymur Sultan ibn Qutluğ Teymur bəraqın qətlindən sonra əmirlərin yardımı ilə padşah oldu. O, 834-cü ildə (19.IX.1430 - 8.IX.1431) [Qıpçaq] çölündən Xarəzmə bir ordu göndərib, oranı xaraba qoydu. O, Qurumu paytaxt etdi.

Qasım xan ibn Canibəy Sidək xan ibn Canibəy ibn Bəraq xan [Qıpçaq] çölünün padşahı oldu. Onunla Şeybə (Şeybani) xan arasında kin-küdurət baş verdi. 915-ci ilin axırında (1510-cu ilin əvvəllərində) Şeybə xan onun üstünə qoşun çəkdi (M-284a). O, məğlub oldu və 930-cu ildə (10.XI.1523-28.X.1524) vəfat etdi. Həqnəzər xan ibn Qasım xan indi Qıpçaq çölünün fərman verənidir (hakimidir). Onun dudmanı Toxtamışın həddən artıq ixtilafı nəticəsində tamam zəiflədi. Şeyban ibn Cucinin övladlarından bəzisi fürsət tapıb hamını özü ilə birləşdirdi və üsyan etdilər. Bu şöbə iki dəstədə, bəzisi Mavəraünnəhri, bəzisi Xarəzmi olduğuna görə onların təsviri də iki şöbədə (bəhsdə) tamamlanacaqdır.

**Mavəraünnəhri şöbəsi.** Əbülxeyr xan[533] ibn Dövlətşeyx Oğlan ibn Ay Oğlan ibn Pulad Oğlan ibn Eybə Xacə ibn Toqta ibn Bulğan ibn Şeyban ibn Cuci 839-cu ildə (27.VII.1435-15.VII.1436) [Qıpçaq] çölündən basqın edib Şahrux tərəfindən oranın (Mavəraünnəhrin) valisi olan Mirzə İbrahim ibn Əmirşah Məliki oradan çıxarıb taxta oturdu. Bir müddət o mülkün və [Qıpçaq] çölünün qaanı oldu. Sultan Əbusəid onun köməyi ilə Mirzə Abdullaya qalib gəlib, Səmərqəndin padşahı oldu. Əbülxeyr 873-cü ildə (22.VII.1468-10.VII.1469) iflis xəstəliyindən öldü.

Şeyx Heydər xan ibn Əbülxeyr xan ondan sonra taxta oturdu. Bir müddət hökm sürdü. Bəyan xan ibn Hacı Məhəmməd ona qarşı üsyan etdi. Dəfələrlə qırğın törətdilər. Şeyx Heydər həmişə qalib gəlirdi. Axırda Bəyan xan Əhməd xanın yardımı ilə bir daha müharibə etdi. Şeyx Heydər yaralanıb məğlub oldu və həmin yaradan da öldü.

Şeybə xan və Məhəmməd xan ibn Budaq sultan ibn Əbülxeyr xan 855-ci ildə (3.II.1451-22.I.1452) Quzi bəyimdən anadan olmuşlar. Hələ uşaq ikən ataları ölmüş, Özbəklərin böyük əmirlərindən olan Qəracin bəy onları bəsləyib böyütmüşdü. O, iki-üç dəfə Buxaraya gəldi. Oranın hakimi Əmir Əbdüləli xan ona hörmət göstərib Səmərqənd padşahı sultan Əhməd mirzənin xidmətinə apardı. Oradan qaçıb [Qıpçaq] çölünə getdi.

Sultan Mahmud mirzə Kurəkaninin övladları arasında ixtilaf başlandı. O, (M-284b) sultanəli mirzənin zamanında çoxlu qoşunla Kanikildə düşərgə saldı. Tədbir ilə sultanəli mirzəni ələ gətirib öldürdü. 906-cı ildə (28.VII.1500-16.VII.1501) öz adına xütbə [oxutdurub], sikkə vurdurdu. 913-cü ildə (13.V.1507-1.V.1508) Xorasanı istila etdi.

26 şaban 916-cı ildə (28 noyabr 1510) Mərv nahiyəsinin Mahmudi adlı yerində nəvvabi-alihəzrət xaqan behiştlik Şah İsmayıl Səfəvi ilə müharibədə Qızılbaş qoşununun əli ilə öldürüldü.

Kuçmər xan adı ilə tanınan Kuçkunçi xan ibn Əbülxeyr xan padşah oldu. 935-ci ilin məhərrəm [ayında] (15.IX-14.X.1528) Camda bütün özbək sultanları ilə birlikdə Allahın kölgəsi olan şah, dinin pənahı nəvvabi-kamyab [Şah Təhmasib] - Allah onun mülkünü əbədi etsin - ilə vuruşub basıldı və məğlub halda Mavəraünnəhrə getdi. 936-cı ildə (5.IX.1529-24.VIII.1530) vəfat etdi.

Əbusəid xan ibn Kuçkunçi ondan sonra xan oldu. 939-cu ildə (3.VIII.1532 - 22.VII.1533) vəfat etdi.

Übeyd xan ibn sultan Mahmud ibn Əbülxeyr xan əmisi oğlundan sonra xanlıq [taxtına] oturdu. Onun əhvalatları dinin pənahı olan Allahın kölgəsi nəvvabi-kamyab Şah [Təhmasibin] bəndələri ilə zikr olunub. O, 946-cı ilin zilqədə [ayının] əvvəllərində (mart ayının ortaları 1540) öldü.

Abdullah xan ibn Kuçkunçi xan padşah oldu. 947-ci ildə (8.V.1540-26.IV. 1541) vəfat etdi.

Əbdüllətif xan ibn Kuçkunçi padşahlıq (taxtına) oturdu, 959-cu ildə (29.XI.1551-17.XII.1552) rəhmətə getdi.

Adı Novruz Əhməd olan Biyraq xan ibn Sevincək ibn Əbülxeyr xan Daşkənd və onun ətrafının sahibi idi. Əbdüllətifdən sonra Səmərqənd və Buxaranı işğal etdi. 963-cü ildə (16.XI.1555-3.XI.1556) 56 yaşında ikən tövbəni sındırıb şərab içməklə məşğul oldu. Bir həftədən sonra araq içərkən zilhiccətül-həram [ayının] 13-də (18.X.1556) cəhənnəmə vasil oldu. Övladları Dərviş sultan və Baba sultan Cəlgə, Daşkənd və ona tabe olan yerlərə sahib oldular.

İsgəndər xan ibn Canibəy sultan ibn Xacə oğlan ibn Əbülxeyr xan (M-285a) Biyraqdan sonra sikkə və xütbə Pirməhəmməd xan ibn Canibəy sultanın idi. Az vaxt keçdikdən sonra İsgəndərin oğlanları Abdulla sultan və İbadullah sultan böyüdülər. Əmisindən yaşlı olan atalarını guşənişinlikdən qurtarıb xanlıq [taxtına] oturtdular. Pirməhəmməd xan əlacsız qalıb Mavəraünnəhri ona verərək, Bəlxlə kifayətləndi. İndi oranın valisidir və nəvvabi-kamyab Şah [Təhmasibə] sədaqət və itaət göstərməkdədir.

**Xarəzmiyyə.** İlpars xan ibn Buraqe ibn Yadigar ibn Teymur Şeyx oğlan ibn Hacı Tuli Oğlan ibn Ərəb Oğlan ibn Polad Oğlan. Burada onun nəsəbi Əbülxeyrlə birləşir. Şeybə xan Xarəzmi ələ keçirdikdə, Köpəkbi Quşçini oraya darğa təyin etdi.

Cənnətməkan [Şah İsmayıl] Şeybə xanı öldürdükdə oranın idarəsini Ətləndi bəyə tapşırdı. Bu zaman Şərif Sufi Mir Xəzrayili, Xarəzm ulusunu ortadan götürdü. İlpars [Qıpçaq] çölündən onun üstünə basqın etdi. Qoyun ilində (1511)-916-cı ildə (10.IV.1510-30.III.1511) o vilayəti tutdu. Pələng ilində (1517)-923-cü ildə (24.I.1517- 12.I.1518) vəfat etdi.

Həsənqulu xan ibn İlək ibn Yadigar ondan sonra hökuməti ələ aldı. Meymun ilində (1524)-930-cu ildə (10.XI.1523-28.X.1524) vəfat etdi. Busqər xan ibn Məhəmmədəmin ibn Yadigar 5 il hökmran oldu. Öküz ilində (1529)-935-ci ildə (15.IX.1528-4.IX.1529) vəfat etdi.

Sufyan xan ibn Məhəmmədəmin ondan sonra padşah oldu. Qoyun ilində (1535)-941-ci ildə (13.VII.1534-1.VII.1535) guşənişin oldu.

Dinməhəmmədin atası olan Əvanəş xan ibn Məhəmmədəmin xan hökumətin idarəsini Sufyan xandan aldı. Bu zaman Ömər Qazi ibn sultan Qazi ibn İlparsla müharibədə öldürüldü. Übeyd Xarəzm vilayətini öz oğlu Əbdüləziz xana verdi.

Yusif xan ibn Sufyan xan Xəyyuqda hökuməti idarə edirdi. Donuz ilində (1538)-945-ci ildə (30.V.1538-18.V.1539) Dinməhəmməd ibn Əvanəş (M-285b) xan Biqə Türkman [adı ilə] məşhur olan sayın xanın oymağı ilə birləşərək Übeyd xanla Həzarəst yaxınlığında vuruşdular. Übeyd [xanın] Lətif, Mirək, Şeyx Nəzər bəy, Mahi bahadır Tavaçıbaşı, Hafiz Qənqəratın vəkili olan Qaraca bahadır kimi əmirləri ələ keçirdilər. Əbu Yusif ibn Məhəmməd Übeyd (xanın) əlində əsir olduğuna görə onun əmirlərini Əbu Yusiflə dəyişdirdilər.

Biqhal [adı ilə] tanınan Əbu Yusif vali təyin edildi. 10 ilə qədər xanlıq etdi. Yusif xan ona tabe oldu. Toyuq ilində (1549)-956-cı ildə (30.I.1549-19.I.1550) vəfat etdi.

Əzay xan ibn Məhəmmədəminlə Yunis xan arasında 5 il düşmənçilik oldu. 961-ci ilə (7. XII. 1553-25.XII.1554) müvafiq olan pələng ilində (1554) Yunis xan ibn Sufyan xan onu öldürüb padşah oldu.

Dust xan ibn Lucəqə ibn Məhəmmədəmin Yunis xana qalib gəlib taxta çıxdı.

Yunis xan və qardaşları, xüsusilə Pəhləvanqulu sultan 964-cü il rəcəb ayının 15-də şənbə günü Allahın kölgəsi olan şah, asiman taleli dünyanın pənahı [Şah Təhmasibin] dərgahına gəlib ilan ilində (24 may 1557) behişt zinətli Qəzvinin yeni dövlətxanasında onun ayağını öpmək şərəfinə yetişdi.

Cəlal bayraqları (Şah Təhmasib) Xərrəqan yaylağına gedərkən o camaat (Yunis xan və onun məiyyəti) səbəbsiz olaraq qaçıb, Xarəzmə getdilər.

Hacmər xan ilan ilində (1557)-964-cü (4.XI.1556-23.X.1557) ildə atasının yerinə keçdi. Hazırda Xarəzmin xanıdır.

Dördüncü firqə. Tuli ibn Çingiz xanın soyu. Tuli xan, yəni ağıl güzgüsü, qaanlıq mənsəbinə çatmadı. Ancaq onun oğlu Mənku qaan oldu və onun əhvalatı qeyd olundu.

Qubila (Qubilay) qaan ibn Tuli[534] elə ki, Maçin yürüşündən qayıtdı, Xətanın (Şimali Çinin) Çəkduy şəhərində meymun ilinə (1260) bərabər olan 658-ci (18.XII.1259-5.XII.1260) ildə padşahlıq taxtına oturdu. Məzkur şəhərin qabağında başqa bir şəhər salmağı başa çatdırdı və onu Xanbalıq[535] adlandırdı. Rəvayətə görə ətrafının dairəsi ən azı 4 fərsəngdir.

Hindistan bəndəri[536] olan Zeytun dənizindən[537] 40 günə böyük bir kanal qazdıtdırıb, şəhərin ortasından axıtdırdı. Tacirlər o kanaldan gəmi ilə (M-286a) gedib-gəlirlər.[538] Əvvəllər qardaşı Ərtiq Bukay səltənətin idarə edilməsində onunla çəkişdi. Axırda Ərtiq Bukay onun əlinə düşdü. 664-cü ilin payızında (1265-ci ilin payızında) süqut etdi və Qubilay istiqlaliyyət tapdı. 35 il hökuməti idarə etdi. 72 il yaşayıb, 693-cü (2.XII.1293-20.XI.1294) ildə vəfat etdi.

Teymur qaan ibn Çim Kim ibn Qubilay qaan atası vəliəhd olduğu və Qubilayın sağlığında vəfat etdiyi üçün o atasının əvəzində vəliəhdliyə çatdı.[539] Babası ölən vaxt Türküstan sərhəddində idi. Məzkur hadisəni eşitdikdən 3 ay sonra paytaxta çatdı. Qoyun ilinə (1295) müvafiq olan 694-cü ilin axırlarında (1295-ci İlin axırlarında) taxta oturdu. 6 il hakimiyyəti idarə etdi. Ondan sonra əsmə (epilepsiya) və qıcolma (iflic) xəstəliyinə tutuldu və daha 6 il yaşadı. 706-cı (13.VII.1306-2.VII.1307) ildə öz əcəli ilə öldü. Ona Ulcaytu deyirdilər. İslam dininə rəğbəti vardı və moqollardan bir çoxunun onun təşviqi ilə islamı qəbul etdiyi məşhurdur.

Hakimiyyət başına keçdikdən sonra Kilu xan, yəni ədalətli və yaxşı ad sahibi Hişa qaan ibn Turməy ibn Yəlayin Cim Kim əmisindən sonra qaan oldu. 15 ramazan 710-cu (5 fevral 1311) ildə vərəm xəstəliyindən vəfat etdi. Bərmehr Tazi ibn Bərme vəliəhdlik qanununa görə qardaşının yerinə keçdi. Hakimiyyəti vaxtı ona Yumasu qaan ləqəbi verdilər.

Əbənde ibn Məqəlay ibn Qubila ondan sonra qaanlığa çatdı və müsəlman oldu. Onun zamanında islam şöhrət tapdı.

Qəşli qaan ibn Nərbəla ibn Cim Kim ondan sonra padşah olub xaçpərəst dinini qəbul etdi.

Xan Tayzi ibn Tulək [ondan sonra] qaanlıq [taxtına] çıxdı və Tuləktu adlandırıldı. Ənuşirəvan dara, Duqu Teymur, Bisvədar qaan, Ənke qaan, Ələng qaan, İlci Teymur qaan və Tayzi ondan sonra növbə ilə padşahlıq etdilər. Məzkur Tayzi Əmir Teymur Kürəkaninin (M-286b) yanına gəlib, islam olmaq səadətinə yetişdi. Ondan sonra Qəlmaqa gedib, qaanlıq [taxtına] oturdu. Az bir vaxtdan sonra onu ortadan götürdülər. Onun qeyb olduğu vaxtlarda Təbquz xan Xəta məmləkətini istila edib, moqolları oradan çıxarmışdı. Moqollar əsl yurdları olan Qəraqurum və Qəlmaqla qənaətləndilər. Onun zamanında indi Oyra [kimi] yazılan Oyrat əmirləri qüvvətlənib, o xanədanı səltənəti idarə etməkdən çıxardılar. Təbquz xan 831-ci ilin ramazan ayında (14.VI-13.VII.1428) Xətanın müsəlman sakinlərinə qəsd edib, onları dənizdə batırdı. Bu vaxtlarda onu ildırım vurdu. Onun qəsrini və orada olanların hamısını yandırıb kül təpəsinə döndərdi.

«Bu gün hakimiyyət kimindir? Tək qadir olan allahdır»[540] [ayəsi] öz gücünü göstərdi. Ondan sonra Dilə xan Xətanın vəzirinin köməyi ilə padşah oldu və müsəlmanları əzizlədi. Bundan sonra moqollar orada padşah olmadılar.

Keçmiş dövrlərin və ondan sonrakıların indiyə qədərki əhvalatlarından seçdiklərim bunlardır.

Zəfər qanunlu, göy üzəngili, müqəddəs qələbəli hökmdar, allahın kögəsi əlahəzrət Şah Təhmasibin - allah onun mülkünü, sultanlığını əbədi etsin və insanlara ehsanını bol etsin - başqa keçmiş və hazırkı seçilmiş sultanlarla bəzi xüsusiyyətləri haqqında.

## XATİMƏ (sonluq)

Birincisi-Nəsili yüksək Musəvi, Hüseyni, Fatimi və Ələvi ağalarından olduğu üçün hakimiyyətə miras olaraq çatmışdır.

İkincisi – Anadangəlmə şiədir. Hakimiyyətdən hakimiyyətə yüksək rütbəli 12-ci imam Əbilqasim Məhəmməd ibn əl-Həsən Sahibəzzamana-ata-babasına daima Allahın salamı olsun-çox bağlı və yaxındır.

Üçüncüsü odur ki, vilayət,[541] hidayət[542] və irşad[543] ailəsindəndir. «Xəbəriniz olsun ki, Allahın tərəfdarları üçün əsla qorxu yoxdur. Onlar məhzun da olmazlar (ayəsinə) əsasən ümid etmək olar ki, şərəfli olan Allah onu hər şeydən mühafizə edər, öz əmanəti kimi qoruyar.[544] Kədər tozu müqəddəs ürəyinin güzgüsünün üstünə oturmasın. (M-287a)

Allaha məlumdur ki, (O,) əksər vaxtlarını əcdadlarının, xüsusilə millət və dinin başçısı, övliyalar sultanı həzrəti Şeyx Musa və pak insanların qütbü, haqqın, həqiqətin və dinin nəsib şeyxi həzrəti Səfiəddin İshaqın bütün xarüqüladə adət və kəramətlərini cəm etməyə sərf etdi. Onların heç onda birinin onda birini yaza bilmədi. Həzrəti (Şah Təhmasibin) - hakimiyyəti və sultanlığı əbədi olsun-həddən kəramətli və xarüqüladə adətləri vardır və hamıya məlumdur. Həzrəti Şeyx Səfiəddinin kəramətləri, keyfiyyət və söhbətləri barədə əsərlər yazmışlar və hamıya çatdırılmışdır. Müxalif və müvafiq (olanlar) onu qəbul etmiş və heç kimin şübhəsi yoxdur.

Dördüncü- Elminin mərtəbəsidir. Ağlabatan, söylənilmiş yəqin dini [elmlərdə] o həzrət əvəzsizdir. Xüsusilə təfsir, hədis, kəlam və fiqhdən bir məclisdə söhbət düşdükdə, əgər bir nəfər əlinə qələm və kağız götürüb, o həzrətin xatirində olanlardan söylədiklərini yazsa, ayə, hədis, şahbeyt və dərin mənalardan ibarət həqiqi və dəqiq bir kitabça olar. Fəsahət və bəlağət sahibləri, alimlər və filosoflar ona heyran qalarlar.

Beşincisi - haram şeylərdən çəkinən və pəhrizkardır. Səltənət və qüdrəti sayəsində dünyada hasil olan ləzzətli şeylərdən ürəyi hər nə istəsə, həddən artıq varıdır. Öz zəmanəsinin haram şeylərdən çəkinən və mömin adamlarındandır.

«Allah yanında ən əziz olanınız, sizin Allahdan daha çox qorxanınızdır».[545] Buna görə adil və möminlər arasında seçilir.

Altıncısı - Haqla iş görən insaflılığıdır. Sözdə və işdə haqqa zidd olan işlərə əməl etmir.

Yeddincisi - Bu zamanda yaşayanların nahaq qan töküb, yetim malı yeməkdən çəkinmədiklərinə baxmayaraq, o [Şah Təhmasib], qüdrət sahibi ola-ola qan tökməkdən çəkinir. Əgər birinin boynunda onun bir haqqı və yaxud alacağı varsa, (M-287b) o şəxsin vəfatından sonra, baxmayaraq ki, borcu vermək miras məsələsindən qabaqda durur, o [mərhumun] uşaqları həddibuluğa çatana qədər onları narahat edib, öz borcunu istəmir.

Səkkizincisi - Onun tövbəsi və peşman olmamasıdır. Onun qəti tövbə etməsinə nail olmasından 40 il keçsə də, [tövbəni] qoruyub saxlamaq onun mübarək təbiətində və səliqəsində iz qoymuşdur. Bu [tövbəy barədə hər hansı bir nöqsana yol verildiyini təsəvvür etmək belə mümkün deyildir. Onun tövbəsinin bərəkətindən Günəş dünyaya işıq saçdığı kimi, hamı padşahın göstərdiyi yolu qəbul edib. Buna görə bütün xalq onun ədalətli rəhbərliyi altında rahat yaşayır. Onun zamanında o hansı bədbəxtdir ki, fitnə törətsin, lakin layiqincə cəzalandırılmasın və bu (cəza) onun canında qiyamətə qədər qalmasın.

Doqquzuncusu - Camaat və rəiyyətlərlə rəftarının yaxşılığı. Qayda üzrə hər il şərabxana, tiryəkxana, qumarxana, şadlıq evi və fahişəxanadan alınan 50 min tümən tamğa[546] və bac;[547] ölkə maliyyəsinin onda biri və onda birinin yarısı olan savəri[548] kimi keçmiş vücuhat[549] və ixracat;[550] ölkə maliyyəsinin onda birinin yarısı olan hazırkı savəri və nozul;[551] özü öz adından məlum olan onda bir rəiyyəti;[552] - onun məxəzi məzkur mal[553] və vücuhatın nəticəsi idi; yenə ölkə malının onda biri olan vücuhi-çerik;[554] İsfahan, Kaşan, Qum və İraqın digər şəhərlərinin peşə və sənət sahiblərindən alınan maliyyənin hamısı, darüssəltənə Təbriz və Darülmülk Şirazdan alınanın yarısı; həmçinin indi yadıma düşməyən küllü və cüzi vergilərin hamısını qəti lənətilə[555] camaata bağışladı. «Artıq hər kim onu (vəsiyyəti) eşitdikdən sonra dəyişərsə, bunun günahı ancaq onu dəyişənin boynunadır»[556] hal-hazırda rəiyyətlərdən az miqdarda müəyyən olunmuş xərac[557] və yardımdan başqa bir şey alınmır.

Onuncusu - Əlaqəsinin yaxşılığıdır. Hamısı ayağının torpağına and içən müasirləri olan sultanlara yaxşı münasibət bəsləyir (M-288a). Qonşu [ölkələrin] hakimləri ilə sülhlə dolanar, əhd və peymanlara sozsuz əməl edərdi. Buna görə heç kimdə ona qarşı çıxmağa bir əsas yox idi. Əmirləri və qoşunları ilə ata-babalarının qoyduğu sufilik yolu ilə - insaf və ədalətlə rəftar edir. Əgər bir nəfərdən bir alçaqlıq baş verirsə, əgər mümkünsə, sufilik yolu ilə [günahından] keçir. [Özündən əvvəlki] yüksək məqamlı adamlar kimi xəlifələr təyin edir. Başqa rəiyyətlərlə ancaq şəriətə əsasən rəftar edir. Onun danışığı o dərəcədə eyibsizdir ki, dilindən heç vaxt söyüş eşidilməmişdir. Yalandan o qədər çəkinir ki, əkər bir sözdə yalan şübhəsi olsa, onu dilinə gətirməz.

Qərarlaşdırılmışdır ki, hər kəs sözündə sadiq olsa, onun [gördüyü] yuxular çin olar. Buna görə o həzrətin yuxuları çindir (doğrudur). Çox vaxt günahsız imamlar, peyğəmbərlərin ağası (yəni Məhəmməd peyğəmbər) və özünün adlı-sanlı ata-babaları qeybdən ona xəbər verir və necə hərəkət etməyi buyururlar. Qadağan olunmuş şeylərdən tövbə etmək, tamğanın (verginin) bağışlanılması, Təbriz şəhəri (əhalisinin) siyasi şıltaqlıqlarının [bağışlanması] - bunlar hamısı o həzrətin yaxşı əməllərindən nümunələrdir.

Xeyriyyə, sədəqə, bəxşiş, hədiyyə, ehsan, kömək, təqaüd, nəzir və s. bu kimi işləri o qədər çox etmişdir ki, onları yazmaq imkan xaricindədir.

Ölkənin yetimləri, fəqirləri və miskinlərinə yaxşı müəllim təyin etmişdir. Hər il orusluğun xərcinin hamısını bir yerdə verir ki, dini elmlər (daha doğrusu, qayda-qanun) inkişaf edib, itaət və ibadət artsın. Bunlar hamısı [gözəl] xasiyyət, kərəm və mərhəmətdir.

Onbirincisi - Ağıl və tədbiri. Bütün ağıllı adamlar onun [dövləti] idarə edilməsindəki tədbirlərini etiraf edirlər. O həzrətdən dövlətin bu günlərində ruzgarın arzusu ilə (M-288b) etdiyi dəyişikliklərin bəziləri bu qəbildəndir. Nəhayət, [onların] nəticəsi meydana çıxdı. O, elə bilirdi ki, etdikləri xətaya qarşıdır. Bunun təhqiqi ancaq allaha məxsusdur.

Onikincisi - Şücaətdir. Bu zamanda heç bir insan övladında onda olan ürək və cəsarət yoxdur. Bu iddianın həqiqiliyinə o həzrətin etdikləri bir əhvalatdır ki, onlar [əsərdə] yeri gəldikcə qısa şəkildə yazılmışdır. O cümlədən olan hadisələrdən onun uşaqlıq vaxtlarında hakimiyyət iddiasında olan əmirlərin ixtilaflarıdır. O həzrətin qardaşlarından hər biri, xüsusən, o gecə ki, Sam mirzə Hüseyn xanın əlindən tutmuşdu (yəni, güvənmişdi) və Hüseyn xan böyük bir ordu ilə onun dövlətxanasının üstünə hücum çəkmişdi və Cuhə sultan divanxananın qarşısında öldürülmüşdü - o həzrət tək-tənha divanxananın qapısı qabağında dayanıb, üsyançılara qarşı göstərişlər verirdi.

Başqası, Cam müharibəsi zamanı özbəklərin bütün sultan və xaqanları əmr etmişdilər, sağ və sol cinahların əmirləri möhkəm dayanmışdılar. O həzrət (Şah Təhmasib) sağlam ürəklə ordunun ortasında möhkəm durmuşdu. O həzrətin ətrafında və qarşısında dayananlar onu qoruyurdular. Onunla həmrah olan adamlarla düşmənlərin mərkəzinə hücum etdi. Hüneyn davasında həzrəti [Məhəmməd] peyğəmbər və Əmirəl-möminin [Əlinin] - Allahın onlara salamı olsun - etdikləri kimi etdilər.

Başqası, sultan Bayəzid ibn sultan Süleyman - hamısı hökumət iddiasında olan 10 min silahlı süvari ilə - sığınma pərdəsi altında xidmətinə gələn gün o həzrət silahsız Qəzvin Səfərabadının yeni meydanının ortasında bir əsaya söykənmiş halda təmkin və mətanətlə (M-289a) dayanmışdı. Məzkur sultan [Bayəzid] o süvari camaatla çatıb, [atlarından) düşdülər. Əmirlərindən 3-4 yüz nəfər igidlə meydanın daxilinə gəlib, (Şah Təhmasibin) ayağını öpdülər.

Onun (Şah Təhmasibin) tərif və əxlaqının [gözəlliyi] saysız hesabsızdır. On iki [rəqəmi] xoş əlamət olduğu üçün biz bu on iki xasiyyəti qeyd etməklə o həzrəti ruzgarın keçmiş və indiki sultanları və xaqanlarından qısa şəkildə fərqləndirdik və «Kəraim asare» sözlərini [maddeyi] tarix yazdıq.[558] İlahi, bizə Sahibəzzamanı görməyi qismət elə. Ona (yəni Əbdi bəyə) və onun ata-babalarına Allahın salamı olsun. Pərvərdigara, onu allahın və onun əhlinin (yəni, Məhəmməd peyğəmbərin) xatirinə bədbəxt hadisələrdən qoru.

Avtoqrafdan köçürülməsi 1046-cı ildə səfər ayının birinci ongünlüyündə xeyir və müvəffəqiyyətlə qurtardı.

## ƏDƏBİYYAT, İZAHLAR VƏ QEYDLƏR

[1]Əbdi bəyin həyat və yaradıcılığı haqqında bax: Ə. H. Rəhimov. Əbdi bəy Şirazi (həyat və yaradıcılığı), Bakı, 1970.

[2]Əbdi bəy. Xəmsəteyn. Respublika Əlyazmaları İnstitutundakı avtoqraf əlyazması, inv №3849, vər.121a

[3]Hafiz Şirazi. Divan, Tehran, 1342 h.ş.,s.6.

[4]Bəzi tədqiqatçılar «türk» sözünün gözəl mənasını əsas götürüb, onu «Şiraz gözəli» kimi tərcümə edirlər. Biz isə qədim zamanlardan başlayaraq, bu günə qədər Şirazda türkdilli tayfaların yaşadıqlarına əsaslanaraq sözün türk mənasını əsas götürüb, onu «şirazlı türk gözəli» kimi tərcümə etdik.

[5]«Təkmilətül-əxbar», Azərbaycan EA Respublika Əlyazmaları İnstitutunda saxlanılan əlyazması, inv. №33054, vər.257ab.

[6]«Sərihul-mülk»ün Tehranda Muzeyi-İrani-Bastan kitabxanasında saxlanılan (avtoqraf) 3719 №li əlyazmasının şəxsi kitabxanamızdakı surəti, s.372.

[7]«Təkmilətul-əxbar», Tehranda Məclisi-Şurayi-milli kitabxanasında saxlanılan 15023 №li əlyazmasının şəxsi kitabxanamızdakı fotosurəti, vər.234a.

[8]Həsən bəy Rumlu, Əhsənüt-təvarix, Kəlküttə, 1931, s.238.

[9]«Təkmilətül-əxbar», Məclis nüsxəsi, vər.267b.

[10]Yenə orada, vər.266b-267a.

[11]«Sərihül-mülk»ün 2 avtoqraf əlyazma nüsxəsi (№3718 və №3719) Tehranda Muzeyi-İrani-bastan kitabxanasında saxlanılır. Hər iki əlyazmasının surəti şəxsi kitabxanamızdadır. Geniş məlumat üçün bax: Məhəmmədtəqi Daneş-Pəjuh, İüsxəhayi-xətti, II cild, Tehran, 1341 h.ş.,s.209.

[12]Məhəmməd peyğəmbərin təvəllüd tarixi mənbələrdə bir qədər fərqli verilmişdir. Onun 569-cu ildə, 20 avqust 570-ci ildə və 20 aprel 571-ci ildə anadan olduğu qeyd olunmuşdur. Bir qayda olaraq 570-ci il daha inandırıcı tarix kimi qəbul edildiyindən, biz də həmin tarixi qeyd etdik.

[13]Məhəmməd peyğəmbər hicri-qəməri təqvimlə 63 il yaşamışdır.

[14]Məhəmməd 40 yaşında olarkən ona peyğəmbərlik verilmişdir. Buna bəsət deyilir.

[15]Qazı Əhməd Qaffarinin «Tarixi-cahan-ara» əsərində 266-cı il yazılmışdır (Tehran, 1343 h.ş.,s.27). Əksər tarixi mənbələrdə də 266-cı il göstərilmişdir.

[16]Ə. H. Rəhimov. Əbdi bəy Şirazinin «Təkmilətül-əxbar» əsərinin əlyazma nüsxələri və yazılma tarixi, Azərbaycan SSR EA Məruzələri, 1963, № 7, s.93-96.

[17]Kəsrəvi Təbrizi. Şəhriyarani-qomnam. I hissə, Tehran, 1928, s.«v», «z» (farsca).

[18]Məhəmmədtəqi Daneş-Pəjuh. Fehresti-mikrofilmhayi-ketab xaneyi-mərkəziyi-daneşqahi-Tehran. Tehran 1348 h.ş.,s.59. M. Daneş-pəjuh əlyazmasının «mütəsərrif şod bəd əz an» sözləri ilə kəsildiyini qeyd edir. Bizdə olan fotosurətdə də əlyazması həmin sözlərlə bitir.

[19]Kəsrəvi Təbrizi. Göstərilən əsəri, s. «v», «z».

[20]В. А. Жуковский. Описание рукописей учебного отделения восточных языков при Азиатском департаменте министерства иностранных дел, Писменные памятники Востока (историке — филологические исследования 1971), ежегодник, Москва, 1974, с.455-456. Həmçinin bax: Jukovskinin təsvirləri barədə D. Y. Bertelsin qeydləri, s.479-480.

[21]İbrahim Əmini. Fütuhati-şahi. Tacikistan SSR EA Şərqşünaslıq İnstitutunun kitabxanasındakı əlyazmasının (inv. №225) şəxsi kitabxanamızdakı fotosurəti.

[22]Qiyasəddin Xandəmir. Həbibüs-siyər. Tehran, 1271 h.q.

[23]Leninqraddakı Saltıkov-Şedrin adına Dövlət Kütləvi kitabxanasındakı əlyazması, Dorn, №302; Mükalimeyi-Şah Təhmasib ba elçiyani-Rum, mətni-farsi və tərcümeyi-gürci ba müqəddimə və həvaşi be vəsileyi-Karlo Tabatadze, Tibilisi, 1976.

[24]Təzkireyi-Təhmasib, Kəlkuttə, 1912. Həmin əsərin Britaniya muzeyindəki OR - 5880 şifrəli əlyazması.

[25]Budaq Münşi Qəzvini, Cəvahirül-əxbar, Leninqraddakı Saltıkov-Şedrin adına Dövlət Kütləvi kitabxanasındakı əlyazmasının (Dorn,№288) şəxsi kitabxanamızdakı fotosurəti.

[26]Həsən bəy Rumlu. Əhsənüt-təvarix, Baroda, 1931.

[27]Шараф Хан Бидлиси. Шараф-наме, перевод, предисловие, примечания и приложения Е. И. Васильевой, Москва, 1967.

[28]Mahmud ibn Xandəmir. Tarixi-Şah İsmayıl və Şah Təhmasib. Britaniya muzeyindəki OR-2939 şifrəli əlyazmasının şəxsi kitabxanamızdakı fotosurəti.

[29]Qazı Əhməd Qəffari, Tarixi-cahan-ara, Tehran, 1343 h.ş.

[30]XVI əsrdən əvvəlki dövrlərdən bəhs edərkən digər əsərlərdən də istifadə edilmişdir.

[31]Kami Qəzvini. Nəfaisül-məasir. Özbəkistan EA Biruni adına Şərqşünaslıq institutunun kitabxanasındakı əlyazmasının (inv.№800) şəxsi kitabxanamızdakı fotosurəti.

[32]Qazı Əhməd Qumi. Xülasətüt-təvarix. Tehran, 1359.

[33]Sam mirzənin «Töhfeyi-Sami» təzkirəsinin elmi-tənqidi mətnini çap etdirmiş Rüknəddin Humayun Fərruxun müqəddiməsi, Tehran, 1347, s. 16-17.

[34]Əbdi bəy. Rovzətüs-sefat. Moskva, 1974; Yenə onun. Dovhətül-əzhar. Moskva, 1974; Yenə onun. Cənnətül-əsmar Zinətül-ovraq, səhifətül-ixlas, Moskva, 1979.

[35]Sam Mirzə, Töhfeyi-Sami, Tehran, 1314, s.59.

[36]Kəsrəvi Təbrizi. Şəhriyarani-qomnam, 1-ci hissə, Tehran, 1308, s. “v”,“z”.

[37]Geniş məlumat üçün bax: Полок И. П. Vaxt və təqvim, Bakı, 1950, s 10, 29-30; Цыбульский В. В., Современные календари стран Ближнего и Среднего Востока, Москва, 1964, с.4, 11-16.

[38]Bədri Atabay. Fehresti-tarix, səfərnamə, səyahətiamə, ruznamə coğrafiyayi-xətti ketabxaneyi-səltənəti. Tehran, 1397 h.q.s,51-53.

[39]Təkmilətül-əxbar, tərcümə, s. 95.

[40]Bu məlumat istifadəmizdə olan «Təkmilətül-əxbar»ın hər üç nüsxəsinin fotosurətində qeyd olunmuşdur.

[41]«Təkmilətül-əxbar», B nüsxəsi, v. 265a.

[42]Əbdi bəy. Sərihül-mülk, Muzeyi-İrani-bastan kitabxanasındakı avtoqraf əlyazma nüsxəsinin (inv. № 3719) şəxsi kitabxanamızdakı fotosurəti, s 309-310.

[43]Məhəmmədəli Tərbiyət. Daneşməndani-Azərbaycan, Tehran, 1314 h.ş.,s. 75.

[44]İsgəndər bəy Münşi. Tarixi-aləm-arayi-Abbasi, Tehran, 1314, h.q., s.153; Nəsrüllah Fəlsəfi, Zendeqaniyi-Şah Abbasi-əvvəl, I cild, Tehran, 1332 h.ş.,s.15.

[45]Əlbəttə, Pərixan xanım bilirdi ki, islam şəriətinə görə o, qadın olduğu üçün özü taxta çıxıb, dövləti idarə edə bilməyəcəkdir. O, istəyirdi ki, şahın ancaq adı olsun, dövləti isə faktiki olaraq, atasının sağlığında olduğu kimi özü idarə etsin. Öz doğma qardaşı Süleyman mirzəni yox, tiryəki İsmayıl mirzəni hakimiyyət başına gətirməkdə əsas məqsədi bəlkə də bu idi.

[46]Geniş məlumat üçün bax: Həsən bəy Rumlu. Əhsənüt-təvarix, s.489-490; Oruc bəy Bayat, Don Juani-İrani, fars dilinə tərcümə edən Məsud Rəcəb Niya, Tehran, 1338 h.ş.,s. 165-167; Mirzə Məhəmmədxan Məlikül-Küttab. Nameyi-xosrovan, Bombey, 1867, s. 79-85; Lüğətnamə, Tehran, 1332 h.ş.,s.25-60, «II Şah İsmayıl» bəhsi və s.

[47]Həsən bəy Rumlu. Əhsənüt-təvarix, s.495-496; Şərəf xan Bidlisi. Şərəfnamə, II cild, s. 233-234; İsgəndər bəy Münşi, Tarixi-aləm-arayi-Abbasi, s. 162; Mahmud ibn Hidayətüllah Nətənzi. Nəqavatül-asar fi zikrül-əxyar, Tehran, 1350, s.60-61; Ser Con Malkolm, Tarixi-İran, I cild, Bombey, 1289, s. 189-190; Paul-horn, Tarixi-müxtəsəri-İran, fars dilinə tərcümə edəni Rzazadə Şəfəq, Tehran, 1314, h.ş.,s.89 və s. Bu və digər əsərlərdə II Şah İsmayılın ölümünün səbəbi müxtəlif cür göstərilmişdir.

[48]İran və Türkiyədə yazılmış bir sıra tarixi romanlarda da Pərixan xanımın fəaliyyəti öz əksini tapmışdır. Məs, Namiq Kamal, Cəzmi, İstambul, 1365 h.q.;

Hüseyn Məsrur. Dəh nəfər Qızılbaş. Tehran (tarixsiz). Bu sətirlərin müəllifi də «Pərixan xanım» adlı bir faciə yazmışdır. Faciə çap olunmamışdır.

Pərixan xanım haqqında geniş məlumat üçün bax: Ə. H. Rəhimov «Təkmilətül-əxbar» kimə ithaf olunmuşdur. Azərb. SSR EA Məruzələri, 1965, №5, s.93-97; О. Эфендиев. Азербайджанской государство Сефевидов в XVI веке, Baky, 1981, c.119-147.

[49]Стори Ч. А., Персидская литература, перевел с английского, переработал и дополнил Ю. Э. Брегель, часть I, Москва, 1972.C.405 (çıxarışda).

[50]Təkmilətül-əxbar, B nüsxəsi, vər.Zba.

[51]Yenə orada, vər. 196a-b.

[52]Tarixi-cahan-ara, s.282.

[53]978-ci il miladi 5 iyun 1570-ci ildən 25 may 1571-ci, 979-cu il isə miladi 26 may 1571-ci ildən 13 may 1572-ci ilə qədər davam etmişdir.

[54]Ə. H. Rəhimov. Əbdi bəy Şirazi «Təkmilətül-əxbar»ın müəllifi kimi, Azərb. SSR EA Məruzələri, 1962, №5, s 69-72; Yenə onun. Əbdi bəy Şirazinin «Təkmilətül-əxbar» əsərinin əlyazma nüsxələri və yazılma tarixi. Azərb. SSR EA Məruzələri, 1963, №7, s.93-96; Yenə onun. «Təkmilətül-əxbar» kimə ithaf edilmişdir. Azərb. SSR EA Məruzələri, 1965, №5, s.93-97; Yenə onun. Əbdi bəyin «Təkmilətül-əxbar» əsərinin tamamlanma tarixi və yazıldığı yer haqqında. Azərb. SSR EA Xəbərləri, 1984, №2, s. 66-75; Yenə onun. Əbdi bəy Şirazi. Bakı, 1970, s.19-30, 135-151 və s

[55] О. А. Эфендиев. Образование Азербайджанского государства Сефевидов и начале XVI века, Баку, 1961,c.20.

[56]Yenə onun. Азербайджанское государство Сефевидов в XVI веке, Баку, 1981, c.16-17. Baku, 1981, s.16-17.

[67]Yenə onun. О малоизвестном источнике XVI в. по истории Сефевидов. Azərb. SSR EA Xəbərləri (ictimai elmlər seriyası), 1964, №2, s.61-68.

[68]Yenə onun. Образование Азербайджанского государства Сефевидов...c 143-165, 179-199.

Üçüncü səhifə. On iki İmamlı yüksək cəlallı Səfəvi şahları haqqında - Onların hakimiyyəti əbədi olsun.

[1]Səhifə-burada yarım fəsil mənasındadır.

[2]M-də «baxtı» yazılmışdır.

[3]Müqəddəs bir hədisdir. Hədis mütəxəssislərinin bəzisi onu uydurma hesab edir, bəzisi isə ona inanmağın mümkün olduğunu yazırlar. Sufilər isə bu hədisə istinad etməyi mümkün hesab edirlər.

[4]Əli -Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni Əli ibn Əbutalib təxminən 598-ci ildə anadan olmuş, 656-661-ci illərdə xəlifə olmuş, 661-ci ildə Kufədə İbn Mölcəm tərəfindən öldürülmüşdür.

[5]12-ci imam Məhəmməd Əbülqasim Mehdi ibn Həsən 869, yaxud 870-ci ildə anadan olmuş və 5-9 yaşlarında 874-878-ci illərdə guya qeyb olmuşdur.

[6]Ələviyyeyi-Fatimiyyə-Birinci imam Əlinin Fatimədən (Məhəmmədin qızından) olan övladlarının, xüsusilə Hüseynin nəsli nəzərdə tutulur.

[7]Taleqan-İranın Gilan vilayətində bir şəhərdir.

[8]Haşimi-Məhəmməd peyğəmbər Haşim ibn Əbdülmənafın nəslindəndir. Buna görə Məhəmmədi Haşimilərə, yəni Haşimin ailəsinə mənsub edirlər.

[9]Fərat - Ərəbistandakı iki böyük çaydan biri.

[10]Hülakü xan - Çingiz xanın nəslindən olub, Elxanilər, yaxud öz adı ilə əlaqədar Hülakülər sülaləsinin əsasını qoymuşdur. 1256-1265-ci illərdə hakimiyyəti idarə etmişdir.

[11]Əbdi bəy həqiqətən Elxanilərdən, Hülakü xandan bəhs edərkən Şeyx Cəmaləddin Həsən Mütəhhər Hillinin «MünhaCül-kəramə» əsərindən yuxarıda ərəbcədən tərcümə edilmiş cümlələri sitat gətirmişdir. (M nüsxəsi, v. 154b-155a).

[12]Bəni Abbas, Abbasilər-Məhəmməd peyğəmbərin əmisi Abbasın adı ilə adlanan ərəb xəlifələrinin sülaləsi. Bu sülalə 750-ci ildən 1258-ci ilə qədər hakimiyyət başında olmuşdur. Sülalənin əsasını Əbül Abbas əs-Səffah (750-754) qoymuşdur. Hülakü xan 1258-ci ildə Bağdadı işğal edib, xəlifə Müstəsimi öldürməklə Abbasilər sülaləsinin hakimiyyətinə son qoymuşdur.

[13]Deyləm-İranın şimalında bu günkü Gilan vilayətinin bir hissəsini təşkil edən ərazidir. Deyləmdə yaşayanlar - Deyləmilər islam tarixində mühüm rol oynamışlar.

[14]Sind-Böyük bir hissəsi Pakistan və kiçik bir hissəsi Hindistana daxil olan vilayət.

[15]Bərbərlər-Şimali Afrika ölkələrində yaşayan xalqlar qrupu.

[16]Təbəristan-Ərəblər tərəfindən Elbrus dağlarının şimalında İranın Mazandaran vilayətinə verilən ad.

[17]Əbu Müslim Mərvəzi (yaxud, Xorasani - 719-755) Xorasandakı dini və siyasi hərəkata rəhbərlik edərək Əməviləri (661-750) devirmiş, Abbasiləri taxta çıxarmışdır. Xorasan, Mavəraünnəhr və İrandakı ərəb qoşunlarını və əsilzadələrini, bütün Əməvi tərəfdarlarını mərhəmətsizcəsinə məhv edən Əbu Müslim Abbasilərin hakimiyyəti zamanı Xorasanın canişini olmuşdur. Xalq arasındakı nüfuzundan qorxan xəlifə Mənsurun (754-775) əmri ilə öldürülmüşdür.

[18]Sultan Mahmud Qəznəvi-Yəminüddövlə Əbulqasim sultan Mahmud Qəznəvi (970-1030) Qəznəvilər sülaləsinin (962-1187) ən görkəmli hökmdarıdır.

[19]İbn Əlqəmi-Müəyyədəddin Əbutalib ibn Əhməd - 14 il xəlifə Müstəsimin vəziri olmuşdur. Kitab maraqlısı və elmin hamisi olan İbn Əlqəmi bəzi müəlliflərin yazdığına görə Hülakü xanı Bağdada gəlməyə təşviq etmişdir. Bağdad işğal ediləndən sonra şəhəri idarə etməyə məmur göndərilmişdir. Bir neçə ay sonra 1258-ci ildə ölmüşdür.

[20]Xutbə-xatibin, xüsusilə, cümə və bayram günlərində məsciddə dini nəsihətlərə aid söylədiyi nitq. Cümə namazında xütbə namazdan əvvəl, başqa hallarda isə namazdan sonra söylənilir.

[21] Xaricilər-İslamiyyətin ən qədim məzhəblərindən biridir. 657-ci ildə Əməvi xəlifəsi Müaviyə (661-680) ilə Əbutalibin oğlu Əli arasında hakimiyyət üstündə gedən Siffin (yaxud, Suffeyn) davası zamanı yaranmışdır. Əlinin ordusundan 12 min əsgər ondan inciyərək, cəbhəni tərk edib Hərurə qəsəbəsinə getdikləri üçün onlar əvvəlcə Həruri, sonra isə xarici adlanmışlar (Аш-Шахрастани, Книга о религиях и сектах, часть 1, Ислам, перевод с арабского, введение и комментарий С. М. Прозорова, Москва, 1984, с. 108-131).

[22]Sünnilər-Ərəb dilinə məxsus olan sunnə sözünün lüğəti mənası «işlək yol» deməkdir. Adət, ənənə, qayda və s. mənalarda işlədilir. Bu söz sonralar Məhəmməd peyğəmbərin hərəkət və əməllərini olduğu kimi qəbul edən müsəlmanlara verilən bir məzhəbin adına çevrilmişdir. Dünyanın müxtəlif ölkələrində yaşayan müsəlmanların əksəriyyətini sünnilər təşkil edir. Sünnilər Əlinin nəslindən olanların imamətliyini qəbul etmirlər.

[23] Fatimilər-Fatimə Məhəmməd peyğəmbərin Xədicədən olan ən kiçik qızı, Həsən və Hüseynin analarıdır. 632-Ci ildə vəfat etmişdir. Əvvəllər Şimali Afrikada, 909-cu ildə isə Misir və Suriyada hakimiyyəti ələ alan Übeydüllah əl-Mehdi və onun xələfləri özlərinin Əlinin nəslindən olduqlarını iddia edib, Fatimənin adı ilə özlərini Fatimilər adlandırmışlar. Onların hakimiyyəti 1171-ci ilə qədər davam etmişdir (К. Э. Босворт. Мусульманские династии, Москва, 1971,с.70-80; Ислам енсиклопедочасы, 4-cü cild, s.518-526).

[24]Müaviyə-20 il Suriyanın hakimi olan I Müaviyə ibn Əbu Sufyan 661-ci ildə Əli öldürüldükdən sonra hakimiyyəti ələ almaqla Əməvilər sülaləsinin əsasını qoymuşdur. 680-cı ildə öldükdən sonra oğlu I Yezid xəlifə olmuşdur. Fəxrəddin Davud Benaketi. Tarixi-Benaketi, Tehran, 1348 h.ş.,s.117-118.

[25]Bəni-Üməyya (Əməvilər) - 14 xəlifədən ibarət olan Əmavilər sülaləsi 651-ci ildən 750-ci ilə qədər hakimiyyəti idarə etmişlər (İslam ensiklopediyası, 4-cü cild, s. 240-258).

[26]Ali-Buyə (Buyə, yaxud Buvəyhilər) - Əbu Şca Buyə, yaxud Buvəyh tərəfindən təsis edilən bir İran xanədanıdır. 934-cü ildən 1062-ci ilə qədər fars, Xuzistan, Kirman, Cəbəl, Həmədan, İsfahan, Rey və İraqda hakimiyyəti idarə etmişlər.

[27]Çingiz xan və onun nəslinin istilaları, hakimiyyəti nəzərdə tutulur.

[28]Çingiz xanın nəslindən olan Qazan xan (1295-1304) islam dinini qəbul edib Mahmud ləqəbi almışdı.

[29]Sultan Məhəmməd Xudabəndə Ulcaytu - Elxanilər dövlətini 1304-cü ildən 1317-ci ilə qədər idarə etmişdir.

[30]Şah İsmayılın (1501-1524) şiəliyi əldə bayraq edərək, 1501-ci ildə hakimiyyəti ələ alması nəzərdə tutulur.

[31]Quran, 17-ci əl-Əsra surəsindən 81-ci ayənin bir hissəsi.

[32]Quran, 6-cı əl-Ənam surəsinin 45-ci ayəsi.

[33]İsgəndər-Makedoniyalı İsgəndər (e.ə.356-323).

[31]Cəmşid-Əfsanəvi Pişdadilər sülaləsinin dördüncü şahı. Guya 700 il yaşamış, novruzu-ilin əvvəlinci gününü bayram etmiş, şərab onun zamanında kəşf edilmişdir. Orta əsrlərdə yaşamış bir neçə şair Cəmşidin adı, həyatı ilə əlaqədar poemalar yazmışdır. Məsələn, Salman Savəci (1300-1378) «Cəmşid və Xurşid», Əbdi bəy Şirazi (1515-1580) Nizaminin «Xosrov və Şirin» poeması müqabilində «Cami-Cəmşidi» və s.

[35]Süleyman-Yəhudilərin peyğəmbəri Davudun oğlu Süleyman peyğəmbər.

[36]Səfəvilər öz nəsillərini 7-ci imam Musa ibn Səfərlə bağlayırlar. XVI-XVII əsr mənbələrində onların şəcərəsi verilir. Lakin bunun heç bir əsası yoxdur və bu şəcərə göstəricilərində, xüsusilə Firuzşah Zərringülahdan sonra bəzi ziddiyyətlər vardır (Belə ziddiyyətlərə «Təkmilətül-əxbar»ın B və M nüsxələrində də rast gəlirik). Xandəmirin «Həbibüs-siyər»ində 27-ci, onun oğlu Mahmudun «Tarixi-Şah İsmayıl və Şah Təhmasib»ində 22-ci, Qazı Əhmədin «Tarixi-cahan-ara»sında 23-cü, İsgəndər bəy Münşinin «Tarixi-aləm-arayi-Abbasi»sində isə Şah İsmayılın 28-ci sələfi 1-ci imam Əli, yaxud 7-ci imam Museyi-Kazimə çatdırılır.

[37]Quran, 61-ci əs-Səf surəsindəki 8-ci ayənin son hissəsidir.

[38]Müasir Türkmənistanın türkmən əhalisindən fərqləndirmək üçün mənbələrdə yazıldığı kimi - türkman verilir.

[39]Bayandurlar - Ağqoyunlu tayfalarından biri olan Bayandurlar Ağqoyunlu tayfa ittifaqının yaradılması və möhkəmləndirilməsində fəal rol oynamışlar. Sultan Rüstəm 1492-ci ildən 1497-ci ilə qədər hakimiyyət başında olmuşdur.

[40]Dini rəvayətlərə görə İbrahim Xəlilüllah bütxanədəki bütləri balta ilə sındırmışdır.

[41]Hüseyni - İmam Hüseynin adı ilə yaradılmış təriqət.

[42]Karkiyə Mirzə Əli 847 (1443-44)-ci ildə anadan olmuş, 883-cü (I iyul 1478) il rəbiül-əvvəl ayının 30-da atası Sultan Məhəmməd vəfat etdikdən sonra hakimiyyət başına keçmişdir. 911 (29 yanvar 1506)-ci il ramazan ayının 4-də öldürülmüşdur. Abbas kədivər, Tarixi - Gilan Tehran, 1319, h.ş.s.56-67. Mirzə Əlinin qəbir daşındakı kitabədə onun 912 (19 yanvar 1507)-ci il ramazan ayının 5-də öldürüldüyü yazılmışdır. Mənuçehr situdə, Əz Astara ta Astarabad, II cild, Tehran, 1351 ş., s. 344-350.

[43]M-də «Çəlavi».

[44]M-də «Ərçununda».

[45]Qədim İran Günəş təqviminin aylarıdır. Təqvimi-Cəlali, yaxud Ömər Xəyyamın təqviminin 10-12-ci ayları-dekabr-yanvar, yanvar-fevral, fevral-mart.

[46] Həmin təqvimin 1-2-ci ayları-mart-aprel, aprel-may.

[47]M-də «Ərçundan».

[48]Həqiqi təxəllüsü ilə Azərbaycan və fars dillərində şerlər yazan Cahanşah həqiqi (təv. 1405-1467) Qaraqoyunlu sülaləsinin (1410-1467) son və ən qüdrətli hökmdarıdır. 1467-ci ildə Ağqoyunlu Uzun Həsənlə (1453-1478) müharibədə öldürülmüşdür.

[49]Ə. T.-də «Cahanşahın övladı» yazılmışdır (s.31).F. Ş.-də göstərilir ki, Şah İsmayıl Cahanşahın nəvələrindən olan sultan Hüseyn Barani ilə Gögcə dəngiz (Göycə gölü) ətrafında görüşür (2v.5b).

[50]Ə. T.-də Sultan Hüseynin Şah İsmayılı əsir etmək istədiyi yazılmışdır (s.33).

[51]Çuxursəd-indiki Yerevan ətrafında vilayət.

[52]F. Ş.-də Şah İsmayılın Doqquzulama və ətraflarına hücumu ayrıca sərlövhə altında nisbətən geniş təsvir olunmuşdur (v. 7b-9a). Xüləfayi-raşidindən 4-cü xəlifə Əlinin (656-661) nəsli.

[53]Müasir Türkiyə ərazisində indi də həmin adla adlanan şəhərdir.

[54]İslam dinini qəbul etmiş mədinəlilər ənsar, yəni köməkçi adlanırdı.

[55]Sufi-Buradakı sufilər Şah İsmayılın atası Şeyx Heydərin tərəfdarları mənasındadır. Şah İsmayıl islam dininin şiə məzhəbini əldə bayraq edərək, müharibə apardığı üçün onun ordusunu əsasən atasının tərəfdarları-muridləri və şiələr təşkil edirdi. Buna görə tarixçilərin əsərlərində onlar sufi və qazi adlandırılır.

[56] Əksər orta əsr mənbələrində Azərbaycan dedikdə, əsasən bu günkü Cənubi Azərbaycan nəzərdə tutulur.

[57] Qazi-İslam dini uğrunda müharibə edən döyüşçülər.

[58-59]Rumlu, Şamlu, Zülqədər-Şah İsmayılın tərəfdarları olan türk dilli tayfalar.

[60]Rum-Kiçik Asiyanın şərq Hhissəsi-Anadolu vilayəti və ümumiyyətlə, indiki Türkiyə.

[61]Şam-Müasir Suriya və Fələstinin tutduğu ərazi. İndiki Dəməşq şəhəri vaxtilə Şam adlandırılmışdır.

[62]Misir-təxminən indiki Misir Ərəb Respublikasının tutduğu ərazi.

[63] Diyarbəkr-Türkiyənin cənub-şərqində ən böyük şəhər. Bu şəhər əvvəllər Amid adlandırılmışdır.

[64]Pərvanəçi-Orta əsrlərdə şahın katibi mənasında işlədilmişdir. (H. Zərinəzadə. Fars dilində Azərbaycan sözləri, Bakı, 1962, s.201). Burada isə qasid xəbər çatdıran, çağrışçı mənasındadır.

[65]Fərrux Yəsar-Şirvanşah Xəlilüllahın (1417-1462) oğludur. 1441-ci ildə anadan olmuş, 1462-ci ildə atası öldükdən sonra Şirvan taxtına çıxmış, 1500-cü ildə Şah İsmayılla müharibədə öldürülmüşdür.

[66]Sultan-Bayəzid- II sultan Bayəzid 1481-1512-ci illərdə Osmanlı Türkiyəsini idarə etmişdir.

[67]S. A-da göstərilir ki, Şah İsmayıl Qoyunölümündən qoyun ilinin novruzunda, pəncşənbə günü 21 şaban 906-cı ildə (12 mart 1501) keçmişdir

(s.265). Ş. N.-də bu hücum 907 (1501-1502)-ci il hadisələri təsvir olunarkən qeyd edilmişdir (s. 144-146).

[68] Gülüstan - Şamaxının qədim və məşhur qalasıdır. Son illərdə orada arxeoloji qazıntılar aparılmışdır (Geniş məlumat üçün bax: Г.А.Джидди. средневековой город Шемаха (IX-XVII века), Баку 1981, с. 40-43).

[69-70-71]Rüstəm, Bəhmən, İsfəndiyar - «Şahnamə» dastanının məşhur qəhrəmanlarıdırlar.

[72] Əbdi bəy də bəzi orta əsr tarixçiləri kimi Şirvanşahların nəslini iranlılaşdıraraq, Ənuşirəvan ilə bağlayırlar. Şirvanşahların əsasını ərəb Şeybani qəbiləsindən olan Yezid ibn Məzyəd (799-801) qoymuşdur (Geniş məlumat üçün bax: В.Ф.Минорский, история Ширвана и Дербенда, X-XI веков, Москва, 1963, с.43-46,155-156).

[73] Yezid ibn Müaviyə - Əməvilərdən ikinci xəlifə. Hakimiyyət dövrü 680-683-cü illər. Şiələrin üçüncü imamı Hüseyn 680-ci il oktyabrın 10-da onun göstərişi ilə Kərbəlada öldürüldüyü üçün şiələr onu nifrətlə yad edirlər.

[74]İqtida-təqlid etmək. İslam dinində hər hansı məşhur din xadiminə inanmaq, onu təqlid etmək, ardınca getmək, namaz qılanda ona iqtida etmək.

[75]Şah İsmayılın atası Heydər 1488-ci ildə Fərrux Yəsarla müharibədə öldürülmüşdür.

[76]Ş. N. və Ə. T.-də Fərrux Yəsarın 20 min süvari və 6 min piyadası, (s.43,146); T. Ş. İ.-də isə 20 min süvari, (v. 49a) 10 min piyada; F. Ş.-də isə Fərrux Yəsarın 30 minə yaxın, Şah İsmayılın isə 7 min qoşunu (v. 186) olduğu yazılmışdır.

[77]Heydəri-məzhəb-Burada Şeyx Qütbəddin Heydərin təriqəti yox (bu təriqət haqqında bax: Hüseyn Mir Cəfəri. Heydəri və Neməti, «Ayəndə» toplusu, 1984, №10-11, s.741-754), Heydər ləqəbi də daşıyan İmam Əli və yaxud Şah İsmayılın atası Heydər nəzərdə tutulmuşdur.

[78]Zülfüqar-Əli ibn Əbutalibin qılıncıdır. Bu qılınc Bədr davasında öldürülmüş Əbu Cəhlin imiş. Məhəmməd peyğəmbər onu İmam Əliyə bağışlamışdır.

[79]Sasanilər-İranda 531 il hakimiyyət sürmüş 28 nəfərdən ibarət sülalənin adıdır. Sülalənin əsasını I Ərdəşir (226-241) qoymuşdur. Son hökmdarı III Yəzdəgird (632-651) ərəblər tərəfindən məğlub edilmişdir. Orta əsr mənbələrinin bir çoxu şirvanşahların Sasanilərin nəslindən olduğunu yazmışlar.

[80]Darüssəltənə -səltənət evi, paytaxt deməkdir.

[81]Mahmudabad-İslam dinini qəbul edib Mahmud ləqəbi götürmüş Qazan xanın (1295-1304) Xəzər dənizi sahilində Salyan vilayətində saldırdığı şəhər. Mahmudabad XV əsrdə Salyan-Güştasbi vilayətinin mərkəzi olmuşdur. Sonralar naməlum səbəblərə görə yer üzündən silinmiş və hazırda harada yerləşmiş olduğu dəqiq məlum deyildir.

[82]Əhli-beyt-Ev əhli. Məhəmməd peyğəmbər, kürəkəni Əli, qızı Fatimə və nəvələri Həsən və Hüseyn. Bu beş nəfər Ali-əba da (yəni əbanın altına toplaşmış şəxslər) adlanır. Çünki Məhəmməd öz əbasını onların üzərinə çəkmişdi.

[83]Şeyx Məhəmməd Göcəci - XIV əsrin ikinci yarsında Təbrizin Şeyxülislamı, görkəmli dövlət xadimi və şairi olmuşdur. (Dövlətşah Səmərqəndi, «Təzkirətüş-şüəra» s.345-351).

[84] Əmir Zəkəriyyə Təbrizi Göcəci-Şah İsmayılın yanına gəlməmişdən əvvəl Ağqoyunlu şahlarının vəziri olmuşdur.

[85]Vilayət-Burada bizim başa düşdüyümüz əyalət mənasında deyil, «bir şey üzərində hakimiyyət» mənasındadır. Vilayətin, yəni hakimiyyətin Allah tərəfindən verildiyi söylənilir. Məhəmməd və Əli nəslinin hakimiyyəti nəzərdə tutulur (İslam ensiklopediyası, 139-cu cüz, s.316-318).

[86]Bakının mühasirəyə alınması F. Ş.-də (22b-25b) və Ə. T.-də (s.45-47) başqa tarixi mənbələrə nisbətən geniş təsvir edilmişdir.

[87]C. A.-da Şah İsmayılın Naxçıvana yola düşmə tarixi it ilinin novruzu, 907 (I mart 1502)-ci il ramazan ayının 2-ci göstərilmişdir (s.266).

[87a] Əmirül-ümərа-Əmirlərin əmiri, ordunun başçısı, ordunun ali baş komandanı.

[88] Sədarət-sədr-Ən yüksək ruhani vəzifə, dini işləri idarə edən rəhbər.

[89] Türkmanlar - Ağqoyunlular nəzərdə tutulur.

[90]Sünuk - mal və əmlakı müsadirə edən. Təbərzin-Dərvişlərin gəzdirdikləri aypara şəklində olan balta.

[91]İbrahim peyğəmbərin atası, yaxud atalığı hesab edilən bütpərəst Azərin bütlərini sındırmasına işarə etmişdir. .

[92]Muxtar ibn Əbi Übeyd əl-Səqəfi (622-687) 66 (685-686)-cı ildə Kufəni ələ keçirib şiə hərəkatını yayan, imam Hüseynin intiqamını almaq istəyən şəxs. 687-ci ildə məğlub olub öldürülmüşdür. Onun adı, hərəkatı ilə bağlı «Muxtarnamə» adlı bir dastan da yaradılmışdır.

[93]Kərbəla şəhidləri-Kərbəla çölündə, Fərat çayının sahilində Hüseynin 72 nəfərə yaxın qohumu və tərəfdarlarının 10 oktyabr 680-cı ildə öldürülməsi nəzərdə tutulur.

[94]Übeydüllah ibn Ziyad -680-684-cü illərdə Kufənin hakimi olmuşdur.

[95]Əmr ibn Səd - Kufənin valisi Übeydüllah ibn Ziyadın sərkərdəsi olmuşdur. 4000 əsgəri ilə Hüseynin dəstəsini məğlub etmişdir.

[96]Şümr ibn Zilcovşən - İmam Hüseyni öldürən şəxs.

[97]Əbdülməlik ibn Mərvan - Əməvilərin beşinci xəlifəsi, 685-705-ci illərdə xəlifəlik etmişdir.

[98]Əli ibn Hüseyn - Zeynalabidin - Şiələrin dördüncü imamı. Təvəllüdü hicri qəməri 38 (658-59)-ci il. 58 yaşında 92 (710), yaxud 94 (712)-cü ildə Mədinədə vəfat etmişdir.

[99]Əbu Müslim Mərvəzi - Yuxarıda haqqında bəhs olunmuş Əbu Müslim Xorasani.

[100]Əbu Səfər Mənsur - Abbasilərin ikinci xəlifəsi. 754-cü ildən 775-ci ilə qədər xəlifəlik etmişdir.

[101]Müiziddövlə Əhməd Buveyhi, 945-967-ci illərdə İraqda hakimiyyət başında olmuşdur.

[102]Hülakülər, yaxud Elxanilər-Çingiz xanın nəslindən olan Hülakülər 1256-cı ildən 1357-ci ilə qədər hakimiyyəti idarə etmişlər.

[103]Sultan Məhəmməd Xudabəndə-1304-1316-cı illərdə hakimiyyət başında olmuşdur.

[104]Kitab xətası olaraq sultan Məhəmməd Xudabəndənin vəfat tarixi bir il səhv göstərilmişdir. Əbdi bəyin özü əsərin əvvəlində Hülakülərdan bəhs edərkən Xudabəndənin orucluq bayramı axşamı 716-cı ildə vəfat etdiyini yazmış və Həmdüllah Mustovfinin maddeyi-tarixini sitat vermişdir (m-a157b-158a). Xudabəndə 716-cı (13 dekabr 1316) il ramazan ayının 27-də vəfat etmişdir. Onun şəvval 716 (17 dekabr 1316)-cı ildə vəfat etdiyini yazanlar da vardır.

[105]Əbusəid -1316-1335-ci illərdə Elxanilər dövlətini idarə etmişdir.

[106]Sultan Hüseyn Bayqara - Teymurilərdən olub, 1470-1506-cı illərdə Xorasanda hakimiyyət başında olmuşdur.

[107]Təqiyyə-Bir dinə və məsləkə olan etiqadı gizlətmə.

[108]Nizamülmülk-Əhmədnikar vilayətinin Nizamşahilər sülaləsinin hakimi Nizamşah Bürhan (1508-1553) nəzərdə tutulur.

[109]Sultan Murad-Ağqoyunlu sultan Yəqubun oğlu, Qum şəhərinin hakimi olmuşdur.

[110]«Həz» əbcəd hesabı ilə 908-ə bərabərdir.

[111]Siçan ili-Moqol-türk təqviminin ili nəzərdə tutulmuşdur (Geniş məlumat almaq üçün müqəddimədə bu haqda olan qeydlərə bax).

[112]Qum-İranda, Tehrandan Cənubda yerləşən qədim bir şəhərdir. İlk Abbasilər dövründə (VIII əsrin ikinci yarısında) iri yaşayış məntəqəsinə çevrilmişdir. 7-ci imam Museyi-Kazımın qızı, 8-ci imam Rzanın bacısı Fatimənin qəbri orada olduğu üçün əksər orta əsr mənbələrində Mədinətül-möminin, yaxud Məsumeyi-Qum adlandırılır. İranda Məşhəddən sonra şiələrin ikinci müqəddəs və ziyarət şəhəridir.

[113]C.A.-da «Cahanşah» (s.268); Ə. T.də «Cahanşahlu» (s.75); Ş. N.-də «Cahan şamlu» (s.146).

[114]S. A.-da göstərilir ki, «Namurad» 910-cu il şəvval ayının 5-də öküz ilinin novruzunda (16 mart 1505) məğlub olub Bağdada getdi (s. 269).

[115]Divan-Burada maliyyə işlərinə baxan idarə mənasındadır.

[116]Tiyul-Şahın dövlət torpaqları hesabına müəyyən bir ərazini müvəqqəti istifadə olunmaqdan ötrü xüsusi şəxslərə verdiyi sahədir. Tiyul sahibi (tiyuldar)

həmin torpaqdan alınan gəlirin hamısını, yaxud böyük bir hissəsini mənimsəyirdi. Tiyul sahibi hər il dövlətə «rüsum» adı ilə müəyyən məbləğ pul verməliydi.

[117]Darğa-Müxtəlif dövrlərdə müxtəlif vəzifələri ifa etmişdir. Səfəvilər dövründə darğalar maliyyə işlərinə baxır, asayişi qoruyur, cinayətkarları cəzalandırır və cərimə edirdilər. Ümumiyyətlə, darğalar şəhər və qəsəbələrdə intizamı qoruyur, inzibati işlərə baxırdı. Dəftərxana, kitabxana, bazar, mühasibat və digər idarələrin də darğaları olmuş və onlar darğalar tərəfindən idarə olunmuşlar.

[118]Bu son hadisələr C. Ə.-da hicri-qəməri 910-cu il hadisələri təsvir olunarkən verilmişdir (s.269).

[119]C. A.-da «Təbrizə» yazılmışdır (s. 269).

[120]Ə. T.-də göstərilir ki, Məhəmməd Kərani Hüseyn Kiya kimi dəmir qəfəsə saldılar. Bədəninə bal sürtdülər ki, arılar onu sancsınlar və o, əzab çəksin. Şah İsmayıl Təbəs yürüşündən qayıtdıqdan sonra Kərəni və Əbərquhdan gətirilmiş bütün nökərlərini İsfahanın meydanında yandırdı (s.84).

[121]C.A.-da «Eyni» yazılmışdır (s.269).

[122]Ə.T.-də «Yəzdi» yazılmışdır (s.82).

[123]Osmanlı sultanlarından II sultan Bayəzid 1481-1512-ci illərdə hakimiyyət başında olmuşdur.

[124]M-də «yaylaq» yazılmamışdır.

[125]Şah İsmayılın atası sultan Heydərin 1468-ci ildə Şirvana hücumu, bu hücumda iştirak edənlərdən sağ qalanlarının dindirilməsi nəzərdə tutulur.

[126]Ə. T-də göstərilir ki, Şah İsmayıl sultan Heydərin müharibəsində müxalifət edənlərin öldürülməsi üçün hökm verdi. Onların dindirilməsi Abdal bəy Dədəyə tapşırıldı. Buna görə çoxlu adam öldürüldü.

[127] M-də «Zər» yazılmışdır.

[128]C.A.-da Baba Süleyman Ustaclunun oğlu Oğlan Ümmət Çavuşlu yazılmış və hadisənin 913 (13.V1507 - 1.V.1508)-cu ildə baş verdiyi qeyd edilmişdir.

[129]Mənzil-iki duracaq arasındakı məsafə.

[130]Yasavul-çox yüksək vəzifə sahibini qoruyan şəxs.

[131]C.A.-da «oranın» (s.271), C.Ə.-da «Nəcəfin» (v.287b) yazılmışdır.

[132]F. Ş.-də «Əmir Seyid Şərifəddin Məhəmməd Şirazi» kimi verilir (v.77a).

[133]M-də «Barbək» yazılıb.

[134]Çox ehtimal ki, vaxtilə Bağdadın hakimi olmuş Cahanşahın (1436-1467) oğlu Pirbudağın (vəf.7 iyun 1467) saldırdığı bağdır. «Cahar bağ» dörd bağ deməkdir. B-də «Pirbudaq» yazılmamışdır.

[135]Şiələrin müqəddəs saydıqları Nəcəf, Kərbəla və Kazimeyndəki imamların qəbirlərini ziyarət edir.

[136]C.A.-da «Qəznə» yazılmışdır.

[137]C.A.-da «Heyzə» yazılmışdır.

[138]Əllamə-hər elmə bələd olan, çox görkəmli alim.
[139]Ə. T. və Ş. N.-də «Şərif» yazılmışdır (s. 110 və s.154).
[140]Əl-əsl Şirazi - Əsli Şirazlı olan.
[141]Ə. T.-də «Hüseyn bəy Lələ» yazılmışdır (s.110).
[142]Ə. T.-də «Məhəmməd bəy sufrəçi» yazılmışdır (s.110).
[143]Süfrəçi-Yüksək rütbəli şəxsin yanında aşbaz olan şəxs.
[144]Ə. T.-də «Nəcməddin Məsud» yazılmışdır. (s. 110).
[145]Mavəraünnəhri işğal etmiş Məhəmməd Şeybani xan 1500-cü ildə hakimiyyəti ələ almış, 1510-cu ildə Şah İsmayıl tərəfindən məğlub edilərək öldürülmüşdür.
[146]Orta əsr şiə tarixçiləri şiəliyə mənfi münasibət bəsləyən, Şah İsmayılın nəslini lağa qoyan sünni Şeybani xanın adını istehza ilə Şeybək və Şeybə xan kimi yazmışlar.
[147]Ə. T.-də göstərilir ki, Əhməd sultan Herata qaçır (s. 115-116).
[148]Ə. T.-də göstərilir ki, Əhməd Qənqərat Xarəzmə tərəf qaçır (s.115).
[149]Səkkizinci imam Əli Əbulhəsən Rzanın Məşhəd şəhərindəki məzarını ziyarət edir.
[150]Fərsəng, yaxud Fərsəx-6-7 kilometrə yaxın olan uzunluq ölçüsü.
[151]Ə. T.-də göstərilir ki, «bir gün iki gecə» orada dayandı (s.118).
[152]Ə. T.-də göstərilir ki, Əmir bəy Türkmanı 300 atlı ilə körpünün üstündə qoymuşdu (s.119).
[153]T.-də göstərilir ki, Şeybani xanın meyidini ölülərin arasından tapırlar. Şah İsmayıl əmr edir ki, başını kəsib dərisini soysunlar. Qafa tacını qızıla tutub, qədəh düzəltsinlər (s.122).
[154]«Fəthi-şahi-din-pənah» əbcəd hesabı ilə 916-ya bərabərdir.
[155]C. A.-da «qoyun ili» yazılmışdır (s.273).
[156]Mavəraünnəhr-Çayın o tayında olan. Orta əsrlərdə Amu Dəryanın sağ sahilindəki vilayətlərin ümumi adı. Sonralar bu ad altında Amu-Dərya və Sırdərya çayları arasındakı ərazi nəzərdə tutulmuşdur.
[157]Darül-ibad-Bəndələr evi deməkdir. Yəzd şəhərinə verilən ad (ləqəb).
[158]Qancu-1501-1517-ci illərdə hakimiyyət başında olmuşdur.
[159]II sultan Bayəzid-1481-1512-ci illərdə Osmanlı dövlətini idarə etmişdir.
[160]Sultan Səlim Yavuz-1512-1520-ci illərdə Osmanlı dövlətini idarə etmişdir.
[161]Hər iki əlyazmasında sultan Muradın atasının adı yazılmamışdır.
[162]Zəhirəddin Məhəmməd Babur-Teymurləngin nəslindəndir. 1483-cü ildə anadan olmuş, 1530-cu ildə vəfat etmişdir. Hindistanda Böyük Moqollar sülaləsinin əsasını qoymuş Babur «Baburnamə» adlı tarixi əsərin, əruz vəzninə aid bir risalənin və lirik şerlər divanının müəllifidir.
[163]C.A.A.-da «Həlqutu bahadır Yüzpələngi» yazılmışdır (s.275).

[164]Dövrünün görkəmli şair və tarixçisi olan Kəmaləddin Binai haqqında geniş məlumat üçün bax: A. A. M. Мирзоев, Камал ад-Дин Бинаи, Москва, 1976; Б. А. Ахмедов, Историко-географическая литература Средней Азии XVI-XVIII вв., Ташкент, 1985,с,.15-26; M. F. Axundov, Əmir Nəcm Caninin Qərşidə törətdiyi vəhşilik, nəhayət, onun Übeyd xan tərəfindən tutulub öldürülməsini lazımınca təhlil etmişdir (Geniş məlumat üçün bax: M. F. Axundov. Əsərləri, II cild, Bakı, 1961, s. 211-215).

[165]M-də «Pir Əmir Məhəmməd Mir Yusif», C. A. və Ş. N. «Əmir Məhəmməd Yusif» (s. 276, 158) yazılmışdır. T. Ə.-da sonrakı səhifələrdə Mir Məhəmməddən sonra «ibn» (oğlu) yazıldığı və bunun məntiqi səsləndiyini nəzərə alaraq, buraya da əlavə etdik.

[166]Heydəri-Heydər şiələrin birinci imamı Əli ibn Əbutalibin (656-661) ləqəblərindən biridir. Səfəvilər özlərini imamların nəslindən hesab etdiklərinə görə Şah İsmayılı da tarixçilər igidliyinə görə Əli ilə müqayisə etmiş və onu Heydər kimi olduğunu yazmışlar.

[167]Əmr Əbdəvüd-Əmr İbn Əbdəvüd-Bir ərəb pəhləvanıdır. 627-ci ildə Xəndək davasında Əli ibn Əbutalib tərəfindən öldürülmüşdür.

[168]Yeniçəri (Yeni qanun)-XIV əsrdə Türkiyədə yaradılmış dövlət xəzinəsi hesabına saxlanılan nizami türk piyadası.

[169]Şah İsmayılın ulu babası Şeyx Səfiəddinin dəfn olunduğu və o zaman şiələrin ziyarətgahına çevrilmiş Ərdəbil şəhərindəki məqbərəsi nəzərdə tutulur.

[170]C. A.-da «Şəbrəngi» (s.277) Ş. N.-də «Əmir Cəmaləddin Astarabadi» yazılmışdır.

[171]«Fəzail»-sözü əbcəd hesabı ilə 921-ə bərabərdir.

[172]C. A.-da «Əmir sultan» (s. 278); T. Ş. İ.-da «Əmir xan Mosullu» yazılmışdır (vər.83b).

[173]Oktyabr inqilabından əvvəl novruz bayramını mart ayının 9-da qeyd edərdilər. Abbas Səhhət (1874-1918) şerlərinin birində bu münasibətlə yazmışdır:

«Gəldi martın doqquzu,
Bayram etdik novruzu».

Fevral ayı 29 gün olduqda isə novruz-yeni il mart ayının 10-da olurmuş. Hazırda, əsrlərdən bəri yığışıb qalmış 13 gün tullandığına görə, novruz bayramı əsasən 21 marta düşür (Geniş məlumat üçün bax: V. V. Sibulski, göstərilən əsəri, səh.6).

[174]Əbdi bəy Bəhram mirzənin təvəllüdünu ona görə təkrar yazmışdır ki, o, siçan ilində yox, öküz ilində-novruzdan 3 gün keçmiş hicri-qəməri təqvimlə isə 922-ci ildə səfər ayının 10-da (15 mart 1516) anadan olmuşdur.

[175]Şah İsmayılın ailəsi, hərəmxanası nəzərdə tutulur.

[176]C. A.-da «Cəmçal», Ş. N.-də «Çəmçəmal» yazılmışdır (s. 278;166). Çəmçəmal, yaxud Çəmcəmal Bisütun yaxınlıqında bir şəhərdir.

[177]Həzarcərib-hazırda Mazandaranda bir vilayətin adıdır.

[178]Ə. T.-də «Əmir Dubbas» yazılmışdır (s.168).

[179]Mehdi-ülya-lüqəti mənası yüksək, ali beşik deməkdir. Şahların hərəmlərinə, qızlarına və bacılarına hörmət əlaməti olaraq verilən ümumi fəxri ad.

[180]Ə.T.-də Əmirə Dubasla əlaqədar olan hadisələr 924-cü ildə (1519) təsvir olunmuşdur (s.168).

[181]Ə. T.-də 920-ci il hadisələri təsvir edilərkən göstərilir ki, Sultan Səlimlə müharibədə Sultan Xəlilin təqsiri olduğu üçün Şah İsmayıl Kor Süleymanı Şiraza onun başını kəsmək üçün göndərir. Kor Süleyman gəlib görür ki, hamı Sultan Xəlilin hüzurundadır. Yavaşca onun qulağına deyir ki, şahın əmri belədir: sənə 12 çubuq vurub, qayıdım. Əgər əmri burada icra etsəm, sənin hörmətinə zərər gətirər. Yaxşısı budur ki, bir xəlvət yerə gedək əmri yerinə yetirib qayıdım. Xəlil sultan xəlvət bir otaqa gəlir. Kor Süleyman onun başını kəsir və özü ilə götürərək, Şah İsmayılın dərgahına gəlir (s.152).

[182]Qorçibaşı-Şahın qoruyucular dəstəsinin, şah alayının başçısı.

[183]«Xandigarın zəvalı» Əbcəd hesabı ilə 926-ya bərabərdir.

[184]Son cümlə katib tərəfindən qarışıq yazılmışdır. C. A.-da dəqiqədir. Tərcümə C. A.-ya əsasən verilmişdir.

[185]C. A. və Ş. N.-də göstərilir ki, Əmirxan Mosullunun ürəyində Mir Məhəmmədə qarşı kin-küdurət olduğuna görə, onu seşənbə günü, rəcəb ayının 6-da tutub İxtiyarəddin qalasına göndərdi və 2 gündən sonra öldürüldü (s. 279-280; 168). Ə. T.-də «Əmir Məhəmməd ibn Əmir Yusif» yazılmışdır (s. 175).

[186]C. A.-da göstərilir ki, Əmirxan və şahzadə Təhmasib cümadiəl-axır ayında (may 1522) gəldi. Əmirxal xəstələndikdən sonra yekşənbə gecəsi, şaban ayının 12-də (7 iyul 1522) ölmüşdür (s.280).

[187]Nəvvabi-Kamyab - Əbdi bəy bütün əsər boyu Şah Təhmasibi bu cür adlandırmışdır.

[188]Cilovdarbaşı - Böyük vəzifəli şəxslərin atının cilovunu tutan. Qoşunda, karvanda öndə gedənlərin başçısı.

[189]«Mirzə Şahhüseyn İsfahani» sözləri əbcəd hesabı ilə 929-a bərabərdir. Ə. T.-də 8 cümadiəl-əvvəl 929-cu ildə (25 mart 1523) öldürüldüyü yazılmışdır (s. 178).

[190]M-də və C. A.-da «Cəlaləddin» yazılmışdır (s.280).

[191]C. A. -da göstərilir ki, vəkilüs-səltənə (səltənət vəkili) olan Çayan sultan Əşərlu Ustaclu təbii əcəllə öldü. Nəşini Bağdada apardılar və mənsəbini onun naibi olan Cəlaləddin Məhəmməd Təbriziyə verdilər (s.280).

[192]C. A. və Ş. N.-də «Sulan» yazılmışdır (s.280 ;170).

[193]«Zel» sözü əbcəd hesabı ilə 930-a bərabərdir.

[194]«Axirüz-Zəman» əbcəd hesabı ilə 930-a bərabərdir. 12-ci imam Mehdi Sahibəzzamana «Axirüz-zaman» da deyilir.

[195]Qazı Cahan Qəzvininin oğlu Şərəf Cahan Qəzvini (1497-1555) dövrün gözəl şairlərindən biri olmuşdur. Onun divanının 88 vərəqdən ibarət bir əlyazması Britaniya muzeyində CH-8797 şifrəsi altında saxlanılır.

[196]T. T.-də «Cəlaləddin» yazılmışdır (s.Z).

[197]Heyrani Həmədani-XV əsrin görkəmli şairlərindəndir. «Bəhram və Nahidə», «Münazireyi-asiman və zəmin», «Münazireyi-Şeyx və morğ», «Münazireyi-şəm və pərvanə» və s. əsərlərin müəllifidir.

[198]C. A.-da Şah Təhmasibin Təbrizdə qışlaq etməsi 931-ci (1524-1525) il hadisələri təsvir edilərkən qeyd olunmuşdur (s.282).

[199]C. A.-da cümadiəl-əvvəl ayının 16-da (11 mart 1525) gəldiyi yazılıb (s.282).

[200]C. Ə.-da Qazı Cahanın tutulması və qarət edilməsi göstərilir. Öldürmək istəyirlər, lakin Bikim Mosullu qoymur (vər.298b).

[201]Quran, 15-ci əl-Həcər surəsi, 46-cı ayə. Əbcəd hesabı ilə 931-ə bərabərdir.

[202]C. A.-da Xorasan valisi Durmuş xan ibn Əbdi bəy Şamlunun vəfat etdiyi göstərilir. Vəzifəsinin qardaşı Hüseyn xana verilməsi yazılmışdır (s.283).

[203]M və C. A.-da «Caməslu» yazılmışdır (s.283).

[204]C. A.-da «Şeyxlu» yazılmışdır (s.283).

[205]C. Ə.-da ustaclularla Rumlu və Təkəlu tayfaları arasındakı müxalifət ayrısa sərlövhə altında verilmişdir (v.299a).

[206]C. A.-da cümadiəl-axır ayının 9 və 24-də (2 mart 1528 və 18 mart 1528) yola düşdüyü yazılmışdır (s.283).

[207]C. A.-da «Savucbulaq» yazılmışdır (s.283). Savuxbulaq «Soyuqbulaq» deməkdir.

[208]Tavaçı-qıvraq, cəld adam, çapar və s. deməkdir. C.A-da «Qəvaçi», Ə. T.-də «tuğaçi» yazılmışdır (s.283; 199).

[209]C. A.-da «ramazan ayının 7-də» yazılmışdır (s.273).

[210]Tümən-yüz para kənd, yüz para kəndi birləşdirən qəsəbə. Burada vilayətdən böyük ərazi mənasındadır (h. Zərinəzadə. Fars dilində Azərbaycan sözləri, s.243,245), Naxçıvan tüməni 5 şəhər, çoxlu vilayət və qaladan ibarət olmuşdur (А.А.Ализаде. Социально-экономическая и дипломатическая история Азербайджана XIII-XIV вв. Баку, 1956, с. 60).

[211]Ə. T.-də «Şərur ətrafında vuruşduqları» yazılmışdır (s.199).

[212]Ə. T.-də «Dərviş bəy» yazılmışdır (s.2()0).

[213]C. A.-da «Savucbulaq» yazılmışdır (s.283).

[214]C. A.-da «25 şəvval» yazılmışdır (s.284).

[215]Ə. T.-də göstərilir ki, Cuhə sultanın təhriki ilə Div sultan öldürüldü. Cuhə sultan vəkil oldu (s.200).

[216]C. A.-da göstərilir ki, ordu cümadiəs-sani ayının sonunda (mart ayının axırları 1528-ci il) getdi.

[217]Ə.T.-də «Cəgirgə» yazılmışdır (s.207).

[218] C. A.-da ancaq «Meydan» yazılmışdır (s.284).

[219] C. Ə.-da göstərilir ki, Zeynəş özünü xəndəyə atdı və hər iki ayağı sındı (v.300 b).

[220]Ə. T.-də «Zülfüqar ibn Noxud sultan» yazılmışdır (s.208).

[221]C. A.-da «Mabin dəşt» yazılmışdır (s.284).

[222]İbrahim sultan və onun yaxın adamlarının öldürülməsi Ş. N.-də nisbətən geniş verilib (s.176).S. Ə.-da isə bu hadisə 935-ci ildə və ayrısa sərlövhə altında daha geniş təsvir edilmişdir (v.301a).

[223]M və C. A.-da «şeşpər» (s.284), Ş. N.-də «bir xəncər» (s.177) yazılmışdır.

[224]Şatır -Böyük adamların qabağında gedib, yol açan.

[225]Qəyçaçı - Ev xidmətçisi, xidmətçi.

[226] B - də «Hüseyn xan icazə aldı ki, öz ordusuna getsin» yazılmamışdır.

[227]Hərəm - qadağan olunmuş yer deməkdir, məsələn, Kəbə hərəm, qadağan olunmuş yerdir. Saraylarda qadınlara məxsus hissə də hərəm-hərəmxana adlanır.

[228]Cübbə-geyim növü, bir növ xalatdır. Cübbədar-geyimləri saxlayan şəxs.

[229]Oymaq-Ulusun bir hissəsi, fars dilində el, tayfa, xalq mənasında işlənir.

[230]«Afəti-Təkəlu» (Təkəlunun bəlası) əbcəd hesabı ilə 937-yə bərabərdir.

[231]T. T.-də göstərilir ki, Bağdadın hakimi Məhəmməd xan Şahqubadı və Qudurmos sultanı öldürdü və onların başlarını dərgaha göndərdi (s.15).

[232]S. A.-da «xələt» yazılmışdır (s.286).

[233]Şah Təhmasibin bacısı Fatimə sultan bəyim Qaraxan Ustaclunun arvadı və Abdulla xan Ustaclunun anası idi.

[234]Cuhə sultan və Hüseyn xan münaqişəsi Ş. N.-də təsvir edilməmişdir. C. A. (s.285-286) və Ə. T.-də (s.235-236) nisbətən qısa verilmişdir. C. Ə.-da Hüseyn xanın Kəndmandan gəlib Cuhə sultanın yerini tutduğu, Əmir Səfərin Nikpey rübatında (karvansarasında) öldürüldüyü və Kərbəlada dəfn olduğu qeyd edildikdən sonra göstərilir ki, Kərbəla torpağı haqqında Mövlana Füzulinin şeri vardır. Daha sonra Füzulinin Kərbəla torpağı haqqında olan rübaisi olduğu kimi verilmişdir (v.303b).

[235]Sultan Süleyman Qanuni 1520-1566-cı illərdə Osmanlı sultanlığını idarə etmişdir.

[236]Fitrət vaxtı-Üləmənin getdiyi və Şah Təhmasibin gəldiyi günə qədər olan dövr.

[237]Fiqh-Şəriət qanunları əsasında düzəldilmiş hüquq elmi.

[238]Heyət-Astronomiya.

[239]Bu şahzadə sonralar, II Şah İsmayıl (1576-1577) öldükdən sonra sultan Məhəmməd Xudabəndə adı ilə Səfəvi taxtına çıxmış və 1578-1587-ci illərdə ölkəni idarə etmişdir. I Şah Abbasın (1587-1629) atasıdır.

[240]Şərəf bəy Rujəki-XVI əsrin görkəmli tarixçisi «Şərəfnamə» adlı əsərin müəllifi Şərəf xan Bidlisinin babasıdır.

[241]Ə. T.-də göstərilir ki, Fil paşa 50 000 süvari ilə Ülamə ilə birlikdə gəldi (s.239).

[242]Elçilik-burada və başqa yerlərdə siyasi nümayəndə mənasındadır. Şah Təhmasib Mehmandar Habil bəyi Türkiyəyə sülh müqaviləsi bağlamaq üçün göndərmişdi.

[235]Sultan Süleyman Qanuni 1520-1566-cı illərdə Osmanlı sultanlığını idarə etmişdir.

[236]Fitrət vaxtı-Ülamənin getdiyi və Şah Təhmasibin gəldiyi günə qədər olan dövr.

[237]Fiqh-Şəriət qanunları əsasında düzəldilmiş hüquq elmi.

[238]Heyət-Astronomiya.

[239]Bu şahzadə sonralar, II Şah İsmayıl (1576-1577) öldükdən sonra sultan Məhəmməd Xudabəndə adı ilə Səfəvi taxtına çıxmış və 1578-1587-ci illərdə ölkəni idarə etmişdir. I Şah Abbasın (1587-1629) atasıdır.

[240]Şərəf bəy Rujəki-XVI əsrin görkəmli tarixçisi «Şərəfnamə» adlı əsərin müəllifi Şərəf xan Bidlisinin babasıdır.

[241]Ə. T.-də göstərilir ki, Fil paşa 50 000 süvari ilə Ülamə ilə birlikdə gəldi (s.239).

[242]Elçilik-burada və başqa yerlərdə siyasi nümayəndə mənasındadır. Şah Təhmasib Mehmandar Habil bəyi Türkiyəyə sülh müqaviləsi bağlamaq üçün göndərmişdi.

[243]Übeyd, yaxud Übeydüllah xan 1533-cü ildən 1539-cu ilə qədər hakimiyyəti idarə etmişdir.

[244]Heratdakı dəhşətli aclığı Budaq Münşi Qəzvini Bəhram mirzənin dilindən şəxsən eşitmiş və «Cəvahirül-əxbar»da nisbətən geniş təsvir edilmişdir (v.304ab).

[245]1533-cü ilin baharı. C. A.-da 14 şaban 939-cu il (11 mart 1533) yazılmışdır (s.286).

[246]Ə. T.-də Əlqas mirzənin 1500 nəfər süvari ilə Astarabada göndərildiyi və Bistama çatdıqda oraya qəflətən hücum edib, özbəkləri məhv etdiyi yazılmışdır (s.244-245).

[247]Qəbaq, qəbəq, qəpəq, qabaq (balqabaq) sözündən yaradılıb. Qəpaq, yaxud qopuq oyunu orta əsrlərdə çovkan kimi məşhur olmuşdur. Hətta bir sıra orta əsr miniatürçü rəssamı öz miniatürlərində bu oyunu təsvir etmişdir. Bəzi şairlər də bu oyunun adını öz şerlərində çəkmişdir.

Ox, yaxud güllə atmaq üçün qızıl və gümüşdən düzəldilmiş, qabaq şəklində olan hədəf meydanın ortasında uzun bir ağacın üstünə qoyulur. Atlı atıcılar çaparaq

halda ona ox, yaxud küllə atarmışlar. Oxu hədəfə dəymiş atıcıya hədəfin özünü, at və xələt verərmişlər.

[248]Ə. T.-da Şah Təhmasibin Herata 939-cu il cümadiəl-əvvəl ayının 22-də (20 dekabr 1532) gəldiyi yazılmışdır (s.245).

[249]Ülamənin Bidlisə gəlməsi C. A. (s.287) və Ə. T.-də (s.246). 939-cu il hadisələri təsvir olunarkən qeyd edilmişdir.

[250]Saruq-sarımaq sözündən olub, sarıq, sarqı, çalma, bir növ əmmamə mənasında işlənilir. Səfəvi sufilərinin geydikləri xüsusi növ papaq.

[251]Ərcistan -Xorasan vilayətində Morqab çayının yuxarısında dağlıq bir nahiyədir.

[252]Məşhəd şəhərində VIII imam Rzanın məqbərəsi nəzərdə tutulur.

[253] İmam Rzanın məqbərəsinə işarədir.

[254]Ə. T.-də «Mavəraünnəhr» yazılmışdır (s.247).

[255]Cənubi Azərbaycan nəzərdə tutulur.

[256]T. Ə.-ın hər iki əlyazma nüsxəsində katib xətası vardır. Belə ki, guya Ülamə İbrahim paşanı böyük bir ordu ilə göndərmiş, özü isə onun ardınca gəlmişdir. Fikir Ə. T. əsasında təshih edilmişdir.

[257]Ə. T.-də göstərilir ki, İbrahim paşa Ülaməni 10 000 nəfərlə göndərmiş, özü isə 90 000 süvari ilə gəlmişdir  (s.247).

[258]Burada «Köç»- 23 dəfə dayanıb, dincini aldıqdan sonra yola düşmək mənasındadır. M-də «20 köç» yazılmışdır.

[259]Burada Əcəm İraqı nəzərdə tutulur. Azərbaycan da orta əsrlərin coğrafi bölgüsünə görə Əcəm İraqına daxil idi.

[260]Pişnamaz-Qabaqda namaz qılan baş ruhani.

[261]Möhtəsib-İnzibati işlərə baxan məmur.

[262]Nəsuh tövbəsi-Sidq ürəklə, səmimi qəlbdən tövbə etmək. Belə bir növbə barədə Quranın 66-cı surəsinin 8-ci ayəsində bəhs edilmişdir. Şah Təhmasib şərabxana, bəngxana, məcunxana, qumarxana və s. Haqqında 941-ci il rəbiül-əvvəl ayının 7-də (16 sentyabr 1534) fərman vermişdir. (Şah Təhmasib, məcmueyi-əsnad və mükatibati-tarixi...be ehtimami-Əbdülhüseyn Nəvai, Tehran, 1350 h.ş.,s.513-514).

[263]Əbdi bəy «Təkmilətül-əxbar»ı 978 (1570)-ci ildə tamamlamışdır. Şah Təhmasib tövbə haqqında hökmü 941-ci ildə vermişdir. 978-941-37. Deməli, Əbdi bəy bu əsəri yazarkən tövbədən 37 il keçmişdi.

C. A.-da tövbədən 939-cu il hadisələrindən bəhs edilərkən məlumat verilmişdir. (s.287).

[264]Kəbudgünbəz-göy günbəz deməkdir.

[265]Əfəb ayı-İran Günəş təqviminin səkkizinci ayı, oktyabr-noyabr aylarına uyğun gəlir. M.Ş.T.-də göstərilir ki, əqrəb ayının 5-ci gecəsi.

[266]Quran və orta əsr tarixçilərinin yazdığına görə 570-ci - Məhəmməd peyğəmbər anadan olan ildə-xristian həbəşlərin hakimi Əbrəhə əl-Şərm öz ordusu

ilə Kəbəni dağıtmağa gedirdi, (Çünki onlar ziyarət üçün Səna şəhərində kilsə tikmişdilər və Kəbəni artıq hesab edirdilər). Həbəşlərin qoşununda çoxlu fil var idi və onlar fil yolu ilə gedirdilər (Bu yol indi də bir ənənə olaraq Fil yolu adlanır). Guya Allahın əmri ilə Əbabil quşları (dağ qaranquşları) yanmış gildən düzəldilmiş və üzərində kimin öldürülməsi üçün hazırlandığı yazılmış kiçik daşları (Səccil daşlarını) onların başına salaraq, məhv edirlər. Əbdi bəy də Osmanlı ordusunun soyuqdan, gecənin şaxtasından qırılmasını Əbrəhənin ordusunun Əbabil quşlarının atdıqları daşlarla öldürülməsinə bənzətmişdir.

[267]Əfsanəyə görə Nəmrud Babil şəhərini tikdirmiş və onun hökmdarı olmuşdur (Bəzi mənbələrə görə Nəmrud, ümumiyyətlə, Babil hökmdarlarına verilən addır). Bütpərəst olduğundan İbrahim peyğəmbər onu təkallahlılığa dəvət etmiş və bütləri sındırmışdı. Nəmrud əmr edir ki, İbrahimi oda atsınlar. Ancaq od İbrahimi yandırmır, od İbrahim üçün gülüstana çevrilir. Nəmrud istəyir ki, Allahla vuruşsun, göyə ox atır. Allah onun oxunu qana bulaşmış şəkildə geri qaytarır. Nəmrud güman edir ki, Allahı yaralamışdır. Azğınlaşaraq Allahlıq iddiasına düşür. İkinci dəfə istəyir ki, Allahla vuruşsun. Allah ən zəif məxluq olan ağcaqanadlardan ibarət ordunu onuş üstünə göndərir. Nəmrudun ordusu ağcaqanadların onları sancmasından məhv olur. Bir ağcaqanad Nəmrudun burnuna girərək, beynini yeməklə onu da həlak edir. Əbdi bəy Osmanlı ordusunun soyuğun şiddətindən qırılmasını ağcaqanadların Nəmrudun ordusunu məhv etməsinə bənzətmişdir.

[268]Əsasən şiə ruhani alimlərinin yazdıqlarına görə Məhəmməd peyğəmbərin zilhiccə ayının 18-də Məkkədən Mədinəyə gedən yoldakı Ğədir ül-Xum adlı yerdə camaatın qarşısında öz kürəkəni və əmisi oğlu Əlinin əlini tutaraq yuxarı qaldırmış və özündən sonra onun xəlifə olacağını bildirmişdir. Daha doğrusu, Əli haqqında belə demişdir: «Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır», Şiələr həmin günü bayram da edirlər. 1982-ci ildə həmin gün oktyabrın 6-na, 1986-cı ildən avqustun 24-nə təsadüf etmişdi.

[269]Müqtədai-şiə-şiələrin iqtida etdikləri, yəni ardınca getdikləri şəxs, başçı, rəhbər deməkdir. «Müqtədai-şiə» sözləri əbcəd hesabı ilə 940-a bərabərdir. Deməli, dövrün görkəmli dini alimlərindən biri və 937 (1530-1531)-ci il hadisələrinin təsvirindən məlum olduğu kimi, Əbdi bəyin müəllimi olmuş Şeyx Əli ibn Əbdülali 30 iyun 1534-cü ildə vəfat etmişdir.

[270]Mülazim-daima görkəmli bir şəxsin məiyyətində olan, onu müşayiət edən şəxs.

[271]Salik-hər hansı bir təriqətə mənsub olan şəxs.

[272]C. A.-da Sultan Süleymanın Bağdaddan çıxma tarixi qoyun ilinin novruzunda-7 ramazan 941-ci il (12 mart 1535) göstərilmişdir (s.289).

[273]Ə.T-də Şah Təhmasibi zəhərləmək istəyənin adı Şamlu tayfasından, Hüseyn xanın qohumlarından Başdən Qara xan olduğu və Mavəraunnəhrə qaçdığı yazılmışdır (s.253).

[274]C. A.-da Mirzə İnayət və Yarəhməd Xuzani yazılmışdır (s.289).

[275]C. A.-da «Übeydi» yazılmışdır (s.289).

[276]Bu hadisələr C. A.-da 941-ci il hadisələri təsvir edilərkən verilmişdir.

[277]Sədrəddin Əbusəid (1305-1392)-Şah İsmayıl Xətainin ulu babalarındandır. T. T.-də Şah Təhmasib yazır ki, Ərdəbildə Şeyx Səfiəddini yuxuda gördüm, o mənə dedi ki, 20 gündən sonra zühur, yaxud xüruc edəcəkdir (s.38).

[278]Astana (kandar) - burada; Səfəvi şeyxlərinin Ərdəbildəki məqbərələri nəzərdə tutulmuşdur.

[279]T. T.-də göstərilir ki, Şah (Təhmasib özü yuxuda Əmirəlmöminin Əlini görmüş və Əli ona demişdir ki, Şeyx Səfi məqbərəsini ziyarət etməyə gəl və 12 çıraq gətir. Şeyxləri ziyarət edəndən sonra hara istəyirsənsə get (s.37).

[280]Əğroq, əğruq, əğraq-hərbi yük (h. Zərinazadə. Fars dilində Azərbaycan sözləri, s.139).

[281]C. A.-da «Əmin bəy» yazımışdır (s.290).

[282]Bukavul - Orta əsrlərdə orduda baş əmirdən sonra ən böyük şəxsiyyət sayılırmış. Ordunun bukavulu olduğu kimi ayrı-ayrı qoşun hissələrinin də bukavulu olurdu. Baş əmirdən başqa ordunun bütün heyəti bukavula tabe olurdu. Bukavul orduda nizam-intizamı qoruyur, hərbi vəzifələri, maaşları, qənimətləri hərbi hissələr, əsgərlər arasında bölüşdürürdü. Bukavul vəzifəsinə hökmdarın fərmanı ilə təcrübəli və etibarlı şəxslər təyin olunurdu (В.З.Пириев. О термине «Букавул», Azərb. SSR EA Məruzələri, 1977, № 12, s. 63-65).

[283]XVI-XVII əsr miniatürçü rəssamları Şah Təhmasibin bu balıq ovunu təsvir edən miniatürlər çəkmişlər. Belə miniatürlərdən biri Leninqrad Saltıkov-Şedrin adına Dövlət Kütləvi kitabxanasında saxlanılan «Mükalimeyi-Şah Təhmasib ba elçiyan» (Şah Təhmasibin elçilərlə söhbəti) adlı əlyazmasında çəkilmişdir.

[284]Zaviyə-guşə, künc, bucaq. Burada məntəqənin adıdır.

[285]Qissəxan - hekayə söyləyən, nağıl danışan.

[286]T.T.-də «Molla Məhəmməd qissəxan» (s.38).

[287]T. T.-də «Qiya bəy Şəkər oğlu» (s.39).

[288]İkindi zamanı-günorta ilə axşam arasında olan vaxt.

[289]T.T.-də Həsən bəy yüzbaşı (s.39).

[290]T. T.-də «5000» yazılmışdır (s.39).

[291]C. A.-da «Zahid Məhəmməd Kürdün» yazılmışdır (s.290).

[292-293]C. A.-da «Adilxar və Ərcis» yazılmışdır (s.290).

[294]C. A.-da göstərilir ki, Süleyman sultan Rumlu 30. 000 atlının getdiyini görür (s.290).

[295]T. T.-də «70 nəfər» yazılmışdır (s.40).

[296]Qəçərçi - Bələdçi, rabitəçi. T. T.-də «Çərxçi» yazılmışdır (s.41).

[297]T. T.-də «Yadigar Məhəmməd sultan» yazılmışdır (s.41).

[298]Dəlu - «Koroğlu» dastanındakı dəli, döyüşçü mənasındadır.

[299]Hər iki nüsxədə «Van dəryası» yazılıb. Van göl olduğu üçün dərya, göl kimi tərcümə olunmuşdur.

[300]Yəni gəmi ilə Şirvana getmiş.

[301]«Firdovsi» kitabı dedikdə ikinci «Xəmsə»nin beşinci məsnəvisi olan «Firdovsül-arifin» nəzərdə tutulmuşdur. Şair bu əsərində Əmirə Dubasın öldürülməsini şerlə təsvir etmişdir.

[302]C.A.-da «seşənbə günü» yazılmışdır (s.292).

[303]C.A.-da Şah Təhmasibin Ucana yayın axırında getdiyi yazılmışdır (s.292).

[304]«Zillüllahi-əbəda» sözləri əbcəd hesabı ilə 943-cü ilə (20.VI.1536-10.VI. 1537) bərabərdir.

[305]C. A.-da 10 rəbiüs-sani (26.IX.1536) yazılmışdır (s.292).

[306]Bəhram mirzənin Gilana gəlməsi və qayıtması Ə.T.-də nisbətən geniş təsvir olunmuşdur (s.278).

[307]Siyurğal (soyurğal) - irsi olaraq nəsildən-nəslə keçən mülk. Müəyyən bir ərazidə işləyən kəndlilərdən toplanılan vergilərin şah tərəfindən müəyyən adama bağışlanması. Siyurğal alan şəxs bir çox hallarda müəyyən məntəqədə tam ixtiyara malik bir mülkədar kimi sərbəst hərəkət edir və özü kəndlilərdən cürbəcür vergilər toplayırmış. Siyurqal həm əmlak, həm də nəğd pul şəklində verilərmiş. Şah Təhmasib dövründə əsasən ruhanilərə verilən torpaq sahəsi, vilayət və s. (İ. P. Petruşevski. XV əsrdə Azərbaycan dövlətləri, s. 83-86; Ş. Fərzəliyev Azərbaycan XV-XVI əsrlərdə,s.76-79).

[308]Makedoniyalı İsgəndər (e.ə.356-323) nəzərdə tutulur.

[309]İranın fars vilayətləri nəzərdə tutulur.

[310]Ə.T.-də hadisə nisbətən geniş təsvir olunmuşdur. Xacə Məlikin oğlu Xacə Kəlanın üstünə Qazıxan Zülqədər, Şahqulu sultan Əfşar və Əli sultan Tati oğlunun göndərildiyi yazılmışdır (s.281).

[311]Ə. T.-də 3 aydan sonra xəyanət nəticəsində alındığı yazılmışdır (s.281).

[312]Ə. T.-də «xayasından» asıldığı yazılmışdır (s.282).

[313]C. A.-da Əlqas mirzənin Şirvanı işğal etməyə donuz ilinin novruzunda-21 şəvvalda (12 mart 1539) göndərildiyi yazılmışdır (s.293).

[314]C. A.-da Şah Təhmasibin Mərənd çəmənindən rəbiül-axır ayının 19-da (3 sentyabr 1539) çıxdığı, rəbiül-axırın 27-də (11 sentyabr 1539) isə Biğord qalasının alındığı yazılmışdır (s.293).

[315]«Müsəxxər aməd» sözləri əbcəd hesabı ilə 945-ə bərabərdir.

[316]Şərəfəddin Bafeqi-Kirmani - Vəhşi təxəllüsü ilə gözəl qəzəl və qəsidələr yazan, XVI əsrdə Nizami ədəbi məktəbini davam etdirən şairin «Külliyyat»ı bir neçə dəfə Tehranda çap olunmuşdur.

[317]Ş. N.-də Əlqasın Şirvana hakim təyin olunması həm 939 (1532-1533), həm də 945 (1538-1539)-ci illərdə iki dəfə qeyd olunmuşdur.

[318]C. A.-da Übeyd xanın siçan ili-946-cı ildə öldüyü yazılmışdır (s.294). Ə. T.-də Übeyd xandan nisbətən geniş bəhs olunmuşdur. Onun 53 il yaşadığı, 30 il hakimiyyəti idarə etdiyi və nəhayət, 946-cı ildə öldüyü göstərilmişdir (s.294-295).

[319]C. A.-da «Miyanə» yazılmışdır (s.294).

[320]C. A.-da Qazıxanın şəvval ayının əvvəllərində (1540-cı il fevral ayının ortaları) vəfat etdiyi yazılmışdır (s.294).

[321]M-də «Həsən sultanı dünyanın pənahının dərgahına gətirdilər» yazılmamışdır.

[322]M-da «Hacilər» yazılmışdır.

[323]Şah İsmayıl Xətainin qızı olan Pərixan xanım əvvəlcə Şirvanşah II Xəlilüllaha (1524-1535) ərə verilmişdi. 1535-ci ildə əri öldükdən sonra Təbrizə qardaşının yanına gəlmişdi.

[324]Ulus-qəbilə, tayfa, el.

[325]C. A.-da göstərilir ki, Salyan, Mahmudabad və Şirvanın başqa vilayətləri tiyul olaraq Qazıxana verildi (s.294), Ş. N.-də «Bakının»da verildiyi yazılmışdır (s.189).

[326]Ş.N.-də «Luarsab» yazılmışdır. (s.189).

[327]C.A.-da göstərilir ki, 949-cu ilin payızında Şah Təhmasib Xuzistana yola düşdü. Şaban ayının əvvəlində (14 noyabr 1542) Dizfula çatdı (s.295).

[328]Müasir İraq yox, Əcəm İraqı-fars vilayəti nəzərdə tutulur.

[329]C. A.-da «sərkərdəliyi» əvəzinə «başlamişi» (başçılığı ilə) yazılmışdır (s.295)

[330]M-da «Nəzənzi» yazılmışdır.

[331]M-da «seşənbə günü» yazılmamışdır.

[332]Humayun (ibn Babur ibn Ömər Şeyx ibn Əbusəid ibn sultan Məhəmməd ibn Miranşah ibn Teymurləng) Hindistanda Böyük Moğollar sülaləsinin əsasını qoyan Baburun oğludur. Babur 1504-cü ildə Şeybani xanla müharibədə məğlub olduqdan sonra Əfqanistana hücum edib, Kabil şəhərini tutmuşdur. 1511-ci ildə Şah İsmayılın yardımı ilə Səmərqənd və Buxaranı almış, lakin Səfəvi ordusu gedəndən sonra, onu yenidən məğlub etmişlər. 1519-cu ildən başlayaraq, Hindistana hərbi yürüşlər etmiş və nəhayət, Kabildən Benqaliyayadək böyük bir ərazini idarə etmişdir. Vəfatından əvvəl böyük oğlu Humayuna Hindistanı, başqa oğlanlarına isə Humayuna tabe olmaqla Pəncab, Kabil və Qəndəharı idarə etməyi tapşırmışdı. Humayun tədricən Hindistanın başqa vilayətlərini də əlinə keçirməyə çalışır. Onun əsas rəqibi əfqan feodallarının başında durub Hindistanın Bihar vilayətini idarə edən Şirxan idi. Şirxan Humayunu məğlub edir. Qardaşlarından yardım ala bilməyən Humayun Şah Təhmasibdən hərbi yardım alıb, Hindistana getmiş, Şirxanı və sonra da öz qardaşlarını məğlub etmişdir. O, ölkəni 1556-cı ilə qədər idarə etmişdir (Истории Индии в средние века, Москва, 1968, с.381-387).

[333]Misqal-4,68 qram miqdarında ağırlıq ölçüsü vahididir.

[334]Dank- altıda bir 1/6, hər hansı ölçü vahidinin altıda biri.

[335]C. A.-da Şah Təhmasibin verdiyi hədiyyələr göstərilməmişdir (s.295). Ə. T.-də Humayunun məğlub olması, Şah Təhmasibin yanına gəlməsi, yardım alıb getməsi və s. geniş təsvir olunmuşdur.

[336]Hazır əsgərlər dedikdə Şah Təhmasibin verdiyi qoşun, qayib əsgərlər dedikdə isə gələcəkdə onlara qoşulacaq əsgərlər nəzərdə tutulmuşdur.

[337]O zamanlar Səfəvilər başlarına 12 dilimli çalma-papaq qoyur və bunu taci-şahi adlandırırdılar.

[338]On dörd məsum-Məhəmməd peyğəmbər, qızı Fatimə və on iki imam.

[339]Əbubəkr-632-ci ildə peyğəmbər öldükdən sonra xülafeyi-raşidindən birinci xəlifə. Ləqəbi Siddiqdir.

[340]Ömər-Ömər ibn Xəttab-Xülafayi-raşidindən ikinci xəlifə. Xəlifəlik dövrü 634-644-cü illər. 40-cı müsəlman olmuşdur. 644-cü ildə Əbu Lölö tərəfindən öldürülmüşdür. Ömərin qızı Həfzə peyğəmbərin arvadlarından olmuşdur. Ləqəbi Faruqdur.

[341]Osman-Osman ibn Əffan-Xüləfayi-raşidindən üçüncü xəlifə 644-656-cı illərdə xəlifəlik etmişdir. 656-cı ildə öldürülmüşdür. Məhəmməd peyğəmbərin qızı Ruqiyyənin əri olmuşdur. Ruqiyyə öldükdən sonra onun basısı Gülsümü almışdır. Peyğəmbərin iki qızının əri olduğu üçün Züşqureyn (iki nur sahibi) ləqəbi almışdır.

[342]Əfqan Sur qəbiləsindən olan Şirxanın 1545-ci ildə olan məğlubiyyəti və faciəli ölümünə işarə edilmişdir.

[343]Əbdi bəyin «Cənnati-ədn» (Cənnət bağları) adlanan və Qəzvinin Səfərabad adlı saray şəhərciyi və Səadətabad adlı parkına həsr etdiyi üçüncü «Xəmsə»sinin məlum olan yeganə əlyazma nüsxəsi Tehran universitetinin mərkəzi kitabxanasında saxlanılır. Şair 4132 beytdən ibarət olan «Cənnati-ədn»i 967 (1559-1560)-ci ildə yazıb tamamlamışdır. Qəzvinin XVI əsr memarlıq tarixini öyrənməkdə müstəsna əhəmiyyəti olan həmin məsnəvilər Nizami «Xəmsə»sinin yazıldığı bəhrlərdə nəzmə çəkilmişdir. Həmin əsərlər tərəfimizdən çapa hazırlanmışdır. Geniş məlumat üçün bax:

Əbdi bəy Şirazi, Rovzətüs-sifat, Moskva, «Nauka»,1974.

Əbdi bəy Şirazi, Dovhətül-əzhar, Moskva, «Nauka»,1974.

Əbdi bəy Şirazi, Cənnətül-əsmar, Zinətül-ovraq, səhifətül-ixlas, Moskva, «Nauka»,1979.

[344]Seyid Əbdüləzim, İmamzadə Əbdüləzim, yaxud Şah Əbdüləzim Tehran yaxınlığındakı qədim Rey şəhərindəki məqbərə və məscidlər kompleksi.

[345]Cavad-Salyan vilayətində bir nahiyənin adıdır. Keçən əsrin sonları və əsrimizin əvvəllərində Cavad qəzası adlanmışdır.

[346]Arran Qarabağı - Orta əsr mənbələrində tez-tez rast gəldiyimiz bu toponimdə bu günkü Qarabağ nəzərdə tutulmuşdur.

[347]Cənubi Azərbaycan nəzərdə tutulmuşdur.

[348]Ə. T.-də əmirlərin Samur çayı kənarında Əlqasa hücum etdikləri yazılmışdır (s.321).

[349]Kəfə-Feodosiya.

[350]Ə T-də göstərilir ki, Əlqas 40 nəfər məiyyəti ilə Şamxal tayfasının yanına getmiş və gəmiyə oturub Azaq (indiki Azov) yolu ilə Kəfəyə, ordan isə İstambula getmişdir (s.321).

[351]C. A.-da (s.297) və Ə. T.-də (s.327) Şah Təhmasibin Təbrizə 26 şabanda (12 oktyabr 1547) daxil olunduğu yazılmışdır.

[352]Orijinalda «şüarı» yazılmışdır.

[353] Malü-cəhat-əkinçilikdə əsasən məhsulla: buğda, arpa, düyü, pambıq, ipək və s.-dən toplanan vergi növüdür. Ölkənin müxtəlif vilayətlərindən müxtəlif miqdarda alınarmış. Məsələn, Azərbaycandan hasil olunan məhsulun beşdə birindən üçdə birinə qədəri alınarmış.

[354]M. Ş. T.-də «Məhəmməd xan» (v.41b) yazılmışdır.

[355]M. Ş. T.-də «Daraçird» yazılmışdır (v.41b).

[366] M-də «Küçük» yazılmışdır.

[357]C. A.-da orduların sayı göstərilməmişdir. T. T-də orduların sayı aşağıdakı şəkildə göstərilmişdir:

1. Bəhram mirzə-1800 nəfər.
2. Çıraq sultan -1500 nəfər.
3. Əliqulu bəy Türkman-2000 nəfər.
4. Daracird hakimi Allahqulu bəy-500 nəfər.
5. İç və Şabənqara hakimi Çərəndab sultan-500 nəfər.
6. Şiraz hakimi İbrahim xan-3500 nəfər.
7. Kirman hakimi Şahqulu sultan-2000 nəfər.
8. Kazerun hakimi Köpək sultan-800 nəfər.
9. Kuhkiləvə hakimi Mahmud xan-3000 nəfər.
10. Əfşar, çərik və Qəzvin qorçiləri-1600 nəfər.
11. Suklan və Ərdəbil camaatı-450 nəfər (s.53-54).

«Təzkireyi-Şah Təhmasib»dəki məlumatdan aydın olur ki, gəlib yetişməli olan qoşunların sayı 17 450 nəfər idi.

«Mükalimeyi-Şah Təhmasib»də isə həmin məlumat aşağıdakı şəkildə qeyd edilmişdir:

1. Bəhram mirzə-1000 nəfər.
2. Çıraq sultan-500 nəfər.
3. Əliqulu bəy Türkman-300 nəfər.
4. Allahqulu bəy-500 nəfər. (Daracird hakimi).
5. Çərəndab sultan-500 nəfər (İç və Neyriz hakimi).
6. İbrahim xan-2500 nəfər (Şiraz hakimi).
7. Şahqulu sultan-1000 nəfər (Kirman hakimi, Tabatadzenin
çapında Kazerun hakimi olduğu yazılmışdır (s.49).

8. Köpək sultan-300 nəfər (Kazerun hakimi, Tabatadzenin çapında Köpək sultanın adı yoxdur (s.49).

9. Məhəmməd xan-1000 nəfər (Kuhkiləvə hakimi).
10. Qəzvin qorçiləri-350 nəfər.
11. Suklan və tatarlar-200 nəfər.

«Mükalimeyi-Şah Təhmasib»in Leninqrad əlyazma nüsxəsindəki məlumatdan aydın olur ki, gəlib yetişməli olan qoşunların sayı 8150 nəfər idi.

[358]M. Ş. T.-də göstərilir ki, belə qərara alındı ki, biz Əhər şəhərinə gedib, orada dayanaq. Adları çəkilən əmirlər də gəlib, bizə qovuşsunlar. Biz olduğumuz yerdən köç elədik. Sabahı günü Çıraq sultan, Çərəndab sultan və Əliqulu boy bizə çatdılar. İkinci gün Şiraz hakimi İbrahim xan 600 nəfərlə bizim yanımıza gəldi. Allahqulu bəy də onunla gəlib çatdı. Həzrəti Xandigar Təbrizə gələndə biz Əhərdə idik (v.43a).

[359]Əbusəid (1451-1469) Cahanşah övladının dağılmaqda olan hakimiyyətini qorumaq məqsədi ilə Uzun Həsənə qarşı müharibəyə hazırlaşır. Uzun Həsən anası Sara xatunu qiymətli hədiyyələrlə sülh üçün Əbusəidin yanına göndərir. Lakin Əbusəid inadından dönmür. 1468-ci ilin payızında Cənubi Azərbaycana gəlir. Qışlamaq üçün Qarabağa gedir. Yem və azuqə çatışmadığı üçün Muğana-Mahmudabada və Xəzər dənizi sahilində olan Qızılağac ətrafına köçməyi məsləhət görürlər. Əbusəid güman edirdi ki, Şirvanşah Fərrux Yəsar ona ərzaq ( və hərbi kömək göndərəcəkdir. Lakin Şirvanşah Uzun Həsənlə müttəfiq olur. Teymurilərin atları zəhərli ot yedikləri üçün qırılır. Aclığa məruz qalan qoşun qaçıb dağılır. Qışda çox çətin vəziyyətə düşmüş Əbusəid sülh istəməyə məcbur olur. Şeyx Heydər Əbusəidin ordugahına gələrək, ordudakı ruh düşgünlüyünü, pozğunluğu gördükdən sonra sülh bağlamağı məsləhət görmür. Müharibə başlanır, Əbusəid əsir düşür. Nəhayət, müttəfiqlərin, əmirlərin, xüsusilə, Şirvan qazısının təkidi ilə Uzun Həsən onun məhvinə razı olub Xorasan taxtını iddia edən Teymuri şahzadəsi Məhəmməd Yadigarın (1469-1470) sərəncamına göndərir. O, da Əbusəidi edam etdirir (İ. P. Petruşevski XV əsrdə Azərbaycan dövlətləri, s.66-68).

[360]Əbdi bəy bu təmtəraqlı cümlələrlə demək istəyir ki, «Təkmilətül-əxbar»ı Şah Təhmasibin qızı Pərixan xanıma ithaf etmişdir.

[361]Firdovsinin «Şahnamə»sindəki «Rüstəm və Səyavuş» dastanındakı hadisələr nəzərdə tutulmuşdur.

[362] B-də «8000» yazılmışdır.

[363]C. A.-da 955-ci ilin hadisələri təsvir edilərkən göstərilir ki, Şah Təhmasib Pasində düşərgə salarkən İsmayıl mirzə onunla birlikdə Qars camaatının üstünə getmiş əmirlərlə gəlib yetişdi. O, Məhəmməd xan Zülqədər oğlunun kiçik qardaşı olan Əli bəyin başçılıq etdiyi 7-8 minlik həmin ordunu məğlub etmiş, 2000 baş və qəniməti şahın dərgahına gətirmişdi (s.298). Ə. T.də isə həmin ilin hadisələri təsvir olunarkən qeyd edilir ki, Şah Təhmasib sultan Süleymanın Məhəmməd xan Zülqədərin qardaşı Əli bəyə paşalıq mənsəbi verdiyi və qullarağacı Osman Çələbini 4000 nəfərlə Gürcüstan sərhəddində olan Qars qalasını təmir etməyə göndərdiyini eşitcək, İsmayıl mirzəni Gögcə sultan Qacarla onların üstünə

göndərdi. Rəcəb ayının 21-də (26 avqust 1548) onlar düşmənə çatıb vuruşmağa başladılar. 2000 nəfəri cəhənnəmə göndərdilər. Amasiya, Toqat, Sivas, Ağşəhər, Ərzincan, Bayburd, Kax, Tərcan, Ərzənrum və s. yerlərdən gətirilmiş 5 minə yaxın sənətkar, işçi və fəhləni öldürdülər. Camaat canlarının qorxusundan özlərini qalaya saldı. Qalanı mühasirəyə alıb, 3 gündən sonra qalada döyüşə başladılar. Qaladakılar aman dilədilər. Osman Çələbi 600 nəfərlə İsmayıl mirzənin dərgahına gəldi. Görüş zamanı Osman Çələbi qılınca əl atıb, Tuyğut bəyin çiyninə vurdu. Onlar bir daha İsmayıl mirzəyə hücum etdilər. Buna görə onların hamısını öldürdülər, qalanı xaraba qoydular və ali orduya tərəf yola düşdülər. Pasində Şah Təhmasibin ordusu ilə birləşdilər (s. 331-332).

T. T.-də isə yazılmışdır: İsmayıl mirzəni 7 min nəfərlə Qars qalasının üstünə göndərdim ki, gedib Qarsın camaatını qətl və qarət edib, oradan Ərzuruma yola düşsün (s.56).

[364]Ə. T.-də göstərilir ki, özbək Əli sultan 6000 nəfər süvari ilə Astarabada hücum etdi. Şahəli sultan Ustaclu 700 nəfərlə Cürcan meşəsindən çıxıb, Əli sultana hücum etdi. Özbəklər arxa çevirib qaçdılar. Qızılbaş igidləri özbəkləri Günbədi-Qabusa qədər təqib etdilər. Onlardan 300 nəfər öldürdülər. Onların başlarını Şah Təhmasibə göndərdilər. Şahəli sultanın qasidi Azərbaycanda Şah Təhmasibin ordusuna çatdı. Əli sultanın məğlub olma xəbərini bildirdi. Şah çox sevindi (s.330-331).

[365]M-də «kilsə» yazılmışdır. Üçkilsə-Eçmiadzin.

[366] Nəqib-seyidlərin başçısı.

[367]Ə. T. və C. A.-da Şüştərin zilhiccə ayında (yanvar 1549) mühasirə olunduğu yazılmışdır (s.336, s.298).

[368]Ə. T.-də hadisələr nisbətən geniş təsvir edilmişdir. H. Rumlu yazır ki, Şah Təhmasib Ərzincanda olarkən Sultan Süleyman Əlqasa 5000 süvari göndərir. Əlqas Həmədana gəlib, Bəhram mirzənin köç evini ələ keçirir və Qum şəhərinə yola düşür. O, şəhəri istila edir. Məhəmməd bəy Əfşarı Reyə basqına göndərir. O, Reyi qarət edib, Əlqasın yanına qayıdır. Bir aya yaxın Qumda qalıb, Kaşan şəhərini tutmağa gedir. Kaşanı alandan sonra Əlqasa xəbər çatır ki, Şah Təhmasib yaxındadır. Əlqas qorxub İsfahana gedir. İsfahanın görkəmli adamlarından Şahtəqiəddin Məhəmməd, Mir Miran, əyanlar, zadəganlar o vilayətin adamlarını şəhərə gətirib hasar çəkdirirlər. Əlqas istəyir ki, darvazaları döyüşsüz açsınlar. Açmırlar. Vuruşma başlayır. Şahtəqiəddin Məhəmməd, Mir Miran və əyanlar piyadalarla birlikdə şəhəri müdafiə edirlər. Bu vaxt xəbər çatır ki, Bəhram mirzə və İbrahim xan Kaşana çatıblar. Buna görə Əlqas Fars vilayətinə yola düşür. Yazdxas qalasını tutur. Oradan Şiraza, Şirazdan isə Səfid qalasına gedir. 5 gün orada qalır. Qalanı tutmaq çətin olduğu üçün Bəhbəhana yola düşür. Bəhbəhanın əhalisi şəhərdən qaçmışdı. Oranı yandırır və zilhiccə ayında Şüştərdə düşərgə salır. Qoşunu darvazalara hücum edir. Əmir Əbdülvahab şəhərindən çıxıb vuruşur.

Əlqas yəqin edir ki, bir şey edə bilməyəcək, ona görə Dizfula və oradan da Bayat qalası yolu ilə Bağdada tərəf kedir (s.334-336).

C. Ə.-da isə həmin hadisələr «Nankor Əlqasın müxalifəti», «Rum Xandigarının Əlqasın təşəbbüsü ilə İrana kəlməsi» və «Nankor Əlqasın İraqa gəlməsi» sərlövhələri altında 953-956-cı il hadisələri təsvir edilərkən məlumat verilmişdir. Göstərilir ki, Əlqasın rumluların yanında etibarı qalmamışdı. O, Ülamənin yanına gedib deyir ki, əgər mənə icazə versələr, Kürdüstanın içərisindən Həmədana gedib, oralara basqın edərəm. Bu basqının nəticəsi o olar ki, Qızılbaşlar sizin arxanızca gəlməkdən əl çəkər. Ülamə icazə alır və Əlqasa 1000 nəfər adam verirlər. Daha 1000 nəfər onun başına cəm olur. Həmədandan çıxıb Bəhram mirzənin arvad-uşaqlarını da özü ilə aparır. Çıraq sultanın adamlarını qarət edirlər. Əlqas İsfahanı ələ keçirmək istəyir. Şah Təhmasibin köç evi orada olduğu üçün əhali şəhəri qalaya çevirib, müdafiə edir. Əlqasın baş əmiri Məhəmməd bəy Əfşar istəyir ki, onu Əfşar tayfası içərisinə aparsın və ətrafına çoxlu adam toplasın. Gedirlər, lakin heç kim onlara qoşulmur. Şah Təhmasib əmirlərlə Bəhram mirzəni Əlqası tutmaq üçün göndərir. Əlqas Dizful və Şüştər tərəfə gedir. Adamları başından dağılır. Oradan Bağdada gedir, çünki Xandigarın yanına getməyə üzü yox idi (v.319-321b).

[368a]Əlqasın tutulması və ölməsi Ə. T.-də belə təsvir olunmuşdur: Əlqas, hakimi kürd Sorxab olan Mərivan qalasına gedir. Şah Təhmasib Əlqasın Sorxabın yanına gəldiyindən xəbər tutub, Bəhram mirzə, İbrahim xan və Şahqulu xəlifə möhrdarı 20000 süvari ilə o qəddarın üstünə göndərir. Qalib əsgərlər məzkur qalanın yaxınlığında ona çatır və məğlub edirlər. Əlqas Mərivana tərəf gedir. Sorxab Əlqas mirzəni Bəhram mirzəyə tapşırıb, Şah Təhmasibin dərgahına, Şah Təhmasib isə onu Qəhqəhə qalasına göndərir. Böyük fitnə yaxşı bir halda yatırıldı. «Vəzinik» (yaxşı vəziyyət) onun maddeyi-tarixi oldu (s.339-340).

C. Ə-da isə Şah Təhmasibin imam Rza məqbərəsinin xadimbaşısı Mir Əbdüləzim Mazandaranini Əlqasın yanına göndərməsi göstərilir. Mir Əbdüləzim Əlqası danlayır və yanına gəlməyi təklif edir. Əlqas Bəhram mirzənin oğlu Bədiüzzaman mirzənin getməsinə icazə verir. Sultan Süleyman tərəfindən sərhəd paşalarına hökm gəlir ki, Əlqasın üstünə getsinlər. Əlqas mirzə məğlub olub Ərdalana pənah aparır. O, öz adamlarını şəfaət üçün Şah Təhmasibin yanına göndərir. Şah bir mənzildə dayanıb tapşırır ki, Əlqası oraya gətirsinlər. Xəbər gəlir ki, paşalar bir daha onun üstünə gedib, onu məğlub etmiş və o, Sorxaba tərəf qaçmışdır. Bəhram mirzə əmirlərlə onun yolunu kəsməsini qərara alır. Əlqas xəbər tutub, özünü Sorxab qalasına çatdırır. Şah Təhmasib 1000 tümən verib, Əlqası almaq istəyir. Qalanın hakimi deyir ki, mən Şah İsmayılın oğlunu satmıram. Əgər Əlqası həbs etməsən, göndərərəm. Şah Nemətüllah Yəzdi gedib Əlqası qaladan çıxarır. Şah Təhmasib müxtəlif vasitələrlə Əlqası təhqir etmək istəyir. Məhinbanu sultanım xanım bundan xəbər tutub qoymur. O biri gün İbrahim xan və Həsən bəy Yüzbaşı onu Qəhqəhə qalasına aparır. Əlqas bir

müddət orada qalır və sonra ölür (v.321b-322a). M. Ş. T.-də göstərilir ki, Rüstəm paşa Bağdad hakimi Məhəmməd paşaya məktub yazır ki, Əlqasın üzərinə adam göndərib, onu ya tutub öldürsünlər, ya da qovsunlar. Əlqas qaçıb Ərdəlan yaxınlığına gəlir. Bədiüzzamanı öz nökəri Qaraca Mirəklə birlikdə barışıq üçün Şah Təhmasibin yanına göndərir. Üç-dörd gündən sonra xəbər gəlir ki, rumlular Əlqasa hücum ediblər. O, məğlub olub, Sorxab sultanın yanına qaçmışdır. Bəhram mirzə bəzi əmirlərlə onun üstünə hücum edir. Sorxab sultan Əlqası Şibilə qalasına aparıb, oradan Şah Təhmasibə xəbər göndərir ki, Şah Nemətüllahı göndərin və and için ki, Əlqası öldürməyəcəksiniz. Belə olduqda, onu sizin yanınıza göndərərəm. Şah Nemətüllah gedir və Əlqası gətirir. Şah Təhmasib İbrahim xan və Həsən yüzbaşıya tapşırır ki, onu qalaya aparıb həbs etsinlər (hansı qalaya aparıldığı yazılmayıb). Əlqas qalada onun keşiyini çəkən qarovulçulardan bəzilərinin atasını və qardaşını öldürdüyü üçün, həmin keşikçilər 5-6 aydan sonra onu qaladan çıxarıb, damdan ataraq öldürürlər (v.51a-53a).

T. T.-də göstərilir ki, Əlqas təkcə qaçıb Əzdəlanın yanına gəlir. Bədiüzzaman mirzəni sülh üçün öz mülazimi Mirzə Bağırla Şah Təhmasibin yanına göndərir. Şah heç bir cavab vermir. 3-4-gün sonra xəbər çatır ki, Bağdad hakimi Məhəmməd paşa Əlqasın üstünə hücum edib. Əlqas oradan qaçıb, Sorxab sultanın yanına gəlir. Sorxab Əlqası götürüb Şibilə qalasına gətirir. Şah Təhmasib Şah Nemətüllahı Əlqasın yanına göndərir. O, Əlqası gətirir. Şah Təhmasib İbrahim xan və Həsən yüzbaşıya tapşırır ki, onu Ələmut qalasına aparsınlar. Aparırlar. 6 gündən sonra 2-3 nəfər, Əlqas onların atasını öldürdüyü üçün onu qaladan atıb öldürürlər (s.62-64).

[369]Fitrət dövrü-Müxtəlif hakimlərin hakimiyyətləri arasındakı dövr. Yəni osmanlılarla Səfəvilərin Şirvandakı hakimiyyətləri arasındakı dövr.

[370]Xədicə-Məhəmməd peyğəmbərin birinci arvadıdır.

[371]Bilqeys Süleyman peyğəmbərin arvadıdır.

[372]B-da «Pəncşənbə günü» yazılmamışdır.

[373]B 19-da yazılmamışdır.

[374]M-də «Gəl görəsən» yazılmışdır.

[375]Ş. N.-də İspaniya (s.197), Ə. T.-də «Portuqal» (s.355) yazılmışdır.

[376]M-də «Qaraağac» yazılmışdır.

[377] M-də «əl-Həsəni» yazılmışdır.

[378]Xeybər-Mədinədən Suriyaya gedən yol üzərində bir qaladır. 628-ci ildə Məhəmməd peyğəmbər 1600 nəfərlə Xeybərə hücum etmişdir. Yəhudilərin çox möhkəm olan Xeybər qalası alındıqdan sonra onların bütün əmlakı zəbt olunmuş, əhalisi əkinçi kimi işləməyə məcbur edilmişdir.

[378a]Ş. N.-də göstərilir ki, onları Bidlisə göndərdilər (s.198).

[379]Ş. N.-də Ərcişin 4 ay mühasirə olunduğu yazılmışdır (s.198).

[380]Ş. N.-də Əlibəy Türkman Cəlilu yazılmışdır (s.198).

[381]Sancaq -Vilayət, nahiyə mənasındadır.

[382]Şah İsmayıl Xətainin qızı olan Məhinbanu sultanım xanım 925 (1519)-ci ildə anadan olmuş, ömrü boyu ərə getməmiş, həmişə xeyirxah işlər görmüş, cəzaları yüngülləşdirməyə çalışmış və s. Əbdi bəyin göstərdiyi kimi Şah Təhmasib bu bacısının xətrini çox əziz tutar və onun arzu və istəklərini həmişə yerinə yetirərmiş. Buna görə də Sultan Süleymanın arvadı və qızı sülh haqqında məktubla əvvəlcə ona müraciət etmişlər.

[383]«Məkri-Rüstəm» sözləri əbcəd hesabı ilə 960-a bərabərdir.

[384]«Setəmi-mükərrər» sözləri də əbcəd hesabı ilə 960-a bərabərdir.

[385]Ramazan ayında müsəlmanlar oruc tuturlar.

[386] M-də «Ğəçərçi yazılmışdır.

[387]Kəşfiyyata.

[388]B-Tərsəran.

[389]Ş. N.-də İsmayıl mirzənin evlənməsi 961 (1553-1554)-ci il hadisələri təsvir edilərkən qeyd olunmuşdur.

[390]Ə. T.-də göstərilir ki, İbrahim xan Zülqədər 14 rəbiül-əvvəldə (6-fevral 1555) qəzəbə düçar oldu (s.391).

[391]C. A.-da «Ədhəmin oğlu Şahrux bəy» yazılmışdır (s.302).

[392] Ə. T.-də «Əli sultan Tati oğlu» yazılmışdır (s.391).

[393]M-də İsmayıl mirzənin nə vaxt yola düşməsi yazılmamışdır.

[394]Əbdi bəy bu maddeyi-tarixini bir qədər mürəkkəb yazmışdır. Şair-tarixçi göstərir ki, bu maddeyi-tarixin təklik rəqəmi 3-dür. Onluq rəqəmi isə 2 dəfə üçdür, yəni 3+3=6. 6-nı isə onluq edəndə 60 olur. Beləliklə, tarixin təklik və onluğu 63 olur. Yüzlüyə gəldikdə isə bu hər ikisinin, yəni təkliklə onluğun cəminə 3+6=9. Doqquzu isə yüzlük etdikdə 900 olur. Deməli, Sədr Əsədüllah Şüştəri 963 (1556)-cü ildə vəfat etmişdir. Maddeyi-tarixin tapılmasında bizə kömək etmiş filoloji elmlər namizədi M. Sultanova öz təşəkkürümüzü bildiririk.

[395]Orta əsrlərdə quraqlıq zamanı Allahdan yağış istəmək məqsədi ilə çölə müəyyən bir yerə çıxıb, dua oxuyardılar. Çöldə dini mərasim icra edilən bu yer müsəlla adlanır.

[396]C.A.-da əmirlərin Qəzvindən şaban ayının 10-da (28 may 1558) çıxdıqları yazılmışdır.

[397]M-də «qışlağında» yazılmışdır.

[398]Əbanın öldürülməsi C. Ə.-da ayrısa sərlövhə altında nisbətən geniş təsvir edilmişdir (v.326b).

[399]Şah Təhmasibin Qəzvində köhnə dövlətxanadan yeni tikilmiş Dövlətxanaya köçmə tarixini Həsən bəy Rumlu və digər tarixçilər qeyd edərkən XVI əsr şairlərindən Möhtəşəm Kaşinin yazdığı maddeyi-tarixdən bir misranı sitat gətirirlər. Bu misrada maddeyi-tarix «behişti-bərin» və «xeyrül-mənazil» sözlərində verilmişdir. Təəssüf ki, hər iki tarix dəqiq deyildir. Onların hər biri ayrı-ayrılıqda əbcəd hesabı ilə 969-a bərabərdir. Buradan isə belə nəticə çıxır ki, guya Şah Təhmasib yeni dövlətxanaya 969 (11.X.1561-31.VIII.1562)-cu ildə

köçmüşdür. Ancaq göstərmək lazımdır ki, həsən bəy Rumlu Şah Təhmasibin yeni dövlətxanaya köçməsini 965-ci il hadisələrini yazarkən qeyd etmişdir (s.405). Geniş məlumat üçün bax: Ə. H. Rəhimov, Qəzvin Çehelsütunu. Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1978, №3, s.21-27.

[400]Ğədir bayramı-Məkkədən Mədinəyə gedən yol üzərində Ğədirül-xum adlı yerlə əlaqədardır. Əli övladı və hətta sünnilər arasında yayılmış rəvayətə görə Məhəmməd peyğəmbər Hüdeybiyyədən, bəzilərinə görə «Həcül-vida»dan (son həcdən) dönərkən burada Əli ibn Əbutalib haqqında demişdir: «Mən kimin mövlasıyamsa Əli də onun mevlasıdır». Şiələr bunun üçün müəyyən gün təyin etmiş və o günü yəni 18 zilhiccəni bayram edirlər.

[401]Məhəmməd peyğəmbərin anadan olduğu gün, bu gün də müsəlman ölkələrində «mövludi-peyğəmbər» adı ilə bayram edilir.

[402]Ş. N.-də «2-3 min ev» yazılıb (s.203), C. A.-da 2 dəfə sel gəldiyi qeyd edilmişdir (s.304).

[403]Müasir Türkiyə ərazisindədir, indi də Kağızman adlanır.

[404]B-də «birə iki» yazılmışdır.

[405]Xarvar-Ağırlıq ölçü vahididir. Bir Təbriz xarvarı 30,0 kq-a bərabərdir. Bakıda bir xarvar 400 kq hesab olunur.

[406]M-də səhv olaraq «946» yazılmışdır.

[407]Yuxarıda göstərildiyi kimi Bayəzid Qəzvinə 3 noyabr 1558-ci ildə gəlmişdir.

[408]C. A.-da «Hərəm yüzbaşısı Əli ağa və Ağsa səfil» yazılmışdır (s.305).

[409]Hər iki nüsxədə səhv olaraq «Sultan Süleyman» yazılmışdır. C. A. (s.305), M. Ş. T. və T. T.-də (s.78) «Sultan Səlim» yazılmışdır.

[410]Əbdi bəy həqiqətən Bayəzidin Şah Təhmasibə pənah gətirməsini üçüncü «Xəmsə»sinin «Zinətül-ovraq» adlanan 4-cü məsnəvisində təsvir etmişdir (Bax: Əbdi bəy Şirazi, Zinətül-ovraq, Moskva, 1979, s. 61-94).

[410a] – Xəzər dənizində orta əsrlərlərdə bir neçə, hazırda isə bir ada Ağrıca, yaxud, Kerladi adlanır. Bartold, III c., s. 64, VIII s., s. 80. Материалы по истории Средней и Азии X - XIX vv. Taşkent, 1988, s. 142.

[411] Hacıtərxan - indiki Həştərxan şəhəri.

[412]T. T.-də «Məhəmməd» yazılmışdır (s.78).

[413]Səkbanbaşı - İt saxlayanların başçısı.

[414]Çaşnigir - hökmdarların, şahzadələrin yeməklərini qabaqcadan yoxlayan və bununla da yeməyin zərərsiz olduğunu müəyyənləşdirən adam.

[415]Təzkirələrdə Qazı Ətaüllah Razi kimi də qeyd edilmişdir.

[416]Bütün misra əbcəd hesabı ilə 967-yə bərabərdir.

[417]Orta əsrlərdə türk xalqlarında hər şeydən (məs.,qul, at və s.) 9 ədəd hədiyyə vermək, yaxud göndərmək adət olmuşdur.

[418]Bakı-Zaxoder nüsxəsi burada qurtarır.

[419]Ordunun katibi-Ordunun salnaməçisi, orduda baş verən hadisələri yazan, qeyd edən.

[420]«Behişti-bərin» əbcəd hesabı ilə 969-a bərabərdir.

[421]İmam Museyi-Kazımın qızı Fatimənin Qum şəhərindəki məqbərəsi ətrafındakı qəbiristanlıq nəzərdə tutulur.

[422]«Dövləti-şahi-zəmanə baqi bad» sözləri əbcəd hesabı ilə 969-a bərabərdir.

[423]C. Ə.-da göstərilir ki, Məhinbanu sultanım xanım çaharşənbə günü cümadiəl-əvvəl ayının 14-də (19 fevral 1562) vəfat etdi. Nəşini şahzadə Hüseynə (Qəzvində ziyarətgahdır), sonradan isə Mir Təqiəddin Məhəmməd sədr, Molla İmadəddin Qari və Yulqulu bəy eşikağası Quma apardılar. Molla Müin Astarabadi maddeyi-tarix yazdı: Tarix «binti-Şah İsmayıl» (Şah İsmayılın qızı) sözlərində verilmişdir (s.329). Ş. N.-də göstərilir ki, Şah Təhmasib Məhinbanunun tabutunu Məzari-Hüseynə qədər müşayiət etdi (s.207).

[424]Bayəzidin 4 oğlu ilə öldürülmə tarixi «zümrə-osmaniyan 252+722 və «5»-də verilmişdir. Daha doğrusu, 252-(-722-5=969). Budaq Münşi Qəzvini də Əbdi bəyin maddeyi-tarixinin son misrasını «pənc kəm əz zümreyi-osmaniyan»ı onun adından onların öldürülmə tarixi kimi qeyd etmişdir (v.329b).

[425]Qibris-Kür.

[426]Əşrəfi-Orta əsrlərdə tədavüldə olan qızıl pul. C. A.-da 30 min tümənə bərabər olan 15 min Qibris əşrəfisi yazılmışdır (s.308). 42 Məskukat-sikkəli pul.

[427]C. A.-da göstərilir ki, İsa xan aznaurlar ilə içir və donuz ətindən kabab yeyirdi. Onun yaxın adamları bunu Şah Təhmasibə xəbər verir və deyirlər ki, o qaçmaq xəyalındadır. Axır çaharşənbə günü, rəbiüs-sani ayının 26-da (23 dekabr 1562) tutulur (s.308). C. Ə.-da göstərilir ki, atasından üz döndərib Şah Təhmasibin yanına qaçan İsa xanın atının nalından xaç, büt surəti (şəkili) tapdılar və onu Ələmut qalasına göndərdilər (v.329b).

[428]C. Ə.-da göstərilir ki, sədarət iki hissəyə ayrıldı: İraq, fars, Xuzistan və Şirvan Mir Məhəmməd Yusif Astarabadiyə, Azərbaycan və Xorasan Mir Seyid Əli Şüştəriyə verildi (v.330b). Ş. N.-də isə göstərilir ki, Əmir Təqiəddin sədrlikdən çıxarıldı. Baş vəzirin yerini iki nəfər tutdu: İraq, Fars və Kirman Əmir Şəmsəddin Əmir Yusif Astarabadiyə, Xorasan, Azərbaycan və Şirvan keçmiş baş vəzir Əsədüllah Mərəşi-Qəzvininin oğlu Əmir Zeynəddin Seyid Əliyə verildi (s.209). Ə. T. və C.A.-da qeyd edilmişdir ki, 970-ci ildə Əmir Təqiəddin Məhəmməd sədrlikdən çıxarıldı. Zilqədə ayında (iyul 1563) İraq, fars və Xuzistanın sədarəti Mir Məhəmməd Yusif Astarabadiyə, zilhiccə ayının ortasında (avqust 1563) isə Şirvan, Xorasan və Azərbaycanın sədarəti Əmir Zeynəddin Əliyə verildi (s 419 və s.308).

[429]C. A. və Ə. T.-də göstərilir ki, Pirməhəmməd xan öz dayısı Tülək bahadırı üzr istəmək üçün göndərdi (s.309 və s.421).

[430]C. A.-da «15»-də yazılmışdır (s.309).

[431] Ş. N.-də dəbəlik xəstəliyi -«qrıja» yazılmışdır (s.212).

[432]C. A.-da «Büryan» yazılmışdır (s.310).

[433]Ə. T.-də «Hüseyn» yazılmışdır (s.426).

[434]Ə. T.-də «Rərəbiül-axır» (21 noyabr 1564) yazılmışdır (s.426).

[435] «Məmuri-Herat» əbcəd hesabı ilə 972-yə bərabərdir.

[436]Quran, 7-ci surə, 40-cı ayədən bir hissə.

[437]Əbdi bəyin yazdığı bu şer onun astronomiya elmindən xəbərdar olduğuna dəlalət edir.

[438]Qazı Əhməd Qaffari Qəzvinin «Tarixi-cahan-ara» əsəri bununla bitir. Daha doğrusu, hicri 972-ci il (9.VIII.1564-28.VII.1565) hadisələrinin təsviri ilə bitir.

[439]«Heyf Seyid Şərif Baqi, heyf» sözləri əbcəd hesabı ilə 973-ə bərabərdir.

[440]«Şirin şəvval» sözləri əbcəd hesabı ilə 973-ə bərabərdir.

[441]Osman -Osman ibn Əffan (644-656) xüləfayi-raşidindən üçüncü xəlifə. Həm də osmanlı sultanlığının əsasını qoymuş Ərtoğrulun oğlu Osman (1281-1324) nəzərdə tutulmuşdur.

[442]Əbubəkr -Xüləfayi-raşidindən birinci xəlifə. Xəlifəliyi 632-634-cü illərdə olmuşdur.

[443]Əlyazmasında pozulmuşdur.

[444]Ömər ibn Xəttab -Xüləfayi-raşidindən ikinci xəlifə. Xəlifəliyi 634-644-cü illərdə olmuşdur.

[445]«Ömər ibn Xəttab» sözləri əbcəd hesabı ilə 975-ə bərabərdir.

[446]Ş. N.-də Xanəhmədin məğlubiyyəti və tutulması bir qədər geniş və fərqli verilmişdir (s.219-222).

[447]«Zələmə» əbcəd hesabı ilə 975-ə bərabərdir.

[448]«Dövləti-Təhmasib şəh baqi» sözləri əbcəd hesabı ilə 975-ə bərabərdir.

[449]C. Ə .-da göstərilir ki, Sam mirzə, oğlanları və Əlqasın oğlanlarının qatili Məhəmməd bəy Qoyunçuoğlu Piri bəyin yanına gedir. Əmirxan Mosullu Vəraminə Piri bəyin üstünə gedib, onu öldürdür. Qoyunçuoğlunu tutub gətirir və həbs edirlər... (v.336a)

Qazı Əhməd Quminin «Xülasətüt-təvarix» əsərində hadisə və tarix daha dəqiq təsvir olunmuşdur: O, yazır ki, Sam Mirzə iki oğlu ilə Qəhqəhə qalasına göndərilir. O, qalada həbs olunan İsmayıl mirzəyə bir qəsidə yazıb göndərir. Qəsidədə xahiş edilirdi ki, əgər hakimiyyət sənə çatsa, məni bir yerə hakim təyin edərsən. Qəhqəhənin qalabəyi Həbib bəy Ustaclu həmin qəsidəni başqa kağızlarla İsmayıl mirzədən alıb, Şah Təhmasiba göndərir. Şah Təhmasib qəsidəni görüb, Sam mirzədən bədgüman olur. Məhəmməd bəy Qoyunçuoğlunu 30 nəfər qorçi ilə gizlicə çağırtdırıb deyir ki, mənim qalada 5 düşmənim vardır. Həbib bəyə hökm yazır ki, Məhəmməd bəyin sözü bizim sözümüzdür, əməl edin. Məhəmməd bəy qalaya çatıb deyir ki, Əlqas mirzənin oğlanları, Sam Mirzə və onun oğlanlarını bir yerə cəm edin. Məhəmməd bəy onların yeməklərinə zəhər qatıb göndərir. Onlar

işi başa düşüb, yemirlər və öz mənzillərində olan bəzi ehtiyatda qalmış yeməklərlə dolanırlar. Məhəmməd bəy belə qərara gəlir ki, onları gecə yuxuda olduqları vaxt boğub öldürsünlər. Əvvəl Sam mirzənin oğlundan başlayırlar. Birini yuxuda ikən boğurlar. Digəri isə ayılıb istəyir ki, özünü arxadan atasına çatdırsın, onun da işini bitirirlər. Sam mirzəni öldürmək istədikdə əsasını götürüb onları vurur. Qorçilər ipi onun boğazına salıb boğurlar. 5 nəfəri qalada dəfn edib, məsələni Şah Təhmasibə xəbər verirlər. Şah Təhmasib divanxanaya gəlib deyir ki, Sam mirzə, övladları və Əlqasın oğlanları qalada bir mənzildə olarkən zəlzələ olub, tavan onların üstünə uçub və onlar ölüblər. Bir müddətdən sonra Şah Təhmasib onların cəsədlərini qaladan gətirtdirib ata-babalarının məqbərələri olan Kəlxuran kəndində dəfn etdirir.

Bu hadisə 975-ci ilin cümadiəs-sani ayında (3.II.1567 - 1.I.1568) baş vermişdir. Sam mirzə öldürülərkən 51 yaşı olmuşdur. O, 21 şaban 923-cü (10 sentyabr 1517) ildə anadan olmuşdur (Qazı Əhməd Qumi. Xülasətüt-təvarix, Tehran, 1359 h.ş.,s.550-555).

Şübhəsiz ki, Əbdi bəy də Qazı Əhməd Quminin yazdığı dəqiq məlumatı bilmiş, lakin əsil həqiqəti yazmaqdan çəkinmişdir. Şah Təhmasibin verdiyi məlumata əsasən Sam mirzənin zəlzələ nəticəsində öldüyünü yazmışdır (Geniş məlumat üçün bax: Ə. H. Rəhimov, Sam mirzənin öldürülmə tarixi, öldürülməsinin səbəbi və qatili. «Elm və həyat» jurnalı, 1989, № 4, s.15-17).

[450]«Fəzlüllah» sözü əbcəd hesabı ilə 976-ya bərabərdir.

[451]Ehram-Kəbənin yaxınlığında müqəddəs yerə-hərəmə (qadağan olunmuş yerə) çatdıqda, zəvvarlar-ziyarətə gələnlər öz paltarlarını çıxarıb, kəfənə oxşar ağ, təmiz örtüyə bürünürlər. İndi uzun ağ köynək geyirlər.

[452]Orta əsrlərdə Şərqdə böyük, müqəddəs, mərkəz, paytaxt olan şəhərlərə əlavə adlar, ləqəblər verilərmiş. Məkkəyə müəzzimə (böyük), Mədinəyə münəvvərə (nurlu), Nəcəfə əşrəf (şərafətli) və s.

[453]II Sultan Bayəzid Osmanlı dövlətini 1481-1512-ci illərdə idarə etmişdir.

[454]II Sultan Məhəmməd Fateh Osmanlı dövlətini 1444-1446 və 1451-1481-ci illərdə idarə etmişdir.

[455]I Sultan Səlim Yavuz Osmanlı dövlətini 1512-1520-ci illərdə idarə etmişdir.

[456]Şübhəsiz ki, nəzərdə Mərc Dəbiq tutulmuşdur. 1516-cı ildə Qancunu burada məğlub etmişdir.

[457]Hərəmeyni - Şərifeyn - Məkkə və Mədinə şəhərləri.

[458]II Sultan Süleyman Qanuni Osmanlı dövlətini 1520-1566-cı illərdə idarə etmişdir.

[459]«Əs-sülh xeyr» sözləri əbcəd hesabı ilə 969-a bərabərdir.

[460]Əlyazmasında xəttat xətası olaraq «874» yazılmışdır.

[461]II Sultan Səlim Osmanlı dövlətini 1566-1574-cü illərdə idarə etmişdir.

[462]Şirvanşah I Xəlilüllahın (1417-1462) oğlu, ləqəbi Şirvanşah olan Fərrux Yəsar Şirvan dövlətini 1462-ci ildən 1500-cü ilə qədər idarə etmişdir.

[463]Fərrux Yəsardan sonra oğlu Bəhram bəy Şirvanşah olmuş və ölkəni təxminən 1 il idarə etmişdir. O, öz əcəli ilə öldükdən sonra qardaşı Qazı bəy Şirvanşah olmuş və ölkəni təqribən 6 ay idarə etmişdir. (С.Ашурбейли. Государство Ширваншахов, s.262-265).

[464]Şeyxşah, yaxud II Şeyx İbrahim Şirvan dövlətini 1502-ci ildən 1524-cü ilə qədər idarə etmişdir.

[465]II Sultan Xəlilüllah Şirvan dövlətini 1524-cü ildən 1535-ci ilə qədər idarə etmişdir. O, I Şah İsmayılın qızı Pərixan xanımın birinci əri olmuşdur.

[466]Çox ehtimal ki, Ağqoyunlu sülaləsi nəzərdə tutulmuşdur.

[467]Mir Əbdülkərimin hakimiyyət dövrünü Rabino 917-932 (1511-1526)-ci illər kimi göstərmişdir (H. L- Rabino. Səfərnameyi-Mazandaran və Astarabad. Fars dilinə tərcümə edəni Qulaməli Vəhid Mazandarani, Tehran, 1336 h. ş. (s-190).

[468]Mir Şahinin hakimiyyət dövrünü Rabino 932-939 (1526-1533)-cu illər kimi göstərmişdir (s.190).

[469]Mir Abdullanın hakimiyyət dövrünü Rabino 939-968 (1533-1561)-ci illər kimi göstərmişdir (s.190).

[470]Mir Sultan Murad xanın hakimiyyət dövrünü Rabino 969-972 (1562-1564)-ci illər kimi göstərmişdir (s.190).

[471]Rabino zəhər qəbul etməklə özünü öldürdüyünü yazmışdır (s.190).

[472]Rabino Ağa Rüstəmin hakimiyyət dövrünü 897-917 (1492-1511 )-ci illər kimi göstərmişdir (s.195).

[473]Rabino Ağa Məhəmmədin hakimiyyət dövrünü 917-923 (1511-1517)-cü illər kimi göstərmişdir (s.190).

[474]Ruhuləmin - Cəbrayılın ləqəblərindən biri.

[475]Hülul-daxil olma, girmə (yəni Cəbrayılın ruhu ona daxil olub).

[476]Müqəddimədə göstərildiyi kimi Əbdi bəy «Təkmilətül-əxbar»ın 4-cü babını (hissəsini) 2 məqalə (fəsil) və 3 səhifəyə (yarımfəslə) bölmüşdür.

[477]Teymurilər, Teymurləngin nəslindən olan sülalə nəzərdə tutulur.

[478]Sultan Hüseyn Bayqaranın 5 may 1506-cı ildə öldürüldüyü də yazılmışdır (Узбекистон ССР tarixi, 1 c., Toşkent, 1970,s526).

[479]Şah İsmayıl Şeybani xanı 1510-cu ilin dekabr ayında Mərv şəhəri yaxınlığında məğlub etmiş və o, bu zaman öldürülmüşdür. (Azərbaycan tarixi 1 s.,s.246).

[480]Sultan Səlim 1514-cu ildə Çaldıran müharibəsində Şah İsmayıla qalib gəldikdən sonra Təbrizə gəlmiş və Bədiüzzaman mirzəni Türkiyəyə aparmışdı.

[481]Dövrünün görkəmli alim, şair və tarixçisi olan Babur 888 (14 fevral 1483)-ci il məhərrəm ayının 6-da anadan olmuş, 937 (26 dekabr 1530)-ci il cümadiəl-əvvəl ayının 6-da 47 yaşında vəfat etmişdir. «Baburnamə»nin rus dilinə tərcüməsinə yazılmış müqəddimə (s.6), «Qeydlər» (s.480). Babur haqqında geniş

məlumat üçün bax: Zaxiraddin Muxammed Babur. Tanlanqan asarlar, Toşkent, 1952; С. А. Азимджанова. Государство Бабура в Кабуле и в Индии, Москва, 1977.

[482]Məhəmməd Humayun haqqında geniş məlumat üçün bax: Qiyasəddin Məhəmməd Xandəmir. Qanuni-humayuni, yaxud humayunnamə, Kəlküttə, 1940, farsca; Qulbadan Beqim. Humokjama, Toşkent,1959.

[483]«Humayun padşah əz bam oftad» sözləri əbcəd hesabı ilə 962-yə bərabərdir.

[484] Əkbər şah Hindistanı 1556-1605-ci illərdə idarə etmişdir.

[485]Bayram xan Baharlu-Nəslən Azərbaycanlı olan istedadlı sərkərdə və gözəl şair haqqında geniş məlumat üçün bax: Г.Ю.Алиев. Байрам хан Туркменский поэт, Ашхабад, 1969.

[486]Seyid Əli Rəisin «Miratül-məmalik» əsərinə yazılmış adlar göstəricisində Süleyman şahın oğlu İbrahimin Pir Məhəmməd xanın buyuruğu ilə «Kürək bahadır» tərəfindən öldürüldüyü yazılmışdır. Сейди Али Раис. Miratül mamolik, Toşkent 1963, s.137.

[487]Z.N.-də «Qaculi» kimi yazılmış və onun Teymurləngin 8-ci babası olduğu göstərilmişdir (s.186).

[488]«Yesuqey» yazılmışdır (s.190).

[489]Z. N.-də Çingiz xanın 20-zilqədə 549-cu (26 yanvar 1155) ildə anadan olduğu göstərilmişdir (s.72).

[490]Temuçin-dəmirçi deməkdir.

[491]Moğol-Orta əsr mənbələrində «monqol» yox, «moğol» yazılmışdır. Müasir tədqiqat əsərlərində ancaq Məhəmməd Baburun Hindistanda təsis etdiyi sülalə «moğollar» adlanır.

[492]Çingiz xanın tacirlərinin Otrarda şəhərin hakimi İnalçik tərəfindən soyulması və öldürülməsi, həmçinin bununla əlaqədar olaraq Xərəzmşah Qütbəddin Məhəmmədlə Çingiz xan arasındakı ziddiyyət haqqında geniş məlumat üçün bax: Şixab Ad-Din Muxammad an-Nasavi. Жизнеописание Султана Джалал ад-Дина Манкбурны, комментарии, примечания и указатели З. М. Буниятова, 1973, с.78-79; Махмуд ибн Вали. Море тайн, введение, перевод, примечания, указатели Б. А. Ахмедова, Ташкент, 1977, с.15 və с.

[493]Maçin-Cənubi Çin, Mancuriya.

[493a]Oktay qaan Çingiz xanın üçüncü oğludur. 1227 (yaxud-1229)-1241-ci illərdə hakimiyyət başında olmuşdur.

[494]Çingiz xana qarşı qəhrəmancasına mübarizə aparan Cəlaləddin Mənkiborni (1220-1231) haqqında geniş məlumat üçün bax: Şihabəddin Məhəmməd Nəsəvi. Göstərilən əsəri.

[495]Xanbalıq - Xanlar şəhəri deməkdir. İndiki Pekin şəhərinin ərazisində yerləşirmiş.

[496]Mənku qaan 1251-1260-cı illərdə hakimiyyətdə olmuşdur.

[497]Elxanilər, yaxud Hülakülar sülaləsinin hakimiyyət dövrü: 1256-1363-cü illərdir. Geniş məlumat üçün bax: Социально-экономическая политическая история Азербайджана XIII-XIV вв, Баку, 1956; V. Z. Piriyev. Azərbaycan Hülakülar dövlətinin tənəzzülü dövründə (1316-1360), Bakı, 1978.

[498]I tümən 10.000-ə bərabərdir. Yəni 100000-luq qoşun göndərdi. Şübhəsiz ki, şişirtmə vardır.

[499]Tuğluq Timur 1359-1370-ci illərdə hakimiyyətdə olmuşdur.

[500]Əbdüllətif-Məşhur dövlət xadimi və astronom Uluğ bəyin oğludur. Uluğ bəy 1449-cu ildə Əbdüllətifin göstərişi ilə Abbas adlı bir nəfər tərəfindən öldürülmüşdür.

[501]Kəndi-Badam hazırda Tacikistanın ərazisində yerləşən qədim bir şəhərdir.

[502]Qutluğ Nigar xanım Yunis xanın ikinci qızı, sultan Mahmud və Sultan Əhməd xanın böyük bacıları idi («Baburname», s.19).

[503]«Cameüt-təvarix» də «Borte Fuçin» kimi yazılmışdır (Raşid ad-Din. Сборник летописей. Том II, M-7., 1960, s.64-65).

[504]«Rovzətüs-səfa» da «mənzilini» yazılmışdır (5-ci cild, s.52).

[505]Batu xan 1227-1253-cü illər arasında hakimiyyətdə olmuşdur.

[506]«Cameüt-təvarix»də Batunin İtil çayı kənarında 48 yaşında öldüyü yazılmışdır (Сборник летописей, II том, с 8 ).

[507]Sərtaq 1255-1256-cı illərdə hakimiyyətdə olmuşdur.

[508]Ulaqçi 1256-1257-ci illərdə hakimiyyətdə olmuşdur.

[509]Bərkə (Çingiz xanın üçüncü oğludur) 1257-1267-ci illərdə hakimiyyətdə olmuşdur.

[510]Bərkə xan Terek çayı yaxınlığında vəfat etmişdir (Сбор. Летописей, П. Т., с. 82).

[511]Bulqar - şəhərinin qalıqları Tatarıstan SSR-in Kuybışev rayonunun Bolqar kəndindədir. Moqol istilası, Qızıl Ordanın hakimiyyəti dövründə mühüm siyasi, iqtisadi rol oynamışdır. Geniş məlumat üçün bax: V. L. Eqorov. Историческая география Золотой Орды в XIII-XIV вв., Москва, 1985, с.95-96.

[512]Qazan - Qızıl Ordanın şəhərlərindəndir.

[513]Məşhur dövlət xadimi və «Cameüt-təvarix» adlı tarixi əsərin müəllifi Fəzlüllah Rəşidəddinin (1247-1318) oğludur.

[514]Canıbəy xan hakimiyyəti 1341-1357-ci illərdə idarə etmişdir.

[515]Mövlana Sədəddin Məsud ibn Ömər ibn Abdullah Təftəzani (vəf.1389) məntiq, ərəb dilinin sərf və nəhvi və fəlsəfə və başqa elmlərə aid ərəb dilində çoxlu əsər yazmışdır.

[516]Bosfort «Çimtay» yazmışdır (s.204).

[517]Urus xan hakimiyyəti 1361-1375-ci illərdə idarə etmişdir.

[518]Toqta Qiya hakimiyyəti 1375-ci ildə idarə etmişdir.

[519]Teymur Məlik hakimiyyəti 1375-1376-cı illərdə idarə etmişdir.

[520]Qiyasəddin Toxtamış hakimiyyəti 1376-1395-ci illərdə idarə etmişdir.

[521]Toxtamış 1395-ci ildə Terek sahilində Teymurlənglə olan üçüncü döyüşdə məğlub olmuş və 1406-cı ildə ölmüşdür.

[522]Teymurləng 18 fevral 1405-ci ildə Çinə yürüş edərkən Otrar şəhərində ölmüşdür.

[523]Teymur Qutluq xan 1395-1401-ci illərdə hakimiyyətdə olmuşdur.

[524]Şadibəy xan - hakimiyyəti 1401-1407-ci illərdə idarə etmişdir.

[525]Fulad (Polad) xan - hakimiyyəti 1407-1410-cu illərdə idarə etmişdir.

[526]Teymur sultan - hakimiyyəti 1410-1412-ci illərdə idarə etmişdir.

[527]Cəlaləddin sultan - hakimiyyəti 1412-1412-ci illərdə idarə etmişdir.

[528]Kərimberdi - hakimiyyəti 1412-1414-cü illərdə idarə etmişdir.

[529]Köpək xan - hakimiyyəti 1414-1417-ci illərdə idarə etmişdir.

[530]Cabbarberdi - hakimiyyəti 1417-1419-cu illərdə idarə etmişdir.

[531]Uluğ Məhəmməd xan - hakimiyyəti 1419-1420 və 1427-1433-cü illərdə idarə etmişdir.

[532]Bəraq xan - hakimiyyəti 1422-1427-ci illərdə idarə etmişdir.

[533]Əbülxeyr xan - hakimiyyəti 1429-1468-ci illərdə idarə etmişdir.

[534]Qubilay qaan - hakimiyyəti 1260-1294-cü illərdə idarə etmişdir.

[535]«Cameüt-təvarix»də verilən məlumatla Əbdi bəyin yazdıqlarını ümumiləşdirib belə bir nəticəyə gəlmək olar ki, Qubilay Xanbalıq Pekin-Cunduy şəhərini 1264-cü ildə saldırıb. Qışı orada keçirərmiş. 1271-ci ildə isə onun yaxınlığında Daydu şəhərini saldırmış və orada böyük bir saray tikdirmişdir. Xanbalıq xanlar şəhəri deməkdir.

[536]Çox ehtimal ki, Hind körfəzi, limanı nəzərdə tutulmuşdur.

[537]Futzyan vilayətində olan Teyuan-çjou şəhəri orta əsrlərdə ən böyük limanlardan biri olmuşdur (S. T. II cild, s.175).

[538]Qubilayın saldırdığı şəhər və çəkdirdiyi kanal haqqında geniş məlumat üçün bax: S. T., II cild (rusca tərcüməsi), s. 173-176. («Rovzətüs-səfa»da göstərilir ki, Qubilay Çinin paytaxtı Çəkdunun yaxınlığında Xanbalıq şəhərini saldırır. Hindistan limanından böyük bir kanal çəkdirmişdir. Bu kanalın uzunluğu 40 günlük yol imiş. (Mirxand, «Rovzətüs-səfa», V cild, s.80).

[539]Teymur Ulcaytu hakimiyyəti 1294-1307-ci illərdə idarə etmişdir.

[540]Quran, 40-cı ğafir surəsinin 16-cı ayəsinin ikinci hissəsi. Ayənin bütünlükdə tərcüməsi belədir: «O gündə ki, onlar (məxluqat) qəbirlərindən çıxarlar, onların heç bir işi Allaha gizlin qalmaz. Bu gün hakimiyyət kimindir? Tək və qadir olan Allahındır» (Qurani-kərim və türkcə anlamı, s.469).

[541]Vilayət-Şahlıq, hökmdarlıq.

[542]Hidayət-rəhbərlik edən, doğru yola çağıran.

[543]İrşad-Doğru yol göstərən.

[544]Quran, 10-cu Yunis surəsi, 62-ci ayə.

[545]Quran, 49-cu surə, 13-cü ayə.

[546]Tamğa-Ticarət və istehsal edilən sənətkarlıq malları satılarkən onların üzərinə qoyulan vergi, əsasən pul ilə alınır.

[547]Bac-Orta əsrlərdə ticarət yollarından istifadə olunmaqla mal daşınarkən şəhərin giriş qapısında tacirlərdən alınan vergi.

[548]Savəri-hörmət və ya təbrik məqsədi ilə şahlara, ali rütbəli məmurlara verilən hədiyyələr.

[549]Vücuhat-Nəğd pulla toplanan vergi.

[550]İxracat-Əyalətlərdə olan döyüşçü və dövlət qulluqçuları üçün alınan vergi.

[551]Nozul və nozule-Vergi yığanlar və dövlət məmurları yerlərə getdikdə, əhali onları yer və azuqə ilə təmin etməli idi.

[552]Rəiyyəti-Rəiyyətdən alınan vergi.

[553]Mal-Müxtəlif xüsusi əmlakdan, o cümlədən bağ, zəmi, meşəlik, dəyirman və s.dən alınan vergilər.

[554]Vücuhi-Çerik-Ordunu saxlamaq və təchiz etmək üçün alınan vergi.

[555]Yəni hər kim o vergiləri alsa, Allahın lənətinə gəlsin.

[556]Quran, 2-ci surə, 181-ci ayə.

[557]Xərac-Kənd təsərrüfatı məhsulları və pul ilə ödənilən vergi.

[558]«Kəraim asare» sözləri əbcəd hesabı ilə 978-ə bərabərdir. Çox ehtimal ki, vaxtilə Səid Nəfisi «Kəraim asare» sözlərinin yanında səhv olaraq «979» yazmışdır.

[559]Xəttatın qeydindən məlum olur ki, o əsərin üzünün köçürülməsini 5-15 iyul 1636-cı ildə qurtarmışdır. Biz vaxtilə diqqətsizlik nəticəsi olaraq əsərini üzünün 11 səfər 1042-ci (28 avqust 1632) ildə köçürülüb qurtardığı yazmışıq. (Bax: Ə. H. Rəhimov, Əbdi bəyin «Təkmilətül-əxbar» əsərinin tamamlanma tarixi və yazıldığı yer haqqında, Azərb SSR EA Xəbərləri, (tarix, fəlsəfə və hüquq seriyası 1984. №2, s.67).

## MÜNDƏRİCAT

Müqəddimə

(Xacə Zeynalabidin Əli Əbdi bəy və onun

«Təkmilətül-əxbar» adlı ümumi tarix əsəri).

Üçüncü səhifə. On iki imamlı yüksək cəlallı

Səfəvi şahları haqqında - Onların hakimiyyəti əbədi olsun

Zeyl (əlavə)

Xatimə (sonluq)

Ədəbiyyat izahlar və qeydlər

İB №

**Əbdi bəy Şirazi**

# TƏKMİLƏTÜL-ƏXBAR

(Səfəvi dövrü – Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi)

**Nəşriyyat redaktoru:** V. Əliyev
**Rəssamı:** V. Ustinov
**Texniki redaktoru:** T. Ağayev
**Korrektoru:** Ə. Ələkbərov

Fotoyığıma verilmiş 25.11.92. Çapa imzalanmış 07.02.94. Kağız Formatı 84x108 1/32 Mətbəə kağızı №1. Şrifti tip-tayms. Ofset çap üsulu. Şərti çap vərəqi 10,50. Rəngli şərti ç/v 10,50. Hes. nəşriyyat vərəqi 11,37. Tirajı 400. Sifariş 7400. Qiyməti müqavilə ilə

«Elm» nəşriyyatı

370143, Bakı-143, Hüseyn Cavid pospekti, 31.
Akademiya şəhərsiyi. Əsas bina.
370146 Bakı-146, Mətbuat prospekti, 529-cu məhəllə.
«Azərbaycan» nəşriyatının mətbəəsi.